# İLHAM ƏLİYEV:

## İQTİBASLAR VƏ TƏHLİL

"AZƏRBAYCAN"
NƏŞRİYYATI

İ29(06)

# İLHAM ƏLİYEV:
## İqtibaslar və təhlil

Elmi redaktor və ön sözün müəllifi,
fəlsəfə elmləri doktoru, professor
**Ramiz Mehdiyev**

Tərtib edənlər:

Elnur Aslanov
Fərhad Məmmədov
Ceyhun Osmanlı

Dizayn:
Elgün Məmmədov

İ(29)06 İlham Əliyev:
İqtibaslar və təhlil
- Bakı, "Azərbaycan" nəşriyyatı, 2006.-328 s.

İ 4804000000-029(06) / M 670(07)-2006

İSBN-9952-33-007-3

© Ramiz Mehdiyev, 2006.

"Azərbaycan" nəşriyyatının
mətbəəsində çap edilmişdir.
Sifariş 4131. Az 1073 Bakı,
Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99 412) 438 00 10.
Faks: (99 412) 497 69 83.
E-mail: azerbneshr@azerin.com

## MÜNDƏRİCAT

**Ramiz Mehdiyev.** Ön söz ........ 5

I. HEYDƏR ƏLİYEV – MÜASİR AZƏRBAYCANIN QURUCUSU! ........ 25

II. SƏMƏRƏLİ DÖVLƏTÇİLİK - DEMOKRATİK İNKİŞAF ........ 35

**Əli Həsənov.** Səmərəli dövlətçilik - demokratik inkişaf ........ 63

III. AZƏRBAYCAN İQTİSADİYYATI – YENİ İNKİŞAF MƏRHƏLƏSİ ........ 73

**Azər Əmiraslanov.** Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində ........ 89

IV. QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN ........ 117

**Novruz Məmmədov.** Qloballaşan dünyada Azərbaycanın hücum xarakterli praqmatik xarici siyasət kursu ........ 144

V. SİLAHLI QÜVVƏLƏR ........ 165

**Ziyafət Əsgərov.** Azərbaycan Respublikasının Silahlı Qüvvələri suverenliyimizin təminatçısıdır ........ 173

VI. QARABAĞ ........ 187

**Mübariz Qurbanlı.** Dağlıq Qarabağ münaqişəsi: Prezident İlham Əliyevin hücumçu diplomatik xətti ........ 207

VII. REGİONAL İQTİSADİ SİYASƏT – DAVAMLI İNKİŞAF ........ 215

**Ziyad Səmədzadə.** Regionların davamlı inkişafı: uğurlar və perspektivlər ........ 227

VIII. ÜNVANLI SOSİAL SİYASƏT – TARAZLI İNKİŞAF ........ 245

**Fizuli Ələkbərov.** Güclü dövlətin yeni sosial siyasəti ........ 262

IX. MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR ........ 275

**Rəbiyyət Aslanova.** Milli varlığın əbədiliyi, mənəvi dəyərlərin varlığı, əbədiyaşarlığı qədərdir ........ 292

X. YENİLƏŞƏN AZƏRBAYCAN ........ 309

**Səlahəddin Xəlilov.** Peşəkar dövlət idarəçiliyi və yeniləşən Azərbaycan ........ 319

**RAMİZ MEHDİYEV,**
Azərbaycan Respublikası Prezidenti
İcra Aparatının rəhbəri,həqiqi dövlət müşaviri,
fəlsəfə elmləri doktoru, professor

# Ön söz

*"Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".*

**İlham ƏLİYEV**

Tarixin bütün dövrlərində dövlətin idarə olunmasına, cəmiyyətdə insanlar arasında nizamın təmin edilməsinə, həm də bu proseslərin inkişaf və yüksəliş məramına xidmət etməsinə obyektiv zərurət mövcud olmuşdur. Hər bir ölkənin dirçəliş və tərəqqi yoluna çıxması, tarix salnaməsindəki şanlı səhifələr, zəfər və qələbələr onun qismətinə düşən dahi şəxsiyyətlərin, siyasi liderlərin yaradıcı fəaliyyəti ilə mütənasib surətdə bağlı olmuşdur. Dövlətin taleyində həlledici rol oynamış lider şəxsiyyətlərin müxtəlif səbəblər üzündən öz missiyalarını başa vurmaları təbii narahatlıq, nigaranlıq hissləri doğurmuş, onların layiqli davamçılarının olmadığı təqdirdə isə hər hansı xalqın, millətin həyatında sonu görünməyən faciələrin başlanğıcı qoyulmuşdur.

2003-cü ildə Azərbaycan xalqı bütövlükdə həm cəmiyyətin və dövlətin taleyində kədər yükü və "ayrılıq" sözünün ifadə etdiyi təsəvvüredilməz ağrı ilə, həm də real həqiqətlə üz-üzə qaldı. Məhz elə buna görə də hər bir Azərbaycan vətəndaşı hadisələrin gedişində zəka və əməl potensialını səfərbər edərək qərarını verdi. Elə hər birimizi daxilən göynədən bu ağrı və acı həqiqət də bizi ötüb keçənlərə, yaşadığımız anlara bir daha yenidən baxmağa, bütün qüvvələrimizi böyük öndərimizin ümidlərini doğrultmağa sövq edən bir qüvvəyə çevrildi. Ulu öndərin yoxluğunu milli faciə kimi qəbul etdiyi üçün hər bir vətənsevər öz inamını, sabahını milli firavanlığın təminatçısı olacaq Heydər Əliyev kursunun davamçısına etibar etdi. 2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində, tarixdə demək olar ki, ilk dəfə dövlətçilik ənənəsi və siyasətdə varislik prinsipinin qorunması ilə Azərbaycan tarixində ardıcıl inkişafı təmin edən tellərin qırılmasına yol verilmədi.

Azərbaycan adlı binanın özülü üzərində möhtəşəm quruculuq işlərinin davamı mümkün oldu. Regionda toqquşan geosiyasi maraqların şiddətləndirdiyi küləklər müstəqillik məşəlini söndürə bilmədi.

Azərbaycan dövlətçiliyi tarix boyu məhz belə dönəmlərdə təhlükə ilə üz-üzə qalmış, zamanın irəli sürdüyü strateji çağırışlara vaxtında cavab verə bilmək tələbini reallaşdırmağa mane olan qüvvələr öz istəklərinə nail olmuşlar. Dövlətçiliyimizə qarşı yönələn qüvvələrin üstün gəlməsini müxtəlif dövrlərdə müxtəlif amillər şərtləndirmişdir. Onların içərisində ən başlıcası əlbəttə ki, qüdrətli siyasi lider, rəhbər amili, daha doğrusu, bu amilin yoxluğu olmuşdur.

2003-cü ilin 15 oktyabr prezident seçkilərində Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real nüfuza və gücə malik, dünyada cərəyan edən





prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycanın Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasını rəhbər tutan İlham Əliyevin Prezident seçilməsi ilə tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Dövlətçiliyimizin inkişafında tarixi və strateji irsin davamlı məcraya yönəlməsi, inkişaf pillələrini əlaqələndirən həlqələrin, təcrübə və ənənənin varislik və yenilik aspektləri ilə zənginləşməsi prosesinə təkan verildi. Azərbaycan dövləti müstəqil inkişafın növbəti həlledici mərhələsinə qədəm qoydu.

Dövlətçilik ənənəsində, siyasətdə varisliyə dair tarixi reallıqdan çoxsaylı nümunələr, paralellər gətirmək olar. Hər bir xalqın tarixində onun dünya səhnəsindən yox olmaq təhlükəsi də, fenomen siyasi liderin əzmi nəticəsində bu təhlükəyə qalib gələrək öz varlığını qoruyub saxlaması məqamları da kifayət qədər olmuşdur. Azərbaycan da bu baxımdan istisna təşkil etmir.

2003-cü il Azərbaycanda inkişaf strategiyasının həyata keçirilməsində yeni dönüş mərhələsi kimi qiymətləndirilir. Burada "yeni" sözünün ifadə etdiyi mənanın mahiyyəti hələ sonadək dərk edilməmişdir.

Əlbəttə ki, "yeni" və yaxud "yenilik" yalnız söz deyil, arxasında əməli fəaliyyətin, möhtəşəm dəyişikliklərin durduğu strateji inkişaf mərhələsidir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf xətti çoxşaxəli, konkret tarixi dövrlərə uyğun olan mərhələli konseptual fəaliyyət proqramı kimi üzvi bağlılıq təşkil edir. Azərbaycanda müstəqil və hüquqi dövlətin, demokratik vətəndaş cəmiyyətinin təməlinin qoyulması, ölkənin bütün sahələrində qlobal sistemli transformasiyaların tələblərinə uyğun islahatların aparılması, dünya miqyasında beynəlxalq münasibətlərin bərabərhüquqlu subyekti kimi tanınması, regionun lider dövlətləri səviyyəsinə qalxması milli dövlətçiliyin

inkişafında BİRİNCİ STRATEJİ FƏALİYYƏT MƏRHƏLƏSİ kimi səciyyələndirilə bilər.

2003-cü ildə xalqın etimadı və dəstəyi ilə Prezident İlham Əliyevin dövlət rəhbərliyinə gəlməsindən etibarən ulu öndərin müəyyənləşdirdiyi milli strategiyanın növbəti konseptual mərhələsinin başlandığı gerçəklikdir.

Yaddan çıxarmayaq ki, zaman mərhələ anlayışının özünə də bu gün çox ciddi dəyişikliklər edibdir. Keçmişdə uzun tarixi dövr ərzində baş verən hadisələr bu gün 3-5 illik bir mərhələni əhatə edir. Cəmiyyət ən qısa zaman ərzində nə qədər möhtəşəm vəzifələr reallaşdıra bilirsə, yüksəliş o qədər də sürətlə baş verir.

Dar zaman çərçivəsində əhatəmizdə yeni maraqlar baxımından formalaşan yeni dünya nizamı, bəlkə də nizamsızlığı milli dövlətlərin öz suverenliyini qoruyub saxlamasını daha da mürəkkəbləşdirir. Bu gün beynəlxalq aləmdə milli dövlətlərin münasibətləri yeni mühitdə formalaşır. Böyük dövlət, kiçik dövlət, sərhəd anlayışlarının da məzmunu dəyişir, qüdrəti məkanla deyil, zamanla ölçülən dövlətlər sırasına daxil olma tarixi zərurətə çevrilir. Dövlətlərin qüdrəti onun zəka mühitinin formalaşması, yüksək texnologiyalardan istifadəsi, xalqın mənafeyinə uyğun siyasət yeridilməsi ilə ölçülür. Bu baxımdan, doğrudan da, yeni mərhələ olduqca çətindir və mürəkkəb inkişaf istiqamətlərinin toplusuna çevrilir.

"Yenilik" bəhs olunan mərhələdə ölkənin sonrakı varlığını, perspektivini təmin etmək üçün mütləq zamanın və konkret yaşanılan dövrün tələblərinə adekvat tərzdə yeniləşə bilmək həqiqətidir. Bu qlobal inkişafın imperativ amilidir. Tarix boyu dəfələrlə ölkələrin təkamül təcrübəsində sınanılmış həqiqətdir. Həyatda lokal və qlobal əhatədə gedən proseslər hər dəqiqə siyasi qərarlar verilməsini, dəyişikliklərin dinamik, çevik qərarlar üzərində qurulmasını diktə edir. Bu isə özlüyündə hansı vasitə, taktiki gedişlərin və idarəçilik metodlarının tətbiq olunmasını problematik məsələyə çevirir.





Yeni strateji hədəflərin müəyyənləşməsi və adekvat qərarlar qəbul edilməsi hər kəsə müyəssər olmayan, yalnız yeni dövrün tarixi missiyasını qəlbən duyan liderə nəsib olur. Yeni tipli lider perspektivi tam bəlli olmayan dünyada çoxsaylı mürəkkəb hadisələrin inkişaf dinamikasının sürətlənməsi şəraitində sosial, siyasi-iqtisadi, hüquqi və mədəni sahələrdə düzgün qərar qəbuletmə məsuliyyəti ilə seçilir.

Hakimiyyətə təsadüfən gələn, əvvəlkindən fərqli siyasi abhavanı duymayan, strateji təfəkkürünün son dərəcə darlığı, məhdudluğu fonunda populist taktiki hərəkətlər "bolluğu" ilə fəallıq görüntüsünə ümid edənlər tarixdə heç vaxt zamanın nəbzini tuta bilən "Yeni lider" səviyyəsinə qalxa bilməmişlər.

Müasir elitologiya elmi "ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə" malik olan seçilmiş insanların – elitanın formalaşması və idarəetmədə uğurlara nail olmasını təmin edən şərtlərə yeni düzəlişlər etmişdir. Siyasi lider tiplərinin – rasional, ənənəvi, xarizmatik sırasına daha biri: intellektual-texnokratik potensiala malik, yeniliklərə həssaslıq göstərən inteqral keyfiyyətləri özündə cəmləyən siyasi lider tipi də əlavə olunmuş, daha doğrusu, bu qisim liderlər ön sıraya çıxmışdır. Buraya: intellektual imkanlar və siyasi istedad, siyasi ideal və prinsiplərə sadiqlik, cəmiyyətlə birgə olmaq, yüksək siyasi mədəniyyət, novatorluq fəhmi və s. aid edilir.

İlham Əliyevin yeni siyasi lider kimi ictimai rəydə yekdilliklə qəbul edilən imicinin obyektiv təməllərdən qaynaqlandığı, xalqla onun arasındakı qarşılıqlı inamın sarsılmaz tellərlə bağlı olduğu diqqəti cəlb edir. Prezidenti dəstəkləyən, ona dərin inam bəsləyənlər arasında coğrafi, milli, yaxud da

yaş hüdudları mövcud deyildir. Öz ətrafında ölkənin bütün bölgələrindən, müxtəlif yaş qruplarından olan insanları birləşdirə bilən siyasi lider olmaq kimi nadir keyfiyyət İlham Əliyevi səciyyələndirən xüsusiyyətdir.

Azərbaycan dövlətçiliyinin inkişafında yeni qələbələrin rəhni olan mərhələyə qədəm qoyması həm də Prezidentin hər cür stereotiplərdən uzaq, sadə və xeyirxah insan olmasında, səmimi həyat xəttinə sadiq qalmasında özünü göstərir.

Azərbaycanda demokratik, vətəndaş cəmiyyətinin qurulması istiqamətində səmərəli dövlət siyasətinin uğurla davam etdirilməsində İlham Əliyevin nailiyyətlərini təmin edən obyektiv amillərlə yanaşı, onun şəxsi-subyektiv liderlik keyfiyyətləri nəinki inkaredilməzdir, hətta mən deyərdim ki, əsas faktordur. O, milli ənənələrə, dövlətçilik prinsiplərinə sadiq olan, eyni zamanda XXI yüzilin müasir siyasi məkanına uğurla köklənən, ən müxtəlif siyasi keyfiyyət və dəyərləri özündə sintez etməyi bacaran dövlət xadimidir.

2003-cü ildən etibarən İlham Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siması, atributu kimi qəbul edilir. Ulu öndərin zəngin və tükənməz siyasi irsinə, xalqımızın iradəsinə söykənən İlham Əliyev ötən üç ildə peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu lider kimi ölkədə və xaricdə özünü təsdiq etdı.

Dövlətin inkişafında o qədər də böyük hesab edilməyən zaman ərzində, 2003-cü ildən bəri davam edən dövrdə Prezident İlham Əliyevin başçılığı ilə əldə edilən uğurlar nəticəsində Azərbaycan dünyanın siyasi məkanında sanballı yer tutub.

Təqdim olunan kitabda Azərbaycanda üçillik zaman kəsiyində aparılan analoqu olmayan quruculuq işlərinin konkret nəticələrinə və perspektivlərinə dair müxtəlif istiqamətləri əhatə edən təhlil və şərhlər əksini tapmışdır. Bu istiqamətlər bütövlükdə Azərbaycanda son illər baş verən dinamik dəyişikliklərin canlı mənzərəsini üzvi vəhdətdə tamamlayır, Azərbaycanın yüksəlişinin inteqral dinamikasını nümayiş etdirir.

Azərbaycan dövləti artıq ikinci onillikdir ki, müasir cəmiyyətə, demokratik dəyər və prinsiplərə keçid kursunu ardıcıl yerinə yetirir. Bu baxımdan Azərbaycan dövlətinin əsas məqsədi demokratik cəmiyyətin qurulmasını təmin edən dinamik transformasiyaları mümkün qədər tez, qısa zaman ərzində reallaşdırmaqdır. Azərbaycan üçün demokratik, vətəndaş cəmiyyəti seçimi - yalnız siyasi seçim deyil, həm də ümumbəşəri, fundamental dəyərlərin seçimi deməkdir və dövlətimizin milli maraqlarına xidmət edir.

Ölkə Prezidentinin dövlətçiliyin möhkəmləndirilməsi və qanunçuluğun bərqərar edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunu yeni dövrün tələblərinə uyğun davam etdirməsini göstərən amillər çoxdur. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması kimi tarixi hadisənin təməli artıq qoyulmuşdur. Vətəndaş cəmiyyəti sadəcə müəyyən hüquqi mexanizmin, qeyri-hökumət və s. qurumların yaradılması deyil, hər şeydən əvvəl vətəndaş-dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur, dövlət-vətəndaş ünsiyyətinin baş verdiyi məkandır. Prezident İlham Əliyev hələ andiçmə mərasimində, 2003-cü il oktyabrın 31-də demişdir: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının prezidentiyəm. Mənim borcumdur ki, hər bir vətəndaş inkişafı, irəliləyişi görsün və onu hiss etsin".

İqtisadiyyat bütün dövrlərdə hər bir ölkənin yüksəlişini təmin edən dayaqlardan biri olmuşdur. Müasir qloballaşma dövründə iqtisadi maraqlar dünyanın simasını kökündən də-

yişən ciddi amilə çevrilmişdir. Azərbaycanın gələcəyi iqtisadi amillərlə birbaşa bağlıdır.

2003-2006-cı illər ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə səciyyələnir və Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan bu uğurları isə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, islahatların ardıcıl həyata keçirilməsi, iqtisadi inkişafda yeni hədəflərin müəyyən edilməsi və cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması, sosial siyasətə vaxtında korrektivlər edilməsi, dövlətin maliyyə imkanlarının artması, regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi təmin etmişdir. Artıq prezident seçkilərindən keçən üç il ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri həm də özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Yüksək və davamlı iqtisadi artım tempinin təmin edilməsi iqtisadi inkişafda yeni mərhələnin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirilməlidir. 2003-2006-cı illərdə ÜDM-in həcmi 2,5 dəfə artmışdır. Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən hazırlanan hesabatlarda Azərbaycanda iqtisadi artım tempinin dünyada rekord səviyyəyə çatdığı qeyd edilir. Belə ki, 2005-ci ildə ÜDM-in həcmi 26,4 faiz artdığı halda, 2006-cı ilin sonuna bu göstəricinin 32 faizə çatacağı gözlənilir.

Azərbaycan iqtisadiyyatının digər xarakterik xüsusiyyətlərindən biri investisiya fəallığının yüksək olması ilə bağlıdır. 2005-ci ildə bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşları 15,7 faiz artaraq 7,1 mlrd. ABŞ dolları təşkil etmişdir. 2006-cı ildə isə onun 8,6 mlrd. ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Ümumilikdə, son 10 ildə Azərbaycan iqtisadiyyatına 25 milyard ABŞ dollarından çox investisiya cəlb edilmişdir.





Azərbaycanda neft strategiyası da uğurla həyata keçirilməkdədir. Heydər Əliyevin adını daşıyan, onun təşəbbüsü ilə təməli qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri artıq istifadəyə verilmişdir. Bu tarixi hadisə İlham Əliyevin prezidentliyi dövründə diplomatiyamızın və iqtisadi siyasətimizin mühüm uğurlarından biri kimi qiymətləndirilməlidir. Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması Azərbaycanı beynəlxalq əhəmiyyətə malik strateji iqtisadi layihələrin həyata keçirildiyi regional mərkəzə çevirməklə yanaşı, həm də onun regionda geostrateji mövqeyini daha da gücləndirməkdədir. 1 barrel neftin qiyməti 35 ABŞ dolları olduğu təqdirdə qarşıdakı 20 il ərzində Azərbaycanın əldə edəcəyi neft gəlirlərinin 140 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir.

İlbəil artmaqda olan dövlət büdcəsi ölkə iqtisadiyyatında müşahidə olunan mütərəqqi dəyişiklikləri çox aydın şəkildə özündə əks etdirir. 2006-cı ildə 3,9 milyard manat proqnozlaşdırılan büdcə gəlirləri 40 faiz artaraq 2007-ci ildə 5,4 mlrd. manata çatacaq. Müqayisə üçün qeyd edək ki, 2006-cı ildə büdcə gəlirləri təxminən 2 dəfə artmışdır. Ümumiyyətlə, 2003-2006-cı illərdə büdcə mədaxilinin orta illik artım tempi 46 faiz təşkil edir. Büdcə gəlirlərinin davamlı artımı bütün istiqamətlər üzrə, o cümlədən hərbi sahədə xərclərimizi artırmaq imkanı verir. Bununla belə, dövlət büdcəsi sosial və investisiya yönümlü olması ilə xarakterizə olunur.

Azərbaycanın strateji valyuta ehtiyatları 2006-cı il oktyabrın 1-nə olan məlumata görə 3090 milyon ABŞ dolları təşkil edir. Bu ehtiyatların 1521 mln. ABŞ dolları Milli Bankın, 1569 mln. ABŞ dolları isə Dövlət Neft Fondunun payına düşür. Valyuta ehtiyatları 9 aylıq idxalın həcminə bərabərdir. Halbuki maliyyə təhlükəsizliyi üçün 3 aylıq idxal səviyyəsində valyuta ehtiyatı tamamilə kifayət edir.

Bir tərəfdən büdcə vəsaitlərinin, digər tərəfdən də valyuta ehtiyatlarımızın böyük həcmdə artması Azərbaycanın kredit qabiliyyətli ölkə kimi mövqeyini daha da möhkəmləndirir. Hazırda ölkəmizin xarici borcu 1806 mln. ABŞ dollarına bərabərdir ki, bu da ÜDM-in 9,6 faizini təşkil edir. Qeyd edək ki, iqtisadi təhlükəyə səbəb olan kritik hədd 40 faizdir.

Ölkə başçısı neft gəlirlərinin əhəmiyyətli dərəcədə artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən ciddi inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Fərman imzalamışdır. Bu fərman əslində Azərbaycan iqtisadiyyatının başlanmaqda olan "neft bumu" mərhələsinə hazırlanması məqsədini güdür. Artıq fərman çərçivəsində həyata keçirilən antiinflyasiya tədbirləri nəticəsində ölkədə inflyasiya səviyyəsinin ikirəqəmli həddə çatmasına imkan verilməmişdir.

İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun iqtisadi inkişafda rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu sektorun payı ÜDM-də 77 faizə, sənaye məhsulu istehsalında 69 faizə, məşğulluqda 70 faizə çatır. Özəl sektorun dövlət tərəfindən dəstəklənməsi məqsədilə sahibkarlıq, o cümlədən kənd təsərrüfatı üçün büdcədən ayrılan güzəştli kreditlər ilbəil artmaqdadır.

Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun da fəaliyyətində canlanma hiss olunur. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə başçısının təşəbbüsü ilə Dövlət İnvestisiya Şirkətinin yaradılması da qeyri-neft sektorunun inkişaf etdirilməsinə xidmət edir.





Prezident səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdə İlham Əliyev əvvəlcə ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı imzaladı, az sonra isə davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər)"nı təsdiq etdi. Sosial, iqtisadi və institusional bloklar üzrə genişmiqyaslı konkret tədbirləri nəzərdə tutan regional inkişaf proqramı hazırda uğurla icra edilir.

Azərbaycanda iqtisadi inkişaf bazar iqtisadiyyatı prinsiplərinə əsaslansa da, o həm də sosial ədalət prinsipi ilə tamamlanır. Yeni pensiya sisteminə keçid, ünvanlı sosial yardımların tətbiqi, ipoteka kreditlərinin verilməsi, sosial təyinatlı büdcə xərclərinin artırılması dövlətin sosial siyasətində yeni keyfiyyət dəyişikliklərini əks etdirir. Ümumiyyətlə, iqtisadi sahədə əldə edilən uğurlar, artmaqda olan maliyyə imkanları sosial inkişaf meyillərinin dərinləşməsinə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaratmaqdadır. 2005-ci ildə əhalinin pul gəlirləri 27 faiz, orta aylıq əməkhaqqı 22 faiz artmışdır. 9,6 faizlik inflyasiya şəraitində real gəlirlərin artım tempi 17,4 faiz təşkil etmişdir. İqtisadi siyasətlə sosial siyasətin daha sıx əlaqələndirilməsi nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2004-cü ildəki 40 faizdən 2005-ci ildə 29 faizə enmişdir. Bir çox ölkələr 2015-ci ilədək yoxsulluq səviyyəsini 2 dəfə azaltmağı hədəf kimi seçdiyi halda, Azərbaycan qarşıdakı 5 il ərzində dünyanın ən aşağı yoxsulluq səviyyəsinə malik ölkələrindən biri olacaq.

Məşğulluğun təmin olunması istiqamətində görülən işlər də uğurla davam etdirilir. 2006-cı ilin 9 ayının nəticələrinə əsasən ölkədə 500 min yeni iş yeri açılmışdır. Bu isə ölkə başçısının 5 il ərzində 600 min iş yerinin açılması ilə bağlı hökumət

qarşısında qoyduğu vəzifənin tamamilə reallaşacağından xəbər verir.

Azərbaycanda sosial-iqtisadi sahədə görülən genişmiqyaslı işlər həm də mövcud infrastrukturun bərpası və yeni obyektlərin tikintisi ilə tamamlanmaqdadır. Hazırda yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində intensiv işlər görülməkdədir. Məktəb və xəstəxanaların, idman komplekslərinin tikintisi ardıcıl şəkildə həyata keçirilir və bütün bölgələri əhatə edir.

Bu gün İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün əlverişli imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü dinamik inkişaf tempi onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr siyahısına daxil edəcək.

Azərbaycanın əhəmiyyətli geostrateji mövqeyi, zəngin təbii sərvətləri qlobal iqtisadiyyatın da diqqət mərkəzinə gəlmişdir. Dövlətimiz bu diqqət və əməkdaşlıq səylərini ciddi götür-qoy edir, beynəlxalq enerji layihələrinin reallaşmasında əlverişli mövqe tutmağa səy göstərir. Ulu öndərin imzaladığı "Əsrin müqaviləsi" bu il yeni mərhələyə qədəm qoydu. H.Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istifadəyə verilməsilə əfsanə hesab olunan arzular gerçəkləşdi. Boru kəmərinin açılışı ərəfəsində Prezident İlham Əliyevin "Avrasiyada ilin siyasət adamı" elan edilməsi dərin mənaya malikdir. "Əsrin müqaviləsi"nin memarı Heydər Əliyev, onun qlobal nəqliyyat arteriyası kimi reallığa çevrilməsinin, Azərbaycana regionda strateji tərəfdaş statusunun qazanmasının təminatçısı İlham Əliyev olmuşdur" – bu dünya kütləvi informasiya vasitələrinin gəldiyi ümumi qənaət və etiraf idi. Həmçinin 2005-ci ildə Azərbaycanın regionda və dünyada ən dinamik inkişaf edən ölkə olması da vurğulanmışdır.





Sosial-iqtisadi inkişaf, iqtisadi islahatların həyata keçirilməsi, bu sahədə davamlı irəliləyiş meyillərinin yaranmasını mümkün edən fəaliyyətin məzmunu o qədər çoxşaxəli və zəngindir ki, buradakı tədbirlərin sadəcə sadalanması xeyli vaxt aparardı. Belə bir faktı vurğulamaq kifayətdir ki, prezident seçildikdən sonra İlham Əliyevin üç il ərzində bilavasitə iqtisadiyyatla bağlı imzaladığı fərmanlar iqtisadi inkişafın strateji istiqamətlərini və əsas hədəflərini müəyyən edərək, köklü iqtisadi dəyişikliklərə təkan verdi.

Azərbaycanın güclü dövlət kimi dünya təsərrüfat sisteminə inteqrasiyası yolunda irimiqyaslı proqram və layihələrin həyata keçirilməsi, dinamik xarici iqtisadi, maliyyə, sosial, demoqrafik, ekoloji və s. siyasətin yürüdülməsi, neft və qeyri-neft sektoruna investisiyaların cəlb olunması irimiqyaslı vəzifələrin sırasına daxildir. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" - Prezident İlham Əliyevin bu sözləri aparılan siyasətin ana xəttini çox gözəl ifadə edir. Bazar iqtisadiyyatının inkişafında "sosial ədalət prinsipinə əməl edilməsi" müddəası isə bütün proseslərin insanların rifahına yönəldiyini aşkar göstərir.

Azərbaycanda milli ordu quruculuğunun möhkəmləndirilməsi, dövlətin hərbi potensialının gücləndirilməsi də bəhs olunan dövr üçün prioritet hədəflərdən biri olmuşdur. Ali Baş Komandan Azərbaycanın silahlı qüvvələrinə ayrılan maliyyə vəsaitinin artırılması, Hərbi-Sənaye Nazirliyinin yaradılması, peşəkar hərbçi kadrların yetişdirilməsi və s. barədə müstəsna qərarlar qəbul etmişdir. Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün ordunun daha da gücləndirilməsi, ölkənin müdafiə qüdrətinin təkmilləşdirilməsi, silahlı qüvvələrdə ardıcıl islahatların aparılması və s.

məsələlər ölkənin hərbi doktrinasının vacib istiqamətləri kimi qəbul edilməlidir.

Milli ordunun qüvvətlənməsi naminə həyata keçirilən siyasət, bütün sahələrdə olduğu kimi, Prezident tərəfindən xüsusi diqqət və qayğı ilə davam etdirilir. Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapması, işğal olunmuş ərazilərdə terrorist təşkilatların ləğv edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması məsələləri Prezident İlham Əliyevin istisna olmadan bütün çıxış və nitqlərində birinci sırada yer alır. Son üç il ərzində istər xalqımız, istərsə də beynəlxalq ictimaiyyət Ermənistanın işğalçı simasının daha qətiyyətlə ifşa olunmasının, Azərbaycanın ərazi bütövlüyünə qəsd edənlərin hər hansı başqa fikir və variantlara bəslədiyi ümidin alt-üst edildiyinin, dövlətimizin beynəlxalq tribunalarda işğalçının cəzalandırılması istiqamətində daha sərt və kəskin mövqe tutduğunun şahidi olmuşdur. Prezidentin: "Hamı başa düşməlidir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəyik" və s. kimi birmənalı bəyanatları, müasir dövrdə etnik separatizmin və terrorizmin qoşa addımladığını, bütün dünya üçün təhlükə mənbəyi olduğunu açıq göstərir və bu kimi hadisələrə münasibətin də son dərəcə aydın nümayiş etdirilməsi tələbini qətiyyətlə irəli sürür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətin dünyaya çatdırılması, yalan və iftira üzərində qurulmuş informasiya blokadasının aradan qaldırılması prioritet vəzifələr sırasına daxil edilmişdir. İşğalçılıq siyasəti nəticəsində regionda baş verən bütün mühüm layihələrdən kənarda qalmış Ermənistan işğal altında olan torpaqların yandırılması, buradakı tarixi abidələrin yerlə-yeksan edilməsi





ilə öz acınacaqlı vəziyyətini daha da dərinləşdirir. Azərbaycan bu proseslərdə beynəlxalq ictimai rəyin pozitiv surətdə dəyişməsi və onun dəstəyinin qazanılması üçün üstünlük əldə edir. İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin Bakıda keçirilən 33-cü sessiyasında (19-21 iyun, 2006-cı il) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diqqət mərkəzində olmuş, sessiyanın yekun bəyannaməsində ayrıca maddədə əksini tapmışdır. İşğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının tez bir zamanda çıxarılması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi İKT üzvü olan dövlətlər tərəfindən yekdilliklə dəstəklənmişdir.

Ermənistanın beynəlxalq hüquq normalarına tam etinasızlıq göstərən, təcavüzkar dövlət kimi terrorizmə və separatizmə rəvac verən, insan hüquqlarını kobud surətdə pozan dövlət kimi iç üzünün və həqiqi simasının tanıdılması prosesi intensiv davam edir.

Heç şübhə yoxdur ki, müasir qloballaşma dövründə Azərbaycanın daxili və xarici siyasəti dünya inkişafının bu başlıca meylini nəzərə alaraq həyata keçirilməlidir. "Yeniliklərə həssaslıq, yeni dövrün lideri" anlayışlarının mənası məhz qloballıq kontekstində daha aşkar görünür. Müxtəlif dövlətlərin geosiyasi maraqlarının qovuşduğu məkanda yerləşən Azərbaycanda dövlət başçısı milli maraqlardan çıxış edərək öz siyasətini müasir tələblər səviyyəsində, çevik prinsiplər üzərində qurur.

Milli inkişaf xətti qloballaşma dövründə əvvəlki – ənənəvi mənadan daha geniş müstəviyə keçid alır, başqa sözlə, qlobal kontekstli milli doktrina məzmunu kəsb edir; qlobal və milli aspektlərin koordinasiyası, balanslaşdırılması, proseslərə fəal qoşulmaqla strateji təşəbbüsün əldə olunması, dünya birliyinə Azərbaycan üçün maksimal əlverişli şərtlərlə inteqrasiyanın

təmin olunması üzvi bağlılıq təşkil edir. Prezident İlham Əliyev öz siyasətində dünyada qlobal oyun qaydalarının dəyişməsi prosesində, dövlətçiliyin maraqları ilə dünyanın magistral inkişaf meyilləri arasında zəruri balansın əldə edilməsinə nail ola bilmişdir. Geosiyasi mövqedən irəli gələn əlverişli amil və üstünlükləri reallaşdırmaqla, qloballaşmanın verdiyi nadir tarixi fürsəti əldən verməmək, dinamik realizm və siyasi praqmatizmin optimal sintezini təmin etmək, qlobal layihələrdə Azərbaycanın statusunu möhkəmləndirmək yeni siyasi manevrlərin tam olmayan sırasıdır. Qloballaşan dünyada Azərbaycan öz siyasi dəst-xətti olan suveren milli dövlət və müstəqil subyekt qismində çıxış edir. Qloballaşma və dünya birliyinə inteqrasiya, milli inkişafın fövqündə duran, ayrıca məqsəd kimi qəbul edilmir.

Prezidentin fəaliyyətində Azərbaycan dövlətinin möhkəmlənməsini təmin edən obyektiv və subyektiv imkanlardan istifadə edilməsi, məhz bu mənada başa düşülən qloballaşma özü də strateji bir xətt və məqsəddir. Qloballaşma prosesinə ya qoşulmaq, ya da kənarda qalmaq imkanları mövcuddur. Üçüncü yol mövcud deyil. Müasir dövrdə özünütəcrid siyasətinin perspektivsizliyi birmənalıdır. Qloballaşmanın tələbləri ilk növbədə onlara düzgün cavablar verilməsini və əsaslandırılmış qərarlar qəbul edilməsini zəruri edir.

Son üç ildə qəbul olunmuş qərarların təhlili, onların gerçək nəticələri Azərbaycan Respublikası Prezidentinin mövcud reallığa öz düşünülmüş mövqe və münasibətinin olduğunu bir daha sübut edir. Azərbaycanı dünyaya bağlayan iqtisadi, siyasi, hüquqi və s. tellər daha da möhkəmlənir. "Azərbaycanın beynəlxalq nüfuzu, bizə qarşı hörmət artır, bu reallıqdır. Bu gün Azərbaycan regionda ən yüksək mövqelərə malik olan bir ölkədir". (İlham Əliyev)





Azərbaycan xalqı böyük, qədim bir mənəvi irsin, sərvətin sahibidir. Azərbaycanın müstəqillik tarixi onun öz milli-mənəvi dəyərlərinə qayıdışı, onların ümumbəşəri dəyərlərlə ahəngdar sintezi və inkişaf etdirilməsi tarixi olmuşdur. Əsrlərdən və nəsillərdən miras qalmış milli dəyərlərimizin əhəmiyyəti qloballaşan dünyada təsəvvürəgəlməz dərəcədə artmışdır. Başqa sözlə, mənəvi dəyərlər hər bir ölkənin varlığı və simasını bəlli edən əvəzsiz atribut qismində çıxış edir. "İnsan mənəviyyat üçün yaşamalıdır" deyən ulu öndərimizin mənəvi dəyərlərlə bağlı verdiyi 2001-ci il 13 avqust tarixli bəyanatı bu istiqamətdə görüləcək işlərin təməl proqramı kimi həmişə diqqət mərkəzindədir. Mənəvi dəyərlərə hörmətin, mənəviyyatın formalaşmasında əsas həlqələri təşkil edən təhsil, elm, mədəniyyət və s. kimi sahələrdə qloballaşmanın mənfi sayılan meyillərinə mənəvi müqavimətin təşkil edilməsi dövlətin siyasətində başlıca istiqamətlərdən biridir. Azərbaycan xalqının mənəvi dəyərlərinə qarşı yönəlmiş bütün cəhdlərin qarşısının qətiyyətlə alınması istiqamətində Prezident İlham Əliyevin mövqeyi bütün xalq tərəfindən rəğbətlə qarşılanır.

Qloballaşmanın bütün dünyada qarşısıalınmaz bir prosesə çevrildiyi müasir dövrdə kütləvi, yad mənəvi-mədəni stereotip və şablonların düşünülmüş şəkildə təbliği Azərbaycan xalqının əsrlərlə formalaşan milli varlığını, mənəvi irsini, milli düşüncə və dəyərlər sistemini, mədəni potensialını neqativ təzahürlərdən qorumaq kimi müqəddəs bir missiyanı gündəmə gətirmişdir. Mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi siyasətin ana xəttini, özəyini təşkil edir.

Son üç ildə Azərbaycanda görülmüş işlərə salınan ötəri nəzər belə göstərir ki, İlham Əliyev ağır prezidentlik yükünü çi-

yinlərinə götürən və onu uğurla daşıyan yetkin siyasətçi və dövlət xadimidir. Onun hakimiyyət və dövlətə, ölkənin inkişafına, Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyi şəraitdə hüquqi dövlət və demokratiya quruculuğuna, ölkədə vətəndaş cəmiyyətinin formalaşdırılmasına öz baxışı var. Başqa sözlə, onun özünəməxsus, opponentlərinin təbliğ etdiyi fikirlərdən fərqli dünyagörüşü mövcuddur. İlham Əliyev özünü vahid və bölünməz orqanizm olan cəmiyyətlə vəhdətdə görür, üzərində dövləti idarə etmək, mürəkkəb dünyada xalqının taleyini müəyyənləşdirmək yükünün məsuliyyətini dərk edir. O, ölkəni sürətli inkişaf yolu ilə irəli aparan kifayət qədər yekdil və mütəşəkkil komanda yaradıb.

Təsadüfi deyil ki, İlham Əliyevin prezident kimi fəaliyyəti və əldə etdiyi uğurlar beynəlxalq aləmdə də böyük maraq doğurur və müxtəlif dairələr tərəfindən yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq təşkilatların, sorğu mərkəzlərinin, analitiklərin və siyasətçilərin Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi xətlə bağlı araşdırmaları və mülahizələri xarici ölkələrin mətbuatı tərəfindən müntəzəm olaraq işıqlandırılır.

2006-cı ildə Böyük Britaniyanın "Financial Times" qəzetinin təşəbbüsü ilə bir sıra Avropa ölkələri və ABŞ ekspertləri arasında keçirilən sorğunun nəticələrinə əsasən dünyanın sabit ölkələri sırasında Azərbaycan da öz layiqli yerini tutmuşdur. Ölkənin sabitliyini müəyyən edən meyarlar kimi iqtisadiyyatın artan templə inkişafı, siyasi böhranın olmaması, siyasi hakimiyyətin davamlılığı, terrorizm təhlükəsinin yoxluğu və siyasi elitanın ölkədaxili prosesləri idarə etmək qabiliyyətinə malik olması götürülüb. Qərb ekspertlərinin qeyd olunan göstəricilər üzrə Azərbaycandakı vəziyyətə verdikləri qiymət ölkə rəhbərliyinin müstəqil dövlət quruculuğu sahəsində həyata keçirdiyi siyasətin səmərəli nəticəsinin təzahürü kimi qəbul olunmalıdır.





Rusiyanın "Politika" internet nəşri isə Azərbaycanda 2005-ci il noyabrın 6-da keçirilən parlament seçkilərində hakim partiyanın inamlı qələbəsini Prezident İlham Əliyevin ölkədəki nüfuzu ilə əlaqələndirib. Müəlliflər qeyd edirlər ki, "İlham Əliyevin postsovet məkanı üçün xarakterik olmayan iqtisadi islahatları Qərb dairələrinin marağını özünə cəlb edib".

Qərbin aparıcı qəzetlərindən olan "Daily Telegraph" qeyd edir ki, "gənc və enerjili Prezident İlham Əliyev bu müsəlman Şərq ölkəsini Qərbə inteqrasiya və demokratiya yolu ilə aparır. Onun ilk nailiyyətləri artıq göz önündədir. Söhbət ilk növbədə diplomatik uğurlardan, iqtisadi yüksəlişdən və kadr sahəsindəki uğurlu addımlardan gedir".

ABŞ-ın "Washington news" agentliyi də İlham Əliyevin prezidentlik fəaliyyətini təhlil edərək göstərir ki, "ölkənin islahatçı Prezidenti İlham Əliyev digər Şərq ölkələrinə nümunə olmaq niyyətini ortaya qoyub. Azərbaycan demokratikləşmə prosesində başqa neft ölkələri ilə müqayisədə heç də çətin yerimir".

Göründüyü kimi, Prezident İlham Əliyevin siyasi kursunun müxtəlif aspektləri, dövlət idarəetmə metodları beynəlxalq ekspertlər tərəfindən pozitiv qiymətləndirilir və dünyanın kütləvi informasiya vasitələrinin daimi maraq dairəsində qalır.

Təqdim olunan kitab vətəndaşı olduğumuz və durmadan inkişaf edən Azərbaycanın müasir tarixində İlham Əliyev mərhələsinin canlı mənzərəsi kimi real faktları özündə cəmləyən bir mənbədir. Azərbaycan xalqı bu mərhələnin müstəqil dövlətçiliyin sarsılmaz və əbədi olması baxımından hələ uzun müddət davam edəcəyinə əmindir.

# I

# HEYDƏR ƏLİYEV –
# MÜASİR AZƏRBAYCANIN QURUCUSU!

"Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının milli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!"

*31 oktyabr 2003-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqindən***

"Onun rəhbərliyi altında Azərbaycanda 1993-cü ildən iqtisadi islahatlar aparılmağa başlandı. Məhz o islahatların nəticəsində ölkəmiz inkişaf etdi, Azərbaycanda sahibkarlar təbəqəsi yarandı. Təsadüfi deyil ki, Azərbaycanda bazar iqtisadiyyatının, demək olar, bütün prinsipləri öz əksini tapır".

*2 fevral 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində nitqindən***

"Prezident Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi nəticəsində Azərbaycana böyük həcmdə investisiyaların cəlb edilməsi mümkün olmuşdur".

*3 fevral 2004-cü il*

***Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan rəhbərliyinin və şəxsən Prezident Heydər Əliyevin qətiyyəti, beynəlxalq neft şirkətlərinin inamı və dünya ictimaiyyətinin dəstəyi bizə imkan verdi ki, bütün bu çətinliklərə baxmayaraq, istədiyimizə nail ola bilək. Bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqının milli maraqları qorunur və heç kim, heç bir qüvvə bizi bu yoldan çəkindirə bilməz".

*3 fevral 2004-cü il*

***Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Tarixi İPƏK YOLUunun bərpası ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətlərindəndir".

*28 fevral 2004-cü il*

***Ələt-Qazıməmməd avtomobil yollarının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"1970-ci illərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə köməyi ilə "Azərbaycan Sovet Ensiklopediyası" hazırlanmış və nəşr edilmişdir. Həmin ensiklopediyada Azərbaycanın tarixi, mədəni irsi haqqında, Azərbaycanın həyatı haqqında kifayət qədər geniş məlumatlar toplanmış və müəyyən ideoloji çərçivələr əsasında o ensiklopediya işıq üzü görmüşdür. O vaxt Azərbaycan müstəqil dövlət





deyildi. Azərbaycan Sovet İttifaqının bir hissəsi idi. Amma buna baxmayaraq, o ensiklopediyada Azərbaycanın milli-mənəvi dəyərləri öz əksini tapmışdı".

*8 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Azərbaycanın müstəqilliyinin formalaşmasında, onun qorunub saxlanmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında, Azərbaycan dilinin qorunmasında ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti və xidmətləri, təbii ki, xüsusi bir yer almalıdır".

*8 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Heydər Əliyev xalqın gücünə arxalanaraq bütün tədbirləri həyata keçirdi və on il ərzində Azərbaycan müasir, iqtisadi cəhətdən qüdrətli dövlətə çevrildi. İndi Azərbaycanla hesablaşır, Azərbaycana hörmət edirlər.

Yadımdadır, Heydər Əliyev xəstə olanda çox tanınmış bir şəxs mənə demişdi ki, o, xoşbəxt adamdır. Çünki o, öz əməyinin nəticəsini görmüşdür və arxayındır ki, siz onun yolunu davam etdirirsiniz, 10 il ərzində qurulmuş sistem yaşayır, səmərəli işləyir və Azərbaycan xalqına xidmət edir. Bu baxımdan biz də xoşbəxtik ki, onun siyasətini davam etdirmək üçün əlimizdən gələni əsirgəmirik".

*7 may 2004-cü il*

***Milli Məclisdə ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Heydər Əliyevin bütün həyatı, bütün fəaliyyəti bir amala qulluq edirdi. Azərbaycançılıq, Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət, millətimizə xidmət etmək onun həyatının ən ümdə amalı idi".

*10 may 2004-cü il*

***Bakıda "Heydər Əliyev Fondu"nun təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, Azərbaycanın iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad dövlət kimi təşəkkül tapmasında müstəsna rol oynamışdır".

*14 iyun 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfərində nitqindən***

"Ölkəmizin iqtisadi, siyasi potensialı çox güclüdür. Azərbaycanda həyata keçirilən böyük neft layihələri də Heydər Əliyevin neft strategiyası ilə bağlıdır. Məhz onun cəsarəti, uzaqgörənliyi və siyasi iradəsi 1994-cü ildə bu strategiyanın təməlini qoymuşdur".

*28 iyun 2004-cü il*

***İstanbulda Heydər Əliyev adına parkın və Heydər Əliyevin büstünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan MDB çərçivəsində də uğurla fəaliyyət göstərir. İslam Konfransı Təşkilatında, GUÖAM təşkilatında və digər beynəlxalq təşkilatlarda bizim mövqelərimiz güclənir. Biz öz gələcək siyasətimizi bundan sonra da beynəlxalq strukturlara inteqrasiyada görürük. Bu siyasətin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur".

*27 iyul 2004-cü il*

***Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı".

*20 sentyabr 2004-cü il*

***Heydər Əliyev adına sarayda "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ölkəmizin də siyasəti Avropa və Avratlantik strukturlarına inteqrasiyadan ibarətdir. Bu, bizim strateji seçimimizdir. Bu seçim 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra edilibdir və bu gün Azərbaycan dövləti və hökuməti bu siyasi xəttə sadiqdir, bu siyasəti davam etdirir".

*14 oktyabr 2004-cü il*

***Buxarestdə Azərbaycan səfirliyinin yeni binasının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Heydər Əliyev Azərbaycanın tarixində müstəsna xidmətlərə malik olan şəxsiyyətdir, dahi şəxsiyyətdir və Azərbaycanı böyük bəlalardan xilas edən şəxsiyyətdir".

*24 dekabr 2004-cü il*

***Siyəzən rayon Mərkəzi Klinik Xəstəxanasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".

*26 mart 2005-ci il*

***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"O, bütün xarici səfərləri zamanı harada ki, azərbaycanlılar yaşayır, mütləq onlarla görüşürdü, onların problemləri ilə maraqlanırdı, bunları həll etməyə çalışırdı. Bu ənənə Azərbaycanda indi də yaşayır. Bütün başqa sahələrdə olduğu kimi Heydər Əliyev siyasəti bu sahədə də davam və inkişaf edir".

*15 iyun 2005-ci il*

***Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ümummilli liderimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasını təmin etmək, doğma Azərbaycanı inkişaf etdirmək üçün bütün dövrlərdə böyük səylər göstərmişdir".

*25 iyun 2005-ci il*

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqindən***

"Əgər Azərbaycanın son müddət ərzindəki inkişafına nəzər salsaq görərik ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində bütün istiqamətlərdə inkişaf göz qabağındadır".

*8 iyul 2005-ci il*

***Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Heydər Əliyev gənclərlə daim ünsiyyətdə idi, tədbirlərdə daim iştirak edir, öz dərin tövsiyələrini verir, inkişaf istiqamətlərini müəyyən edirdi. Bu gün Azərbaycanda çox güclü gəncliyin yaranması, əlbəttə, o illərdə görülmüş işlərin nəticəsidir".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilən Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istismara veriləcəkdir. İlin sonunda Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara veriləcəkdir. Bunlar, əlbəttə ki, dünya əhəmiyyətli məsələlərdir və həm Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsinə öz töhfəsini verəcək, həm də bölgədə sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir".

*2 yanvar 2006-cı il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının İclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu gün Azərbaycanın inamlı inkişafının əsas səbəbi məhz 1990-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasıdır. Bu neft strategiyası bizə böyük imkanlar yaratdı, böyük imkanlar da yaradacaqdır və biz bundan səmərəli istifadə edəcəyik".

*28 may 2006-cı il*

***Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqına müraciətindən***

"Biz bütün işlərimizi ancaq və ancaq öz gücümüzlə etməliyik - ulu öndər bizə bu yolu göstəribdir. Bütün ölkələrlə, tərəfdaşlarla, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və bundan çox böyük fayda götürürük. Ancaq bütün işlərimizi özümüz görməliyik. Bu, bizim ölkəmizdir".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***



# II

# SƏMƏRƏLİ DÖVLƏTÇİLİK - DEMOKRATİK İNKİŞAF

“Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm”.

“Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.

“Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur”.

“Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik”.

*31 oktyabr 2003-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqindən***

“Azərbaycan demokratik dəyərlərə möhkəm inanan ölkədir. Demokratiyanın inkişafına tam sadiqdir. Biz başa düşürük

ki, cəmiyyətin demokratikləşməsi həyata keçmədən nəzərdə tutduğumuz iri iqtisadi layihələr uğurlu ola bilməz".

*26 yanvar 2004-cü il*

***Fransanın nüfuzlu işgüzar dairələrinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...biz elə bir şərait yarada bilmişik ki, xarici sərmayəçilər özlərini rahat hiss edirlər. Mən elə bilirəm ki, bu, ən böyük nailiyyətlərdən biridir. Çünki etibar qazanmaqdan ötrü illər lazımdır, bircə səhv addım hər şeyi yox edə bilər. Biz işimizi elə qurduq ki, səhv addımlara yer qalmadı".

*27 yanvar 2004-cü il*

***Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Ölkəmizdə qayda-qanun bərpa olunmuşdur və bu siyasət davam etdirilməlidir. Əminəm ki, hamımız – bütün Azərbaycan xalqı birlikdə buna nail olacağıq. Biz Azərbaycanın müstəqilliyini qoruyacaq, ölkəmizin iqtisadi potensialını gücləndirəcəyik. Bütün bunlar xalqımızın daha firavan və rahat yaşamasına xidmət edir".

*8 fevral 2004-cü il*

***Rusiyadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Hər bir Azərbaycan vətəndaşının vəzifəsi və borcudur ki, qaçqınlara və məcburi köçkünlərə kömək göstərsin. Çünki onlar ədalətsiz təcavüzdən əziyyət çəkən, ən çətin vəziyyətdə yaşayan insanlardır. Öz torpaqlarını itirmiş insanlardır və onların problemləri bizim hamımızın problemləridir".

*17 fevral 2004-cü il*

***"Azərbaycanda 10 illik Humanitar Fəaliyyət: təsir, qazanılmış təcrübə, gələcək istiqamətlər" mövzusunda Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Ölkəmizi müasirləşdirmək, yeniləşdirmək, gücləndirmək, iqtisadiyyatımızı, ordumuzu gücləndirmək - bu gün bizim planlarımız məhz bundan ibarətdir. Azərbaycan xalqı üçün gözəl şərait yaratmaq və Azərbaycanı dünya birliyinə daha da sürətlə, hərtərəfli inteqrasiya etmək bizim əsas, prioritet məsələlərimizdir".

*14 aprel 2004-cü il*

***Prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomu və İhsan Doğramacı adına Dünya sülh mükafatını təqdimetmə mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...sərmayəçilər şəraitin sabitliyinə əmin olmadan, iqtisadiyyatın artımını görmədən, ölkənin demokratik istiqamətdə hərəkətini hiss etmədən milyardlarla dollarını heç zaman risk-altına qoymazlar".

*28 aprel 2004-cü il*

***Varşavada Avropa İqtisadi Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən".

*30 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-nın yaz sessiyasındakı iclasında çıxışından***

"Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Bu cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan və azadlıqlardan istifadə etməli və onun bütün hüquqları və azadlıqları qorunmalıdır".

*30 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-da mətbuat konfransından çıxışından***

"Biz bu amili – Azərbaycanın milli maraqlarının qorunmasını daim yadda saxlamalıyıq".

*7 may 2004-cü il*

***Milli Məclisdə ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Davamlı inkişafın əsas elementlərindən biri də davamlı siyasi islahatlardır. Cəmiyyətimizin demokratikləşdirilməsi prosesi davam edir. Bu istiqamətdə çoxlu müsbət addımlar atılmışdır və bu gün Azərbaycan cəmiyyəti əlbirdir".

*18 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasında çıxışından***

"Azərbaycanda qayda-qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir".

*27 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***

"Azərbaycanın Prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu, mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm".

*17 iyun 2004-cü il*

***Qazax şəhərindəki Heydər parkında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli sakinlərlə görüşündə nitqindən***





"İşləyən insana, fəhləyə diqqət, qayğı göstərilməli, onun iş şəraiti yüksək səviyyədə qurulmalıdır, standartlara cavab verməlidir".

*14 iyul 2004-cü il*

***"AZBENTONİT" MMC-nin açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz dünyaya açıq bir ölkəyik. Belə olan halda, əlbəttə, bizim xarici siyasətimiz, xaricdə Azərbaycanın imici daha da güclənməlidir. Əlbəttə, bunu etmək üçün ölkə daxilində proseslər getməlidir, ölkə inkişaf etməlidir, demokratikləşmə prosesi daha da sürətlə getməlidir, iqtisadiyyat inkişaf etməlidir".

*27 iyul 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"Azərbaycanın siyasi mövqeyi lap əvvəldən müstəqilliyi möhkəmlətməkdən, güclü iqtisadi əsas yaratmaqdan, qonşu ölkələrlə ikitərəfli münasibətləri möhkəmlətməkdən, dostluq əlaqələri yaratmaqdan ibarət olubdur".

*25 sentyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkun Kolumbiya Universitetində görüşü zamanı çıxışından***

"Müstəqillik illərində Azərbaycanda siyasi, sosial-iqtisadi, hüquqi islahatlar həyata keçirilmişdir. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır".

*8 oktyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Bolqarıstan Prezidenti Georgi Pırvanovun şərəfinə rəsmi qəbulda nitqindən***

"Bizim - hər bir vətəndaşın, Prezidentin, bütün insanların - borcu, vəzifəsi ondadır ki, ölkəmizi hərtərəfli gücləndirək, güclü dövlət yaradaq".

*9 noyabr 2004-cü il*

***Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrına açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan xalqı bizim gördüyümüz işlərə öz qiymətini verir. Mən bu dəstəyi hiss edirəm, bu dəstəyə arxalanıram. Bundan sonra da çalışacağam ki, doğma Vətənimiz üçün, xalqımız üçün, Azərbaycanımız üçün əlimdən gələni əsirgəməyim, xalqla birlikdə öz ölkəmizi gücləndirək, onu yeni qələbələrə doğru aparaq".

*9 noyabr 2004-cü il*

***Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrına açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Əsas məsələ odur ki, xalq öz rəhbərinə inansın. Rəhbər də özünü elə aparmalı, elə işlər görməlidir ki, xalq onu dəstəkləsin. Azərbaycanda xalqla hökumət arasında bu birlik, vəhdət vardır və bu, bizim bugünkü və gələcək inkişafımızın ən əsas, ən başlıca amillərindən biridir".

*9 noyabr 2004-cü il*

***Masallı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycan Respublikasının Prezidenti kimi, Heydər Əliyevin davamçısı kimi, onun siyasi xəttini bu gün Azərbaycanda həyata keçirən bir şəxs kimi mən də sizə söz verirəm ki, Azərbaycanda bu əmin-amanlıq, bu asayiş, bu sabitlik, nəyin bahasına olursa-olsun, qorunacaqdır. Bu, Azərbaycan xalqının tələbidir, zəmanənin tələbidir, bu, hər bir inkişaf üçün zəruridir".

*9 noyabr 2004-cü il*

***Cəlilabad rayonunda kənd orta məktəb binasının və ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da güclənməsinə yönəlmiş bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir".

*7 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Biz iqtisadi siyasətimizi elə qurmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur, sanki Azərbaycan neft ölkəsi deyildir. Qeyri-neft sektorunun inkişafı, yeni texnologiyaların tətbiq olunması, müasir yanaşmanın həyatda öz əksini tapması bizim gələcək uğurlarımızın əsasını qoyacaqdır".

*7 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Məqsədimiz ölkəmizi inkişaf etdirmək, müasirləşdirməkdir. İqtisadiyyatı, siyasi sistemi, hüquq sistemini yaxşılaşdırmaq, əhalimiz üçün daha yaxşı şərait yaratmaq bizim məqsədimizdir".

*13 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində "Chatham House" klubunda çıxışından***

"Sülh, təhlükəsizlik, cəmiyyətdə müxtəlif millətlər, müxtəlif etnik, dini icmalar arasında qarşılıqlı inam bizim ən çox dəyərləndirdiyimiz bir nemətdir. Biz bu neməti qoruyuruq, bunun olması ölkədə xüsusi ab-hava yaradır".

*14 dekabr 2004-cü il*

***Londonda "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...regionların inkişafı proqramının, sosial-iqtisadi inkişaf proqramının məqsədi də məhz budur: insanlarımızın həyat səviyyəsini yaxşılaşdırmaq, yeni iş yerləri açmaq, sosial məsələləri həll etmək, xalqımızın rahat yaşaması üçün şərait yaratmaq.

Əsas məqsəd ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı artırmaq, Azərbaycanı hərtərəfli inkişaf etdirmək, iqtisadiyyatımızı şaxələndirmək, insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz bunu bəyan etmişik, biz bunu edirik və əminəm ki, bundan sonra da qarşımızda duran bütün məsələləri uğurla icra edəcəyik".

*24 dekabr 2004-cü il*

***Siyəzən rayon Mərkəzi Klinik Xəstəxanasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Ölkədə ictimai-siyasi vəziyyət çox əlverişlidir, iqtidarla əhali arasında tam qarşılılqı anlaşma mövcuddur. Əlbəttə ki, belə olmasaydı, islahatları aparmaq çox çətin olardı. Biz dəstək hiss edirik, xalqın bu dəstəyinə arxalanırıq".

*24 yanvar 2005-ci il*

***Azərbaycanda İTAR-TASS günləri iştirakçıları ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan diplomatiyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq aləmdəki uğurları, enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi sahəsindəki nailiyyətlərimiz ölkəmizin böyük potensialının göstəricisidir".

*25 fevral 2005-ci il*

***Azərbaycan - İtaliya Biznes Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda hər bir mövqeyə hörmətlə yanaşılır. Azad mətbuat bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdən biridir".

*3 mart 2005-ci il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuat üçün bəyanatından***

"Tarixin sınaqlarından alnıaçıq, üzüağ çıxan Azərbaycan qadını bu gün müstəqil respublikamızda demokratik cəmiyyətin aparıcı üzvü kimi çıxış edir".

*8 mart 2005-ci il*

***8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbrikindən***

"Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir".

*12 mart 2005-ci il*

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqindən***

"Azərbaycan xalqının iradəsi, istəyi, arzusu bizim üçün prioritet məsələdir. 2003-cü ildə bizim siyasətimizə göstərilmiş dəstək bütün işlərin daha da uğurla aparılması üçün gözəl şərait yaradır. Mən bu dəstəyi bu gün də hiss edirəm, bu dəstəyə arxalanıram və ölkədə gedən siyasi, iqtisadi islahatlar bu dəstəyə arxalanır".

*22 mart 2005-ci il*

***Novruz Bayramına həsr olunmuş Ümumxalq şənliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu gün bir neçə ölkə var ki, onların bütün dövlət atributları mövcuddur, rəsmən müstəqil dövlət kimi dünya birliyinə daxil olublar. Fəqət, onların siyasəti heç də müstəqil deyildir. Xalqımızın ən böyük sərvətlərindən biri də odur ki, bu gün Azərbaycan və Azərbaycan rəhbərliyi tam mənada müstəqil siyasət aparır. Bu siyasət yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarına xidmət edir".

*26 mart 2005-ci il*

***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Bizim siyasətimiz əməli işlərdir, praktiki addımlardır, real məsələlərdir. Biz populizmdən uzağıq, gündə on dəfə müsahibə vermirik, işlə məşğul oluruq".

*26 mart 2005-ci il*

***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan bu son il yarım ərzində həm beynəlxalq müstəvidə, həm də regional çərçivədə, ölkə daxilində öz gücünü daha da möhkəmləndiribdir. Prezident kimi mənim də vəzifəm ondan ibarətdir ki, ölkəmiz daha zəngin olsun, insanlarımız daha yaxşı yaşasın, bölgələrimiz daha da inkişaf etsin. Bir sözlə, Azərbaycan çox qüdrətli və regionda aparıcı dövlətə çevrilsin".

*26 aprel 2005-ci il*

***Şamaxı Olimpiya Kompleksinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın iqtisadi inkişafı, görüləcək tədbirlər nəticəsində əldə olunacaq böyük həcmdə vəsait bizə imkan verəcək ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, regionları, qeyri-neft sektorunu inkişaf etdirək. Amma əgər insan amili olmasa, əlbəttə ki, biz istədiyimizə nail ola bilmərik. Ona görə yenə də deyirəm, insanların qayğıları ilə yaşamaq lazımdır, onlara diqqət göstərmək lazımdır və problemləri həll etmək lazımdır".

*4 may 2005-ci il*

***Ölkədə sosial-iqtisadi inkişaf məsələsinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...siyasi və iqtisadi islahatlar yolunda həyata keçirdiyimiz siyasət aşağıdakı sahələr üzrə bir çox nailiyyətlərin əldə olunmasını mümkün etmişdir: siyasi və iqtisadi dəyişikliklər, cəmiyyətimizin müasirləşməsi, demokratiyanın inkişaf etdirilməsi, insan hüquqlarının qorunması, söz azadlığı və plüralizm".

*16 may 2005-ci il*

***Varşavada Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar həyata keçirilmiş, vətəndaş cəmiyyətinin qurulması istiqamətində ciddi addımlar atılmışdır. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır".

*13 iyun 2005-ci il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin yekununa həsr olunmuş mətbuat konfransında çıxışından***

"...mən şübhə etmirəm ki, bizim doğma vətənimiz Azərbaycan hamımızın köməyi ilə, əməyi ilə daha da inkişaf edəcəkdir. Biz öz sözümüzü daha yüksək kürsülərdən deyəcəyik, öz istəyimizə nail olacağıq. Biz elə etməliyik ki, Azərbaycanda kasıb adam olmasın, yoxsulluq aradan götürülsün, işsizlik tamamilə aradan götürülsün və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha təhlükəsiz şəraitdə yaşasınlar. Mənim Prezident kimi vəzifə borcum bundan ibarətdir. Azərbaycanda hökm sürən sabitliyin, əmin-amanlığın, asayişin də təminatçısıyam və heç kimə imkan verə bilmərəm ki, bu sabitliyi, bu əmin-amanlığı pozsun".





*15 iyun 2005-ci il*

***Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"1993-cü ildəki Azərbaycanı və bugünkü Azərbaycanı müqayisə edək. O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda sosial böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın lideri Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".

*15 iyun 2005-ci il*

***Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi mitinqdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcədə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi, iqtisadi islahatların həyata keçiril-

məsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır".

*16 iyun 2005-ci il*

***Kiyevdə "Fövqəladə Ukrayna dəyirmi masası" adlı Beynəlxalq İnvestisiya Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Biz Azərbaycan xalqının normal yaşaması üçün əlimizdən gələni etməliyik, bütün vasitələrlə ölkəmizdə sabitliyi qorumalıyıq, onu möhkəmləndirməliyik.

Azərbaycan xalqı öz doğma Vətənində, torpağında rahat yaşayır, özünü çox rahat hiss edir. Əlbəttə ki, polis orqanlarının bu işdə əməyi çox mühümdür".

*1 iyul 2005-ci il*

***Daxili İşlər Nazirliyinin rəhbər heyəti ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim vəzifəmiz ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı möhkəmləndirmək, Azərbaycanda sabitliyi, əmin-amanlığı qorumaq və Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün şərait yaratmaqdır.

Mənim xalqın mənə olan münasibətindən güc alıram. Prezident kimi fəaliyyətimin əsas mənbəyi də xalqın iradəsidir. Mən bu amalla yaşayıram və bundan sonra da belə yaşayacağam".

*7 iyul 2005-ci il*

***Ağdaş şəhər stadionunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim siyasətimizin əsas istiqamətləri - proqramlar, sosial-iqtisadi, regional inkişaf proqramları, digər proqramlar tərtib olunur, təsdiq edilir. Ancaq onların icrası, həm də





yerli icra orqanlarının fəaliyyətindən asılıdır. Harada iş var, iş gedir, orada nəticə də var.

Yalnız real siyasət, yalnız həqiqi işlər, əməli-praktiki işlər var ki, Azərbaycanın bütün bölgələrində yaşayan hər bir insan bunu hiss etsin. Bu istiqamətdə işləri davam etdirəcəyik".

*8 iyul 2005-ci il*

***Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Milli hərəkatın yaranmasında Azərbaycanın mətbuatı, azad mətbuatın rolu çox yüksək olub və biz bunu həmişə yadda saxlamalıyıq.

Bu gün Azərbaycanda, sözün əsl mənasında, müstəqil mətbuata böyük ehtiyac var. Azərbaycanda mətbuatın müstəqilliyi cəmiyyətin sifarişidir. Mən hesab edirəm ki, mətbu orqanlar bəzi siyasi dairələrin təsirindən çıxmalıdır və sözün əsl mənasında müstəqil olmalıdır".

*21 iyul 2005-ci il*

***Azərbaycan Milli Mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...istəyirəm biləsiniz ki, heç bir fərq qoymadan, mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı olsun, istərsə də müstəqil mətbuat olsun - bu, bizim mətbuatımızdır. Bu, Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir".

*21 iyul 2005-ci il*

***Azərbaycan Milli Mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Mənim məqsədim budur ki, ölkədə kasıb, çətin şəraitdə yaşayan adam olmasın. İnsanları narahat edən problemlər aradan qaldırılsın. Yerlərdə insanlara yerli icra orqanları tərəfindən diqqət yüksək səviyyədə olsun. Bizim cəmiyyətimizi sarsıdan rüşvətxorluğa, korrupsiyaya son qoyulsun. Azad cəmiyyət yaransın. Budur mənim məqsədim, budur mənim siyasətim. Bu siyasət xalq tərəfindən bəyənilib və bundan sonra da onu xalqın iradəsi ilə davam etdirəcəyik".

*25 iyul 2005-ci il*

***Qubada Heydər Əliyev parkının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Seçkilərdən əvvəl dediyim və artıq məşhur olan "mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" kəlamı sadəcə şüar, yaxud da ki, təbliğat naminə deyilən söz deyildir. Bu, mənim əqidəmdir, həyat prinsipimdir və mənim tabeliyimdə işləyənlərdən yerlərdəki nümayəndələrimdən də tələbim budur: bu prinsiplərlə yaşamaq, insanların qayğıları ilə yaşamaq".

*26 iyul 2005-ci il*

***Xaçmaz şəhərindəki Heydər Əliyev parkında rayon sakinləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir".

*16 avqust 2005-ci il*

***Dövlət Sərhəd Xidmətinin Hərbi Hissələrinə Döyüş Bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda sözün əsl mənasında müstəqil mətbuata, KİV-lərə böyük ehtiyac vardır... Əminəm ki, normal, hüquqi, demokratik dövlətin qurulması işində KİV-lərin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır".





*29 avqust 2005-ci il*

***İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətə başlamasına həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Harada ki, demokratiya inkişaf edib, o ölkələr iqtisadi cəhətdən də inkişaf edibdir. Harada ki, demokratiya inkişaf etməyib, o ölkələrdə inkişaf da sürətlə getməyibdir. Bu məsələdə heç bir təbii ehtiyatlar, neft, qaz böyük rol oynamır, bunlar müvəqqəti amillərdir".

*10 sentyabr 2005-ci il*

***Yardımlı rayonunun sakinləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Güclü iqtisadiyyat, yeni iş yerlərinin açılması, iqtisadiyyatımızın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın inkişafı və sosial məsələlərin həlli bizim əsas məqsədlərimizdir".

*11 oktyabr 2005-ci il*

***Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə.

Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə

imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin".

*11 oktyabr 2005-ci il*

***Qazax rayonunun sakinləri ilə görüşdə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Biz öz siyasətimizi düşünülmüş, uzunmüddətli iqtisadi strategiya əsasında, çox güclü əsaslarla, elmi yanaşmalarla qururuq və həyata keçiririk.

Azərbaycanda demokratik cəmiyyətin, hüquqi dövlətin yaranması bizim başlıca məqsədimizdir. Harada tərəqqi, inkişaf varsa, o yerdə demokratik cəmiyyət mövcuddur. Mən tam əminəm ki, ölkədə nə qədər neft, qaz, başqa təbii ehtiyatlar olsa belə, əgər ölkə azad deyilsə, demokratiya tam bərqərar edilməyibsə, həmin ölkənin gələcəyi o qədər də uğurlu olmayacaqdır".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"...kasıb ölkədə, yoxsullar olan ölkədə tam şəkildə demokratik cəmiyyətin qurulması da mümkün deyildir. Çünki əgər insanlar kasıbdırsa, əgər yoxsulluq, işsizlik şəraitində yaşayırsa, onları tamamilə başqa məsələlər düşündürür. Ona görə biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Güclü iqtisadi bazanın yaradılması, eyni zamanda ölkənin normal demokratik inkişafına zəmin yaradır və onu müəyyən edir".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***





"...bizim məqsədimiz, amalımız birdir: ölkəmizi daha da möhkəmləndirmək, Azərbaycan cəmiyyətinin demokratik inkişafına nail olmaq, onu möhkəmləndirmək, Azərbaycanda sosial-iqtisadi problemləri tezliklə həll etmək, ölkəmizin bölgədəki mövqelərini daha da möhkəmləndirmək."

*14 dekabr 2005-ci il*

***Milli Elmlər Akademiyasının 60 illiyinə***
***həsr olunmuş təntənəli yığıncaqda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Demokratiyanın inkişafı 2006-cı ildə də bizim əsas vəzifələrimizdən biri olacaqdır. Azərbaycanda hökm sürən sabitlik, vətəndaş həmrəyliyi bizə imkan verir ki, ölkəmiz hərtərəfli - həm iqtisadi sahədə, həm də siyasi məsələlər baxımından inkişaf etsin".

*2 yanvar 2006-cı il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin***
***sədrliyi ilə Təhlükəsizlik Şurasının İclasında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Mən ölkəmizin gələcəyinə çox nikbinliklə baxıram. Çünki güclü Azərbaycan yaratmaq üçün bütün imkanlar var. Ölkəmizin coğrafi vəziyyəti, təbii sərvətlərlə zəngin olması, cəmiyyətdə dövlət siyasətinə olan dəstək, xalqla iqtidar arasında olan birlik, bizim iqtisadi islahatlarımız, enerji və nəqliyyat dəhlizinin təmin olunmasında Azərbaycanın artan rolu - bütün bunlar müsbət amillərdir".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı***
***dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin yekun nitqindən***

"Əsas tələb ondan ibarətdir ki, hər bir vəzifəli şəxs, hər bir məmur öz vəzifə borcunu ləyaqətlə yerinə yetirsin, öz əməyi ilə, öz zəhməti ilə ümumi işimizə öz töhfəsini versin, insanlara diqqət, qayğı göstərsin və beləliklə, öz məsuliyyətini dərk etsin.

...hər bir vəzifəli şəxsdən, hər bir icra hakimiyyəti başçısından, hər bir məmurdan tələb edirəm və sahibkarlardan, iş adamlarından xahiş edirəm ki, ölkəmizin inkişafı üçün öz səylərini əsirgəməsinlər. Bu, bizim vətənimizdir, xalq bizim xalqımızdır. Biz elə etməliyik ki, ən yüksək səviyyədə olaq, həm Azərbaycanın imici yüksəlsin, mövqeləri möhkəmlənsin, həm də Azərbaycan xalqının rifah halı daha da yaxşılaşsın".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"...iqtisadiyyat hər bir inkişafın təməl daşıdır. Əgər güclü iqtisadiyyat yoxdursa, sosial proqramları və eyni zamanda, müstəqil xarici siyasəti həyata keçirmək mümkün deyildir. Xüsusən də bu, beynəlxalq ictimaiyyət üçün yeni olan ölkədən ötrü olduqca vacibdir".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Bizim siyasətimiz çox şəffaf, açıq və səmimidir və milli maraqlarımıza, tərəfdaşlarımız və dostlarımızla səmimi münasibətlərə əsaslanır. İqtisadi islahatlar siyasətimiz, Azərbaycanın beynəlxalq işlərdə rolu və regional səviyyədəki rolu - bunlar





bir-biri ilə bağlı olan məsələlərdir. Ona görə də mən demək istəyirəm ki, biz bütün istiqamətlərdə nəticələrdən fərəhlənə bilərik".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Demokratiyanın ixracı işləmir. Bu, təkamül, keçid prosesi olmalıdır. Əlbəttə ki, hökumət, tərəfdaşlar, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları fəal olmalıdırlar. Biz deyə bilmərik ki, müstəqilsiniz, gəncsiniz, elə belə də yaşayın. Yox, biz işləməliyik və cəmiyyətdəki reallıqdan çıxış etməliyik. Demokratiya kənardan gətirilirsə, ixrac olunursa və yaxud məcburən tətbiq edilirsə, bunun heç bir faydası olmur. Bu, sadəcə sosial, siyasi problemlərin yaranmasına, sabitliyin pozulmasına gətirib çıxarır, mənfi nəticələr doğurur".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Biz öz ölkəmizdə yaşayırıq, öz ölkəmizi tanıyırıq. Necə inkişaf etməyi, necə yaşamağı özümüz həll edirik. Ona görə demokratiya məsələsində çox diqqətli olmaq lazımdır. Buna avtomatik şəkildə, təkcə istək əsasında nail olmaq mümkün deyildir. Ona görə biz beynəlxalq təşkilatların üzvüyük, çox qabaqcıl qanunvericilik qəbul etmişik. Lakin, eyni zamanda, hər şey öz vaxtında olmalıdır".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Müstəqillik böyük sərvətdir. Bəzən deyirlər ki, Azərbaycanın sərvətləri onun təbii ehtiyatları, coğrafi vəziyyətidir, yaxud

da bölgədə mövcud olan mövqeləridir. Azərbaycanın ən böyük sərvəti onun müstəqilliyidir.

Müstəqillik yalnız dövlət atributları ilə ölçülmür. Müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ölkəmizin normal, hərtərəfli inkişafı üçün, Azərbaycan xalqının rifah, sülh şəraitində yaşaması üçün sabitlik, ictimai-siyasi asayiş qorunmalıdır, təhlükəsizliyimiz təmin olunmalıdır".

*27 mart 2006-cı il*

***Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına Döyüş Bayrağının təqdim edilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...imkan verə bilmərik ki, kimsə bizim daxili işimizə qarışsın, bizə göstəriş versin, təlimat versin, yaxud da təzyiq etməyə çalışsın. Biz buna heç vaxt imkan verməرik. Buna nail olmaq üçün bizim gücümüz olmalıdır. Bizim gücümüz iqtidarla xalqın birliyindədir. Bizim gücümüz iqtisadi siyasətimizdədir. Bizim gücümüz müstəqilliyimizin əbədi, dönməz olmasındadır. Azərbaycan xalqı öz taleyini özü müəyyən etməlidir və özü də müəyyən edir".

*27 mart 2006-cı il*

***Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına Döyüş Bayrağının təqdim edilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"...göstərdiyim bütün səylər xalqın həyat tərzinin daha da yaxşılaşdırılmasına, Azərbaycanın daha da möhkəmləndirilməsinə, regionda daha yaxşı mövqeyin qazanılmasına və mürəkkəb qonşuluq şəraitində sülh, təhlükəsizlik və sabitliyin qorunmasına yönəlibdir. Əvvəldə qeyd edildiyi kimi, əgər siz xəritədə Bakıdan digər istiqamətlərə baxsanız, mövcud olan və ya potensial müharibələri, münaqişələri və hərbi əməliyyatları görəcəksiniz. Belə şəraitdə Azərbaycan sabitlik və inkişaf adasıdır. Bu, bizim nailiyyətimizdir. Bu, bizim sərvətimizdir".

*27 aprel 2006-cı il*

***ABŞ-a rəsmi səfər çərçivəsində Beynəlxalq Münasibətlər Şurası ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"...biz iqtisadi cəhətdən möhkəmlənirik. Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklikdir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir. Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik".

*3 iyul 2006-cı il*

***Ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Hamı qanun qarşısında bərabər olmalıdır. Bütün qərarlar ədalətli olmalıdır. Ədalətsiz qərar insanların taleyinə təsir edir. Əgər qəbul edilmiş qərar ədalətsizdirsə, insanlar çox böyük əziyyət çəkirlər".

*8 avqust 2006-cı il*

***Ali Məhkəmənin yeni inzibati binasının təməli qoyulma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Böyük olmayan ölkələr nəyisə güzəştə verib, hansısa imtiyazlar əldə edirlər, yaxud da hansısa xüsusi münasibətlərə me-

yilli olurlar. Azərbaycanın mövqeyi həmişə birmənalı olubdur. Biz öz milli maraqlarımızı heç kimə güzəştə getmərik. Azərbaycanın milli maraqları birinci məsələdir. Ancaq bizim təcrübəmiz, siyasətimiz onu göstərir ki, milli maraqların tam şəkildə müdafiə olunması ilə bərabər, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlığın yaradılması mümkündür".

*14 avqust 2006-cı il*

***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz əhali baxımından, ərazi baxımından kiçik dövlətik, amma ləyaqətli dövlətik. Bir daha demək istəyirəm ki, heç kimin qarşısında gözümüz kölgəli deyildir. Biz Azərbaycan xalqının dəstəyinə arxalanırıq və bu dəstək Prezident kimi mənə xarici siyasəti müstəqil şəkildə aparmaq üçün əlavə güc verir. Mən məhz buna arxalanıb müstəqil siyasət aparıram".

*14 avqust 2006-cı il*

***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bakı-Tbilisi-Ceyhan neft boru kəməri bizim üçün nəinki Azərbaycan neftini dünya bazarlarına çıxarmaq imkanı, onun ixracından əldə edilən gəlirlərdən faydalanmaq baxımından, həm də milli müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox mühümdür".

*27 avqust 2006-cı il*

***"Caspian Outlook-2008" Bled Strateji Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...seçicilərin qayğıları, onların arzuları ilk növbədə yerinə yetirilməlidir. Bu baxımdan Milli Məclis üzvlərinin fəaliyyətindən çox şey asılıdır. Bütün görülən işlər, ölkədə gedən inkişaf meyilləri bir məqsədə qulluq edir: Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin, qüdrətli dövlətə çevirmək, sosial ədalət prinsiplərini tam şəkildə bərqərar etmək və ölkəmizi müasirləşdirmək".





*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Parlamentin Azərbaycan cəmiyyətindəki rolu artır, artmalıdır və bu da təbiidir. Çünki parlamentin üzərinə düşən vəzifələr yerinə yetirilərsə, əlbəttə, cəmiyyətimizin hərtərəfli inkişafı təmin olunar. Biz Azərbaycanda hüquqi dövlət qururuq. Qanunun aliliyi tam şəkildə bərqərar olmalıdır. Azərbaycan dünya birliyinə daha da sürətlə inteqrasiya etməlidir və ölkəmizin bütün sahələrində çox ciddi islahatlar davam etdirilməlidir".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq - bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi - bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Əmin-amanlıq, təhlükəsizlik, Azərbaycanın hərtərəfli inkişafı, ictimai-siyasi vəziyyətin normal səviyyədə qalması ölkəmizin inkişafı üçün başlıca amildir. Hansı ölkələr inkişaf edir?! Biz bunu uzaq tarixdən də, yaxın tarixdən də bilirik. Son müddət ərzində bölgədə və dünyada gedən proseslər də bunu təsdiq edir. O ölkə inkişaf edir ki, orada iqtidarla xalq arasında birlik var. O ölkə inkişaf edir ki, iqtidarın fəaliyyəti xalq tərəfindən bəyənilir, dəstəklənir və qarşılıqlı inam var. O ölkə inkişaf edir ki, orada sabitlik və inkişaf var, maddi rifah, əmin-amanlıq var. Bütün bunlar Azərbaycanda var. Azərbaycanın hərtərəfli inkişafı onun əyani göstəricisidir. İndi ölkəmizdə elə bir sahə, iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada inkişaf getməsin. Hər bir istiqamətdə xüsusi proqram var və bizim işlərimiz proqram şəklində gedir".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





**ƏLİ HƏSƏNOV,**
Prezidentin İcra Aparatı
İctimai-siyasi şöbəsinin müdiri,
tarix elmləri doktoru, professor

# Səmərəli dövlətçilik - demokratik inkişaf

Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də öz tarixi seçimini etdi-vətəndaşların mütləq əksəriyyəti böyük ruh yüksəkliyi və görünməmiş siyasi fəallıq şəraitində Heydər Əliyev kursunun layiqli davamçısı, bacarıqlı dövlət adamı kimi özünü təsdiq etmiş gənc liderə - İlham Əliyevə səs verdi, ölkənin Prezidenti kimi tarixi taleyini ona etibar etdi.

Hadisələrin sonrakı gedişi göstərdi ki, xalqımız çox düzgün, müdrik seçim etmişdir. İlham Əliyev elə andiçmə mərasimindəki çıxışında Azərbaycanın dövlət maraqlarını, xalqımızın milli mənafelərini qətiyyətlə qoruyacağını bildirdi, milli həmrəylik, sosial ədalət prinsiplərinə sədaqətlə xidmət edəcəyini, bütün azərbaycanlıların prezidenti olacağını vəd etdi. O, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun ideyalarını ardıcıl surətdə davam etdirəcəyini bəyan etdi, hamını bu siyasi xətt ətrafında sıx birləşməyə çağırdı.

Azərbaycan Prezidenti öz fəaliyyəti, qəbul etdiyi qərarlar, həyata keçirdiyi tədbirlərlə sübut etdi ki, o, dövlət quruculuğu, daxili və xarici siyasət məsələlərində məhz bu prinsip-

ləri, meyarları rəhbər tutur. Azərbaycanın müstəqilliyi, dövlət maraqlarının müdafiəsi, sosial ədalət, milli həmrəylik, vətəndaşların hüquq və azadlıqlarının qorunması-bunlar daxili və xarici siyasət məsələləri həll edilən zaman rəhbər tutulan prinsiplərdir.

Prezident kimi öz səlahiyyətlərinin icrasına başladığı ilk vaxtlardan İlham Əliyev bütün sahələrdə dövlət siyasətinin prioritetlərini müəyyən etdi və öz fəaliyyətinin məzmununu da bu prioritetlərə uyğun şəkildə qurdu. Bunlar aşağıdakılardır: Heydər Əliyev siyasi kursunun dönmədən davam etdirilməsi; Azərbaycanın dövlət müstəqilliyinin qətiyyətlə qorunması; Dağlıq Qarabağ probleminin ədalətli həlli; Azərbaycanın bölgədə və dünyada rolunun və nüfuzunun yüksəldilməsi; Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı; nəqliyyat-kommunikasiya, energetika və sosial obyektlərin güclü infrastruktur şəbəkəsinin yaradılması; qeyri-neft sektorunun inkişafı; müasir texnologiyaların Azərbaycana gətirilməsi; yoxsulluğun və işsizliyin aradan qaldırılması. Hər biri ayrı-ayrılıqda istənilən dövlət adamının aktivinə böyük hərflərlə yazıla biləcək bu vəzifələrin yerinə yetirilməsi öz növbəsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil demokratik dövlət quruculuğu prosesinin yeni tarixi şəraitdə davam etdirilməsini, dəyişən dünyanın tələblərinə uyğun səmərəli dövlət idarəçiliyinin tətbiqini zəruri edir.

Bütün sahələrdə öz həyati gücünü və effektivliyini sübut etmiş Heydər Əliyev kursunun davam etdirilməsi, Azərbaycanın da iştirakçısı olduğu qloballaşma şəraitində bu siyasətin əsas prinsiplərinin yaradıcı şəkildə istifadə olunması Prezident kimi İlham Əliyevin fəaliyyətini səciyyələndirən başlıca göstəricidir. O, özü də xüsusi olaraq qeyd edir ki, hər hansı bir məsələ barədə qərar qəbul edərkən mən düşünürəm ki, Heydər Əliyev bu halda necə hərəkət edərdi, bu problemə onun münasibəti necə olardı. "CNN-Türk" kanalına müsahibəsində dediyi kimi, "Heydər Əliyev siyasəti, strateji xətti Azərbaycan xalqının, zamanın, məntiqin tələbidir. Bu siyasətin əsas mahiyyəti ondadır ki, o, Azərbaycanın milli maraqları zəminində qurulur, Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmalıdır." Prezident qeyd edir ki, bütün sahələrdə - beynəlxalq, siyasi, sosial, regional istiqamətlərdə Heydər Əliyevin siyasi xətti ölkəmizi yeni mərhələyə gətirib çıxarmış, möhkəmləndirmiş, beynəlxalq aləmdə onun mövqelərini gücləndirmiş və iqtisadi potensialını artırmışdır. Məhz bu yol bizi yeni-yeni qələbələrə aparacaq.

Dövlət müstəqilliyinin qorunması, milli maraqların müdafiəsi üçün heç bir xarici təsirə yol verilmədən aparılan siyasət, Azərbaycanın regionda və dünyada nüfuzunun yüksəldilməsi-bunlar XXI əsrin əvvəlində müstəqil Azərbaycan dövlətinin siyasətini xarakterizə edir. Bu xətt mühüm beynəlxalq məsələlərə dair ölkəmizin mövqeyində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə yanaşmada, mürəkkəb siyasi problemlər yaşayan qonşu dövlətlərlə münasibətlərdə, enerji resurslarından istifadədə, xarici şirkətlərlə bağlanan müqavilələrdə və sair məsələlərdə aydın təzahür edir. Dağlıq Qarabağ münaqişəsinin həlli yolları haqqında danışarkən Prezident həmişə vurğulayır ki, biz ölkənin ərazi bütövlüyünü şübhə altına alan, onun suverenliyini pozan hər hansı nizamlama modelini qəbul etməyəcəyik. Bir-biri ilə gərgin münasibətləri olan, regionda maraqları kəsişən əksər dövlətlərin hər biri ilə (ABŞ-İran, Rusiya-Gürcüstan) Azərbaycan dostluq və konstruktiv əməkdaşlıq münasibətlərindədir və bir dövlətin siyasi, strateji, iqtisadi və sair maraqlarına görə digəri ilə əlaqələrə yenidən baxmaq niyyətində olmadığını bildirir. ABŞ Konqresinin Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsini maliyyələş-

dirməkdən imtina etməsinə rəğmən Azərbaycan Türkiyə və Gürcüstanla birlikdə onun tikintisində israrlı olduğunu bildirir, yeni maliyyələşmə mənbələri axtarıb tapır. Yaxud Azərbaycanda işləyən hər hansı xarici şirkət öhdəliklərini pozursa, Azərbaycan hökuməti ölkənin iqtisadi mənafelərini əsas götürərək və digər mülahizələri rədd edərək yeni investorlarla danışıqlar aparır. Bu qəbildən çox misallar gətirmək olar. Prezident bildirir ki, "Azərbaycan öz müstəqilliyini çox qiymətləndirir. Müstəqillik hansısa rəsmi atributlarla ölçülmür. Dünyada bir çox ölkə var ki, onun atributları mövcuddur, amma müstəqil siyasət apara bilmir. Azərbaycanın xoşbəxtliyi ondadır ki, biz bundan azadıq."(İlham Əliyev, Azərbaycan, 26.05.05). Bu baxımdan özünü fəxrlə başqa dövlətin "forpostu" adlandıran işğalçı Ermənistanın vəziyyəti doğrudan da acınacaqlıdır. İqtisadi, siyasi və kommunikasiyalar cəhətdən qonşu dövlətlərdən tamamilə asılı olan bu ölkə öz təcavüzkar siyasətinin girovuna çevrilmişdir. Bu məsələyə Azərbaycan Prezidentinin münasibəti də maraqlıdır: "Bizim qonşuluğumuzda başqa ölkələr var ki, adı müstəqildir, özü müstəqil deyil, başqa qüvvələrin, dairələrin, ölkələrin iradəsi ilə oturub-durur. Bizdə əsl müstəqillik var, öz siyasətimizi yalnız və yalnız xalqın iradəsinə, istəyinə əsaslanaraq həyata keçiririk. Heç kim bizə təsir edə bilməz."[1]

İlham Əliyevin bəyan etdiyi "Mən bütün azərbaycanlıların prezidenti olacağam" sözləri də özünü dövlət başçısının fəaliyyətinin bütün istiqamətlərində-regionların inkişafına dair Dövlət Proqramında, sosial məsələlərə aid qəbul olunmuş qərarlarda, kadr təyinatlarında, milli-etnik qrupların və dini icmaların təmsilçilərinə münasibətdə tamamilə təsdiqini tapır. Regionların inkişafı üzrə Dövlət Proqramı ölkənin bütün rayonlarının sosial-iqtisadi və mədəni cəhətdən yeniləşməsini, infrastruktur obyekt-

[1] "Azərbaycan" qəzeti, 9 iyul 2005-ci il.





lərinin yaradılmasını nəzərdə tutur. İqtisadi və sosial problemlərə dair qəbul edilən qərarlar, bir tərəfdən, sahibkarlığın müdafiəsinə, onların işinə qanunsuz müdaxilələrin qarşısının alınmasına, digər tərəfdən, bazar iqtisadiyyatı şəraitində əhalinin sosial yardıma ehtiyacı olan aztəminatlı hissəsinin ehtiyaclarının təmin edilməsinə yönəlmişdir, üçüncü bir tərəfdən bütövlükdə vətəndaşların sosial rifahının yaxşılaşdırılması üçün davamlı və təsirli tədbirlər görülür. Nəticədə ən müxtəlif təbəqələri və sosial qrupları təmsil edən vətəndaşlar İlham Əliyevi öz prezidenti hesab edir, onun siyasətini birmənalı müdafiə edirlər. Yüksək vəzifələrə kadr təyinatında da regional və etnik mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların potensialından istifadə olunur. Bu münasibəti Prezident qədim Xınalıq kəndinin sakinləri ilə görüşdə çox dəqiq ifadə etmişdir: "Azərbaycan nə qədər zəngin ölkədir: həm təbii ehtiyatlar, həm gözəl təbiət, həm də insanların-millətlərin, etnik qrupların müxtəlifliyi. Biz Azərbaycanda bir ailə kimi yaşayırıq. Hər bir Azərbaycan vətəndaşı mənim qardaşımdır."[1]

Azərbaycan Prezidenti müasir idarəçilik tələblərinə uyğun olaraq cəsarətli və praqmatik kadr islahatları həyata keçirir. Onun kadrlara münasibəti həm tələbkar, həm də qayğıkeşdir: "Ölkəmizə yeni, müasir düşüncəli, istedadlı, mütərəqqi kadrlar lazımdır. Hər bir məsul vəzifədə, hər bir sahədə geniş dünyagörüşü olan, dünyada gedən proseslərə bələd olan, müasir təfəkkürlü insanlar ön plana çıxmalıdır. " "Harada işlər yaxşı gedir, kömək edəcəyəm, əlavə vəsait ayrılacaq və ondan sonra rayonun infrastrukturunun yeniləşməsi, sosial problemlərin həlli üçün lazımi tədbirlər görüləcəkdir."

Dövlət idarəetmə orqanlarının ən müxtəlif səviyyələrində aparılan kadr islahatları, əksər idarələrdə işə qəbul üçün test sisteminin tətbiqi bu istiqamətdə atılan əməli addımlardır. "Biz

[1] "Azərbaycan" qəzeti, 8 oktyabr 2006-cı il.

kadrların formalaşması işinə çox böyük diqqət yetiririk. Azərbaycanda təhsil proqramları prioritet xarakter daşıyır. Kadr hazırlığı sahəsinə yatırılan sərmayələr uzunmüddətlidir və onların nəticəsində müasir iqtisadi bilik və bacarığa malik olan çox peşəkar insanlar yetişəcəkdir."[1]

İlham Əliyev idarəçilikdə vahid komanda prinsipini əsas götürür, iqtidar daxilində yekdillik və monolitlik olması qayğısına qalır, dövlət adamlarının siyasətlə məşğul olması hallarının qarşısını qətiyyətlə alır. O, bildirir ki, nazirlər dövlət siyasətinin icrası və təbliği ilə məşğul olmalıdırlar. Kim müstəqil siyasətlə məşğul olmaq istəyirsə, istefa verərək cəmiyyətdə yaradılmış demokratik imkanlar çərçivəsində bunu edə bilər. Məhz Prezidentin bu mövqeyinin nəticəsində hakimiyyətdə vahid, yekdil, prinsipial məsələlərdə eyni mövqedən çıxış edən komanda mövcuddur. Bu baxımdan qeyd etməyi vacib hesab edirik ki, guya hakimiyyətdaxili ziddiyyətlər və çəkişmələr olması barədə radikal müxalifət tərəfindən uydurulan və mətbuatda şişirdilən fikirlərin heç bir real əsası yoxdur. Bunlar əslində radikal düşərgə daxilində hökm sürən pərakəndəlik, süstlük və qarşılıqlı ittihamları arxa plana keçirmək məqsədi daşıyır.

Prezident İlham Əliyev müntəzəm olaraq görülən işlərin icrasını yoxlayır, meydana gələn yeni problemləri öyrənir, rayonlara səfərləri zamanı ilk mənbədən, insanlardan əlavə məlumat alır. "Bizim iş üslubumuz belədir: problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq." Belə bir məlumatlılıq, müxtəlif mənbələrdən gələn informasiyaları tutuşdurmaq ona son nəticədə hərtərəfli əsaslandırılmış və effektiv qərarlar qəbul etməyə imkan verir.

[1] "Azərbaycan" qəzeti, 3 iyun 2006-cı il.





Prezident dövlət orqanlarının işində ciddi nizam-intizamı, o cümlədən maliyyə intizamına əməl edilməsini və hesabatlılığı mühüm məsələ hesab edir, nazirləri xalq qarşısına çıxmağa, görülən işlər və planlar barədə məlumat və hesabat verməyə çağırır. "Nazirlərə, hökumət nümayəndələrinə tapşırıq vermişəm ki, mətbuatla işləsinlər, müsahibə versinlər, bizim siyasətimizi izah etsinlər. Azərbaycan reallığını, gerçəkliyini əhaliyə çatdırsınlar."

Dövlət orqanlarının işində şəffaflıq, hesabatlılıq, xalqla əlaqə İlham Əliyevin məmurlar qarşısında qoyduğu əsas tələblərdəndir. Bu baxımdan 2004-cü ilin sentyabrında "Korrupsiyaya qarşı mübarizə haqqında" Dövlət Proqramının qəbul edilməsi, Mədən sənayesində şəffaflıq Beynəlxalq təşəbbüsündə Azərbaycanın yaxından iştirakı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Həm də Prezident bu məsələlərə birtərəfli, diletant yanaşmanı qəbul etmir, korrupsiyanın aradan qaldırılması üçün kompleks tədbirlər görülməsinin vacibliyini vurğulayır. Onun fikrincə, qanunvericiliyin təkmilləşdirilməsi, güclü istehsal potensialının yaradılması, özəl bölmənin inkişafı, insanların gəlirlərinin artması inzibati tədbirlərlə birlikdə korrupsiyanın və onun doğurduğu eybəcər halların aradan qaldırılmasına kömək edəcək. O, hakimiyyət orqanlarının, məmurların vətəndaşların qayğı və ehtiyaclarına diqqətlə yanaşmalı olduqlarını, onların problemlərini həll etmək üçün öz imkanlarından istifadə etmələrini tələb edir, bu tövsiyələrini regionlara səfərləri və görüşləri zamanı dəfələrlə vurğulayır. O, bildirir ki, məmurlara münasibəti onların vətəndaşlarla necə işləmələrindən, onların problemlərini necə həll etmələrindən asılı olacaq.

Xalqla, vətəndaşlarla açıq, səmimi danışıq, problemlərinin köklərinin araşdırılması və xalqa çatdırılması Azərbaycan Prezidentinin iş üslubu üçün səciyyəvidir. Məsələn, bahalaşma ilə əla-

qədər problemi götürək. Bir çox aidiyyəti dövlət qurumları bəzi sənaye və ərzaq mallarının qiymətlərinin artması səbəbləri haqqında danışmağı lazım bilmədikləri halda İlham Əliyev onu doğuran obyektiv səbəbləri açıqladı, bunu dünya bazarında enerji daşıyıcılarının və xammalın qiymətinin artması ilə bağlı olduğunu inandırıcı surətdə izah etdi. Eyni zamanda subyektiv faktorlardan danışdı, bahalaşmanın inhisarçılıq, yersiz yoxlamalarla əlaqəsini göstərdi. Bahalaşmanın və inflyasiyanın insanların həyat səviyyəsinə mənfi təsirini aradan qaldırmaq üçün təkliflər və icra strukturlarına müvafiq göstərişlər verdi. Tezliklə sadə vətəndaşlar Prezidentin müdaxiləsinin real təsirini hiss etdilər.

Məlumdur ki, inkişaf etmiş ölkələr həyatın müxtəlif sahələrini əhatə edən proqramlarla idarə olunur. Qloballaşma və yeni kommunikasiya texnologiyaları şəraitində başqa cür inkişaf mümkün deyildir. Proqramlaşdırmanın əhəmiyyətini yüksək qiymətləndirən İlham Əliyev vacib sahələr üzrə dövlət proqramlarının hazırlanması və tətbiqi məsələlərini daim diqqətdə saxlayır. Prezident bildirir ki, bütün sahələrdə fəaliyyətimizi proqram şəklində qurmalıyıq. "Bütün istiqamətlərdə inkişaf var, ən önəmlisi isə, bütün istiqamətlərdə proqram var. Regionların sosial-iqtisadi inkişafına dair proqram, Bakı qəsəbələrinin inkişafına dair proqram var, icra olunur. Təhsil, səhiyyə sahəsində, bütün başqa sahələrdə proqram var. Biz ancaq bu yolla ölkəmizi daha da möhkəmləndirəcəyik, daha da müasirləşdirəcəyik və Azərbaycanın uzunmüddətli inkişafı əsaslı olacaqdır".[1] Bundan başqa, qəbul edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı", ekoloji vəziyyətin yaxşılaşdırılması haqqında kompleks tədbirlər proqramı, yol infrastrukturunun inkişafı proqramı və bir sıra digər sahələrin perspektiv inkişaf planları görülən işlərin miqyası haqqında əyani təsəvvür yaradır.

[1] "Azərbaycan" qəzeti, 16 sentyabr 2006-cı il.





Prezident ölkədə aparılan islahatlara kompleks şəkildə yanaşır, bildirir ki, iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılmalıdır. "Əgər Azərbaycanda demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaq".[1] İlham Əliyevin fikrincə, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir.

Müasir dünyada gedən prosesləri diqqətlə izləyən İlham Əliyev yeni tarixi şəraitdə ölkənin qarşısında prinsipcə yeni vəzifələr durduğunu bildirir: "İnkişafın ilk illərində Azərbaycanın müstəqil dövlət kimi yaşaması, sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idisə, bu gün qarşımızda yeni tələblər durur: bunlar ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirməkdən ibarətdir".[2]

Azərbaycanda demokratiyanın inkişafı, əsas insan hüquq və azadlıqlarının qorunması, siyasi plüralizmin, söz və ifadə azadlığının təmin olunması Prezident kimi İlham Əliyevin fəaliyyətində mühüm yer tutur. Onun dövlət başçısı kimi fəaliyyətinin üç ili müddətində bu sahədə qəbul edilmiş qərarlar özünün ardıcıllığı, yeniliyi və cəsarətliliyi ilə seçilir. Prezident demokratiyanı birinci növbədə iqtisadi azadlıq, mülkiyyət toxunulmazlığı, məhkəmələrin müstəqilliyi kimi qəbul edir. Qanunun aliliyinin təmin olunması üçün verilən qərarlar, çoxsaylı əfv fərmanları, kütləvi informasiya vasitələrinə dair qanunvericiliyin təkmilləşdirilməsi, İctimai Televiziyanın fəaliyyətə başlaması, 2005-ci il parlament seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlarla əlaqələrin

[1] "Azərbaycan" qəzeti, 3 dekabr 2005-ci il.
[2] "Azərbaycan" qəzeti, 7 iyul 2005-ci il.

gücləndirilməsi, Avropa İttifaqı ilə əməkdaşlığın yeni səviyyəyə qalxması və s. demokratiyanın inkişafı sahəsində görülən tədbirlərin qısa siyahısıdır. Prezident demokratiyanı ilk növbədə qanunun aliliyi kimi qəbul edir, hər hansı qanundan kənar hərəkətlərə, özbaşınalığa yol verilməyəcəyini bildirir. O, xüsusi qeyd edir ki, Avropa Şurası, Avropa İttifaqı kimi təşkilatlarla əməkdaşlıq bizim həyat normalarını Avropa standartlarına yaxınlaşdırmaq, sivil birgəyaşayış və siyasi mübarizə qaydalarını mənimsəmək baxımından əhəmiyyətlidir. İlham Əliyev eyni zamanda Azərbaycana hansısa qərarların kənardan zorla qəbul etdirilməsini, demokratiya idxalını mümkün hesab etmir. 2005-ci il parlament seçkiləri zamanı Prezidentin qətiyyəti, ölkəmizə qeyri-konstitusion mübarizə metodlarını gətirmək cəhdlərinə qarşı sərt mövqeyi, seçki praktikasının təkmilləşdirilməsi haqqında sərəncamı proseslərin demokratik qaydalara uyğun keçməsində böyük rol oynadı. O, insan haqları, demokratiya, dialoq məsələsinə daha geniş prizmadan baxır, cəmiyyətdə əhalinin müxtəlif qrupları arasında sözün geniş mənasında dialoq olduğunu bildirir. İlham Əliyev Azərbaycan müxalifətini sağlam, konstruktiv, vətənpərvər və məsuliyyətli qüvvə kimi görmək istəyir. "Cəmiyyətə sağlam, konstruktiv, bu və ya digər məsələyə hökumətin diqqətini cəlb edə bilən, hökuməti sağlam tənqid edən müxalifət lazımdır."

Beləliklə, İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətinin üç ili, onun dövlət idarəçiliyi prinsipləri və metodları, qəbul olunan əzəmətli və proqram xarakterli qərarlar, onların vaxtında və keyfiyyətlə icra olunması, cəmiyyətdə hökm sürən milli birlik və həmrəylik, iqtidardakı monolitlik və yekdillik belə bir qənaətə gəlməyə əsas verir ki, dövlətin və ölkənin taleyi etibarlı əllərdədir və məhz bu da öz növbəsində xalqımızı firavanlıq və rifaha qovuşduracaqdır.



# III
# AZƏRBAYCAN İQTİSADİYYATI – YENİ İNKİŞAF MƏRHƏLƏSİ

“Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi - ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi”.

“Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir”.

“Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. “Əsrin müqaviləsi”nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya

bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır".

*31 oktyabr 2003-cü il*
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Heydər oğlu Əliyevin***
***andiçmə mərasimindəki nitqindən***

"Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində böyük potensial mövcuddur. Əlbəttə, ölkəmizə sərmayə qoyuluşu haqqında danışarkən, ilk növbədə, neft və qaz sektoru nəzərdə tutulur. Bu da təbiidir. Çünki bu sektor maraqlı tərəfləri daha çox cəlb edir. Deməliyəm ki, iqtisadiyyatın bu sahəsində əldə edilən nailiyyətlər ölçüyəgəlməzdir. Azərbaycanın apardığı siyasət, Heydər Əliyevin neft strategiyası əvvəllər əfsanə kimi görünən düşüncələri reallığa çevirdi. 10 il bundan əvvəl, hətta 5 il əvvəl də əsas boru kəmərinin inşa edilməsi çoxlarına xülya kimi görünürdü. Milyardlarla vəsaitin qoyulması və bu kəmərin tikilməsi nəticəsində neft sənayesinin inkişafının yenidən canlandırılması yuxu kimi görünürdü. Bu gün isə neftin nəqli üzrə ən böyük layihə məhz Azərbaycanda həyata keçirilir. Neftin və qazın nəqli üzrə və neft sahəsinin inkişaf etdirilməsi sahəsində ən irimiqyaslı layihələr Azərbaycanda həyata keçirilir. Bununla, ölkəmiz etibarlı tərəfdaş olduğunu və münasibətləri qiymətləndirməyi bacardığını sübuta yetirdi".

*26 yanvar 2004-cü il*
***Fransanın nüfuzlu işgüzar dairələrinin nümayəndələri ilə görüşündə***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycan öz təbii ehtiyatlarını xarici biznes üçün açıq elan etdi və bu gün dünyanın ən böyük şirkətləri bizimlə birlikdə işləyirlər. Azərbaycan Xəzər dənizində öz neft ehtiyatlarının işlənilməsi sahəsində öncül mövqelərə sahib olmuşdur".

*27 yanvar 2004-cü il*
***Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşdə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Ölkəmiz inkişaf edir, güclənir, ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri geniş miqyasda tətbiq olunur.

Biz sahibkarları qorumalıyıq. Bu, mənim mövqeyimdir, mənim siyasətimdir.

*2 fevral 2004-cü il*
***Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan bazar iqtisadiyyatı prinsipləri ilə irəliləyir. Dünya təcrübəsi bunu göstərir ki, başqa alternativ yoxdur. Yalnız və yalnız bazar münasibətləri prinsipləri əsasında qurulmuş iqtisadiyyat uğurlar əldə edir".

*14 may 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin sədrliyi ilə***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisində müşavirədə nitqindən***

"Bakı-Tbilisi-Ceyhan haqqında çoxlu sözlər deyilibdir. Azərbaycanın gələcəyini çox böyük dərəcədə müəyyən edəcək bir layihədir. Azərbaycana, bölgəyə sülh, əmin-amanlıq gətirə biləcək bir layihədir. Əlbəttə, Azərbaycan bu kəmərdən istifadə edib öz neftini dünya bazarlarına çatdırandan sonra ölkəmiz

daha da inkişaf edəcək, insanlarımız daha da yaxşı yaşayacaq, iqtisadiyyatımız güclənəcəkdir".

*1 iyun 2004-cü il*
***"Xəzər Neft, Qaz, Neftayırma və Neft Kimyası - 2004" XI Beynəlxalq sərgi və konfransının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...dünyada bəlkə də nadir ölkələrdən biridir ki, Azərbaycanda 7 il ərzində iqtisadiyyat orta hesabla ildə 10 faiz artır, işsizlik problemi öz həllini tapır. Mənim bəyan etdiyim prioritet məsələ - Azərbaycanda işsizliyin aradan qaldırılması siyasəti öz nəticələrini tapır. Seçkilərdən keçən 7 ay ərzində 30 min iş yeri açılıbdır. Bu proses davam edir".

*9 iyun 2004-cü il*
***Mingəçevirdə məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda yaradılmış bu gözəl sərmayə mühitindən istifadə edərək həm xarici, həm də yerli sahibkarlar Azərbaycana sərmayə qoyurlar, yeni müəssisələr, fabriklər açırlar. Bu, olduqca əlamətdar bir hadisədir, onu göstərir ki, ölkəmiz inkişaf edir, güclənir və iqtisadiyyatımızın inkişafı düzgün istiqamətdə gedir.

*14 iyul 2004-cü il*
***"AZBENTONİT" MMC-nin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Ölkə iqtisadiyyatı inkişafdadır. 2004-cü ilin birinci yarısında iqtisadiyyatımız 10 faiz artıbdır. Seçkilərdən keçən dövr ərzində Azərbaycanda 40 minə qədər yeni iş yerləri açılıbdır. Bu, bizim iqtisadi siyasətimizin əsas məsələlərindən biridir. Mən çox şadam ki, nəzərdə tutduğumuz bütün planlar yerinə yetirilir".

*27 iyul 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"...bizim üçün ən böyük prioritet qeyri-neft sahəsidir, iqtisadiyyatın şaxələnməsidir. Yeni infrastrukturun, yeni iş yerlərinin yaradılmasıdır. Biz nəhəng sosial-iqtisadi proqramın həyata keçirilməsinə başlamışıq. Regionların inkişafı proqramını həyata keçiririk. Həmin proqram bizə növbəti 5 ildə 600 min iş yeri açmağa ümid verir. Sizə deyə bilərəm ki, oktyabrdakı prezident seçkilərindən sonra 70 min iş yeri açılıbdır, bunun da 50 mindən çoxu daimi iş yerləridir".

*26 avqust 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Bundestaqında nitqindən***

"Ölkəmiz Xəzərin ona məxsus olan sektorunda müxtəlif şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. 25 neft şirkəti ilə 23 neft müqaviləsi imzalanmışdır. Bunların həyata keçirilməsi çərçivəsində ölkəmizə 50 milyard dollardan çox sərmayə qoyulacaqdır. Bu onu göstərir ki, "Əsrin müqaviləsi"ndə Azərbaycanın iqtisadi maraqları tam şəkildə təmin edilmişdir".

*20 sentyabr 2004-cü il*
***Heydər Əliyev adına sarayda "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...indi dövlətin vəzifəsi bu insanlara, fermerliklə, kənd təsərrüfatı istehsalı ilə məşğul olan insanlara daha da yaxşı şərait yaratmaqdan ibarətdir.

*9 noyabr 2004-cü il*

***Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bir il ərzində Azərbaycanda 110 mindən artıq yeni iş yeri açılıbdır ki, onlardan da 70 mini daimi iş yeridir. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində iş yerlərinin açılması prioritet məsələyə çevrilibdir".

*18 noyabr 2004-cü il*

***Azərbaycan-Türkiyə Biznes Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan dünyada çox möhkəm yerini tuta bilmişdir və Azərbaycan dünyada çox etibarlı, ciddi tərəfdaş kimi tanınır.

Azərbaycan bu gün təkcə regionda deyil, dünyada ən dinamik, ən sürətlə inkişaf edən ölkələrdən biridir. İnkişaf sürətinə görə biz, haqlı olaraq, bu liderliyi saxlayırıq".

*22 noyabr 2004-cü il*

***Neft Daşlarının 55-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"2004-cü ildə iqtisadiyyatda müsbət meyillər daha da güclənmişdir. Ümumi daxili məhsul təxminən 10 faiz artmışdır, əhalinin pul gəlirləri təxminən 20 faiz, orta əməkhaqqı 26 faiz artmışdır və bu gün 478 min manat təşkil edir. Yəni ilk dəfə olaraq, Azərbaycanda orta əməkhaqqı təxminən 100 dollara yaxınlaşır, gələn il bunu keçəcəkdir və gələcəkdə sürətlə artacaqdır".

*7 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

Azərbaycan hökuməti özəl sektora daim dəstək verməyə çalışır və biz bunu yalnız sözdə deyil, əməli işimizlə də göstəririk".

*14 dekabr 2004-cü il*

***Londonda "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ölkəmizdə həyata keçirilən nəhəng enerji layihələri xarici sərmayəçilərin hökumətimizə və gələcəyimizə göstərdikləri etimadı bir daha təsdiqləyir, Azərbaycanın sabit və davamlı inkişafına inamlarını artırır".

*25 fevral 2005-ci il*

***Azərbaycan - İtaliya Biznes Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır və hesab edirəm ki, gələcəkdə tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir".

*23 mart 2005-ci il*

***Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Yük Terminalının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...yoxsulluğun azaldılması üçün müasir infrastrukturun yaradılması da vacibdir. Biz bu istiqamətdə də böyük addımlar atırıq. Beynəlxalq maliyyə qurumlarının köməyi ilə Azərbaycanda yol layihələri həyata keçirilir, yeni müasir yollar tikilir, digər infrastrukturun yaranması üçün işlər görülür.

Azərbaycanda iki böyük elektrik stansiyasının tikintisi başlanır. Bu il Azərbaycanın cənub bölgəsində belə stansiyaların quraşdırılması nəzərdə tutulubdur. 2006-cı ildə isə Azərbaycanın bütün regionlarında bu stansiyalar quraşdırılacaqdır".

*12 may 2005-ci il*

***Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının icrasına dair illik konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsindən sonra yeni dövr başlamışdır. Azərbaycanın həm iqtisadi inkişafı daha da sürətlə gedəcək, həm bölgədəki rolu daha da möhkəmlənəcək, həm də bölgədə və dünyada önəmi artacaqdır".

*Bakı, 6 iyun 2005-ci il*

***"Xəzər Neft, Qaz, Neftayırma və Neft Kimyası – 2005" XII Beynəlxalq sərgi və konfransının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Son il yarımda Azərbaycanda 217 min yeni iş yeri yaradılmışdır, onların böyük əksəriyyəti qeyri-neft sektorunda və regionlardadır. Son il yarımda yoxsulluğun səviyyəsi 9 faiz azaldılmışdır".

*14 iyun 2005-ci il*

***9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"İndi minimum əməkhaqqı 125 min manatdır və oktyabrın 1-dən 150 min manat olacaqdır. Onu da xatırlatmaq istəyirəm ki, mən prezident vəzifəsinə seçiləndə Azərbaycanda minimum əməkhaqqı 60 min manat idi".

*21 iyul 2005-ci il*

***2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Mənim də məqsədim ondadır ki, ölkəmiz hərtərəfli inkişaf etsin, bizim iqtisadiyyatımız təkcə neft amilinə bağlı olmasın. Qeyri-neft sektoru inkişaf etsin. İnsanlar öz həyat səviyyəsini yaxşılaşdırsınlar. Minimum əməkhaqqı son il yarım ərzində təxminən 3 dəfə artıbdır. Sentyabr ayından tələbələrin təqaüdləri təxminən 3 dəfə qaldırılacaqdır".

*25 iyul 2005-ci il*

***Qubada Heydər Əliyev parkının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Son illər ərzində sosial məsələlərə göstərilən diqqət maaşların, pensiyaların, tələbələrin təqaüdlərinin qaldırılmasına imkan yaradıbdır. Tələbələrin təqaüdləri 2,5 dəfə qaldırılıbdır. Orta əməkhaqqı sürətlə qalxır. Minimum əməkhaqqı son iki il ərzində 3 dəfə artırılıb.

Azərbaycanda keçən ilin fevral ayında başlanmış regionların sosial–iqtisadi inkişaf proqramının icrası indiyədək 300 minə qədər yeni iş yerinin açılmasına imkan yaradıb və onların əksəriyyəti daimi iş yeridir".

*8 sentyabr 2005-ci il*

***Lənkəran şəhərində ümummilli liderimiz Heydər Əliyevin abidəsinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı - bunlar Azərbaycanın gələcəyini müəyyən edən amillərdir".

*10 sentyabr 2005-ci il*

***Yardımlı rayonunun sakinləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ölkəmiz inkişafdadır. Dünyada ən yüksək iqtisadi inkişaf sürəti Azərbaycandadır, ən yüksək büdcə artımı Azərbaycandadır, əməkhaqlarının ən sürətli artımı Azərbaycandadır".

*11 oktyabr 2005-ci il*

***Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...ölkəmizdə iqtisadiyyat çox sürətlə inkişaf edir. Bütün sahələrdə çox güclü irəliləyiş var. 2005-ci ildə əhalinin pul gəlirləri təxminən 27 faiz artmışdır. Ümumi daxili məhsul da təxminən bu səviyyədədir".

*27 yanvar 2006-cı il*

***Bakı şəhərində yol hərəkəti və nəqliyyat sisteminin vəziyyətinə, inkişaf perspektivlərinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Ümumi daxili məhsul təxminən 27 faiz artmışdır və bu, dünyada görünməmiş bir nəticədir, sənaye potensialı 33 faizdən çox artmışdır. Əhalinin pul gəlirləri 27 faiz, əməkhaqqı 22 faiz artmışdır. Bu böyük artımdır. Nəzərə alsaq ki, minimum əməkhaqqının qaldırılması prosesi 2006-cı ildə də davam edəcək, 2006-cı ilin sonunda Azərbaycanda orta aylıq əməkhaqqı daha da artacaqdır.





Əlbəttə ki, bütün bunlar onu göstərir ki, bizim iqtisadi siyasətimiz çox uğurludur, məqsədyönlüdür, düşünülmüş konsepsiya şəklində aparılır və belə olan təqdirdə nəticələr də var. Gətirdiyim bu rəqəmlər gördüyümüz işlərin ən gözəl nümunəsidir".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"İki il bundan əvvəl regionların inkişaf proqramı qəbul olunmuşdur və bu iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır. Bu, bir daha onu göstərir ki, bizim qəbul etdiyimiz proqramlar reallığı əks etdirir. İşlər düzgün qurulanda bütün, hətta ən çətin məqsədlər də həyatda öz əksini tapır".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət, bizim neft strategiyamızın müvəffəqiyyətlə davam etdirilməsi və maliyyə nizam-intizamının möhkəmlənməsi, şəffaflığın təmin olunması bizə imkan verir ki, maliyyə resurslarımız çox sürətlə artsın".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"340 min yeni iş yerinin açılması, yoxsulluğun səviyyəsinin 49 faizdən 29 faizə düşməsi reallıqdır, real nəticədir".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Ötən il iqtisadi artım 26 faizdən çox olmuşdur. Sənaye istehsalı 33 faizdən çox artmışdır. Hazırda biz diqqətimizi əsasən infrastruktur sahəsinə, regional inkişaf proqramlarına və yeni iş yerlərinin açılmasına yönəldirik. Bütün bunlar Yaponiya şirkətləri üçün yeni imkanlar açır və onlar iqtisadiyyatın qeyri-neft sektorunda iştirak edə bilərlər. Hazırda bu, bizim üçün prioritet xarakter daşıyır".

*8 mart 2006-cı il*

***Azərbaycan -Yaponiya İqtisadi Forumunda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"...bildirmək istəyirəm ki, 2005-ci ildə büdcəmiz 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə 2005-ci ilə nisbətən yenə 70-80 faiz artmışdır. Büdcə xərcləri artır, deməli, Azərbaycanda investisiya layihələri icra olunur, insanların rifah halı yaxşılaşır, maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır və qaldırılacaqdır. Minimum əməkhaqqı insanın minimum tələbatını ödəməlidir. Biz buna nail olacağıq".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Bizim dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə çox mühüm rol oynayacaqdır. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirmək - Bakı-Tbilisi-Qars dəmir yolunu işə salmaq indi bizim əsas vəzifəmizdən biridir və buna nail olacağıq.

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycanda xəstəxanalar, məktəblər, elektrik stansiyaları tikilir, qaz kəmərləri, su kəmərləri, yollar çəkilir. Bu inkişaf hər sahəni əhatə edir, cəmiyyətimizin bütün istiqamətlərində özünü büruzə verir. Mən istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin, qısa bir müddət ərzində biz daha da ciddi irəliləyişə nail ola bilək və buna da əminəm. Biz buna nail olacağıq".

*22 mart 2006-cı il*

***Bakıda Novruz Bayramı münasibətilə ümumxalq şənliyində***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkədir. Azərbaycanda gedən proseslər, bölgədə gedən proseslər ölkəmizin mövqelərini möhkəmləndirir. İqtisadi artım baxımından ölkəmiz bu gün dünyada birinci ölkədir. Keçən il Azərbaycanda iqtisadi artım 26 faiz təşkil etmişdir, bu ilin 6 ayında isə 36 faizdir".

*11 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan***
***ölkələrin Turizm Nazirlərinin V Konfransında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycanda qeyri-neft sektoru da sürətlə artır. Neftdən əldə olunan gəlirləri qeyri-neft sektoruna yönəltmək, insan kapitalına çevirmək, humanitar məsələlərin həllinə yönəltmək ki, Azərbaycan hərtərəfli inkişaf etsin və gələcəkdə neft amilindən asılı olmasın, yaxud da bu asılılıq aşağı düşsün".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bir tərəfdən dövlət dəstəyi, digər tərəfdən düşünülmüş siyasət, milli strategiyanın həyata keçirilməsi, xarici sərmayələrin cəlb olunması, ən qabaqcıl texnologiyaların tətbiqi, yerli sahibkarların dəstəklənməsi - bütün bu amillər bizim uğurumuzu şərtləndirəcəkdir".

*3 oktyabr 2006-cı il*

***"Bakutel-2006" XII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi-konfransının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





**AZƏR ƏMİRASLANOV,**
Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının sədr müavini, iqtisad elmləri namizədi

# Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində

Prezident seçkilərindən keçən üç il bizə İlham Əliyevi artıq tamamilə yeni statusda – Azərbaycan Respublikasının Prezidenti olaraq tanımaq, onun idarəçilik prinsiplərinə, dövlətimizin gələcəyi, sosial-iqtisadi inkişaf perspektivləri ilə bağlı fikirlərinə bələd olmaq, iqtisadi quruculuq sahəsində gördüyü işləri, ali dövlət idarəçiliyində ilk addımlarını izləmək imkanı verdi.

Prezidentin üçillik fəaliyyəti təkcə ölkənin sosial-iqtisadi və siyasi həyatı ilə bağlı mühüm işlərin görülməsi ilə yadda qalmadı. Ötən üç il həm Azərbaycanın inkişaf prioritetlərinin müəyyən edildiyi, həm də bu prioritetlər üzrə müəyyən edilmiş vəzifələrin çox dinamik bir şəkildə reallaşdırıldığı, müstəqil və gənc dövlətimizin beynəlxalq arenada özünü təsdiq etdiyi bir dövr oldu. İlham Əliyevin seçkiqabağı platformasının mühüm müddəaları onun prezident kimi imzaladığı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapdı.

## İctimai-siyasi sabitlik və iqtisadi inkişaf

Dövlət quruculuğunun və iqtisadi islahatların davamlı bir şəkildə həyata keçirilməsinin ən mühüm və başlıca şərti ölkədə ictimai-siyasi sabitliyin qorunub saxlanılmasıdır. Hesab edirik ki, ölkə vətəndaşlarının böyük bir əksəriyyəti həm də sabitliyin qorunub saxlanılması naminə öz seçimini İlham Əliyevlə bağlamışlar. Prezident seçkilərindən ötən üç il ölkə vətəndaşlarının bu seçimi etməkdə yanılmadığını bir daha təsdiq etdi.

Ölkəmizdə ictimai-siyasi həyat öz axarı ilə davam edir və sabitliyi ilə xarakterizə olunur. Heç şübhəsiz, ictimai-siyasi sabitliyin qorunub saxlanılmasını həm də əsası qoyulmuş strateji iqtisadi layihələrin reallaşdırılması da tələb edirdi. Artıq icrasına başlanılan bu layihələr də ölkəmizdə ictimai sabitliyin mövcudluğunu və onun möhkəmliyini bir daha təsdiq edir. Ümumiyyətlə, xarici ekspertlər Azərbaycanda müşahidə edilən sabitliyi, dövlətimizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətinin genişlənməsini, ölkənin siyasi rəhbərliyinin çevik və tarazlı diplomatiyaya malik olmasını "imkanlar pəncərəsi" kimi dəyərləndirirlər. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi quruculuq işləri, strateji layihələrin uğurla başa çatdırılması İlham Əliyevin dövlət başçısı kimi yaranmış imkanlardan səmərəli istifadə edə bilmə bacarığını və məharətini nümayiş etdirdi.

## Prezidentin dövlət idarəçiliyi prinsipləri

"Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstəriblər və biz də bu etimadı doğrultmalıyıq..." Bu fikirlərlə cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti olaraq dövlət idarəçiliyi sahəsində özünün əsas prinsipini bəyan etmiş oldu. Az bir müddətdən sonra ölkə başçısı imzaladığı fərmanla dövlət qulluğunun keyfiyyətini daha da yaxşılaşdırmaq, vətəndaşların ərizə və şikayətlərinə vaxtında baxılmasını təmin etmək məqsədilə dövlət orqanlarına müvafiq tapşırıqlar verdi.





Tarixi təcrübə göstərir ki, "Vətəndaşlar dövlətə deyil, dövlət vətəndaşlara xidmət etməlidir" tezisini öz fəaliyyətində rəhbər tutan ölkə başçıları xalqın rəğbətini qazanmaqla yanaşı, həm də demokratik idarəçilik prinsiplərini və ənənəsini inkişaf etdirmiş olurlar. Bundan isə həm dövlət, həm də ölkə vətəndaşları udurlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu prinsipi rəhbər tutması həyata keçirilən idarəetmə islahatlarında məmurların deyil, ölkə vətəndaşlarının maraqlarını və mənafeyini önə çəkməsi ilə müşayiət olunur. Nəticə etibarilə aparılan institusional islahatlar dövlət məmurları tərəfindən ölkə vətəndaşlarına göstərilən xidmətin daha da təkmilləşməsini və yaxşılaşmasını təmin etməkdədir.

Ölkə rəhbərliyi tərəfindən tətbiq edilən idarəetmə texnologiyasının əsas cəhətlərindən biri hər bir məmurun fəaliyyətinin əldə edilmiş konkret nəticələr əsasında qiymətləndirilməsidir. Fəaliyyətin nəticələrə görə qiymətləndirilməsi prinsipi, bir qayda olaraq, dövlət məmurlarının öz işinə daha məsuliyyətlə yanaşması ilə nəticələnir, digər bir tərəfdən də dövlət idarəetmə aparatının daha səmərəli və məhsuldar işləməsinə şərait yaradır. Prezidentimiz həm də hər bir məmurdan məsuliyyətli olmağı, öz xidməti vəzifələrini vicdanla və ləyaqətlə yerinə yetirməyi tələb edir.

İlham Əliyevin prezident seçildiyi dövrdən indiyə kimi Azərbaycanın siyasi hakimiyyət sistemi sabit bir şəkildə idarə edilməkdədir. Ali dövlət idarəçiliyi sistemində iyerarxiya prinsipinə ciddi şəkildə əməl edilməsi, hakimiyyətin icra və qanunverici orqanlarının bir-birini tamamlayan konstruktiv birgə

fəaliyyəti davam etməkdədir. Nəzərə almalıyıq ki, bütün bunlar ölkədə vahid dövlət siyasətinin həyata keçirilməsinin başlıca institusional şərtləridir.

Bu gün idarəetmə sistemində aparılan dəyişikliklər idarəetmə texnologiyasında müasir üsul və formaların tətbiq edilməsinə, bəzi dövlət orqanlarını bürümüş süstlük və ətalətin aradan qaldırılmasına, onların koordinasiyasının daha səmərəli və çevik təşkil edilməsinə, dövlət qulluğunun müasir tələblərə uyğun qurulmasına şərait yaratmaqdadır.

## İqtisadi diplomatiyanın imkanlarından səmərəli istifadə edən Prezident!

İqtisadi diplomatiyanın hansı imkanlara malik olduğunu peşəkar bir səviyyədə qiymətləndirən İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafına, iqtisadi məsələlərə böyük önəm verməsi heç də təsadüfi deyil. Cənab prezident müsahibələrinin birində bildirmişdir: "Hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı güclü olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır". Dövlət başçısının iqtisadi məsələlərə peşəkar və kompitent yanaşması, milli iqtisadi maraqlarımızı hər zaman önə çəkməsi, iqtisadi potensialımızın tam hərəkətə gətirilməsinə yönəlmiş fəaliyyəti iqtisadi diplomatiyanın təsir gücünü daha da artırır.

Azərbaycan Prezidentinin ötən üçillik fəaliyyətinə ümumi nəzər yetirsək, ölkəmizin strateji xarakterli bir çox problemlərinin həllində onun iqtisadi diplomatiyanın imkanlarından maksimum istifadə etdiyini görərik. İlham Əliyev Azərbaycanın iqtisadi potensialını, cəlb olunduğu strateji iqtisadi layihələrin əhəmiyyətini, gözlənilən iqtisadi inkişaf perspektivlərimizi nəzərə alaraq beynəlxalq əməkdaşlıq və regional inteqrasiya məsələlərində, yeridilən xarici siyasət kursunda iqtisadi diplomatiya texnologiyalarından səmərəli istifadə etməkdədir.





Fikrimizcə, Azərbaycanda iqtisadi diplomatiyanın əsası neft strategiyasının hazırlanması və "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyuldu. Neft strategiyasının ardıcıl həyata keçirilməsi isə iqtisadi diplomatiya ənənələrinin inkişafına xidmət etdi. Bu sahədə İlham Əliyevin xüsusi rolunu qeyd etmək lazımdır. İndi bu sahədə görülən işlər onun tərəfindən tamamilə yeni bir statusda – Azərbaycan Respublikasının Prezidenti olaraq davam etdirilir.

Əgər ilkin mərhələdə siyasət, ölkə rəhbərliyinin diplomatik fəaliyyəti iqtisadi maraqlarımızın reallaşmasına xidmət edirdisə də, indi iqtisadi sahədə əldə edilən uğurlar, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi diplomatiya Azərbaycanın siyasi-strateji, milli maraqlarına xidmət etməkdədir. Bu gün Azərbaycanda iqtisadiyyat və siyasət bir-birindən ayrılmazdır və bir-birini çox uğurlu bir şəkildə tamamlayır.

## İslahatçı və sahibkarlığa münasibətdə liberal mövqe tutan Prezident!

İlham Əliyevin prezident statusunda jurnalistlərə ilk müsahibəsində söylədiyi bir fikri xatırlatmaq istərdik: "Hesab edirəm ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə biz üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq". Bəli, Prezident öz fəaliyyətinin ilk günlərindən sahibkarlığın inkişafına nə dərəcədə prioritet verdiyini açıq-aşkar göstərdi. Ölkə başçısı Bakı Biznes Mərkəzinin açılışı zamanı sahibkarlarla görüşərkən təkcə sahibkarlığın inkişafına münasibətdə liberal mövqe nümayiş etdirmədi. O, həm də uzun illərdən bəri Azərbaycanda biznes fəaliyyətinə mane olan bir sıra neqativ halların - haqsız rəqabətə rəvac verən inhisarçılığın, məmur özbaşınalığının, korrupsiyanın və rüşvətxorluğun mövcudluğunu qeyd edərək bu kimi hallarla qətiyyətlə mübarizə aparacağını

bəyan etdi. İlham Əliyev sahibkarlıq sahəsində problemləri aşkarlamaq, özəl sektorun daha da inkişaf etdirilməsi yolunda gələcək vəzifələri bir daha dəqiqləşdirmək məqsədilə sahibkarları açıq müzakirəyə dəvət etdi.

Fikrimizcə, bu görüş təkcə özəl sektora dövlət yardımının təkmilləşdirilməsi istiqamətlərini deyil, həm də dövlət orqanları ilə sahibkarlar arasında sağlam və şəffaf münasibətlərin yaradılması sahəsində vəzifələri dəqiqləşdirməyə imkan verdi. Bu görüşün nəticəsi olaraq ölkə başçısı daxili bazarın qorunması və yerli istehsalçıların dəstəklənməsi, iş adamlarına iqtisadi fəaliyyətə başlamaq üçün hər cür şəraitin yaradılması, qaçaqmalçılıqla mübarizənin gücləndirilməsi, bəzi dövlət qurumlarında, həmçinin məhkəmə orqanlarında rüşvətxorluğun aradan qaldırılması, hüquq-mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsinin dayandırılması, inhisarçılığın, hüquqi şəxslərin dövlət qeydiyyatında yol verilən süründürməçiliyin qarşısının alınması, sahibkarlığın inkişafı üçün kredit təminatının yaxşılaşdırılması, regionların inkişaf etdirilməsi ilə bağlı müvafiq dövlət orqanları qarşısında konkret vəzifələr müəyyən etdi və ötən üç il ərzində bu vəzifələrin ardıcıl olaraq həyata keçirilməsinə başlanıldı.

## Yeniləşən və möhkəm təmələ əsaslanan iqtisadi siyasət

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycanın regionda əsas iqtisadi güc mərkəzi kimi çıxış etməsi Azərbaycan dövlətçiliyinin qorunmasında və möhkəmlənməsində böyük tarixi xidmətləri olan Ümummilli Liderimiz Heydər Əliyevin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur. Heç şübhəsiz, belə bir siyasi impuls, dövlət başçısının siyasi dəstəyi olmadan iqtisadi islahatları ardıcıl həyata keçirmək, iqtisadi quruculuq sahəsində böyük uğurlar əldə etmək mümkün olmazdı.





Xatırladaq ki, İlham Əliyev hələ seçkiqabağı çıxışlarında Heydər Əliyev tərəfindən müəyyən edilmiş ümumi iqtisadi kursun davam etdiriləcəyini bəyan etmişdir. Bəziləri bunu ölkə iqtisadiyyatında heç bir yeniləşmənin olmayacağı, hər şeyin "konservləşdirilmiş" şəkildə qalacağı kimi qiymətləndirirdilər. İlham Əliyev bu fikri təsadüfən söyləməmişdir. Bəli! Bir iqtisadçı kimi biz də hesab edirik ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi kurs davam etdirilməlidir. Çünki bu kurs dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, maliyyə sabitliyinin və iqtisadi artımın qorunub saxlanılmasına, sosial yönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır. Bu iqtisadi kursun davam etdirilməsi ilə iqtisadiyyatda yeniləşmənin olmayacağını zənn edənlər görünür iqtisadi kurs, iqtisadi strategiya və iqtisadi siyasət anlayışlarını kifayət qədər fərqləndirə bilmirlər.

Hazırkı iqtisadi kurs hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. İqtisadi sahədə siyasət tədbirləri isə heç şübhəsiz, iqtisadiyyatın inkişaf dinamikasına uyğun olaraq yeniləşməli və korrektə edilməlidir. Təsadüfi deyildir ki, İlham Əliyev öz çıxışlarında islahatların gedişi prosesində yaranmış yeni iqtisadi şəraitin reallıqlarının nəzərə alınacağını qeyd etmişdir. Bu isə iqtisadi siyasətin ayrı-ayrı istiqamətlərinin yeni dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi deməkdir.

Dövlət başçısı jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: "Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır".

## Konkret proqramlar və konkret hədəflər

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir, görülən iş ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. Ötən üçillik dövrdə İlham Əliyevin məhz məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Konkret olaraq, Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2006-cı illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapdı. Bunlara misal olaraq, aşağıdakıları göstərmək olar:

- "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərman
- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 11 fevral 2004-cü il tarixli fərman





- "Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiq edilməsi barədə" 3 sentyabr 2004-cü il tarixli sərəncam
- "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın təsdiq edilməsi barədə 27 sentyabr 2004-cü il tarixli fərman
- "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 31 may 2005-ci il tarixli fərman
- "2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın hazırlanması haqqında 20 iyun 2005-ci il tarixli sərəncam
- "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 12 sentyabr 2005-ci il tarixli sərəncam
- "Pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi haqqında" 16 sentyabr 2005-ci il tarixli fərman
- "İpoteka kreditləri sisteminin yaradılması haqqında" 16 sentyabr 2005-ci il tarixli fərman
- "Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyalarının İnkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında 21 oktyabr 2005-ci il tarixli sərəncam
- Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında 25 noyabr 2005-ci il tarixli sərəncam

- "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında 27 fevral 2006-cı il tarixli sərəncam
- Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında 25 iyul 2006-cı il tarixli sərəncam
- "Səhiyyə, təhsil, idman və mədəniyyət sahələrində bir sıra müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında" 23 avqust 2006-cı il tarixli sərəncam.

İlham Əliyevin ölkə başçısı kimi iqtisadi sahədə imzaladığı ilk sənəd - "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərman yeni dövrün prioritet istiqamətlərini müəyyən etməklə iqtisadi siyasətin yeniləşdirilməsi sahəsində ilkin addım hesab edilə bilər. İlham Əliyevin iqtisadi komandaya verdiyi ilk tapşırıqların məcmusu kimi qiymətləndirilən bu fərman növbəti mərhələdə müxtəlif sosial-iqtisadi proqramların hazırlanması üçün istiqamətverici rol oynadı.

## Neft strategiyası və iqtisadi inkişaf

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün uğurla həyata keçirilməkdədir. Təkcə son 12 il ərzində neft sektoruna cəlb edilən investisiyaların həcmi 20 milyard ABŞ dolları təşkil edir. Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi artıq başa çatmış, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası üzrə işlər isə sürətlə davam etdirilir. Verilən proqnozlara əsasən 2008-ci ildə xam neft hasilatının 50 mln. ton təşkil edəcəyi, qarşıdakı 20 ildə isə140 milyard ABŞ dolları həcmində neft gəlirlərinin əldə ediləcəyi gözlənilir.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadi inkişafın əsasını qoydu. Birmənalı şəkildə qeyd





etmək lazımdır ki, hazırda neft sektoru ölkənin makroiqtisadi göstəricilərinə, xüsusilə də iqtisadi artım tempinə, sənaye istehsalının, ixracatın və investisiyaların həcminə, büdcə və valyuta gəlirlərinə həlledici təsir göstərməkdədir. Bu təbiidir. İlham Əliyevin qeyd etdiyi kimi neft sektoru hələ müəyyən müddət iqtisadiyyatda böyük paya malik olacaq. Təcrübə göstərir ki, milli iqtisadiyyatını yenicə formalaşdırmaqda olan ölkələrin inkişafı ilkin mərhələdə sənayenin bir və ya iki sahəsindən asılı vəziyyətdə olur.

Dünya ölkələrinin təcrübəsinə *istinadən qeyd etmək olar ki,* hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünməsinə baxmayaraq, dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatları zəngin olan ölkələrdir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasına şərait yaradan səmərəli iqtisadi sistemin yaradılmamasının nəticəsidir. Burada ABŞ-ın 26-cı prezidenti Teodor Ruzveltin bu ölkənin iqtisadi potensialı ilə bağlı söylədiyi fikrini xatırlatmaq yerinə düşür. O demişdir: "Bizim dövlətin böyüklüyü və qüdrəti malik olduğumuz sərvətlərlə deyil, bu sərvətlərdən necə istifadə etməyimizlə müəyyənləşir". Heydər Əliyev də məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə bu gerçəkliyi nəzərə alaraq, neft gəlirlərinin idarə edilməsinin ən effektiv modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin Neft Fondunda toplanılmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadə edilməsini nəzərdə tutur. Xatırlatmaq istərdim ki, məhz bu mexanizmi əsas götürərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı artıq təsdiq etmişdir. Qarşıdakı illərdə milyardlarla valyuta axını gözləyən bir ölkə üçün bu strategiyanın əhəmiyyətini geniş şərh etməyə, yəqin ki, ehtiyac yoxdur.

Neft Fondu neft gəlirlərinin səmərəli idarə edilməsi baxımından mühüm rol oynayır. Bu Fond üç mühüm makroiqtisadi funksiyanı yerinə yetirir: birincisi, neft dollarının ölkənin valyuta bazarına təzyiq göstərməsinə imkan vermir və "holland sindromu" təhlükəsini müəyyən qədər aradan qaldırır; ikincisi, dividendlər hesabına öz həcmini artıraraq yığım funksiyasını həyata keçirir; üçüncüsü, ölkənin maliyyə sistemini "neftsiz iqtisadiyyat rejimi"nə uyğunlaşdırır.

## İqtisadi gücdən hərbi gücə doğru

İlham Əliyev işğal olunmuş torpaqlarımızı erməni təcavüzkarlarından azad etmək üçün istənilən vaxt hərbi gücdən istifadə ediləcəyini bildirir. O, həm də Ermənistanı işğalçı mövqedən çəkindirmək üçün iqtisadi təzyiq üsullarından geniş istifadə edilməsi fikirlərini də səsləndirir. Bu o deməkdir ki, Dağlıq Qarabağ probleminin həllində hərbi güclə yanaşı, iqtisadi gücdən, iqtisadi diplomatiyanın imkanlarından da maksimum istifadə ediləcək.

Prezident İlham Əliyev öz çıxışlarında Ermənistanla Azərbaycan iqtisadiyyatının müqayisəsini heç də təsadüfən aparmır: "Kommunikasiyaların açılmaması, regional proseslərdən kənarda qalması Ermənistana baha başa gələcəkdir. Onlar diasporun köməyinə, hər hansı başqa xarici mənbələrin maliyyələşdirməsinə nə qədər ümid bəsləyə bilərlər? Ölkə özü-özünü dolandıra bilmir. O həmişə xaricdən gələn hansısa maliyyə mənbələrindən asılıdır. Azərbaycan isə ərazilərinin işğal edilməsinə, bir milyon qaçqının olmasına baxmayaraq, inkişaf edir və edəcəkdir." Artıq Azərbaycanın iqtisadi qüdrətinin artması Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlarda Azərbaycanın özünün şərtlərini diqtə etməyə möhkəm əsaslar yaratmaqdadır.

Milli iqtisadiyyatımızın inkişafı və dövlətin maliyyə imkanlarının artması fonunda ordumuzun maddi-texniki bazası da





möhkəmlənir, hərbi xərclərimiz ilbəil artır. Müqayisə üçün qeyd edək ki, dövlət büdcəsində nəzərdə tutulan hərbi xərclərimiz 2006-cı ildə təxminən 700 milyon dollar təşkil etdiyi halda, 2007-ci ilin büdcə layihəsində bu rəqəm 1 milyard ABŞ dolları səviyyəsində planlaşdırılır. Bu isə hərbi büdcəmizin artıq Ermənistanın dövlət büdcəsini üstələməsi deməkdir (Ermənistanın 2006-cı il üçün büdcəsi 982 mln. ABŞ dolları təşkil edib ki, bunun da 117 mln. ABŞ dolları xaricdən alınan qrantlardır). İlham Əliyevin qeyd etdiyi kimi ordu potensialımızın gücləndirilməsi bizim suveren hüququmuzdur və Ali Baş Komandan dövlətimizin ərazi bütövlüyünü və milli maraqlarını qorumaq naminə bu hüquqdan *istifadə edəcəyini açıq bir şəkildə bəyan etmişdir.*

## İqtisadi inkişafın yeni mərhələsi və onun xüsusiyyətləri

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi, strateji iqtisadi laiyhələrin reallaşdırılmasına start verilməsi, dünyada rekord səviyyəyə çatan iqtisadi artım tempinin təmin edilməsi, dövlətin maliyyə imkanlarının genişlənməsi, regionların inkişafı və infrastrukturun bərpası istiqamətində genişmiqyaslı tədbirlərin görülməsi, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, əhalinin həyat şəraitinin tədricən yaxşılaşması, yoxsulluq səviyyəsinin azalması, çoxsaylı iş yerlərinin açılması, milli iqtisadiyyatımızın artıq neft bumu dövrünə daxil olması ilə xarakterizə olunur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu meyillər daha çevik və həssas makroiqtisadi siyasətin, o cümlədən antiinflyasiya tədbirlərinin həyata keçirilməsi, özəlləşmənin "yeni dalğası"nın başlanılması, institusional islahatların və struktur dəyişikliklərinin geniş vüsət alması fonunda baş verir.

Məlum olduğu kimi Azərbaycan hökuməti denominasiyaya başlamaq barədə qərar qəbul etmişdir. Belə bir təşəbbüs ölkədə iqtisadi inkişafın yeni mərhələsinin mahiyyətini və xarakterini bir

daha açır. Bir çox ölkələrdə denominasiya həyata keçirməklə hökumət bir növ iqtisadiyyatın sabitləşdirilməsi və sağlamlaşdırılması prosesinin başa çatdığını bəyan edir və iqtisadi həyatda baş verən müsbət meyillərin dönməzliyinə təminat verərək, bunu rəsmi şəkildə təsdiqləyir. Azərbaycanda da denominasiyaya başlamaq barədə qərar hökumətin ölkənin gələcək iqtisadi inkişafına optimist baxışını ifadə edir. Gələcək inkişafı qeyri-müəyyən olan ölkələrdə bir qayda olaraq hökumət denominasia təşəbbüsü ilə çıxış etmir. Ölkəmizdə isə denominasiyanın həyata keçirilməsi zəruriliyini mövcud iqtisadi reallıqlar şərtləndirmişdir.

Azərbaycan iqtisadiyyatında pozitiv meyillərin dərinləşməsinə baxmayaraq bəzi iqtisadçılar ölkəmizin "holland sindromu" ilə üzləşdiyini, hətta bəziləri daha uzağa gedərək iqtisadi böhran əlamətlərinin olduğunu qeyd edirlər. Halbuki bu gün ölkə iqtisadiyyatında müşahidə edilən inflyasiya, manatın möhkəmlənməsi kimi tendensiyalar iqtisadi böhranın deyil, iqtisadi inkişafın yeni mərhələsinin "fəsadları"dır. İqtisadçılar yaxşı bilir ki, bum dövrünü, yəni sıçrayışlı iqtisadi inkişaf mərhələsini yaşayan ölkələrin hamısı bu cür fəsadlarla üzləşiblər. Ölkə başçısı iqtisadiyyatda neft bumu mərhələsinə ciddi hazırlaşmağın zəruriliyini nəzərə alaraq "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 31 may 2005-ci il tarixli fərman imzalamışdır. Fərmanda dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə olan vəsaitlərin səmərəli idarə olunması və istifadəsi ilə bağlı məsələlərin öz əksini tapması yeni iqtisadi reallıqların nəzərə alınması kimi qiymətləndirilməlidir.

Bu sənəd antiinflyasiya tədbirlərini nəzərdə tutsa da iqtisadi siyasətin demək olar ki, bütün istiqamətləri əhatə olunub. Bunu isə təbii qəbul etmək lazımdır. Əgər fərman yalnız inflyasiyanın azaldılmasına hədəflənmiş olsaydı, bu halda müsbət nəticələrin





əldə edilməsi mümkün olmazdı. Çünki iqtisadiyyatda həll edilməmiş bir çox problemlərin mövcud olduğu şəraitdə yalnız inflyasiya ilə mübarizə aparmaq heç bir nəticə verə bilməz. Fərman nəticənin deyil, inflyasiyanı doğuran amillərin aradan qaldırılmasına yönəldilib.

## İqtisadi artım tempinə görə lider ölkə

Hər bir ölkənin iqtisadi gücü iqtisadi inkişafın ümumiləşmiş göstəricisi olan ÜDM-in artım tempi ilə müəyyən olunur. Ölkəmiz artıq iki ildir ki, iqtisadi artım tempinə görə dünyada lider mövqedədir. Belə ki, 2005-ci ildə ÜDM-in həcmi dünya iqtisadiyyatında 4,9 faiz, ABŞ-da 3,2 faiz, Avropa Birliyində 1,8 faiz, MDB-də 6,5 faiz, Rusiyada 6,5 faiz artdığı halda, ölkəmizdə bu artım 26,4 faizə çatmışdır. 2006-cı ildə isə bu göstəricinin müvafiq olaraq 5,1 faiz, 3,4 faiz, 2,8 faiz, 6,8 faiz, 6,5 faiz və 32 faiz təşkil edəcəyi gözlənilir *(Qrafik 1)*. Sənaye məhsulu

*Qrafik 1*

**ÜDM (əvvəlki ilə nisbətən faizlə)**



istehsalının ilin sonuna 55,2 faiz artacağı proqnozlaşdırılır. Yüksək iqtisadi artımın davamlı xarakter almasının nəticəsidir ki, 2003-2006-cı illərdə ÜDM-in həcmi 2,5 dəfə artmışdır. Qeyd edək ki, Rusiya Hökumətinin ÜDM-i 2 dəfə artırmaq üzrə hədəf göstərici 2000-2010-cu illər üçün nəzərdə tutulmuşdur.

Yüksək iqtisadi artım tempinin təmin edilməsində neft sektoru həlledici rol oynayır və onun rolu gələcəkdə daha da artacaq. Bu meyli dramatikləşdirmək populizmdən başqa bir şey deyil. İstər-istəməz hələ bir müddət neft sektoru ölkə iqtisadiyyatının inkişafında həlledici təsirə malik olacaq. Belə ki, neft sektoru üzrə istehsal həcmi 2005-ci ildə 66,2 faiz artdığı halda, bu rəqəmin 2006-cı ilin sonunda 59 faizə, 2007-ci ildə 45 faizə çatacağı proqnozlaşdırılır. Əgər kimlərsə sadəlövhcəsinə qeyri-neft sənayesinin də bu templə inkişaf etməli olduğunu düşünürsə, tamamilə yanılır. Bununla belə, qeyri-neft sənayesinin bugünkü artım tempi də heç də kiçik rəqəmlərlə xarakterizə olunmur. Belə ki, iqtisadiyyatın bu sektorundakı artım 2005-ci ildə 8,2 faiz olduğu halda 2006-cı ilin sonuna bu göstəricinin 13,5 faizə çatacağı gözlənilir. 2006-cı ilin proqnozlarına görə qeyri-neft sektoru üzrə büdcəyə daxilolmaların 44 faiz artması da bu sektorun artıq inkişaf relslərinə keçməsindən xəbər verir. Bununla belə, iqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə başçısının təşəbbüsü ilə Dövlət İnvestisiya Şirkətinin yaradılması da qeyri-neft sektorunun inkişaf etdirilməsinə xidmət edir.

Özəl sektor ölkənin sosial-iqtisadi inkişafında lokomativ rolunu oynamaqdadır. Bu sektor ÜDM-in 77 faizini, sənaye məhsulunun 69 faizini istehsal edir, məşğul əhalinin isə 70 faizini özündə birləşdirir. Dövlət tərəfindən sahibkarlıq, o cümlədən kənd təsərrüfatı üçün büdcədən ayrılan güzəştli kreditlər ilbəil artmaqdadır.





Azərbaycanda iqtisadi inkişaf həm də investisiya fəallığının artması ilə xarakterizə olunur. 2006-cı ilin sonuna bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşlarının 8,6 mlrd. ABŞ dollarına çatacağı gözlənilir. Hazırda ölkə üzrə ümumi investisiyaların adambaşına düşən həcmi 1030 ABŞ dolları, xarici investisiyaların adambaşına düşən həcmi isə 615 ABŞ dolları təşkil edir. Bu həm MDB, həm də Şərqi Avropa ölkələri içərisində ən yüksək göstəricilərdən biridir.

Azərbaycan investisiya ilə bağlı daha bir göstərici ilə də seçilir. Belə ki, 2005-ci ildə ölkə üzrə investisiya qoyuluşunun ÜDM-də xüsusi çəkisi 57 faizə çatmışdır. Müqayisə üçün qeyd edək ki, bu göstərici Avropa Birliyi üzrə 19 faiz, ABŞ-da 15 faiz, Yaponiyada 30 faiz, Rusiyada isə 22 faiz təşkil edir.

## Artan maliyyə imkanları

Sürətli iqtisadi inkişaf fonunda dövlət büdcəsinin gəlirləri də artmaqdadır. Büdcə gəlirlərinin adambaşına həcmi 2003-cü ildə 148 manat, 2004-cü ildə 181 manat, 2005-ci ildə 245 manat olduğu halda, bu rəqəm 2006-cı ildə 468 manat təşkil etmişdir. 2006-cı ildə 3,9 milyard manat proqnozlaşdırılan büdcə gəlirləri 40 faiz artaraq 2007-ci ildə 5,3 mlrd. manata çatacaq. Müqayisə üçün qeyd edək ki, 2006-cı ildə budcənin gəlir hissəsi təxminən 2 dəfə artmışdır *(Qrafik 2)*. Ümumiyyətlə, 2003-2006-cı illərdə büdcə mədaxilinin orta illik artım tempi 46 faiz təşkil edir.

Büdcə gəlirlərinin davamlı artımı bütün istiqamətlər üzrə, o cümlədən hərbi sahədə xərclərimizi artırmaq imkanı verir. Bununla belə, dövlət büdcəsi sosial və investisiya yönümlü olması ilə xarakterizə olunur. Belə ki, 2007-ci ilin dövlət büdcəsi proqnozuna əsasən büdcə məxaricinin 38 faizini təşkil edən sosial xərclərin 47 faiz, büdcədə 27 faizlik paya malik olan investisiya xərclərinin isə 72 faiz artırılması planlaşdırılır.

*Qrafik 2*

**Dövlət büdcəsinin gəlirləri (milyon AZN)**




Bəzən dövlət büdcəmiz dünyanın ayrı-ayrı ölkələrinin, universitetlərinin büdcəsi ilə müqayisə olunur və onun kiçikliyi qabardılır. Ola bilsin büdcəmizin həcmi hansısa qurumun və ya şirkətin büdcəsindən kiçik olsun. Və yaxud büdcənin həcminə görə hər hansı bir ölkədən geri qalaq. Lakin əsas məsələ büdcənin artım dinamikasıdır. Azərbaycanın büdcəsini ayrı-ayrı universitetlərin və futbol klublarının büdcəsi ilə müqayisə edənlər elə bir ölkə göstərsinlər ki, təkcə 1 il ərzində büdcə gəlirlərini 2 dəfə artırmış olsun. Büdcənin artım dinamikasının davamli xarakter daşıması yaxın gələcəkdə ölkəmizin maliyyə təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycanın strateji valyuta ehtiyatları 2006-cı ilin oktyabrın 1-ə olan məlumatlara görə 3090 milyon ABŞ dolları təşkil edir. Bu ehtiyatların 1521 mln. ABŞ dolları Milli Bankın, 1569 mln. ABŞ dolları isə Dövlət Neft Fondunun payına düşür. Maliyyə təhlükəsizliyi baxımından 3 aylıq idxal səviyyəsində





valyuta ehtiyatları tələb olunduğu halda, rezervlərimiz 9 aylıq idxalın həcminə bərabərdir. Yaxın gələcəkdə neft dolları axını nəticəsində valyuta ehtiyatlarımızın daha da artması gözlənilir.

6-7 il bundan əvvəl Azərbaycanın valyuta ehtiyatlarının 90-95 faizi əsasən BVF və Dünya Bankının kreditləri hesabına formalaşırdısa da, indi bu ehtiyatlar əsasən ixracdan əldə edilən valyuta gəlirlərindən ibarətdir. Ölkəmizin ixrac imkanlarının artması valyuta rezervlərinin formalaşmasında həlledici rol oynayır. Təkcə 2005-ci ildə ticarət balansında yaranan müsbət saldo 3,4 milyard dollar təşkil etmişdir.

Hazırda ölkəmizin xarici borcu 1806 mln. ABŞ dolları təşkil edir ki, bu da ÜDM-in 9,6 faizini təşkil edir. Adambaşına isə bu göstərici 215 ABŞ dolları səviyyəsindədir. Xarici borcun kritik həddən 4 dəfə aşağı olmasına baxmayaraq, hökumət alınmış borcların vaxtından əvvəl qaytarılması təşəbbüsü ilə çıxış edir.

## Sosial siyasət

İqtisadi islahatların indiki mərhələsi özünün sosial yönümlülüyü ilə xarakterizə olunur. Azərbaycanda iqtisadi inkişaf bazar iqtisadiyyatı prinsiplərinə əsaslansa da, o həm də sosial ədalət prinsipi ilə tamamlanır. 2005-ci ildə əhalinin pul gəlirləri 27 faiz, orta aylıq əməkhaqqı 22 faiz artmışdır. 9,6 faizlik inflyasiya şəraitində real gəlirlərin artımı 17,4 faiz təşkil etmişdir. İqtisadi inkişafın sürətləndirilməsi və sosial müdafiə tədbirlərinin gücləndirilməsi nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2004-cü ildəki 40 faizdən 2005-ci ildə 29 faizə enmişdir *(Qrafik 3)*.

İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə ölkəmizdə 450 minə yaxın iş yeri açılmışdır. Ölkə başçısı öz çıxışlarında işsizliyi qarşıda duran ən mühüm problem kimi qeyd edir. O keçmiş müəssisələrin öz fəaliyyətini dayandırmasını işsizliyin əsas səbəblərindən biri kimi göstərir və həmin müəssisələrdəki avadan-

*Qrafik 3*

**Yoxsulluğun səviyyəsi, faizlə**




lıqların fiziki və mənəvi cəhətdən aşındığını, onların istehsal etdikləri məhsullara tələbatın olmadığını və ya bazarın itirildiyini nəzərə alaraq, həmin müəssisələrin bərpa edilməsini deyil, tamamilə yeni müəssisələrin tikilməsini və bu əsasda yeni iş yerlərinin açılmasını məqsədəuyğun hesab edir. Bu tezis təkcə effektiv məşğulluğun deyil, həm də yeni dövrün tələblərini nəzərə alan sənaye siyasətinin "ana xətti" kimi qəbul edilməlidir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması həm də infrastrukturun inkişaf etdirilməsindən asılıdır. Sosial-iqtisadi inkişaf meyilləri mövcud infrastrukturun bərpası və yeni obyektlərin tikintisi ilə müşayiət edilir. Belə ki, məktəb və xəstəxanaların, idman komplekslərinin, mədəniyyət obyektlərinin tikintisi və təmiri davam etməklə bütün bölgələri əhatə edir. Əhalinin elektrik, qaz və su təchizatındakı problemlərini aradan qaldırmaq üçün sistemli tədbirlər həyata keçirilir. Hazırda yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində intensiv işlər görülür.





## Özəlləşdirmənin yeni dalğası

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsinin digər bir xüsusiyyəti özəlləşmənin yeni dalğasının başlanılması ilə bağlıdır. Özəlləşmənin yeni mərhələsinə "Səhiyyə, təhsil, idman və mədəniyyət sahələrində bir sıra müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında" 23 avqust 2006-cı il tarixli prezident sərəncamı ilə start verilmişdir. Sərəncam təkcə özəlləşməni deyil, həm də dövlət sektorunda ciddi islahatların, struktur dəyişikliklərinin aparılmasını nəzərdə tutur. Sosial obyektlərin özəlləşməyə açıq elan edilməsi iqtisadiyyatda, sosial xidmət sferasında ciddi keyfiyyət dəyişikliklərinə, sosial sferanın bazar mexanizmi və prinsipləri əsasında fəaliyyətinə şərait yaratmalıdır.

Bu sərəncam bəzilərinin düşündüyü kimi vətəndaşların sosial maraqlarını kölgədə qoymur. Belə ki, birincisi, özəlləşmənin yeni mərhələsi heç də bütün sosial obyektləri əhatə etmir. Dövlət vətəndaşlar üçün sosial xidmətlərdən istifadə sahəsində seçim imkanı saxlayır. Arzu edən şəxslər dövlət müəssisələrinin xidmətlərindən istifadə edə bilər. İkincisi, əhalinin həyat səviyyəsi təkcə ucuz xidmətlərlə deyil, həm də sosial obyektlərin mövcud vəziyyəti ilə və onların xidmətinin keyfiyyəti ilə müəyyənləşir. Bu baxımdan özəlləşmiş müəssisələrdə sosial xidmət səviyyəsinin yüksəlməsi vətəndaşların maraqlarına cavab verir. Üçüncüsü, nəzərə almaq lazımdır ki, təsirli sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, iqtisadiyyatda dərin kök salmış olan problemlərin, neqativ halların aradan qaldırılmasından asılıdır. Başqa sözlə, ən effektiv sosial siyasət düzgün iqtisadi siyasətdir. Sosial özəlləşmə də vətəndaşların maraqlarına cavab verən əsaslandırılmış iqtisadi siyasət kimi qiymətləndirilə bilər. Dördüncüsü, sosial obyektlərin özəlləşdirilməsi dövlət büdcəsini qeyri-məhsuldar, qeyri-effektiv və bir çox hallarda israfçılığa səbəb olan xərclərdən azad

edəcək və qənaət edilmiş maliyyə vəsaitinin daha vacib sahələrə, o cümlədən əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsinə imkan verəcək.

Nazirlər Kabinetinin 2006-cı ilin I yarısının sosial-iqtisadi yekunlarına həsr edilmiş müşavirəsində İlham Əliyev belə bir fikir səsləndirmişdir: "Biz korrupsiya ilə yalnız inzibati üsullarla mübarizə aparsaq, bunun heç bir nəticəsi olmayacaq. İqtisadi amillərdən, xüsusilə də özəlləşmədən istifadə edilməlidir". Bu mənada özəlləşdirmənin yeni mərhələsi dövlət sektorunda bir sıra neqativ halların aradan qaldırılmasına da öz təsirini göstərəcəkdir.

## Sosial-iqtisadi inkişaf perspektivləri

Siyasi və sosial-iqtisadi quruculuq sahəsində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrilməkdədir. Real iqtisadi bazaya əsaslanan bu perspektivlər bütün fəaliyyət sahələrini əhatə edir.

İqtisadi artımın yüksək tempi nəticəsində ÜDM-in adambaşına düşən həcmi 1992-ci ildəki 180 dollardan 2006-cı ildə 2400 dollara çatmışdır. 2007-ci ildə bu rəqəmin 3048 ABŞ dolları, 2010-cu ildə isə 5000 ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır *(Qrafik 4)*. ÜDM-in adambaşına düşən həcmi həm də həyat səviyyəsini və iqtisadi inkişafı xarakterizə edən göstəricilərdəndir. Dünya Bankının müəyyən etdiyi meyarlara əsasən istehsal edilmiş ÜDM-in adambaşına düşən həcmi 755 dollardan azdırsa həmin ölkə aşağı gəlirli, 756-2995 dollar arasındadırsa orta gəlirli, 2996-9265 dollar arasındadırsa orta səviyyədən yuxarı gəlirli, 9266 dollardan yuxarıdırsa yüksək gəlirli ölkə hesab olunur. Bu meyara əsasən Dünya Bankı ÜDM-in adambaşına düşən həcmi 755 dollardan az olan ölkələrə güzəştli kreditləşmə rejimi tətbiq etmir. Azərbaycanın hazırda malik olduğu rəqəm və iqtisadi artım tempi onu göstərir ki,





*Qrafik 4*

**ÜDM-in adambaşına həcmi**

**(ABŞ dolları ilə)**




ölkəmiz artıq orta gəlirli ölkədən orta səviyyədən yuxarı gəlirli ölkə statusuna keçmək ərəfəsindədir.

Xarici investisiyaların həcmi daxili investisiyalardan 2004-cü ildə 3,3 dəfə çox olduğu halda, 2008-ci ildən etibarən bu nisbət tədricən dəyişəcək və 2010-cu ildə daxili investisiyaların həcmi 10 milyard dollara çatmaqla xarici sərmayəni 5 dəfə qabaqlayacaq. Bu proses bir tərəfdən yerli müəssisələrin sərmayə imkanlarının genişlənməsi və qeyri-neft sektoruna kapital qoyuluşlarının artması, digər tərəfdən də genişmiqyaslı dövlət investisiya proqramlarının həyata keçirilməsi, neft gəlirlərindən gələcəkdə investisiya resursu kimi istifadə edilməsi hesabına təmin ediləcək.

2008-ci ildə ixrac olunacaq Azərbaycan neftinin 50 milyon tona çatacağı proqnozlaşdırılır. 1 barrel neftin qiyməti 35 dol-

lar olduğu təqdirdə qarşıdakı 20 il ərzində Azərbaycanın əldə edəcəyi neft gəlirlərinin 140 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir. Real bazar qiymətlərinə əsaslansaq bu məbləğ 200 milyard dollardan çox ola bilər.

"Şahdəniz" yatağı istismara verildikdən sonra Azərbaycan nəinki qaza olan ehtiyacını ödəyə biləcək, həm də onu Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə strateji məhsul kimi ixrac edəcək.

Azərbaycanda sosial-iqtisadi sahədə görülən genişmiqyaslı işlər həm də mövcud infrastrukturun bərpası və yeni obyektlərin tikintisi ilə tamamlanacaq. Azərbaycanda hər biri 400 meqavat gücündə olan iki elektrik stansiyasının tikilib istifadəyə verilməsi planlaşdırılır. Azərbaycan bundan sonra özünü elektrik enerjisi ilə tam təmin edəcək və enerji təchizatı ilə bağlı problem aradan qaldırılacaq. Hətta gələcəkdə ölkəmiz elektrik enerjisini ixrac etmək imkanlarına da malik ola bilər. 220 km uzunluğunda yeni Bakı-Quba (Rusiya sərhədinədək), 313 km Bakı-Astara, 520 km Bakı-Qazax yolu tikilib istifadəyə veriləcək.

İlham Əliyev əməkhaqqının, pensiya və müavinətlərin artırılması istiqamətində görülən işləri qeyd etməklə yanaşı, bunun kifayət etmədiyini, bu sahədə atılan addımların gələcəkdə də davam etdiriləcəyini vurğulayır. Qeyd edək ki, 2009-cu ilədək orta aylıq əməkhaqqının illik artım tempinin 25 faizdən aşağı olmayacağı proqnozlaşdırılır. Bu müddət ərzində orta illik inflyasiyanın 5-6 faiz həddində saxlanıldığı təqdirdə əhalinin pul gəlirlərinin real artımı üçün əlverişli şərait yaranacaq.

Məlum olduğu kimi BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş "Minilliyin İnkişaf Məqsədləri"nə uyğun olaraq dünya ölkələri 2015-ci ilədək yoxsulluğun səviyyəsini yarıyadək azaltmaq vəzifəsini qarşıya qoyub. Azərbaycan Respublikasının da bu təşəbbüsə qoşulmasına baxmayaraq, ölkəmiz yoxsulluq səviyyəsini qeyd edilən dövrdə deyil, daha qısa bir müddətdə - yaxın 5 il ərzində ən minimal həddə endirmək imkanı qazanacaq.





Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiyanın və siyasətin nəticəsində ölkəmizin iqtisadi gücü və potensialı ilbəil artmaqdadır. Qloballaşma prosesinin geniş vüsət aldığı bir vaxtda hər bir ölkənin iqtisadi dayaqlarının möhkəmlənməsi, rəqabətqabiliyyətliliyinin artması olduqca prinsipial əhəmiyyət kəsb edir. Yeri gəlmişkən xatırladaq ki, 2006-cı ilin hesabatına əsasən Dünya Rəqabətqabiliyyətliliyi İndeksinə görə Azərbaycan 4,06 balla dünyada 64-cü yeri tutub. Müqayisə üçün qeyd edək ki, reytinq cədvəlində Rusiya 62-ci, Ermənistan 82-ci, Gürcüstan 85-ci yerdədir. Hesabat müəllifləri rəqabətqabiliyyətliliyi indeksini ənənəvi olaraq milli iqtisadiyyatın inkişaf səviyyəsinə, hökumətin effektiv fəaliyyətinə, biznesin inkişafına, infrastrukturun mövcud vəziyyətinə əsasən müəyyən ediblər. Heç şübhəsiz, yaxın gələcəkdə qeyd edilən dörd istiqamət üzrə müsbət dəyişikliklərin daha da dərinləşməsi Azərbaycanın rəqabətqabiliyyətliliyi artmasına və reytinq cədvəlində daha yüksək pilləyə qalxmasına imkan verəcək.

## Qarşıdakı vəzifələr

İqtisadiyyatın sürətli inkişafı mövcud olan bir çox problemlərin həllinə şərait yaratsa da qarşıda duran bütün vəzifələri qısa zaman kəsiyində həyata keçirmək qeyri-mümkündür. Ölkə başçısının qeyd etdiyi kimi, elə məsələ var ki, bir gündə həll oluna bilər, elə məsələ də var, bunun həlli üçün bir müddət lazımdır. Bununla belə, Prezident İlham Əliyev bütün istiqamətlər üzrə hökumətin çox fəal işləməsini tələb edir.

Nazirlər Kabinetinin 2006-cı ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında ölkə başçısı belə bir fikir söyləmişdir: "Bütün diqqəti qeyri-neft sektorunun inkişafına, bir də ki, iqtisadiyyatda səmərəliliyin artmasına yönəltməliyik". Əslində sosial-iqtisadi sahədə mövcud olan problemlərin köklü həlli qeyd edilən bu iki vəzifənin uğurla həyata keçirilməsindən bilavasitə asılıdır. Əgər qeyri-neft sektorunun inkişafı yoxsulluğun və işsizliyin azaldılması üçün iqtisadi baza formalaşdırırsa, səmərəli iqtisadi sistem davamlı və tarazlı iqtisadi inkişafa şərait yaradır, milli iqtisadiyyatın rəqabətqabiliyyətini təmin edir, sosial-iqtisadi siyasətin təsir gücünü artırır.

Hazırda isə dövlət qarşısında qaçqın və köçkün ailələrinin problemlərinin həlli, ipoteka şərtlərinin yüngülləşdirilməsi və gənc ailələrin mənzil təminatının yaxşılaşdırılması, pensiya sistemində və kommunal sektorda islahatların aparılması, özəlləşmə prosesinin sürətləndirilməsi, inzibati və iqtisadi üsullarla korrupsiya ilə mübarizənin gücləndirilməsi, artmaqda olan maliyyə vəsaitlərindən səmərəli və şəffaf istifadə edilməsi, antiinflyasiya tədbirlərinin gücləndirilməsi, manatın həddsiz bahalaşmasının qarşısının alınması kimi yerinə yetirilməli mühüm vəzifələr qalmaqdadır.

Ölkəmizdə neft strategiyasının uğurla həyata keçirilməsinə və iqtisadi potensialımızın getdikcə artmasına baxmayaraq, İlham Əliyev arxayınlaşmamağı tövsiyə edir:"Arxayınçılığa yol vermək olmaz. Uğurlarla, ancaq öyünməklə bizim işimiz getməyəcək. Biz hər şeyi deməliyik, uğurları da, nöqsanları da, çatışmayan cəhətləri də - hər şeyi. Belə olan halda, işimiz daha da səmərəli olacaqdır".

Milli iqtisadiyyatını hələ formalaşdırmaqda olan Azərbaycan Respublikası müstəqil və gənc dövlət olaraq iqtisadi dayaqlarını daha da möhkəmləndirməli, yeni iqtisadi düzənin tələb və





şərtlərini özünün sosial iqtisadi həyatında daha çevik nəzərə almalıdır. Azərbaycan xalqı bu vəzifələrin məhz İlham Əliyev tərəfindən daha uğurla həyata keçirilə biləcəyini nəzərə alıb 2003-cü ilin prezident seçkilərində öz seçimini onunla bağladı.

Sonda ulu öndər Heydər Əliyevin söylədiyi bir fikri xatırlatmaq istərdik: "Beş ildən sonra Azərbaycan dünyəvi dövlət, daha yüksək sürətlə inkişaf edən, kifayət qədər güclü iqtisadiyyata və yaxşı həyat səviyyəsinə malik respublika olacaqdır. Bu, həddən çox "əgər"lərdən asılıdır..." Bəli! Ümummilli liderimizin qətiyyətlə söylədiyi nikbin fikirlər artıq özünü doğrultmaqdadır. Müstəqil dövlət quruculuğu və iqtisadi inkişaf yolundakı "əgərlərin" - maneələrin İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıl olaraq aradan qaldırılması "Güclü iqtisadiyyat-güclü dövlət", "Varlı millət-varlı dövlət" prinsiplərinin gerçəkləşməsini təmin etməkdədir. Bu gün inkişaf relsləri üzərində böyük sürətlə irəliləyən Azərbaycan və onun iqtisadiyyatı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da güclənir və öz qüdrətini ilbəil artırır. Biz bu gün dinamik inkişaf edən, beynəlxalq aləmdə nüfuzunu daha da yüksəldən Azərbaycan Respublikasının vətəndaşı olmağı ilə fəxr edir və qürur hissi keçiririk!

# IV

# QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN

"Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, iri-miqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraq-larının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər bey-nəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbay-can beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır".

*31 oktyabr 2003-cü il*
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Heydər oğlu Əliyevin***
***andiçmə mərasimində nitqindən***

"1993-cü ildə seçkilərdən sonra bizim mərhum Prezidentimiz Heydər Əliyev ilk rəsmi səfərini Fransaya etdi. Ona görə də, bugünkü səfər bu ənənənin davamıdır. Düşünürəm ki, bu ənənə uzun zaman yaşayacaqdır".

*26 yanvar 2004-cü il*

***Fransanın nüfuzlu işgüzar dairələrinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ölkələrimiz – Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsini müşahidə etmək bu gün bizim üçün çox xoş və sevindiricidir. Bəli, ölkələrimizin münasibətləri tarixində mürəkkəb, bəzən də dramatik dövrlər olubdur. Xoşbəxtlikdən, bunların hamısı keçmişdə qalmışdır. Azərbaycan və Rusiya prezidentlərinin – Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi, müdrikliyi və uzaqgörənliyi sayəsində qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmət və etimadın belə yüksək səviyyəsinə nail olmuşuq və indi ikitərəfli əməkdaşlıqda uğurlarını, əsasən, bu müəyyənləşdirir".

*7 fevral 2004-cü il*

***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Bu gün inamla demək olar ki, Azərbaycanın regional miqyasda münasibətləri çox müsbət şəkildə təşəkkül tapır. Biz Böyük İpək Yolu, Şərq-Qərb layihələrinin fəal iştirakçısıyıq".

*7 fevral 2004-cü il*

***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Bizim aramızda tam anlaşma var, gözəl başa düşürük ki, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin səviyyəsi Rusiyada yaşayan azərbaycanlıların fəaliyyətinə, həyatına, firavanlığına da çox ciddi təsir göstərir".





*8 fevral 2004-cü il*

***Rusiyadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Qazaxıstanla Azərbaycan dost, qardaş, tərəfdaşdırlar. Bunun nəticəsi olaraq ölkələrimizin yaxınlığı, regionda səylərimizin əlaqələndirilməsi sabitlik, sülh və xalqlarımızın tərəqqisi üçün möhkəm təminatdır".

*1 mart 2004-cü il*

***Lev Qumulyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bütün dövrlərdə Özbəkistanla Azərbaycan arasında qardaşlıq münasibətləri mövcud olmuşdur. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra da münasibətlərimiz sürətlə inkişaf etmişdir".

*23 mart 2004-cü il*

***Dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan ilə Rusiya arasında siyasi münasibətlərin yüksək səviyyəsi iqtisadi əməkdaşlıq üçün geniş perspektivlər açır".

*6 aprel 2004-cü il*

***Birinci Azərbaycan-Rusiya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Türkiyə-Azərbaycan əlaqələri, münasibətləri günü-gündən inkişaf edir, güclənir. Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi,

mədəni – bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir".

*10 aprel 2004-cü il*

***Azərbaycanda Atatürk Mərkəzinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Heydər Əliyevin ifadəsi bu gün burada səsləndi: "Biz bir millət, iki dövlətik". Bu, bir daha onu göstərir ki, o, Türkiyəyə, türk dünyasına nə qədər bağlı idi. Biz bu siyasətə sadiqik, bu siyasəti davam etdirəcəyik".

*14 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Millət Məclisində nitqindən***

"Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır. Biz bu siyasətimizə möhkəm sadiqik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin. Bütün Avropa strukturlarına xas olan standartlara uyğun gəlsin. Budur bizim siyasətimiz və uzun müddətdir onu həyata keçiririk. Bu gün Azərbaycanda baş verənlər bu siyasətin davamının nəticəsidir".

*30 aprel 2004-cü il*

***AŞPA-nın yaz sessiyasındakı iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Bizim yolumuz dünya birliyinə, Avropaya inteqrasiya yoludur. Bu yol artıq sınaqdan keçmişdir. Bu yolla getmiş ölkələr böyük uğurlar qazanmışlar. Azərbaycan öz strateji seçimini 1993-cü ildə etmişdir. Dünya birliyinə, Avropa strukturlarına





inteqrasiya bizim strateji seçimimizdir və biz bu siyasətə sadiqik".

*7 may 2004-cü il*

***Milli Məclisdə ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"...ölkəmiz Avropa ailəsinə daha çox inteqrasiya etməkdən ötrü Avropa məkanının meyarlarına cavab vermək üçün çalışır. Siyasi vəziyyət də müsbət xarakter daşıyır".

Çox zaman belə bir sual çıxır ki, Ermənistan necə olsun? Nəyə görə Ermənistan regional əməkdaşlığın bir hissəsi deyil? Biz regional əməkdaşlığın əleyhdarı deyilik, biz bütün mümkün variantları nəzərdən keçirə bilərik. Erməni işğalçı qüvvələri bizim əraziləri tərk etməlidirlər, ondan sonra iqtisadi əməkdaşlıq baş tuta bilər. Mən düşünürəm ki, bu, məsələyə çox ədalətli baxışdır və regiondakı real şəraiti əks etdirir".

*18 may 2004-cü il*

***Avropa Komissiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycan öz gələcəyini Avropa ailəsinə inteqrasiyada görür. Bu siyasət dəyişməz olaraq qalır və bu, bizim strateji məqsədimizdir. Qeyd etdiyim kimi, bu seçim 10 il əvvəl edilib və Azərbaycan bu illər ərzində tədricən, lakin qətiyyətlə bu istiqamətdə irəliləyir".

*18 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasında çıxışından***

"Bir vaxt ölkəmiz dünyada, bölgədə, regionda gedən bütün proseslərdən təcrid olunmuş vəziyyətdə idi. Azərbaycan müxtəlif ölkələrlə ikitərəfli əlaqələri qura bildi və beynəlxalq aləmin çox dəyərli üzvünə çevrildi. Ölkəmizin mövqeləri möhkəmləndi, Azərbaycan müxtəlif regional və beynəlxalq təşkilatların üzvü olmuşdur və onlarda çox fəal iştirak edir.

Azərbaycan öz gələcəyini dünya və Avropa strukturlarına inteqrasiyada görür. Bu, bizim strateji seçimimizdir və ona sadiqik. Sevindirici haldır ki, beynəlxalq təşkilatlarda Azərbaycana olan münasibət çox müsbətdir".

*27 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***

"Gürcüstan-Azərbaycan dostluğu, birliyi əbədidir, sarsılmazdır. Gürcü və Azərbaycan xalqları həmişə dostluq şəraitində yaşamışlar, həmişə bir-birilərinə kömək etmişlər.

Burada yaşayan azərbaycanlıların taleyi bizi çox maraqlandırır, biz bu məsələyə biganə qala bilmərik. Biz çox istəyirik ki, burada yaşayan azərbaycanlılar Gürcüstan cəmiyyətində daha da yüksək yerləri tuta bilsinlər".

*14 iyun 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfərində nitqindən***

"Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunduqdan sonra mənim ilk xarici səfərim məhz Türkiyəyə olmuşdur. Mən prezident seçiləndən sonra da Türkiyə-Azərbaycan əlaqələrinə





çox böyük əhəmiyyət verirəm və Azərbaycanın müasir siyasətinin prioriteti hesab edirəm".

*28 iyun 2004-cü il*

***İstanbulda Heydər Əliyev adına parkın və Heydər Əliyevin büstünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirir. Ölkəmiz bütün beynəlxalq təşkilatlarda uğurla fəaliyyət göstərir. Azərbaycanın milli maraqlarını müdafiə edir. Ölkəmiz üçün ən başlıca problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan öz mövqeyindən dönmür və dönməyəcəkdir. Bu, ədalətli mövqedir və bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər".

*14 iyul 2004-cü il*

***"AZBENTONİT" MMC-nin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan öz xarici siyasətini çox uğurla həyata keçirir. Xarici İşlər Nazirliyi, bütün səfirliklər daha da fəal işləyəcək, müasir zamanənin tələblərinə uyğun şəkildə çalışacaqlar. Azərbaycanın milli maraqlarını beynəlxalq aləmdə daha da yüksək səviyyədə qoruyacaqlar.

İkitərəfli münasibətlərimizdə mən heç bir problem görmürəm. Qonşu dövlətlərlə münasibətlərimiz inkişaf edir. Bu münasibətlər çox işgüzar zəmində, qarşılıqlı hörmət zəminində qurulubdur. Beynəlxalq strukturlarda, beynəlxalq aləmdə

Azərbaycana olan münasibət çox müsbətdir. Azərbaycana hörmət edirlər, Azərbaycanla hesablaşırlar. Azərbaycan regional məsələlərdə lider dövlətə çevrilir".

*27 iyul 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"Avropa Şurası ilə Azərbaycanın əlaqələri güclənir. Bu təşkilat Azərbaycana böyük diqqətlə yanaşır. Avropa Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş sənədlər həqiqəti əks etdirir. Bu sənədlər beynəlxalq hüquq normaları əsasında qəbul edilmişdir və təbii ki, Azərbaycanın milli maraqlarına cavab verir.

Biz informasiya hücumuna keçməliyik. Avropa Şurasında biz məsələ qaldıranda ki, bu barədə məruzə dinlənilsin, Ermənistan tərəfi bunun əleyhinə çıxırdı. Nə üçün? Bu məsələnin müzakirə olunmasını istəmirdi. Çünki bilirlər ki, əgər müzakirəyə çıxarılarsa, onda hər şey açıq-aydın görünəcəkdir. Hamı da görəcəkdir ki, işğalçı kimdir, işğalın qurbanı kimdir. Ona görə bütün tədbirlərdə, bütün sahələrdə bu məsələnin mahiyyəti açıqlanmalıdır və informasiya sahəsində də güclü olmalıyıq".

*27 iyul 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"...müstəqil ölkə kimi Azərbaycan Avropa strukturlarına daha çox inteqrasiya edəcəkdir. Bu, bizim xarici siyasətimizin elementlərindən biridir. Azərbaycanın Avropa strukturlarına nə dərəcədə inteqrasiya etməsi ölkənin inkişafının göstəricisidir".

*26 avqust 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Bundestaqında nitqindən***

"Hazırkı problemlərin həllinə səmərəli yanaşmanı kollektiv şəkildə tətbiq etmək hər birimizin borcudur. Belə ki, bu, millətlərin davamlı və demokratik inkişafı üçün sabit mühitin yaradılmasına xidmət edə bilər".

*24 sentyabr 2004-cü il*

***BMT Baş Məclisinin 59-cu sessiyasının ümumi müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

Bu gün Azərbaycan fəal surətdə Avratlantik qurumuna inteqrasiya edir. Bizim ölkəmiz Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil olunmuşdur. Biz NATO ilə çox fəal əməkdaşlıq edirik və ilk ölkələrdənik ki, "Sülh naminə tərəfdaşlıq" proqramından sonra NATO ilə fərdi tərəfdaşlıq planı əsasında işləyəcəyik. Azərbaycan bütün digər beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası, MDB ilə və digər qurumlarla sıx işləyərək regional təhlükəsizlik, sabitlik və inkişafa daha çox töhfə verməyə çalışır.

Birləşmiş Ştatlarla bizim münasibətlərimiz strateji tərəfdaşlıq münasibətləridir. Biz uzun illərdir ki, tərəfdaşıq. Bizim çox yaxşı əlaqələrimiz, münasibətlərimiz var, müxtəlif sahələrdə - enerji sahəsində, neft və qazın nəqli sahəsində, təhlükəsizlik məsələlərində əməkdaşlıq edirik".

*25 sentyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkun Kolumbiya Universitetində görüşü zamanı çıxışından***

"Azərbaycanla Bolqarıstan arasında hələ sovet dövründə kifayət qədər sıx əlaqələrimiz olmuşdur. Bu onu göstərir ki, müxtəlif sahələrdə əlaqələrimizin inkişafı və genişlənməsi üçün güclü potensial vardır".

*8 oktyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Bolqarıstan Prezidenti Georgi Pırvanovun şərəfinə rəsmi qəbulda nitqindən***

"Rumıniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Rumıniya onu tanıyan ilk ölkələrdən olmuşdur. Əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addımlar bizə siyasi, eyni zamanda iqtisadi və digər sahələrdə uğurla əməkdaşlıq etməyə imkan vermişdir. Bu əlaqələr həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından yüksək səviyyəyə qalxmışdır".

*13 oktyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri zamanı Rumıniya Prezidenti İon İliyesku ilə danışıqlardan sonra verdiyi bəyanatından***

"...qətiyyətlə deyə bilərəm ki, Rumıniya-Azərbaycan əlaqələri həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından çox sürətlə inkişaf edir".

*14 oktyabr 2004-cü il*

***Buxarestdə Azərbaycan səfirliyinin yeni binasının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Rusiya sizin vətəninizdir, amma bilin ki, Azərbaycan da vətəninizdir. Biz istəyirik ki, Rusiyada azərbaycanlıların həyatı firavan, zəngin, rəngarəng olsun. İstərdik ki, öz tarixi vətəninizlə saxladığınız əlaqələr də möhkəmlənsin".

*19 oktyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayında nitqindən***





"...müstəqil dövlətlər olan Moldova və Azərbaycan sıx əməkdaşlıq etsin, öz aralarında sərfəli şəkildə ticarət etsin, təcrübə mübadiləsi aparsın, inteqrasiya istiqamətlərində işləsinlər. Bizim strateji məqsədimiz Avropa strukturlarına inteqrasiyadır və bu sahədə qarşılıqlı yardım, səylərin əlaqələndirilməsi də çox vacibdir".

*27 noyabr 2004-cü il*

***Moldova Respublikası Prezidenti Vladimir Voroninin Azərbaycana rəsmi səfəri çərçivəsində qəbul zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın Heydər Əliyevin əsasını qoyduğu xarici siyasəti və bu sahədə hələ 1993-cü ildə aydın elan edilmiş strateji məqsədləri dəyişməz olaraq qalır. Bu, xarici sərmayələr üçün açıq qapı, mehriban qonşuluq, Avratlantik strukturlarına inteqrasiya siyasətidir.

Müzakirələr zamanı Ermənistan daim Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu əsas gətirir. Amma biz düşünürük ki, məsələnin bu cür qoyuluşu düzgün deyildir. Çünki ermənilər millət kimi öz müqəddəratını artıq müəyyən ediblər. Onların Ermənistan dövləti var. Nəzərə alsaq ki, bütün dünyada erməni icmaları mövcuddur, onda ermənilərin hər yerdə öz müqəddəratını təyin etməyə başlamasının nə ilə nəticələnəcəyini əvvəlcədən görmək olar. Dünyanın bütün ölkələrində milli azlıqlar var, muxtariyyətlər mövcuddur.

Biz Avropaya inteqrasiya yolunu seçmişik. Mən bunu əvvəldə dedim - biz bu yola tamamilə sadiqik, bu siyasət davam etdirilir, bu yolumuzu sözdə yox, praktiki addımlarda göstəririk. Biz ölkəmizin gələcəyini inteqrasiyada görürük".

*13 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində "Chatham House" klubunda çıxışından***

"Bu gün Azərbaycan regionun ən dinamik inkişaf edən ölkələrindən biridir, Azərbaycan Avropa inteqrasiyası proseslərində yaxından iştirak edir, öz qonşuları ilə regional miqyasda fəal əməkdaşlıq edir.

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər nəinki ikitərəfli planda önəmlidir, həm də bu münasibətlər regional əməkdaşlıq çərçivəsində, hətta daha geniş səpkidə gedən proseslər çərçivəsində böyük rol oynayır və oynayacaqdır. Çox xoşdur ki, indi bu münasibətlər strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır".

*24 yanvar 2005-ci il*
***Azərbaycanda İTAR-TASS günləri iştirakçıları ilə görüşündə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"...ölkələrimiz arasındakı iqtisadi əlaqələr qarşılıqlı anlaşmanın, əməkdaşlığın həm ikitərəfli formatda, həm də Azərbaycan-Avropa Birliyi formatında daha da gücləndirilməsi üçün vacib vasitədir.

İtaliya Azərbaycanı Avropaya inteqrasiya yolunda tam dəstəkləyir. Bizim İtaliya ilə hökumətlər, siyasətçilər, parlament təmsilçiləri səviyyəsində çox gözəl əlaqələrimiz var".

*25 yanvar 2005-ci il*
***Azərbaycan - İtaliya Biznes Forumunda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin çıxışından***

"Çin Xalq Respublikası ilə çox yüksək səviyyəli siyasi əlaqələr mövcuddur. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan bəri biz ikitərəfli səviyyədə çox fəal əməkdaşlıq edirik və bütün məsələlərdə, xüsusən ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələlərində bir-birimizi dəstəkləyirik. Bu





dəstək təkcə ikitərəfli əlaqələrimiz çərçivəsində deyil, beynəlxalq miqyasda, beynəlxalq təşkilatlar çərçivəsində də həmişə özünü göstərir".

*18 mart 2005-ci il*
***Pekində Azərbaycan-Çin Biznes Forumunda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Bizim Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasətimiz uğurla davam etdirilir. Bu müddət ərzində Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasətinə" daxil edilibdir. Azərbaycan NATO ilə yeni fərdi əməkdaşlıq planı üzrə birgə işləyir. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz daha da güclənibdir. Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, İslam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeləri güclənibdir".

*26 mart 2005-ci il*
***Yeni Azərbaycan Partiyasının***
***III Qurultayında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan və Pakistan arasında qlobal və regional məsələlər üzrə ümumi baxışlara əsaslanan sıx və səmimi münasibətlər təşəkkül tapmışdır. İki ölkə hər zaman bir-birinə yardım əli uzatmışdır. Dövlətlərimiz arasındakı əlaqələr böyük əhəmiyyət kəsb edir, dostluq və əməkdaşlığa əsaslanır".

*12 aprel 2005-ci il*

***Pakistan Prezidenti Pərviz Müşərrəfin***
***adından rəsmi qəbulda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin çıxışından***

"Bizim siyasətimizdə Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası önəmli yer tutur. Biz Avropa ilə əməkdaşlığa böyük əhəmiyyət verir, Avropa Birliyi ilə münasibətlərin genişləndirilməsi və təkmilləşdirilməsinə xüsusi diqqət yetiririk".

*13 iyun 2005-ci il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin yekununa həsr olunmuş mətbuat konfransında çıxışından***

"...sizin burada güclü olmağınız Azərbaycanı gücləndirir, Azərbaycanın güclü olması sizi gücləndirir. Gələcəkdə Azərbaycanın haqq sözünü yüksək kürsülərdən deyəcək insanların sayı daha çox olmalıdır".

*15 iyun 2005-ci il*

***Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz Ukrayna ilə ikitərəfli münasibətlərimizə çox böyük əhəmiyyət veririk... Biz uzun illər ərzində dost ölkələr olmuşuq. Çox sıx tarixi əlaqələrimiz var və ən mühümü isə odur ki, müstəqilliyini qazandıqdan sonra ölkələrimiz olduqca uğurlu əməkdaşlıq etmişlər. Həmin əməkdaşlıq indi də davam edir, möhkəmlənir və inkişaf edir".

*16 iyun 2005-ci il*

***Kiyevdə "Fövqəladə Ukrayna dəyirmi masası" adlı Beynəlxalq İnvestisiya Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***





"...biz GUAM-ın inkişafında yeni mərhələyə qədəm qoyuruq. Biz bu təşkilat çərçivəsində vacib iqtisadi layihələri ikitərəfli və çoxtərəfli formatda müzakirə edirik. Hesab edirəm ki, Avropaya inteqrasiya prosesi o vaxt asan olar ki, biz hamımız birgə çalışaq. Biz bu marağı bütün tərəfdaşlarımız və qonşularımız tərəfindən duyuruq".

*16 iyun 2005-ci il*

***Kiyevdə "Fövqəladə Ukrayna dəyirmi masası" adlı Beynəlxalq İnvestisiya Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Dünyada gedən qloballaşma prosesləri, bizim Avropa İttifaqı ilə sıx əməkdaşlığımız, dünyada gedən demokratikləşmə prosesləri artıq təcavüzə əsaslanan siyasəti qəbul etmir və onu inkar edir".

*21 iyun 2005-ci il*

***Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli ilə bağlı müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Azərbaycan öz xarici siyasətini xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir və bu xarici siyasət uğurludur. Bizim bütün qonşularla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda Azərbaycanın nüfuzu və rolu artır".

*25 iyun 2005-ci il*

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqindən***

"Azərbaycanın beynəlxalq təşkilatlarla işbirliyi, əməkdaşlığı daha da möhkəmlənibdir. Uzun illər Azərbaycanın üzv olduğu GUAM təşkilatı indi özünün yeni dövrünü yaşayır və bu, bizi çox sevindirir. GUAM çərçivəsində Azərbaycan çox fəal rola malikdir".

*21 iyul 2005-ci il*

***2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"57 dövləti birləşdirən İslam Konfransı Təşkilatı dünyanın nüfuzlu təşkilatlarından biri olaraq, beynəlxalq münasibətlərdə vacib rol oynayır. Təşkilat ona üzv olan dövlətlərin qarşılaşdığı problemlərin həlli prosesində səmərəli fəaliyyət göstərir".

*7 dekabr 2005-ci il*

***İslam Konfransı Təşkilatının Məkkədə Keçirilmiş Üçüncü Fövqəladə Zirvə Toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın beynəlxalq təşkilatlarda fəaliyyəti də çox müsbətdir. Biz bir sıra beynəlxalq təşkilatların üzvüyük və bu təşkilatlarda öz siyasətimizi ifadə edirik. 2005-ci ildə mən İslam Konfransı Təşkilatının, MDB-nin, GUAM təşkilatının, Avropa Şurasının zirvə görüşlərində iştirak etmişdim və orada apardığım danışıqlar, görülən işlər Azərbaycanı bu təşkilatlarla daha da yaxınlaşdırmışdır".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***





"Biz Azərbaycan ilə Yaponiya arasındakı münasibətlərə olduqca böyük diqqət yetiririk. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik, çox güclü siyasi münasibətlərimiz var. Ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq münasibətlərimizin rəvan inkişafında mühüm rol oynayır".

*8 mart 2006-cı il*

***Azərbaycan -Yaponiya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz istəmirik ki, Azərbaycan digər ölkələrin mübarizəsi yerinə çevrilsin. Azərbaycan elə bir ölkədir ki, orada şirkətlər və dostlar əməkdaşlıq edə bilər və bu, qarşılıqlı fayda üçün edilməlidir. Əgər əməkdaşlıq ruhunda fəaliyyət göstərilsə, hamı bundan bəhrələnəcəkdir. Əgər biz diqqətimizi əsasən öz məsələlərimizə yönəltsək, digər ölkənin, qonşunun daxili işlərinə müdaxilə etməsək, daha təhlükəsiz şəraitdə yaşayacağıq. Bu, bizim fəlsəfəmizdir. Bu, bizim siyasətimizin əsasını təşkil edir və düzgün yoldur".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha da fəal rol oynayırlar. Əlbəttə ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...son iki il ərzində Azərbaycanın 21 səfirliyinin açılması haqqında qərarlar verilibdir. İndi Azərbaycanın müxtəlif ölkələrdə 46 səfirliyi olacaq ki, onların da 21-nin açılması haqqında son iki ildə qərar verilibdir. Azərbaycan öz xarici siyasətini daha da dolğun, hərtərəfli şəkildə aparacaqdır".

*16 mart 2006-cı il*
***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan İslam Konfransı Təşkilatında çox fəaldır və İslam dünyası ilə əlaqələrimiz daha da möhkəmlənir. Bu sahəyə böyük önəm veririk. Müsəlman ölkələrinə mənim səfərlərim və o ölkələrdən qonaqların Azərbaycana səfərləri bizim həmrəyliyimizi daha da möhkəmləndirir. Biz digər təşkilatlarda regional müstəvidə GUAM təşkilatında, MDB-də də fəalıq. Yəni siyasi proseslər, Azərbaycanın artan mövqeləri, artan önəmi və ölkədə gedən demokratikləşmə, xalqla iqtidar arasında olan birlik, vəhdət bizim mövqelərimizi möhkəmləndirir".

*16 mart 2006-cı il*
***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Əminəm ki, Azərbaycan və ABŞ-ın, tərəfdaşlarımız və müttəfiqlərimizin birgə səyləri regionda tamamilə fərqli bir vəziyyətin yaranmasına gətirib çıxaracaq, regionun ümumi inkişafına təsir göstərəcək, geniş siyasi islahatların həyata keçirilməsinə kömək edəcəkdir. ABŞ hökuməti bu məsələlərə böyük diqqət yetirir".

*27 aprel 2006-cı il*
***Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbulda nitqindən***





"ABŞ-la ikitərəfli münasibətlər Azərbaycan üçün prioritet xarakter daşıyır. Ölkəmizin mövqeyi çox açıq və səmimidir. Bu mövqeyə hər hansı bir təsir göstərmək və ya onu dəyişdirmək mümkün deyildir".

*27 aprel 2006-cı il*
***Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbulda nitqindən***

"Bizim Avratlantik məkanına inteqrasiya siyasətimiz olduqca aydındır. Bu, artıq elan edilib və dəyişməz olaraq qalır. Biz NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində işləyirik. Ümid edirik ki, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nin təzə mərhələsi bu yaxınlarda təqdim olunacaqdır. Azərbaycan "Yeni qonşuluq" strategiyasının bir hissəsidir. Avropa İttifaqının hüdudları get-gedə bizim sərhədlərə daha da yaxınlaşır".

*27 aprel 2006-cı il*
***ABŞ-a rəsmi səfər çərçivəsində Beynəlxalq Münasibətlər Şurası ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Biz terrorçuluğa qarşı mübarizədə müttəfiq ölkələrik. Biz ilk günlərdən Birləşmiş Ştatlarla birgə dünyanın müxtəlif yerlərində çiyin-çiyinə olmuşuq və regionda sülhün və sabitliyin bərqərar olunmasına töhfəmizi davam etdirəcəyik".

*29 aprel 2006-cı il*
***ABŞ-a rəsmi səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatından***

"Risklərin azaldılması, uğurlu iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi - bütün bu məsələlər dünyanın inkişafını təmin edə-

cəkdir. Biz çox mühüm və çox həssas bölgədə yerləşirik. Bölgədə münaqişələr, təhlükələr, risklər var. Bu şəraitdə, əlbəttə ki, bizim əməkdaşlığımızdan çox şey asılıdır. Mən şübhə etmirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı öz üzərinə düşən bu vəzifəni şərəflə yerinə yetirəcək, əməkdaşlığımız daha da möhkəmlənəcək, həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu işbirliyimiz bütün bölgəyə çox müsbət təsir göstərəcəkdir".

*5 may 2006-cı il*
***İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə Toplantısının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"GUAM-in Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilata çevrilməsi məntiqi proses olub, regional proseslərin inkişafının bugünkü məntiqi ilə müəyyən edilir. Əsas prioritetlər təşkilatımızın adının özündə ifadə olunmuşdur. Bunlar demokratik təsisatları möhkəmlətmək və eyni zamanda iqtisadi potensialı möhkəmlətməkdən ibarətdir. Müvəffəqiyyətin əsası yalnız bu iki çox mühüm istiqamətin vəhdətində qoyula bilər".

*23 may 2006-cı il*
***Kiyevdə GUAM ölkələri dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...vahid meyarlar, vahid yanaşmalar gərəkdir. Terrorçular kimi, separatçıları da yaxşıya və pisə bölmək olmaz. Separatizm bəladır. Bu bəlanın qarşısı alınmasa, yaxud guya separatizmlə mübarizənin uğurlu təcrübəsi presedentləri yaradılsa, bu, Avropada, dünyada fəlakətli nəticələrə gətirib çıxaracaqdır".

*23 may 2006-cı il*
***Kiyevdə GUAM ölkələri dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Cənubi Qafqaz ölkəsi olan Azərbaycan regionda təhlükəsizlik tədbirlərinə, sülh və sabitliyin möhkəmlənməsinə öz töhfəsini verir. Avratlantik inteqrasiyaya dair siyasətə gəldikdə, Azərbaycan böyük irəliləyişə nail olmuşdur. Bizim NATO ilə tərəfdaşlığımız sürətlə irəliləyir. Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramının ən fəal üzvüdür. Biz əməkdaşlığın səviyyəsindən çox razıyıq və ümid edirik ki, birgə işlərimiz gələcəkdə uğurla davam edəcəkdir".

*30 may 2006-cı il*
***NATO Parlament Assambleyasının yaz sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Asiya regionu dünyanın ən dinamik inkişaf edən regionudur. Bu gün və gələcəkdə onun inkişaf perspektivləri bütün sahələrdə daha səmərəli əməkdaşlıq üçün yeni imkanlar açacaqdır".

*17 iyun 2006-cı il*
***Almatıda "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan regional əməkdaşlıq məsələlərində iştirakına özünün xarici siyasətinin çox mühüm elementi kimi baxır. Biz hesab edirik ki, gələcəkdə Asiya regionunda əməkdaşlıq genişlənəcək, inkişaf edəcək, ölkələrimizin həm iqtisadi potensialı, həm də qarşılıqlı siyasi fəaliyyəti buna təkan verəcəkdir. Biz, öz tərəfimizdən, bütün regional layihələrə fəal qoşulmağa hazırıq və bunlarda iştirak etmək niyyətindəyik".

*17 iyun 2006-cı il*
***Almatıda "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki həqiqət bizim tərəfimizdədir".

*18 sentyabr 2006-cı il*

***Antalyada Türkdilli dövlətlərin və topluluqların X dostluq, qardaşlıq və əməkdaşlıq Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"İslam Konfransı Təşkilatı öz mövqelərini möhkəmləndirir, dünyada gedən proseslərə təşkilatın təsir imkanları artır və əlbəttə ki, bu, bizi çox sevindirir. Aramızda olan qardaşlıq, dostluq əlaqələri, həmrəylik bizi daha da gücləndirir".

*19 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizi narahat edən digər məsələ bəzi ölkələrdə İslama nifrət meyillərinin güclənməsidir. Biz indi sivilizasiyalar arasında dialoqdan çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə dini zəmində ayrı-seçkilik halları artır, İslam dininə mənsub olan insanlara münasibət bəzi hallarda lazımi səviyyədə deyil və bu dini ayrı-seçkiliyə heç cür yol verə bilmərik. Belə olan halda, biz hər hansı bir zəmində - dini, yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik. Mən əminəm ki, İslam Konfransı Təşkilatı ölkələrinin birgə səyləri nəticəsində





biz bütün bu məsələlərə dair öz mövqeyimizi bildirəcək, öz sözümüzü deyəcəyik".

*19 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...son iki il yarım ərzində Azərbaycan Prezidenti Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvü olan ölkələrə rəsmi səfərlər etmişdir. Bu, özlüyündə çox gözəl göstəricidir. Dünyanın aparıcı ölkələri ilə bizim çox səmərəli münasibətlərimiz, bir tərəfdən əlbəttə ki, Azərbaycanın önəmindən xəbər verir, digər tərəfdən şübhəsiz ki, Azərbaycanın düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəlir".

*14 avqust 2006-cı il*

***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın daxilində gedən müsbət proseslər, iqtisadi artım, sosial məsələlərin həlli, regionların sosial-iqtisadi inkişaf proqramı - bütün bunlar Azərbaycanın iqtisadiyyatını möhkəmləndirir və bunun nəticəsində ölkə iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır. Azərbaycan bu göstəriciyə görə bu gün dünyada lider dövlətdir. Digər tərəfdən bizim xaricdəki mövqelərimiz, beynəlxalq təşkilatlarda, ikitərəfli müstəvidə olan fəaliyyətimiz, əlbəttə ki, ölkəmizi daha da möhkəmləndirir, müəyyən risklərdən qoruyur. Bu da çox önəmlidir".

*14 avqust 2006-cı il*

***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan Avratlantik məkanına inteqrasiya istiqamətində çox fəal şəkildə çalışır. Mən artıq qeyd etdim ki, biz Avropa İttifaqının Cənubi Qafqaz ölkələri üçün tətbiq etdiyi "Yeni qonşuluq siyasətinə" daxil edilmişik. NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" üzrə fəal işləyirik. Biz regionumuzda olduqca güclü mövqelərə malikik və hesab edirik, bu, gələcəkdə daha da möhkəmlənəcəkdir".

*27 avqust 2006-cı il*

***"Caspian Outlook-2008" Bled Strateji Forumunda***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...müsəlman ölkələrinin həmrəyliyi, birliyi indiki zəmanədə daha böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirən tarixi əlaqələr, mədəni tellər, siyasi maraqlar, əlbəttə ki, çox önəmlidir. Bizim mövcud çağırışlara birgə cavablarımız, dünyanı əhatə edən böhranlara münasibətlərimiz, qaynar nöqtələrdə baş verən hadisələrə münasibətimiz, əlbəttə ki, dünyada gedən proseslərə çox əhəmiyyətli dərəcədə təsir göstərir".

*11 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin***
***Turizm Nazirlərinin V Konfransında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bir daha demək istəyirəm ki, bizim çox zəngin birgə tariximiz var, bizi birləşdirən İslam dini var, bizim mədəniyyətimiz var. İnsanlarımız bir-biri ilə nə qədər çox təmasda olsalar, bizim üçün bir o qədər də yaxşı olacaq, İslam dünyası bir o qədər möhkəmlənəcək, İslam Konfransı Təşkilatı daha da böyük nailiyyətlərə malik olacaq və bütövlükdə, dünya daha da dolğun şəkildə inkişaf edəcəkdir".

*11 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin***
***Turizm Nazirlərinin V Konfransında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Dünyada qloballaşma prosesləri gedir. Ancaq, eyni zamanda ayrı-seçkilik məsələləri də kifayət qədərdir və biz bunu görürük. Biz bu vəziyyətə özümüzü uyğunlaşdırmalıyıq. Bir-birimizə bağlı olmalıyıq, bir-birimizin əlini möhkəm tutmalıyıq ki, gücümüz daha da artsın. Bu gün türk dünyasının çox böyük potensialı var".

*18 sentyabr 2006-cı il*

***Antalyada Türkdilli dövlətlərin və topluluqların***
***X dostluq, qardaşlıq və əməkdaşlıq Qurultayında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın öz maraqları var. Bu gün Fransanın Baş naziri bildirdi ki, avropalıların maraqları onlar üçün ilkin əhəmiyyət daşıyır. Mən bu fikri dəstəkləyirəm. Avropalılar üçün bu, düzgün yanaşmadır. Bununla yanaşı, Azərbaycan üçün də onun maraqları ilkin əhəmiyyət daşıyır. Ermənistan tərəfindən pozulmuş ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın marağındadır. Avropanın da region ilə bağlı öz maraqları var. Bu maraq da enerji mənbələrinin şaxələndirilməsi və regionun təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Gəlin, bunların hamısını birləşdirək. Bu halda, əməkdaşlığımız hər iki tərəfə fayda gətirəcəkdir".

*22 sentyabr 2006-cı il*

***Berlində "Beynəlxalq Bertelsmann-2006" Forumunda***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

**NOVRUZ MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidentinin
İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri,
birinci dərəcəli dövlət müşaviri, səfir

# Qloballaşan dünyada Azərbaycanın hücum xarakterli praqmatik xarici siyasət kursu

Xalqımızın tarixinə əlamətdar hadisə kimi daxil olan 15 oktyabr prezident seçkilərindən keçən üç il ərzində Azərbaycanda gedən dinamik inkişaf müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində layiqli yerini və mövqeyini daha da möhkəmləndirmişdir. Ötən dövrdə ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünya dövlətləri və beynəlxalq təşkilatlarla əlaqələri milli mənafelərə əsaslanan xətlə inkişaf etmişdir. Prezident İlham Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Prezident İlham Əliyev bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında münasibətlərin inkişaf etdirilməsi, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulması, dünya birliyinə, Avratlantik strukturlara inteqrasiyası istiqamətində mühüm addımlar atmışdır. Bu məqsədlərlə dövlətimizin başçısı ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Türkiyə, Rusiya, Belçika, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Slovakiya, Sloveniya, Xorvatiya, Bolqarıstan, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Qətər, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Moldova, Latviya və s. dövlətlərə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin genişlənməsinə nail olmuşdur. Azərbaycan Respublikasının Prezidentinin İslam ölkələrinə səfərləri respublikamızın müsəlman dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Prezident İlham Əliyev Asiya-Sakit okean regionu, Afrika və Amerika qitəsi ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi sahəsində tədbirlər həyata keçirmişdir. MDB ölkələri ilə əlaqələrin dərinləşdirilməsinə xüsusi yer verilmiş, tarixi əlaqələrin yeni müstəvidə inkişafı üçün əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına əhəmiyyətli təsir göstərmişdir.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir. Son üç il ərzində Azərbaycan ilə həmin ölkələr arasında qarşılıqlı münasibətlər inkişaf etdirilmişdir. Bu, planetin ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün aparılan ardıcıl işin müsbət nəticəsidir.

Dövlətimizin başçısının müasir dünyanın ən qüdrətli ölkəsi olan Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri son illərdə sürətlə inkişaf edən ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoymuş və uğurlu nəticələrlə yadda qalmışdır. Səfər zamanı keçirilən müxtəlif səviyyəli görüşlərdə mövcud əlaqələrin perspektivləri, habelə iki ölkənin maraq dairəsində olan digər vacib mə-

sələlər müzakirə olunmuşdur. Azərbaycan və ABŞ prezidentlərinin görüşündə dövlətimizin başçısının Vaşinqtona rəsmi səfərinin çox uğurlu keçdiyi və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün bu səfərin faydalı olduğu bildirilmişdir. Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş Azərbaycanda həyata keçirilən demokratik islahatlara və ölkəmizin beynəlxalq terrorizmə qarşı mübarizədə fəal iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. Səfər zamanı Azərbaycan-ABŞ tərəfdaşlığının möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması, iqtisadi münasibətlərin genişləndirilməsi üçün hüquqi bazanın və yaxşı şəraitin mövcud olduğu qeyd edilmişdir. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həlli, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, habelə regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında geniş fikir mübadiləsi aparılmışdır.

Səfərin yekunları tam əminliklə deməyə əsas verir ki, ABŞ Azərbaycanla mövcud əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır. Bu maraq, ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə zəngin intellektual resurslara malik olması ilə şərtlənir. Ümumi daxili məhsulun 26.4 faizlik artımı ilə 2005-ci ildə inkişaf tempinə görə dünyanın lider ölkəsinə çevrilmiş Azərbaycanda xarici sərmayədarların fəaliyyəti üçün yaradılmış münbit mühit ABŞ-ın iş adamlarının da diqqətini xüsusi cəlb edir. Bu gün ABŞ kapitalının iştirakı ilə Azərbaycanda bir çox şirkətlər fəaliyyət göstərir. "Şevron Yunokol", "Amerada HESS" və "Konoko Filips" şirkətləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisində 13.76 faizlik payla yaxından iştirak edirlər. ABŞ şirkətlərinin Azərbaycanla çoxşaxəli əməkdaşlığa artan marağı həm də son illərdə ikitərəfli iqtisadi əlaqələrdə əldə olunmuş nailiyyətlərlə bağlıdır. 2004-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi təqribən 157.4 milyon ABŞ dolları olduğu halda, 2005-ci ildə bu rəqəm 184.1 milyon dollar təşkil etmişdir.





Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Prezidentimizin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın nüfuzlu ölkələri – Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Belçika, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan, Slovakiya, Xorvatiya, Sloveniya və Skandinaviya ölkələri ilə respublikamız arasında sabit və bərabərhüquqlu əməkdaşlıq münasibətləri inkişaf etdirilmişdir. Ötən illərdə Azərbaycan Prezidentinin Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərinə səfərləri əlaqələrimizin genişlənməsində müstəsna əhəmiyyətə malik olmuşdur. Ölkə başçısının gərgin diplomatik fəaliyyətinin nəticəsi olaraq Azərbaycana Avropa İttifaqının yeni qonşusu statusu verilmiş, enerji dialoqunun başlanması qərara alınmış, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin icrası çərçivəsində enerji və nəqliyyat üzrə altkomitənin yaradılmasına qərar verilmişdir. Bununla yanaşı, Azərbaycanın istər Avropa İttifaqı, istərsə də NATO ilə münasibətlərində tamamilə yeni mərhələ açılmışdır. Hazırda uğurla həyata keçirilən Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı ölkəmizin NATO ilə əlaqələrinin inkişafı prosesində mühüm amilə çevrilmişdir. Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planının işlənib hazırlanması isə Avropa İttifaqı ilə tərəfdaşlığımızın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Avropa ölkələri ilə münasibətlərin inkişafında Tarixi İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının, Ba-

kı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi mühüm yer tutur. Bu nəhəng layihələrin təşəbbüskarı və iştirakçısı kimi Azərbaycan Şərqlə Qərbin qovuşuğunda mühüm rol oynayır.

Dünyanın ən böyük dövlətlərindən biri və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Xalq Respublikası, nəhəng intellektual potensiala malik Yaponiya, həmçinin iqtisadi və elmi-texniki tərəqqi baxımından aparıcı ölkələrdən sayılan Cənubi Koreya Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətimizin şəksiz uğurlarıdır.

Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərdə əldə olunan uğurlar diqqəti xüsusilə cəlb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının paytaxtı Moskvaya səfərləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ölkələrimiz arasındakı münasibətlərə yeni keyfiyyət gətirmişdir. Son illər yaranmış mehriban qonşuluq münasibətlərinin məntiqi nəticəsi olaraq Rusiya respublikamızla əlaqələrin perspektivinə inamla yanaşır, təkcə siyasi-iqtisadi sahədə deyil, həm də humanitar sahədə əməkdaşlığı genişləndirmək niyyətini konkret şəkildə ortaya qoyur. İki ölkə arasında uğurlu dialoq və anlaşma mühitinin yaranması isə qarşılıqlı faydalı münasibətlərin inkişafına təkan verir. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə respublikadır. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın ən etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərinin möhkəmləndirilib daha da genişləndirilməsi, yüksək səviyyəyə qaldırılması Prezident İlham Əliyevin xarici





siyasətinin çox mühüm tərkib hissəsidir. Türkiyəyə rəsmi və işgüzar səfərlər zamanı hər iki tərəfin maraqlarını ifadə edən bir çox məsələlər müzakirə edilmiş, ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinə dair bir neçə sənəd imzalanmışdır. Prezidentlərin Birgə Bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin gələcək inkişafının prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, həm də tərəflərin strateji müttəfiqlik xəttinə sədaqətini ifadə edən çox vacib hüquqi sənəddir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikasının prezidentləri arasında imzalanmış Birgə Bəyanatda bu iki dövlətin etibarlı tərəfdaşlıq əlaqələri qurması ən ciddi nailiyyətlərdən biri kimi qiymətləndirilir. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin bundan sonra da Azərbaycana lazım olan dəstəyi verəcəyi bildirilir. Rəsmi Ankara problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını nizamlama prosesinin ən ümdə şərti kimi dəyərləndirdiyini bəyan edir. Prezidentlərin imzaladıqları sənəddə belə bir qəti mövqenin öz əksini tapması münaqişənin həllində Azərbaycanın maraqlarının nəzərə alınmasının qaçılmaz olduğunu ortaya qoyur. Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərin 2006-cı il oktyabrın 1-də Türkiyə Böyük Millət Məclisinin payız sessiyasının açılış iclasında söylədiyi "Dağlıq Qarabağ problemi həll edilməli və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır" fikri bunu bir daha təsdiq edir.

Azərbaycanın xarici əlaqələrində dost ölkə kimi Pakistanın xüsusi yeri var. Təkcə bir faktı xatırlatmaq kifayət edər ki, Pakistan Türkiyədən sonra milli müstəqilliyimizi tanıyan ikinci ölkə olmuş və bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanla diplomatik münasibətlər qurmamışdır. İki dövlət arasında diplomatik münasibətlər qurulduqdan sonra Bakı ilə İslamabadın təmasları sıxlaşmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin Pakistana, Pakistan rəhbərlərinin və indiki dövlət başçısı general Pərviz Müşərrəfin ölkəmizə səfərləri qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə və bununla yanaşı, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasının yaradılmasına imkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistana uğurlu rəsmi səfəri regional və qlobal məsələlərə münasibətdə eyni mövqe nümayiş etdirən dövlətlərimiz arasında əlaqələrin bütün sahələrdə sürətli inkişafına səbəb olmuş, qarşılıqlı əməkdaşlığın inkişafı üçün yeni imkanlar açmışdır.

Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır. Prezident İlham Əliyevin İrana rəsmi səfəri, İran prezidentlərinin Azərbaycana səfərləri ikitərəfli əməkdaşlığın sürətli inkişafına təkan vermiş, keçirilmiş səmərəli görüşlərdə dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri və əlaqələrin gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etməsinə, əmtəə dövriyyəsinin həcminin ildən-ilə artmasına səbəb olmuşdur. İran Azərbaycanın ixrac-idxal əməliyyatları apardığı əsas dövlətlərdən biridir. Milli iqtisadiyyatımıza sərmayə qoyuluşunda iranlı iş adamlarının payı yüksəkdir. İranlı sərmayədarlar ölkəmizin infrastrukturuna, kənd təsərrüfatına, emal sənayesinə, energetika sektoruna və digər sahələrə investisiya qoyurlar. Qarşılıqlı əlaqələrə yeni, güclü təkan verə biləcək bir sıra inkişaf layihələri artıq gündəlikdədir. Söhbət ilk növbədə, Azərbaycandan keçən Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasından gedir. Ölkəmizin qovşaq rolu oynayacağı bu böyük layihəni reallaşdırmaq üçün Azərbaycan, İran və Rusiya arasında müvafiq razılaşmalar əldə edilmişdir. Mərkəzi və Şimali Avropanı Cənubi Asiya ilə birləşdirəcək dəmiryol xəttinin, eləcə də beynəlxalq əhəmiyyətli avtomobil yolunun işə salınması Azərbaycan-İran əməkdaşlığının genişləndirilməsinə və dərinləşdirilməsinə şərait yaradacaq. İki ölkə arasında elektrik enerjisi mübadiləsinin nizama salınması, eləcə də İrandan Naxçıvana qaz kəmərinin çəkilməsi ikitərəfli əlaqələrin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfədir.





Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrlə də son illər ərzində siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız uğurlu olmuşdur. Hazırda Səudiyyə Ərəbistanı, Pakistan, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya, Küveyt, Qətər, Oman və Bruney ilə bir çox sahələrdə fəal dialoq mövcuddur. Ötən dövrdə Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlər də möhkəmləndirilmişdir. Bu işdə Prezident İlham Əliyevin Qazaxıstan və Özbəkistan Respublikalarına olan rəsmi səfərləri çox mühüm rol oynamışdır. Eyni zamanda Azərbaycanla İsrail dövləti arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir.

Ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik türk xalqları arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin daha da genişləndirilməsi və dünyanın müxtəlif bölgələrində mövcud olan Azərbaycan və türk diaspor təşkilatlarının birgə səylərinin əlaqələndirilməsi sahəsində Prezident İlham Əliyevin rolu xüsusi qeyd olunmalıdır. Bu baxımdan dövlətimizin başçısının Türkdilli dövlətlərin və topluluqların X dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirakı tarixi əhə-

miyyət kəsb etmişdir. İnamla demək olar ki, türkdilli dövlətlərin və topluluqların növbəti dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının, eləcə də Azərbaycan və türk diaspor təşkilatlarının forumunun ölkəmizdə keçirilməsi türk xalqları arasında əməkdaşlığı daha da gücləndirəcək, qarşılıqlı əlaqələri yeni inkişaf səviyyəsinə qaldıracaq və xalqlarımızın mənafelərinin qorunmasında mühüm rol oynayacaqdır.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması və respublikamızın ərazi bütövlüyünün təmin edilməsi ölkəmizin başçısının xarici siyasət fəaliyyətində mühüm yer tutur. Prezident İlham Əliyev xarici ölkələrin dövlət başçıları ilə çoxsaylı görüşlərində, BMT, Avropa Şurası, NATO, İKT, İƏT, GUAM kimi nüfuzlu təşkilatlardakı çıxışlarında bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq, tezliklə aradan qaldırılmasının vacibliyini bildirmiş, Ermənistanın təcavüzkar siyasətini ifşa etmişdir. Azərbaycanın bu məsələdə tarixi ədalətin bərpa olunması üçün qətiyyətli mövqe tutması dünyanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların ölkəmizə dəstəyini daha da artırmışdır. Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində Avropa Şurası Parlament Assambleyasında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması və ermənilərin işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti apararaq separatçı qurum yaratma cəhdinin təsdiqlənməsi, bu məsələnin İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 3-cü fövqəladə zirvə görüşünün və BMT Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə salınması, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının işğal olunmuş ərazilərdə ermənilərin törətdikləri yanğınlarla bağlı qətnamə qəbul etməsi, ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni olaraq məskunlaşdırılmasını etiraf





etməsi Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsi, Ermənistanın təcavüzkar siyasətinin ifşası istiqamətində qazanılan mühüm diplomatik nailiyyətlərdir. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Hazırda intensiv xarakter almış danışıqlar prosesində Azərbaycan Prezidentinin prinsipial və ardıcıl mövqeyi mühüm rol oynayır. Prezident öz qəti mövqeyini belə ifadə edir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir". Prezident İlham Əliyev bu ilin oktyabr ayının 2-də Milli Məclisin payız sessiyasının açılışındakı çıxışında da münaqişə ilə bağlı ölkəmizin mövqeyinin dəyişməz olduğunu bir daha bəyan etmişdir.

Ərazisinin 20 faizinin işğal altında olmasına, əhalisinin hər səkkiz nəfərindən birinin qaçqın taleyi yaşamasına baxmayaraq, Azərbaycan Respublikası Ermənistanın təcavüzünün nəticələrinin danışıqlar vasitəsilə aradan qaldırılmasına çalışır. Azərbaycan beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliyə sadiq qalaraq, bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda fəal iştirak edir. Rəsmi Bakı Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli danışıqlarının (2003-2006-cı illərdə hər iki ölkənin prezidentləri arasında 6 görüş keçirilmişdir) və xarici işlər nazirləri səviyyəsində "Praqa prosesi" adlandırılan danışıqlar prosesinin davamlı xarakter alması üçün səylərini əsirgəmir.

Azərbaycan Prezidentinin xarici siyasət kursunda beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə böyük

diqqət yetirilir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat-GUAM, Parlamentlərarası İttifaq, BMT-nin İnsan Hüquqları Şurasının və digər beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər qurumlarla da sıx əməkdaşlıq edir. Ölkəmiz yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Prezident İlham Əliyev BMT Baş Məclisinin 59-cu sessiyasında, İslam Konfransı Təşkilatının 3-cü fövqəladə zirvə toplantısında, GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kiyev sammitində, NATO Parlament Assambleyasının yaz sessiyasında, "Dialoq və tərəfdaşlıq naminə" Qara dəniz forumunda, Asiyada Qarşılıqlı Fəaliyyətə və Etimad Tədbirlərinə dair Müşavirənin 2-ci sammitində, "Caspian Outlook-2008" Bled Strateji Forumu və "Beynəlxalq Bertelsmann - 2006" forumunda çıxış edərək, ölkəmizin beynəlxalq təşkilatlarla münasibətlərinin daha da inkişaf etdirilməsini dövlətimizin milli mənafelərinin qorunmasında mühüm amil kimi dəyərləndirmiş, konstruktiv əməkdaşlıqda maraqlı olduğunu vurğulamışdır. Ötən dövr ərzində müxtəlif beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycana intensiv səfərləri, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısının, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası və turizm nazirlərinin 5-ci konfransının ölkəmizdə keçirilməsi regional lider kimi Azərbaycanın və onun





rəhbərinin beynəlxalq aləmdə nüfuzunun və rolunun yüksəlməsinin təsdiqidir.

Bu gün Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə fəal mövqe nümayiş etdirir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir. Prezident İlham Əliyevin diplomatik səyləri və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması prosesinə yaxından cəlb edilmiş, dünyanın müxtəlif nöqtələrində olan münaqişələrin aradan qaldırılması istiqamətində sülhməramlı proqramlarda iştirakını genişləndirmişdir. Təsadüfi deyil ki, Hava məkanına hücumlara və digər terror aktlarına qarşı Konvensiyanın Azərbaycan tərəfindən ratifikasiya olunması və ölkəmizin ümumilikdə terrorizmlə mübarizəyə dair 12 beynəlxalq konvensiyanı və protokolu ratifikasiya etməsi beynəlxalq birlik, eləcə də ABŞ Dövlət Departamenti tərəfindən yüksək qiymətləndirilmişdir. Dövlət Departamentinin terrorizmə qarşı mübarizəyə dair hesabatında Azərbaycan hökumətinin terrorçu təşkilatların Qafqaz ərazisindən istifadə etməklə terrorçuların, "çirkli" pulların və digər materialların keçirilməsinin qarşısının alınması sahəsində böyük uğurlar qazandığı vurğulanmışdır.

Prezident İlham Əliyevin xarici siyasət fəaliyyətinin mühüm, strateji tərkib hissələrindən biri kimi Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin olunmasına böyük əhəmiyyət verilir. Bu mənada əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının həyata keçirilməsi baxımından son üç ili ən uğurlu dövr saymaq olar. Belə ki, 2004-cü ilin fevralında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin maliyyələş-

dirilməsi məsələsi tam həllini tapmış, 2005-ci il fevralın 18-də "Əsrin müqaviləsi" çərçivəsində "Mərkəzi Azəri" platforması istismara verilmiş, mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirilmişdir. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Aralıq dənizinin sahilindəki Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan hadisəyə çevrildi. 2006-cı il iyul ayının 13-də Türkiyənin Ceyhan terminalında hər üç ölkənin prezidentinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan kəmərinin tam istismara verilməsi ilə bağlı möhtəşəm tədbir təşkil olundu. Beləliklə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində və Xəzər hövzəsinin inkişafında yeni mərhələ başlanmış, üç dənizin əfsanəsi reallığa çevrilmişdir. Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Azərbaycanın 2004-cü ildə Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülmüş Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulması da bunun bariz göstəricisidir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu, ölkəmizin enerji siyasətinin düzgün və uzaqgörənliklə həyata keçirildiyini, bir daha təsdiqləyir. Bu, Avropanın enerji təhlükəsizliyi ilə bağlı baş verən bəzi proseslərdən sonra özünü daha qabarıq göstərir.

Təsadüfi deyil ki, region dövlətlərinin enerji sahəsində qlobal əməkdaşlığının rəmzinə çevrilmiş Bakı-Tbilisi-Ceyhan kəməri həm də iqtisadi təhlükəsizlik modeli kimi nəzərdən keçirilir. Zəngin neft ehtiyatlarına malik Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulması da bunun əyani təsdiqidir. ABŞ prezidenti Corc Buşun 13-cü Beynəlxalq Xəzər neft-qaz sərgisi və konfransının açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu bunu bir daha təsdiqləyir. "Mən Şərq-Qərb enerji dəhlizinin yaradılmasında Azərbaycanın həyata keçirdiyi vacib liderliyə öz təşəkkürümü bildirirəm. İndi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam fəaliyyətə başladığı, Cənubi Qafqaz qaz kəmərinin isə payızda işə düşəcəyi bir vaxtda Azərbaycan regional iqtisadi inkişafda aparıcı qüvvəyə, Avratlantika ailəsinin enerji təhlükəsizliyinin təminatçısına çevrilməkdədir. Azərbaycanın nümayiş etdirdiyi ardıcıl rəhbərliklə biz gələcəkdə də enerji təhlükəsizliyində davamlı nailiyyətlər əldə ediləcəyini gözləyirik".

ABŞ prezidentinin də məktubunda deyildiyi kimi, son illər ölkəmizdə uğurla həyata keçirilən *neft diplomatiyası* Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDB dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr, eyni zamanda respublikamızın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev respublikamızın enerji təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması üçün geniş imkanların olduğunu böyük inam və qətiyyətlə bildirir: "Təbii sərvətlər imkan verir ki, biz enerji təhlükəsizliyi baxımından heç kimdən asılı olmayaq. Qış aylarında bəzi ölkələrdə yaşanan enerji böhranı göstərdi ki, bu, çox ağır sosial və bəzi hallarda siyasi məsələyə çevrilir. Azərbaycan bu baxımdan sığortalı-

dır. Şübhəsiz ki, bizim enerji təhlükəsizliyimiz çox yüksək səviyyədə təmin olunacaq və Azərbaycan gələcək illərdə bölgə üçün, region üçün, Avropa istehlakçıları üçün çox önəmli enerji mənbəyi olan ölkəyə çevriləcəkdir. Biz bundan məharətlə istifadə etməliyik. Azərbaycanın coğrafi vəziyyəti, onun regiondakı artan nüfuzu, rolu, habelə təbii sərvətlərimiz bizə çox gözəl imkanlar yaradır. Bu imkanlar Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edəcək, eyni zamanda Azərbaycanın bölgədəki və dünyadakı mövqelərini möhkəmləndirəcəkdir".

Prezident İlham Əliyevin həyata keçirdiyi tarazlaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq və regional əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmiş, ölkəmiz transmilli, qlobal enerji-kommunikasiya layihələrinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün ardıcıl səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa müsbət təsir göstərəcəkdir. Digər tərəfdən isə, dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu bu layihələrin reallaşdırılması Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirəcək, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha səmərəli və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərəcəkdir.





Prezident İlham Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin digər bir mühüm prioriteti Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsindən, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq, dövlət başçısının xarici ölkələrə səfərləri zamanı iqtisadi əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmış, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmış, habelə Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünə dair danışıqlar davam etdirilmişdir. Eyni zamanda iqtisadi yönümlü beynəlxalq təşkilatların, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumların mühüm tədbirləri Bakı şəhərində keçirilmişdir.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutur. Dövlətimizin başçısı bəyan etmişdir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının II Qurultayındakı çıxışında diaspor quruculuğu işini xarici siyasət sahəsində üstün istiqamətlərdən biri kimi qiymətləndirmişdir. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiy-

yətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mübarizə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Prezident İlham Əliyev Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində soydaşlarımızı daha fəal olmağa çağırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, habelə ölkəmizin son illər demokratiya, insan hüquqlarının müdafiəsi və iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar barədə təbliğatın gücləndirilməsi vacibliyini önə çəkmişdir.

Bu gün möhtərəm Prezidentimizin dünyanın bir sıra aparıcı dövlətlərinin başçıları ilə şəxsi münasibətləri xaricdə yaşayan soydaşlarımızın həmin ölkələrdə təhsili, işgüzar fəaliyyəti üçün olduqca əlverişli imkanlar açır. Rusiya, Ukrayna və bir sıra digər ölkələrdə bu amilin müsbət təsirini soydaşlarımız daha yaxşı hiss edirlər. Güclü, qüdrətli Azərbaycan və onun nüfuzlu rəhbəri bu gün dünyadakı soydaşlarımızın hər biri üçün güvənc yeridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xətti dərin elmi-nəzəri və zəngin təcrübə üzərində qurulmuş xarici siyasət konsepsiyasıdır. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə uğurlu əməkdaşlıq edərək planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilmişdir. Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərinin bütün sahələrdə dərinləşdiyi indi daha aydın şəkildə hiss olunmaqdadır. Son 3 ildə xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərlərinin müntəzəm xarakter alması da bunu təsdiqləyir. Rusiya, Gürcüstan, Yunanıstan, Pakistan, İran, Bolqarıstan, Moldova, Qazaxıstan, Finlandiya, Latviya, Türkiyə, Koreya,





Litva, Ukrayna prezidentlərinin və İordaniya Kralının ölkəmizə səfərləri və bu səfərlər zamanı imzalanmış sazişlər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək, mövcud əlaqələri daha da möhkəmləndirmək baxımından müstəsna əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Respublikası artıq dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Hazırda Azərbaycan 160 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır. Bakıda iqamətgahlı olan 30 səfirlik, 2 baş konsulluq, beynəlxalq təşkilatların 12 nümayəndəliyi, 7 fəxri konsulluq fəaliyyət göstərir. İqamətgahları digər şəhərlərdə olan 43 diplomatik nümayəndəliyin rəhbərləri də Azərbaycanda akkreditə edilmişdir. Öz növbəsində Azərbaycanın xaricdə 37 səfirliyi, beynəlxalq təşkilatlar yanında 4 nümayəndəliyi, 5 baş konsulluğu, 1 konsulluğu, 2 fəxri konsulluğu fəaliyyət göstərir ki, onlardan da 20-si son iki ildə fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti 2006-cı ilin payızında daha 5 ölkədə səfirliyin təsis olunması haqqında qərar qəbul etmişdir.

Ölkəmizin dünyada və regionda nüfuzunun gücləndiyi, geosiyasi məsələlərin həllində daha yaxından iştirak etdiyi indiki şəraitdə xarici siyasətimizin qarşısında bir sıra təxirəsalınmaz vəzifələr durur. Prezident İlham Əliyev 2006-cı il avqustun 14-də Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsindəki çıxışında Azərbaycanın xarici siyasətinin qarşısında duran vəzifələri bir daha aydın şəkildə bəyan etmişdir. Bunlara dünya ölkələri ilə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlıq, xarici ölkələrdəki səfirliklərimizin fəaliyyətinin genişləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlər problemi ilə bağlı dünya icti-

maiyyətində dolğun təsəvvür yaradılması, xaricdə yaşayan azərbaycanlıların potensialından səmərəli istifadə edilməsi, Azərbaycanın iqtisadi maraqlarının qorunması daxildir.

Bu gün dünyada 200-ə yaxın dövlət var. Onlardan 192-si BMT-nin üzvüdür. Bu dövlətlərdən hər biri, ilk növbədə, yalnız öz maraqlarını təmin etmək uğrunda çarpışır, mübarizə, rəqabət aparır. Dövlətlər bu mübarizəni həm təklikdə, həm də müxtəlif dövlətlər, təşkilatlar, qurumlarla birlikdə, yəni bütün imkanlardan istifadə edərək aparırlar. Dünya təcrübəsində bu arsenal çox zəngindir - QHT-lərdən tutmuş dini qurum və missiyalara qədər, xüsusi xidmət orqanlarından tutmuş böyük beynəlxalq təşkilatlaradək bu prosesdə iştirak edirlər. Və bu proses hər bir dövlətin yarandığı gündən başlayaraq onun mövcudluğu müddətində davam edir.

Azərbaycan müstəqilliyini qazandığı zaman bu əla qurulmuş sistem artıq işləyirdi. Güclü təşkilatlanmış sistemə daxil olmaq, orada özünə layiq yerini tutmaq heç də asan deyil. Hətta Azərbaycandan bir neçə dəfə çox potensiallı olan dövlətlər belə çoxsaylı daxili və xarici səbəblər üzündən müasir beynəlxalq münasibətlər sistemində özlərinə adekvat mövqe təmin etməkdə çətinlik çəkirlər.

Azərbaycan müstəqilliyini qazananda hansı vəziyyətdə idi: müsəlman dövləti, mühüm geostrateji məkan, zəngin karbohidrogen ehtiyatı, müstəqil dövlətçilik təcrübəsi yox dərəcəsində, çox mürəkkəb əhatə, eyni zamanda onilliklərlə dişini qıcayıb pusquda durmuş, imkan tapan kimi hücuma keçən, böyük hamilərinə arxalanan düşmən. Belə bir vəziyyətdə - gənc respublika quruculuğunu yalnız şüarlarla həyata keçirməyi mümkün hesab edən səriştəsizlərin zamanında - hər şey göz qabağında idi.

Xalqımızın tarixində heç şübhəsiz, belə sınaq məqamları xeyli olub və apriori ehtimal da elə ondan ibarətdir ki, biz o





sınaqlardan çıxa bilməmişik. Əgər çıxa bilsəydik, yenidən onunla qarşılaşmazdıq. Azərbaycanı bu sınaqlardan adi siyasi və dövlət xadimi çıxara bilməzdi. Adi birisi bir ilin içində ölkəni elə vəziyyətə gətirdi ki, əvvəlki faciələrin təkrarı labüd idi. Məhz belə bir dövrdə Heydər Əliyev siyasətin simurq quşu kimi sanki dövrünün alovundan yenidən doğuldu.

Azərbaycanın xarici siyasətində təsadüfi addım yoxdur. Strateji konsepsiya taktiki addımlar vasitəsilə mərhələ-mərhələ gerçəkləşir. Atılan addımlar dərin, hərtərəfli və əsaslandırılmış induksiya və deduksiyanın nəticəsidir və bütün faktorlar nəzərə alınır. Xarici siyasətimizin üstünlüyü də bundadır. Çox mürəkkəb coğrafi məkanda yerləşib, mürəkkəb beynəlxalq prosesləri nəzərə alaraq öz maraqlarını qoruya biləcək bir kurs həyata keçirmək o qədər də asan deyil. Yalnız bir problemi götürüb onun reallaşması yolunu izləsək, təhlil etsək hər şey aydın olar.

Azərbaycan kiçik dövlətdir, gənc dövlətdir. Qısa müddət ərzində Heydər Əliyevin dövlətçilik dühası sayəsində Azərbaycanın regionda və beynəlxalq aləmdə tutduğu mövqe və qazandığı nüfuz onun rəhbərlərinin tarixi nailiyyətidir. Bu nailiyyət Azərbaycan dövlətçiliyinin əbədi yaşamasını, xalqımızın firavan gələcəyə qovuşmasını təmin edəcəkdir.

Prezident İlham Əliyevin Azərbaycan xalqının və dövlətçiliyinin maraqlarını qorumağa, təmin etməyə yönəlmiş dinamik və hücum xarakterli fəaliyyəti isə həm ümummilli lider, dahi dövlət xadimi Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi balanslaşdırılmış xarici siyasət kursunun dönmədən və ardıcıl şəkildə həyata keçirilməsini, həm də onun dühasının ən başlıca qayəsi olan müstəqil və qüdrətli Azərbaycanın çiçəklənməsini bundan sonra da təmin edən yeganə etibarlı və uğurlu yoldur, tarixi missiyadır.

# V

# SİLAHLI QÜVVƏLƏR

"Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

*31 oktyabr 2003-cü il*
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Heydər oğlu Əliyevin***
***andiçmə mərasimində nitqindən***

"Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ölkəmiz zəngin dövlətə çevriləndən sonra, əlbəttə, ordu potensialımız da çox güclənəcək və bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək".

*10 may 2004-cü il*
***Bakıda "Heydər Əliyev Fondu"nun təntənəli açılışında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Bu gün Azərbaycanın ordusu ən yüksək standartlara cavab verir, peşəkar orduya çevrilibdir və qarşıda duran vəzifələri həll etməyə qadir bir ordudur.

Ordu quruculuğunda böyük diqqət olmalıdır, insanlarımız, gənc nəslimiz vətənpərvərlik ruhunda tərbiyə edilməli, böyüməlidir. Hər bir vətəndaş çalışmalıdır ki, orduya kömək etsin, orduya öz dəstəyini versin".

*27 may 2004-cü il*
***28 may Respublika Günü münasibətilə rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən ağrılı məsələsidir, Azərbaycan üçün həll olunmalı ən mühüm problemdir. Biz çalışırıq bunu həll edək. Amma, eyni zamanda, ordumuzu da gücləndiririk. Orduya lazımi kömək, dəstək göstəririk. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ordumuz da güclənəcəkdir".

*17 iyun 2004-cü il*
***Qazax şəhərindəki Heydər parkında Prezident İlham Əliyevin yerli sakinlərlə görüşündəki nitqindən***

"Azərbaycanda ordu quruculuğunda böyük işlər görülür. Bu istiqamətdə də Heydər Əliyevin siyasəti davam etdirilir, ordumuz güclənir və bildiyiniz kimi, ölkə iqtisadiyyatı uğurla inkişaf etdiyinə görə, büdcədə əlavə vəsait yaranmışdır və bu vəsaitin üçdə bir hissəsi ordu quruculuğuna sərf olunacaqdır. Bu bizim prioritet məsələmizdir və Azərbaycanda güclü ordu var. Bu ordu daha da güclü olmalıdır və olacaqdır".

*14 iyul 2004-cü il*
***"AZBENTONİT" MMC-nin açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Xüsusilə 2004-cü ildə ordu quruculuğu sahəsində böyük işlər görülüb, ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində böyük addımlar atılıbdır. Ordumuz müasirləşir, yeni müasir texnika ilə təchiz olunur. Bizim ordumuz gündən-gündən güclənir və qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir".

*7 dekabr 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"2005-ci ilin büdcəsində orduya ayrılan xərclərin həcmi təxminən 40 faiz səviyyəsində qaldırılıbdır. Biz bunu bundan sonra da edəcəyik".

*12 mart 2005-ci il*
***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqindən***

"Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır. 2005-ci ilin büdcəsi 2004-cü ilin büdcəsi ilə müqayisədə 35 faiz artıbdır. O cümlədən ordu quruculuğu və ordunun potensialının güclənməsi bizim üçün prioritet məsələdir və buna da böyük diqqət göstəririk".

*25 iyun 2005-ci il*
***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqindən***

"Ordunun bütün məsələləri müntəzəm qaydada həll edilir. Mən bunu daim diqqət mərkəzində saxlayıram. Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi bu, mənim borcumdur. Mən bundan sonra da orduya böyük diqqətlə, böyük qayğı ilə yanaşacağam".

*25 iyun 2005-ci il*
***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqindən***

"Bizdə əsil müstəqillik var, öz siyasətimizi yalnız və yalnız xalqın iradəsinə, istəyinə əsaslanaraq həyata keçiririk. Heç kim bizə təsir edə bilməz. Ona görə gərək daha da güclənək. Güclənək ki, güclü ordu yaradaq. Güclü ordu yaradaq ki, torpaqlarımızı azad edək.

Bu il orduya xərclər təxminən 2 dəfə də artıbdır. Gələn il, lazım olarsa, yenə də 2 dəfə artırarıq ki, bütün məsələləri öz istədiyimiz kimi həll edək".

*8 iyul 2005-ci il*
***Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı kimi, mən ölkədə ordu quruculuğuna, Sərhəd Qoşunlarının inkişafına daim diqqət göstərirəm".

*16 avqust 2005-ci il*
***Dövlət Sərhəd Xidmətinin Hərbi Hissələrinə Döyüş Bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycanda ordu quruculuğu prosesi də sürətlə gedir. İldən-ilə artan hərbi büdcəmiz bizə imkan verir ki, ordu potensialımızı ən yüksək səviyyədə saxlaya bilək. 2004-cü ildə ordunun büdcəsi 175 milyon dollar, 2005-ci ildə 300 milyon dollar olmuşdur. 2006-cı ildə isə 600 milyon dollara çatacaqdır. Biz ordu potensialımızı gücləndirməliyik, onun maddi-texniki bazasını möhkəmləndirməliyik və orduda xidmət edən bütün insanların hazırlıq səviyyəsini də yüksəltməliyik".

*5 oktyabr 2005-ci il*
***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...əgər biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etmək istəyiriksə, danışıqlarla bərabər, Azərbaycanda ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

*5 oktyabr 2005-ci il*
***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Görülən tədbirlər nəticəsində hərbi büdcəmiz təxminən 70 faiz artmışdır. 2006-cı ildə isə hərbi xərclərə nəzərdə tutulan məbləğ 100 faiz artacaq və bu proses davam edəcəkdir. Son iki il ərzində Azərbaycanın müdafiə potensialı iki dəfə, bəlkə iki dəfədən də çox artmışdır və biz bu siyasətimizi davam etdirəcəyik. Biz müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır və bu siyasətimiz təbiidir. Bu, bizim suveren haqqımızdır".

*31 yanvar 2006-cı il*
***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır.

Bəzən Azərbaycanın ordu quruculuğu prosesi kimdəsə narahatlıq doğurur. Doğurmamalıdır, bu, bizim suveren hüququmuzdur. Biz neçə ildir ki, bu işğala dözürük. Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq.

*2 oktyabr 2006-cı il*
***Milli Məclisinin 2006-cı il Payız Sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...hərbi potensialın möhkəmlənməsi avtomatik olaraq müharibənin başlamasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq".

*2 oktyabr 2006-cı il*
***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





**ZİYAFƏT ƏSGƏROV,**
Azərbaycan Respublikası
Milli Məclisi Sədrinin I müavini,
Təhlükəsizlik və müdafiə məsələləri
daimi komissiyasının sədri

## Azərbaycan Respublikasının Silahlı Qüvvələri suverenliyimizin təminatçısıdır

Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun Silahlı Qüvvələridir. Zamanın sınağından çıxıb bərkiyən, yetkinləşən, dövləti istənilən təcavüzdən qorumağa qadir bir qüvvəyə çevrilmiş *Azərbaycan Respublikası Silahlı Qüvvələri* bu günümüzün danılmaz, təkzibedilməz faktına çevrilmişdir. Bu uğur bütün tarixi ərzində xalqımızın əldə etdiyi ən böyük nailiyyətlərdən biridir və onu ümummilli lider Heydər Əliyevin *rəhbərliyi* altında azadlıq və müstəqillik ideallarının əbədi təntənəsini təmin etmək naminə hazırlanan ordu quruculuğu konsepsiyasının qələbəsi kimi dəyərləndirmək daha doğru olardı.

Ümumiyyətlə, Heydər Əliyevin bizim üçün qoyduğu zəngin və əvəzsiz irs xalqımızın gələcək inkişaf perspektivlərini müəyyən edən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini ordu quruculuğu təşkil edir və bu istiqamətdə Heydər Əliyev fəaliyyətinin qlobal miqyası, əhəmiyyəti Azərbaycan

reallıqlarının bu günü ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasında daha əzəmətli görünür.

Lakin özünün dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası son dərəcə mürəkkəb və çətin bir tarixi şəraitdə özünün Silahlı Qüvvələrini yaratmağa başladı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev cənabları özünün "Qurucusu ümummilli lider Heydər Əliyev olan Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir" mövzusunda etdiyi nitqində demişdir: "Bu məktəbin Heydər Əliyevin adını daşıması ali hərbi məktəbdə oxuyanların üzərinə əlavə məsuliyyət qoyur. Ulu öndər bütün dövrlərdə Azərbaycanda ordu quruculuğunun inkişafında böyük xidmətlər göstərmişdir. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra isə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda ordu quruculuğu işi sürətlə aparılmışdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində orduda vahid komandanlıq yox idi. Azərbaycanda ordu quruculuğu prosesinin necə çətin şəraitdə getdiyini görərik. Bir tərəfdən, daxildə müxtəlif xoşagəlməz hadisələr, iqtisadi böhran, siyasi-hərbi böhran, daxili çəkişmələr, digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı təcavüzü və bu təcavüz nəticəsində torpaqlarımızın itirilməsi – belə bir şəraitdə ordu quruculuğu faktiki olaraq sıfırdan başlanmışdır. Ancaq qısa müddət ərzində Azərbaycanda çox güclü ordu yaranmışdır və bu gün ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Ordumuzun maddi-texniki bazası möhkəmlənmiş, peşəkarlıq artmışdır".

Bugünkü Silahlı Qüvvələrimizin tarixini şərti olaraq bir neçə mərhələyə ayırmaq olar. Azərbaycan Respublikasının Milli





Ordusunun əsası Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərdə qoyulmuşdur. Həmin dövrdə xalqımızın görkəmli generalları Səməd bəy Mehmandarov, Əliağa Şıxlınski və digər peşəkar hərbiçilərin rəhbərliyi altında yüksək intizama və hərbi hazırlığa malik olan döyüş qabiliyyətli ordu hissələri formalaşdırıldı. 1920-ci ildə Azərbaycanın rus ordusu tərəfindən işğal olunması nəticəsində dövlət müstəqilliyimizin mühüm atributu olan milli ordu hissələri ləğv olundu.

Sovet hakimiyyəti illərində müstəqil ordumuz olmasa da azərbaycanlılar Sovet ordusu sıralarında qulluq etməklə bir sıra hərbi ixtisaslara yiyələnə bilirdilər. Sovet hakimiyyəti dövründə bir qayda olaraq ali hərbi məktəblər Rusiya, Belarus və Ukrayna respublikalarında fəaliyyət göstərirdilər. Bu isə milli hərbi kadrların hazırlanmasında müəyyən çətinliklər yaradırdı.

Yalnız ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi və səyi nəticəsində ölkəmizdə ilk hərbi məktəb yaradıldı. Həmin məktəb 1973-cü ildə yaradıldı və məktəbə Cəmşid Naxçıvanskinin adı verildi. Həmin dövrdə belə bir məktəbin yaradılması çox böyük cəsarət və iradə tələb edirdi. Ulu öndərimiz Heydər Əliyev o zaman özünəməxsus mahir bir siyasətçi kimi Moskvanın bütün təzyiqlərinin qarşısını ala bildi və ilk dəfə olaraq Azərbaycanda belə bir hərbi məktəb açdı. O vaxt Moskvada belə hesab edirdilər ki, milli respublikalarda hərbi kadrları hazırlayan ali hərbi məktəblərin yaradılmasına ehtiyac yoxdur.

Xalqımızın böyük oğlu Heydər Əliyev hələ keçən əsrin 70-ci illərində gələcəkdə Azərbaycana yüksək ixtisaslı hərbi kadrların lazım olacağını böyük uzaqgörənliklə müəyyən etmişdir. Həmin məktəbi bitirənlər hazırda Azərbaycan ordusunda layiqincə xidmət edirlər. 2003-cü ilin aprel ayının 21-də həmin hərbi məktəbin yubiley toplantısında ölkə Prezidenti, Silahlı

Qüvvələrimizin Ali Baş Komandanı Heydər Əliyev cənabları böyük iftixar hissi ilə demişdir: "Bu məktəbi yaradarkən heç vaxt ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm. Ancaq bu şərəf mənə qismət olub və mən özümü xoşbəxt hesab edirəm".

1991-ci ildə Azərbaycanın Dövlət Müstəqilliyinin elan olunması bütün dövlət təsisatları kimi, ordu quruculuğu sahəsində də geniş imkanlar açmış oldu. Amma çox təəssüflər olsun ki, o dövrdə Azərbaycana rəhbərlik edən şəxslər bu sahədə nə real təsəvvürlərə, nə də gerçək ordu quruculuğu həyata keçirmək bacarığına malik idilər. O vaxt ordu quruculuğuna tamamilə səriştəsiz, ordudan xəbəri olmayan adamlar cəlb olunmuşdular.

1992-1993-cü illərin məlum prosesləri, başıpozuq özünümüdafiə dəstələrinin mövcudluğu və ordunun ifrat dərəcədə siyasiləşməsi və 1993-cü ilin yaz-yay aylarında cəbhədə yaşanan ağır itkilər Azərbaycanın bütün dövlət təsisatları kimi, silahlı qüvvələri də iflas həddinə gətirib çıxarmışdı.

Ordu quruculuğu sahəsində ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsini ayrıca bir mərhələ kimi qeyd etmək lazımdır. Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsi respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi. Qısa müddət ərzində ordu daxilində hökm sürən hərc-mərcliyin və özbaşınalığın qarşısı alındı, ordunun idarə olunması təkmilləşdirildi, cəbhədə döyüşən hissələrlə birbaşa əlaqələr yaradılmaqla ortaya çıxan çətinliklərin həll olunmasında çeviklik əldə edildi. Bu istiqamətdə ən başlıca nailiyyətlərdən biri isə Silahlı Qüvvələrin dövlətin tam nəzarəti altına alınması oldu. Görülən tədbirlər nəticəsində qısa müddət ərzində Füzuli və Ağdamın bir sıra yaşayış məntəqələri işğaldan azad edildi və cəbhədə təşəbbüs Azərbaycan ordusunun əlinə keçdi.





Hal-hazırda ölkəmizdə Silahlı Qüvvələrin inkişafının keyfiyyətcə yeni dövrü başlamışdır. Bugünkü ordumuz 10 il bundan əvvəlki ordudan çox fərqlənir. Silahlı Qüvvələrdə bu gün dövlət təhlükəsizliyini təmin etmək üçün Hərbi Əks-Kəşfiyyat xidməti tərəfindən müntəzəm olaraq zəruri əməliyyat tədbirləri həyata keçirilir. Hazırda ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edilmiş və artıq Azərbaycan ordusunun mükəmməl qanunvericilik bazası yaradılmışdır. Bu gün ordu quruculuğu sahəsində əldə etdiyimiz ən böyük uğurlardan biri də ordu ilə xalqın birliyinin və vəhdətinin yaradılmasıdır.

Hər bir ordunun güclü olması onun maddi-texniki bazasının möhkəmliyindən və silah-sursatla təmin olunmasından asılıdır. H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bununla əlaqədar dediyi fikirləri yada salmaq yerinə düşərdi: "Bu gün ordu quruculuğu prosesinə böyük diqqət yetirilir. Siz bunu hiss edirsiniz, cəmiyyət bunu hiss edir. Çünki ordunun möhkəmləndirilməsi hər bir vətəndaşın işidir, hər bir vətəndaşın borcudur. İlk növbədə dövlət öz diqqətini əsirgəməməlidir. Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Maddi-texniki bazanın möhkəmləndirilməsi işində, təbii ki, dövlət büdcəsindən orduya ayrılmış xərclərin artması zəruridir və biz bunu edirik. Son üç il ərzində hərbi xərclərimiz 4 dəfə artmışdır. 2003-cü ildə orduya ayrılan xərclər 135 milyon dollar idi. 2006-cı ildə isə bu rəqəm 700 milyon dollara yaxındır və gələcəkdə biz bu xərcləri daha da artıracağıq. Son illər ərzində maddi-texniki bazanın

möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texnika, avadanlıq, müasir silah-sursat alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda, ilk növbədə, ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

Qurucusu ümummilli liderimiz olan Heydər Əliyevin siyasəti bu gün çox uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev cənabları ordu quruculuğunu ölkəmizin iqtisadi inkişafı ilə üzvü şəkildə inkişaf etdirir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində etdiyi çıxışında İlham Əliyev cənabları daha sonra demişdir: "Ölkəmizin qarşısında duran bir nömrəli problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Əfsuslar olsun ki, bu sahədə heç bir irəliləyiş yoxdur. ...Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ermənistan artıq nə iqtisadi, nə də hərbi cəhətdən bizimlə rəqabət apara bilmir. Bizim üstünlüyümüz artıq realdır. Ermənistanın inkişaf etməsi üçün heç bir imkan yoxdur. Onlar bütün beynəlxalq, regional layihələrdən təcrid olunmuşlar. Ölkə əhalisinin demək olar ki, yarısı ölkəni tərk edibdir. Bizdə olan məlumatlara görə, onlar hətta təmas xəttinin qorunmasında çətinlik çəkirlər... Gələn 20 ildə azərbaycan təkcə neft gəlirlərindən 140 milyard dollar vəsait əldə edəcəkdir. Dağlıq Qarabağ bizim bir nömrəli problemimizdir və bu problemdən başqa mən Azərbaycanın qarşısında ayrı heç bir problem görmürəm".

Şübhəsizdir ki, ordu quruculuğunu keyfiyyətcə yeni mərhələyə qaldırmaq üçün yeni yaradılmış Müdafiə Sənayesi Nazirliyinin çox böyük rolu olacaqdır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindəki çıxışında Prezident İlham Əliyev





cənabları bu münasibətlə demişdir: "Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Əlbəttə ki, əgər biz müharibə şəraitində olmasaydıq, bu nazirliyin yaradılmasına ehtiyac olmazdı. Ancaq bir halda ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ öz həllini tapmır, biz qərara gəldik ki, Azərbaycanda güclü hərbi sənaye kompleksi yaradılsın və bu istiqamətdə əməli addımlar atılır. Ümid edirəm ki, qısa müddət ərzində Azərbaycanda çox güclü hərbi sənaye kompleksi yaradılacaq və bu, öz növbəsində, orduya böyük dəstək olacaqdır".

Ordumuzun peşəkar zabit kadrları ilə təmin olunması üçün hazırda hərbi təhsil sisteminin inkişafına da çox böyük diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyev cənablarının başlamış olduğu bu işi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev cənabları çox uğurla davam etdirir, hərbi təhsil sisteminin dünya standartları səviyyəsində inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Bu gün hərbi təhsil məktəblərində təhsil NATO standartlarına uyğun olaraq aparılır. 1999-cu ilin fevral ayının 20-də ulu öndərimiz Heydər Əliyev cənabları hərbi təhsil sistemini daha da təkmilləşdirmək üçün Hərbi Akademiyanın yaradılması haqda fərman imzalamışdır. Hərbi Dəniz Donanmasını peşəkar hərbi kadrlarla təmin etmək məqsədilə 1997-ci ildə Ali Hərbi Dənizçilik Məktəbi yaradılır. Həmin məktəb keçmiş Sovetlər İttifaqında ən qabaqcıl dənizçilik məktəblərindən biri hesab olunurdu. 2001-ci ildə həmin məktəbin ilk buraxılışı olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Mək-

təbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır. 2001-ci ilin avqust ayında Azərbaycan Respublikası Ali Hərbi Məktəbində NATO standartlarına uyğun təhsil almış zabitlərin ilk buraxılışı olmuşdur. Bu tədbirin ordu quruculuğu prosesində əhəmiyyəti ilə əlaqədar təntənəli buraxılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Ordu generalı Hüseyn Qıvrıqoğlu iştirak etmişlər.

Bu gün Azərbaycanın Silahlı Qüvvələrinin zabitləri həmçinin Türkiyənin, Ukraynanın, Rusiya Federasiyasının, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın, Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Hərbiçilərimizin ABŞ-da da təhsil almaları haqda razılaşma əldə olunmuşdur.

Bu gün Milli Ordumuz müstəqil dövlətimizin, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün etibarlı təminatçısına çevrilmişdir.

Bu gün Silahlı Qüvvələrimizin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi sahəsində də çox ciddi addımlar atılır.

Hələ 2004-cü ildə möhtərəm Prezidentimiz hərbi qulluqçuların vəzifə maaşlarının orta hesabla 1,5 dəfə artırılması, Azərbaycanın Milli Qəhrəmanlarının və 20 Yanvar şəhidlərinin ailələrinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sərəncamlar imzaladı və bir daha sübut etdi ki, ölkəmizin və onun müstəqilliyinin qarantı olan Silahlı Qüvvələrimizin şəxsi heyətinə qayğı dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Prezidentin "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 23 yanvar 2006-cı il tarixli sərəncamı hərbi





peşə sahiblərinə dövlət qayğısının növbəti təzahürü idi. Bu sərəncamla Müdafiə Nazirliyinin hərbi qulluqçularının rütbə maaşları 2006-cı il yanvar ayının 1-dən 2 dəfə artırılır, eyni zamanda hərbi qulluqçuların vəzifə maaşlarının, dövlət icbari şəxsi sığorta məbləğlərinin artırılmasına, onların güzəştli ipoteka kreditləri ilə təmin olunmalarına dair təkliflərin hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıqlar verildi. Bu isə tezliklə təkcə hərbi qulluqçuların özlərinin yox, həm də onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçiriləcəyindən xəbər verirdi.

Həmin tədbirlərin real bəhrəsini görmək üçün çox vaxt gözləmək lazım gəlmədi. Bilavasitə Prezidentin təşəbbüsü ilə 2006-cı il iyul ayında Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edildi və buna uyğun qəbul edilmiş Qanuna əsasən hərbi xidmətlə bağlı olan qanunlara hərbi qulluqçulara hər il növbəti məzuniyyətə çıxarkən əlavə olaraq bir aylıq vəzifə maaşı məbləğində pul təminatının verilməsi, müvəqqəti mənzil kirayəsi üçün ödənilən kompensasiyanın hərbi qulluqçular üçün ayda şərti maliyyə vahidi məbləğinin iyirmi beş mislindən, onların hər ailə üzvü üçün həmin məbləğin əlli faizindən az olmayaraq müəyyən edilməsi və bu kompensasiyanın ödənilməsinin uşaqlar yetkinlik yaşına çatana qədər davam etdirilməsi, hərbi qulluqçular üçün yaşayış sahələrinin, o cümlədən xidməti mənzillərin tikintisinin dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilməsi barədə əlavələr edildi.

Azərbaycan xalqı bu gün dinamik inkişaf və möhtəşəm quruculuq mərhələsinə qədəm qoymuşdur. Heydər Əliyev siyasi kursunun davamçısı, ulu öndərimiz Heydər Əliyevə xas olan qətiyyəti və mükəmməl idarəçilik qabiliyyəti sayəsində bu gün

ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı özünün bütün çıxış və nitqlərində ordu quruculuğu və Dağlıq Qarabağ münaqişəsinin həll olunması problemini daim diqqət mərkəzində saxlayır. 2006-cı ilin oktyabr ayının 2-də Milli Məclisdə özünün proqram xarakterli və dərin məzmunlu nitqində bir daha həmin məsələləri ön plana çəkmişdir: "Hərbi potensialımızı möhkəmləndirməliyik və bilirsiniz ki, mən Prezident seçiləndən sonra ilk günlərdən bu məsələ diqqət mərkəzində olmuşdur. Mən o vaxt da demişdim ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Biz bu təzyiqləri davam etdirməliyik. Əgər Ermənistan tərəfi bu təzyiqləri görməsə və bu təzyiqlərdən ehtiyatlanmasa, Azərbaycanın artan imkanlarından narahat olmasa, onlar işğal olunmuş torpaqlardan çətin ki, öz xoşları ilə çıxsınlar. Çünki bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Bunun müxtəlif səbəbləri var. Siz bunların hamısını yaxşı bilirsiniz, bilirsiniz ki, bu səbəblər nədən ibarətdir. Amma bu, reallıqdır. Biz gərək bu reallığı bilək və bunun qarşısında öz reallığımızı, Azərbaycan reallıqlarını qoyaq. Azərbaycan artıq o ölkədir ki, öz torpaqlarının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır".

Hazırda Azərbaycan respublikası Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri də genişlənməkdədir. Ötən bu illər ərzində ölkəmizin Silahlı Qüvvələri NATO, MDB, GUAM çərçivəsində bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur. 2005-ci ilin iyun ayının 25-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə ölkəmizin Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı bildirmişdir:





"Azərbaycan ordusunun inkişafı çox sürətlə gedir. Bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz güclənir. NATO ilə əlaqələrimiz güclənir. Biz bu əlaqələrə böyük önəm veririk. "Sülh naminə tərəfdaşlıq" Proqramının fəal iştirakçısı olmuşuq və bu gün də bu Proqramın iştirakçısıyıq. Eyni zamanda artıq keçən il NATO rəhbərliyinə "Fərdi tərəfdaşlıq üzrə əməliyyat Planı" təqdim edilibdir və Azərbaycanla NATO arasında olan əlaqələr yeni, yüksək pilləyə qalxır".

Özünün ordu quruculuğu sahəsindəki xarici siyasətində Azərbaycan Respublikası Avroatlantik təhlükəsizlik sisteminə inteqrasiya olunmasına daha çox üstünlük verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin NATO PA-nın Fransanın paytaxtı Parisdə keçirilən yaz sessiyasında xüsusi qonaq statusunda iştirak etməsi və bu ali tədbirdə dərin məzmunlu nitq söyləməsi, respublikamızın dünyanın ən mötəbər hərbi-siyasi alyansı ilə münasibətlərinin dinamik xətt üzrə inkişaf etdiyini, qarşılıqlı maraqlara söykəndiyini bir daha təsdiqləmiş oldu. Səfərin yekunları bunu deməyə əsas verir ki, NATO Cənubi Qafqazın ən aparıcı respublikası olan Azərbaycanla hərbi-təhlükəsizlik məsələlərində əməkdaşlığa xüsusi maraq göstərir.

Özünün hərbi-siyasi təhlükəsizliyini təmin etmək və beynəlxalq birliyin tam hüquqlu subyektinə çevrilmək üçün Azərbaycan beynəlxalq təşkilatlara, o cümlədən NATO ilə əməkdaşlığa üstünlük verir. Ümummilli liderimiz Heydər Əliyev Şimali Atlantika Alyansı ilə hərbi-siyasi əlaqələrin genişləndirilməsini balanslaşdırılmış xarici siyasət doktrinasının prioritet vəzifələrindən biri kimi müəyyənləşdirərək bu istiqamətdə praktik addımlar atılmasını təmin etdi. Alyansın beynəlxalq münasibətlər sistemindəki yerini və rolunu nəzərə alan ulu öndər Heydər Əliyev özünə xas olan uzaqgörənliklə respublikanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramı-

na qoşulması barədə qətiyyətli qərar verərək 1994-cü ilin may ayının 4-də Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Tarixi təcrübə sübut etdi ki, həmin dövrdə Azərbaycan rəhbərliyi son dərəcə düzgün və ölçülüb-biçilmiş qərar qəbul etmişdir. 1996-cı il 22 aprel tarixdə NATO-nun Brüsseldəki mənzil qərargahına növbəti səfəri zamanı Prezident Heydər Əliyev Baş Katib Xavyer Solano ilə görüşərək, SNT proqramına müvafiq şəkildə NATO ilə əməkdaşlıq üzrə respublikamızın tələbat və potensialını müəyyən edən Azərbaycan Respublikasının *Prezentasiya sənədini* təqdim etdi. 1997-ci ilin noyabr ayında və 2001-ci ilin 5-7 noyabr tarixlərində Bakı şəhərində NATO-nun "*Cooperative Determination*" Komanda-qərargah təlimləri keçirilmiş və bu cür təlimlərin keçirilməsi müntəzəm xarakter almışdır. Son 12 ildə Alyansla Azərbaycan arasında əlaqələr daha da dərinləşmiş, üzv dövlətlərin ordu quruculuğu sahəsindəki təcrübəsindən istifadə olunmuşdur. Ötən müddət ərzində NATO ilə münasibətlər qarşılıqlı maraqlar əsasında uğurla inkişaf etdirilmişdir. Rəsmi Bakı Alyansla münasibətlərini regionun geosiyasi özəlliklərini nəzərə almaqla inkişaf etdirmək niyyətini gizlətmir və bu istiqamətdə əməli addımlar atır. SNT proqramı çərçivəsində əməkdaşlıq Azərbaycanla Alyansın hərbi-siyasi strukturları ilə yaxından əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrlar hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək imkanları yaranmışdır. Bu əməkdaşlıq qlobal planda sülh və sabitliyə xidmət etməklə, regionun nəhəng enerji layihələrinin təhlükəsiz gerçəkləşməsinə əsaslı təminat yaratmışdır.

NATO standartlarına cavab verən peşəkar ordu quruculuğu siyasətini sistemli və ardıcıl surətdə həyata keçirən Azərbaycan 1997-ci ildən həm də Alyansın Planlaşdırma və Analiz Prosesi proqramında (PAPP) yaxından iştirak edir. Həmin proqrama





əsasən, ölkənin müdafiə sistemində əsaslı islahatlar aparılmış, Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki təchizatının və döyüş qabiliyyətinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Milli Ordunun əsgər və zabit heyətinin NATO sülhməramlılarının tərkibində Kosovada, Əfqanıstanda və İraqda keçirilən əməliyyatlarda iştirak hüququ qazanması da Alyansla əməkdaşlığın müsbət nəticəsi kimi qiymətləndirilməlidir.

Ölkəmizin Prezidenti İlham Əliyev cənabları xarici siyasət doktrinasında NATO ilə əməkdaşlığa daim xüsusi diqqət yetirir və bu istiqamətdə əməli addımlar atır. Dövlət başçısının 2004-cü ilin aprel ayında Brüsselə səfəri və NATO-nun Baş Mənzil-qərargahında keçirdiyi müxtəlif səviyyəli görüşlər respublikamızın Alyansla münasibətlərinin yeni mərhələdə inkişafına geniş imkanlar açmışdır. Səfər zamanı İlham Əliyev cənabları Azərbaycan adından "Fərdi əməkdaşlıq üzrə əməliyyat Planı"nı NATO rəhbərliyinə təqdim etmişdir. Həmin əməkdaşlıq planı çərçivəsində ikitərəfli münasibətlərin daha da intensivləşməsi müşahidə olunur. Təşkilata üzv dövlətlər Xəzərin enerji resurslarının dinc şəraitdə mənimsənilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, habelə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin təhlükəsizliyinin qorunması baxımından Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verirlər. Eyni zamanda GUAM-ın yenidən strukturlaşaraq təkmil inteqrasiya modelinə çevrilməsi NATO-nun bu quruma marağını xeyli artırmışdır. Bu kontekstdə Azərbaycan NATO ilə həm fərdi, həm də çoxtərəfli əməkdaşlıq imkanları əldə etmişdir.

Bir sözlə, 2005-ci ilin mayında təsdiq edilmiş "Fərdi Tərəfdaşlıq Fəaliyyəti" proqramı Azərbaycan Silahlı Qüvvələrində müasir standartlara uyğun islahatların davam etdirilməsi üçün daha geniş perpektivlər açır.

# VI

# QARABAĞ

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

*31 oktyabr 2003-cü il*

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Heydər oğlu Əliyevin***
***andiçmə mərasimindəki nitqindən***

"Ermənistan Dağlıq Qarabağı Azərbaycandan ayırmaq məqsədilə ölkəmizə qarşı təcavüz etdi və Dağlıq Qarabağın inzibati ərazisindən kənarda yerləşən daha 7 rayon işğal olundu. Azərbaycana qarşı bu təcavüz 10 ildən artıqdır ki, davam edir.

Beynəlxalq hüquq normalarında əsas əhəmiyyət kəsb edən prinsip ərazi bütövlüyüdür, hər bir ölkənin suverenliyidir. Azərbaycan dünyada hər bir ölkənin ərazi bütövlüyünü tanıyır və biz istəyirik ki, dünya da bizim ərazi bütövlüyümüzü tanısın və o, bərpa olunsun".

*27 yanvar 2004-cü il*
***Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...ermənilər Dağlıq Qarabağ ərazisinə yalnız XIX əsrin əvvəllərində köçürülmüşlər. Bu, tarixi faktdır. 1970-ci illərdə Dağlıq Qarabağın mərkəzində ilk erməni məskənlərinin salınmasına həsr olunmuş abidə də ucaldılmışdı. Bu abidə ermənilərin Qarabağ torpağına ayaq basmasının 150 illiyinə həsr olunmuşdu. Ona görə də onların bu torpağa iddialarının heç bir tarixi əsası yoxdur.

Məsələnin indiyə qədər həll olunmamasının digər bir səbəbi də beynəlxalq aləmin yeritdiyi ikili standartlardır. Əgər, dünyanın hansısa hissəsində hansısa bir ölkənin ərazisi digər ölkə tərəfindən zəbt olunursa, bu zaman beynəlxalq aləm öz resurslarından, siyasi, diplomatik vasitələrdən, yeri gələrsə, hərbi vasitələrdən istifadə edir və ədaləti bərpa edir. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı isə bu cür tədbirlər görülmədi. Ona görə də Azərbaycan xalqı beynəlxalq aləmin bu cür münasibətini ikili standart kimi qəbul edir".

*27 yanvar 2004-cü il*
***Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Ermənistanla Azərbaycan arasındakı münaqişə bütün regionda çox böyük təhlükə və gərginlik mənbəyidir. Ona görə də Azərbaycan bu münaqişənin dincliklə nizama salınmasına tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Təbii ki, bu nizamasalma beynəlxalq hüququn prinsip və normalarına əsaslanmalıdır. Günün reallığı belədir ki, Azərbaycan ərazisi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır".

*7 fevral 2004-cü il*
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Dünyada ikili standartlara son qoyulmalıdır. İşğalçı işğalçı kimi göstərilməlidir və ondan tələb edilməlidir ki, işğal etdiyi torpaqlardan çıxsın".

*17 fevral 2004-cü il*
***"Azərbaycanda 10 illik Humanitar Fəaliyyətə təsir, qazanılmış təcrübə, gələcək istiqamətlər" mövzusunda Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ümidvarıq ki, bu münaqişə həll ediləcəkdir, lakin onun həlli ancaq hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normaları gözlənilməklə, yəni, Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa edilməsi, bütün işğalçı qüvvələrin ərazilərimizdən çıxarılması və qaçqın-köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtması təqdirində mümkündür.

*1 mart 2004-cü il*
***Lev Qumulyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, işğal olunmuş torpaqlar azad ediləcək və bir milyondan çox qaçqın, köçkün öz doğma torpaqlarına qayıdacaqdır. Bu, zamanın tələbidir. XXI əsrdə ölkələr sülh içində yaşamalıdır. XXI əsrdə beynəlxalq ictimaiyyət Avropada bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsi ilə barışmamalıdır".

*14 aprel 2004-cü il*
***Prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomu və İhsan Doğramacı adına Dünya sülh mükafatı təqdimetmə mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir".

*30 aprel 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-nın yaz sessiyasındakı iclasında çıxışından***

"Avropa Şurasında qəbul olunmuş bu sənədlər böyük əhəmiyyət kəsb edir. İlk dəfədir ki, belə mötəbər bir təşkilat öz sənədlərində Ermənistanı Azərbaycanın ərazilərini işğal etmiş bir dövlət kimi tanıyır. Bəzi qətnamələrdə Azərbaycanın bütün işğal olunmuş rayonlarının adı çəkilir. Digər qətnamələrdə bir milyondan artıq qaçqın-köçkün məsələsinə toxunulur. Bəzi sənədlərdə "Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş





digər əraziləri" ifadəsi işlədilir. Bunun özü də vacibdir, çünki sənədlərdə tanınır ki, Dağlıq Qarabağın özü də ermənilər tərəfindən işğal olunmuş Azərbaycan ərazisidir".

*30 aprel 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-da mətbuat konfransından çıxışından***

"Azərbaycanın gələcək perspektivləri bizə imkan verəcək ki, istədiyimizə nail olaq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğal edilmiş torpaqlar geri qaytarılacaqdır. Başqa cür də ola bilməz. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir".

*10 may 2004-cü il*
***Bakıda "Heydər Əliyev fondu"nun təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Avropa Birliyinin bu məsələdə daha fəal mövqe tutacağına da ümid bəsləyir. Biz özümüzü Avropanın bir hissəsi hesab ediriksə, həm Azərbaycan, həm də Ermənistan bu yeni "qonşuluq siyasəti"nin çərçivəsindədirsə, bir ölkənin digər ölkənin ərazilərini işğal etməsinə son qoyulmalıdır. Bu, Avropa ailəsinə xas olan davranış tərzi deyildir".

*18 may 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasında mətbuat konfransındakı çıxışından***

"Biz bu gün XXI əsrdə yaşayırıq. Bu gün təcavüzkar separatizm siyasəti qəbulolunmazdır. Bu gün Avropanın birləşdiyi vaxtda, qloballaşma və inteqrasiya prosesinin dünyada vüsət aldığı bir vaxtda bir ölkənin digər ölkənin ərazisini işğal etməsi faktı və həmin ərazini 10 ildən çox işğal altında saxlaması, ordusunu geri çəkmək istəməməsi, əlbəttə, narahatlıq doğur-

maya bilməz. Biz ümid edirik ki, Avropa Birliyi və digər təşkilatlar və əlbəttə, məsələnin həlli ilə bağlı mandatı olan ATƏT daha fəal rol oynayacaq, azərbaycanlı qaçqınların daimi yaşadığı ərazilərə qayıtmalarına çalışacaqlar".

*18 may 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasında çıxışından***

"...ümid edirik ki, danışıqlar yolu ilə sülh müqaviləsinə nail ola bilərik. Əlbəttə ki, bu müqavilə beynəlxalq hüquq normalarına əsaslanmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

*27 may 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***

"Ermənistan heç vaxt Azərbaycanla iqtisadi və digər sahələrdə inkişafda rəqabət apara bilməyəcəkdir. Çox sevindirici haldır ki, dünyanın aparıcı ölkələri, onların rəhbərləri artıq birmənalı şəkildə bu məsələdə Azərbaycanı dəstəkləyirlər. Daha doğrusu, haqqı, ədaləti dəstəkləyirlər. Ancaq bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, bu məsələdə heç bir güzəştə getməyəcəkdir. Hər an hazır olmalıyıq ki, bu məsələni bütün başqa yollarla, nəyin bahasına olursa-olsun, Azərbaycanın xeyrinə həll edək. Mən buna inanıram".

*9 iyun 2004-cü il*
***Mingəçevirdə məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında xaricdə fəaliyyət göstərən diplomatlar daha da fəal olmalıdırlar.

Mən dəfələrlə bildirmişəm ki, Azərbaycan heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər danışıqlar yolu bir səmərə verməsə, Azərbaycan bütün başqa, o cümlədən hərbi yoldan istifadə edib öz torpaqlarını azad edəcəkdir. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Haqq-ədalət bizim tərəfimizdədir. Bəzən güzəştlər haqqında təkliflər səslənir. Amma mən artıq bunu bir neçə dəfə demişəm ki, ərazi bütövlüyü məsələlərində güzəştdən söhbət gedə bilməz. Bu məsələdə bizim qətiyyətli mövqeyimiz dəyişməz olaraq qalacaqdır".

*27 iyul 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"Bizim üçün həm də çox önəmlidir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Almaniyanın mövqeyi tamamilə beynəlxalq hüquq normalarına əsaslanıbdır. Bu gün kansler cənab Gerhard Şröder qeyd etdi ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında Azərbaycanın ərazi bütövlüyünü çox vacib amil hesab edir".

*26 avqust 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Bundestaqındakı nitqindən***

"Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç vaxt barışmayacaqdır.

Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir.

Əslində, bu münaqişələr bir-birinə bağlıdır və bizim bu münaqişələri birgə əməkdaşlıq əsasında kompleks şəkildə aradan qaldırmaqdan başqa yolumuz yoxdur. Bu işdə heç bir "ikili standart"lara yol vermək olmaz".

*24 sentyabr 2004-cü il*
***BMT Baş Məclisinin 59-cu sessiyasının ümumi müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır".

*24 sentyabr 2004-cü il*
***BMT Baş Məclisinin 59-cu sessiyasının ümumi müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Bu gün bizim 20 faiz ərazimiz Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu işğalın nəticəsi kimi 1 milyon azərbaycanlı öz torpaqlarını və ev-eşiklərini itirərək, qaçqın və köçkünə çevirilmişdir. Bu, böyük humanitar böhran, böyük humanitar faciədir".

*25 sentyabr 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkun Kolumbiya Universitetində görüşü zamanı çıxışından***





"Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etmişdir. Bu mövqe dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusuna çevrilə bilməz. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalıdır. Bu, bizim prinsipial, dəyişməz mövqeyimizdir".

*7 dekabr 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq normaları kobudcasına pozulmuşdur və beynəlxalq hüquq normalarına məhəl qoymamaq işğal və etnik təmizləmə ilə nəticələnmişdir. Bugünkü gün təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağdan ətrafdakı 7 digər rayon da işğal altındadır".

*13 dekabr 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri çərçivəsində "Chatham House" klubunda çıxışından***

"Azərbaycan öz ərazilərinin itirilməsi ilə heç zaman razılaşmayacaq, biz onları nəyin bahasına olursa-olsun, geri qaytaracağıq. Sülh yolu ilə, yaxud qeyri-sülh yolu ilə - bu məsələ danışıqların gedişindən asılı olacaqdır".

*24 yanvar 2005-ci il*
***Azərbaycanda İTAR-TASS günləri iştirakçıları ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...ədalət zəfər çalacaqdır. Bizim işimiz haqq işidir. Biz heç kimin torpağını zəbt etməmişik, heç kimə qarşı etnik təmizlə-

mə aparmamışıq, heç kimin ərazi bütövlüyünü pozmamışıq. Biz öz haqqımızı tələb edirik".

*12 mart 2005-ci il*
***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqindən***

"Beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. İqtisadi potensial bizim tərəfimizdədir. Ordu potensialı bizim tərəfimizdədir. Haqq-ədalət bizim tərəfimizdədir. Azərbaycan xalqı heç vaxt öz doğma torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını azad edəcəkdir".

*26 mart 2005-ci il*
***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"2005-ci ildə Azərbaycanın büdcəsi 2004-cü ilə nisbətən 30 faiz artıbdır. Səhiyyəyə ayrılan xərclər əvvəlkindən 44 faiz, təhsil xərcləri 25 faiz, ordu quruculuğuna xərclər təxminən 40 faizdən çox nəzərdə tutulubdur və bu meyillər davam etdiriləcəkdir. Əgər biz Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyiriksə, gərək Ermənistandan on qat güclü olaq və biz buna nail ola bilərik".

*15 iyun 2005-ci il*
***Sankt-Peterburqdakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Ermənistanla münaqişədə Azərbaycan artıq danışıqlar prosesində üstünlüyü ələ alıbdır. Siyasi təşəbbüs bizim əlimizdədir. Hüquqi əsaslar bizim əlimizdədir. İqtisadi potensial bizim əlimizdədir. Ordu potensialı bizim tərəfimizdədir. Biz istədiyimizə nail olacağıq, doğma torpaqlarımızı azad edəcəyik".

*15 iyun 2005-ci il*
***Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi mitinqdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın diplomatik səyləri nəticəsində dünyanın müxtəlif təşkilatlarında bu məsələ gündəliyə salınır. Birləşmiş Millətlər Təşkilatı bu məsələni gündəliyə salıbdır. Avropa Şurasında reallığı əks etdirən qətnamə qəbul edilibdir və orada açıq-aydın göstərilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir, etnik təmizləmə siyasəti aparıbdır".

*21 iyun 2005-ci il*
***Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli ilə bağlı Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Bəzi hallarda güzəştlərdən söhbət açılır. Hesab edirəm ki, uzun illər ərzində bizim sülh danışıqlarına sadiq olmağımız Azərbaycan tərəfindən edilən böyük güzəştdir. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa edək və qaçqın-köçkün vəziyyətində yaşayan soydaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Amma eyni zamanda, bütün diplomatik və siyasi səylərlə yanaşı, biz onu da gözəl bilirik ki, ölkə güclü olmalıdır.

Azərbaycanın iqtisadi potensialı gücləndikcə Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Bizim üçün ən önəmli olan məsələnin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanın ordusu güclü olmalıdır".

*25 iyun 2005-ci il*
***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqindən***

"...münaqişə yalnız və yalnız aşağıdakı prinsiplər əsasında öz həllini tapa bilər: işğal edilmiş torpaqlar işğalçı qüvvələrdən azad olunmalı, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına - Dağlıq Qarabağın ətrafındakı bölgələrə və Dağlıq Qarabağın özünə qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu müəyyən oluna, Azərbaycamn tərkibində Dağlıq Qarabağ ermənilərinə dünyada mövcud olan ən yüksək muxtariyyət verilə bilər".

*21 iyul 2005-ci il*
***2005-ci ilin birinci yarısında Respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağda və digər yeddi rayonda qədim mədəniyyət abidələri məhv edilmiş, məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, müsəlman sivilizasiyasının izləri yer üzündən silinmişdir.

Münaqişənin hüquqi həlli yolları yenə də Azərbaycanın xeyrinədir. Çünki biz münaqişənin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmasını tələb edirik və bu məsələdə heç bir güzəştə getməyəcəyik. Ermənistanın mövqeyi sadəcə, onların arzularına əsaslanır və yalan tarixə əsaslanır".

*7 dekabr 2005-ci il*
***İslam Konfransı Təşkilatının Məkkədə Keçirilmiş Üçüncü Fövqəladə zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"2005-ci ildə Praqa prosesi daha da möhkəmləndi. Bildiyiniz kimi, Praqa prosesi mərhələli həll deməkdir. Azərbaycanın mövqeyi bütün zamanlarda məhz bundan ibarət olmuşdur və Praqa prosesinin möhkəmlənməsi danışıqlar prosesində bizim mövqelərimizi daha da gücləndirdi. Diplomatik səylərimizin gözəl nəticələridir. Amma bütün bunlara rəğmən, məsələ öz həllini tapmır. Bütün bu diplomatik uğurlar, əlbəttə ki, bizi sevindirir və mövqeyimizi gücləndirir. Ancaq bir halda ki, torpaqlarımız hələ də işğal altındadır, bütün bu nəticələrin böyük əhəmiyyəti yoxdur. Əhəmiyyət o olacaq ki, Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Bizim soydaşlarımız işğal olunmuş torpaqlara - Dağlıq Qarabağın ətrafında yerləşən torpaqlara və Dağlıq Qarabağa da qayıtmalıdırlar".

*31 yanvar 2006-cı il*
***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu gün də mən bunu bir daha dedim. Heç vaxt - nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Hər halda mən Pre-

zident olan dövrdə bunu özündə əks etdirən sazişə heç vaxt imza qoymaram".

*31 yanvar 2006-cı il*
***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Dağlıq Qarabağın mərkəzi Xankəndi adlanan şəhərdir. Bu, "xanın kəndi" deməkdir. Sovetlər vaxtında həmin şəhərin adını dəyişdirib Stepanakert qoymuşlar. Yenə deyirəm, tarixi baxımdan bu yer heç vaxt Ermənistana məxsus olmamış və ermənilər burada yaşamamışlar. Onlar buraya köçürülmüşlər və sonralar yerlərin, tarixi abidələrin adını dəyişmişlər".

*8 mart 2006-cı il*
***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"...bizim mövqeyimiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz. Azərbaycanın zəbt olunmuş torpaqları danışıqlar yolu ilə azad edilməli, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasına qayıtmalıdır. Biz Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət verə və Dağlıq Qarabağın statusunu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyən edə bilərik".

*8 mart 2006-cı il*
***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Beynəlxalq hüquq normaları tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən qəbul edilir, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, bütün təşkilatlar tərəfindən tanınmışdır. Biz ancaq bu yolla sülh sazişinə imkan verə bilərik. Biz Dağlıq Qarabağın heç vaxt - nə bü gün, nə sabah, nə 10 ildən sonra, nə də 100 ildən sonra Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik".





*16 mart 2006-cı il*
***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın hərbi büdcəsi ildən-ilə artır. 2006-cı ildə 2005-ci illə müqayisədə 100 faiz, yəni 2 dəfə artmışdır. 2007-ci ildə daha da çox artacaqdır. İndi bizim hərbi büdcəmiz 600 milyon dollara bərabərdir. Mən vəzifə qoymuşam ki, yaxın zamanlarda bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olsun. Ermənistan bizimlə heç vaxt rəqabət apara bilməyəcəkdir. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onlar üçün də bir qədər sərfəli olacaqdır".

*16 mart 2006-cı il*
***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Hər hansı münaqişənin həlli üçün müəyyən çərçivələr mövcud olmalıdır. Bu baxımdan, beynəlxalq hüququn lazımi qaydada müəyyən edilmiş normaları mövcuddur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir. Azərbaycanın ərazi bütövlüyü bütün ölkələr, o cümlədən Birləşmiş Ştatlar tərəfindən tanınmışdır".

*27 aprel 2006-cı il*
***ABŞ-a rəsmi səfər çərçivəsində Beynəlxalq Münasibətlər Şurası ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycan xalqının səbrinin hüdudları var. Bizim heç bir qeyri-adi tələbimiz yoxdur. Biz özümüzə məxsus olmayan tor-

pağı tələb etmirik. Tələbimiz odur ki, ermənilər işğal etdikləri rayonları könüllü şəkildə, dinc yolla qaytarsınlar və beləliklə, azərbaycanlılar doğma yerlərinə qayıda bilsin və orada yaşasınlar. Danışıqlar bu istiqamətdə getməlidir".

*27 aprel 2006-cı il*
***ABŞ-a rəsmi səfər çərçivəsində Beynəlxalq Münasibətlər Şurası ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM təşkilatı və bir sıra başqa təşkilatlar bu məsələdə öz açıq, prinsipial mövqeyini ortaya qoyubdur. Ancaq əfsuslar olsun ki, bu qərarların icra mexanizmi yoxdur. Bizi narahat edən ən əsas məsələ odur ki, dünyanın ən mötəbər təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının da qərarların icrası ilə bağlı səmərəli mexanizmi yoxdur. İndi Birləşmiş Millətlər Təşkilatında gedən islahatlar haqqında fikir mübadiləsi aparılır. Hesab edirəm ki, birinci islahat ondan ibarət olmalıdır ki, bütün qəbul edilmiş qərarların icra mexanizmi olsun. Əgər qərar qəbul edilibsə, o, icra olunmalıdır".

*19 sentyabr 2006-cı il*
***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə öz siyasətimizi daha da güclü aparmalıyıq. Biz Ermənistanın işğalçı siyasətini ifşa etməliyik. Çünki reallıq da bundan ibarətdir. Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir və Ermənistanın təcavüzkar, etnik təmizləmə siyasəti nəticəsində bizim





1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür".

*14 avqust 2006-cı il*
***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki, həqiqət bizim tərəfimizdədir".

*18 sentyabr 2006-ci il*
***Antalyada Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Mən bir daha demək istəyirəm ki, biz problemi dinc yolla həll etmək istəyirik. İqtisadi baxımdan Azərbaycan olduqca güclü ölkəyə çevrildikdən sonra, hərbi əməliyyatlar haqqında düşünmək mütləq xarakter daşımayacaqdır. Yəni ərazi bütövlüyümüzün bərpa edilməsi üçün bir çox digər vasitə və yollar mövcud olacaqdır. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onların özləri üçün bir o qədər yaxşı olacaqdır. Vaxt ötdükcə bizim mövqeyimiz daha da möhkəmlənəcək və sərtləşəcəkdir".

*22 sentybar 2006-cı il*
***Berlində "Beynəlxalq Bertelsmann-2006" Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Biz sadəcə, danışıqlar prosesinə sadiq qalaraq, eyni zamanda, öz işimizi, öz siyasətimizi və tədbirlərimizi davam et-

dirməliyik. İlk növbədə, Azərbaycan güclənməlidir. Azərbaycan bütün iqtisadi, diplomatik, siyasi imkanlardan istifadə edib öz mövqelərini möhkəmləndirməlidir və Ermənistana qarşı siyasətimiz bundan sonra da çox fəal olmalıdır. Biz artıq informasiya hücumuna keçmişik. Biz iqtisadi hücuma keçməliyik və bütün beynəlxalq təşkilatlarda, bütün forumlarda, ikitərəfli formatda bu məsələ daim gündəlikdə olmalıdır. Ermənistanın işğalçı siyasətini ifşa etməliyik və bunu etməyə kifayət qədər dəlillər də, əsaslar da var".

*2 oktyabr 2006-cı il*
***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur. Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur ki, bütün təzyiqlərə baxmayaraq, Prezident kimi mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm".

*2 oktyabr 2006-cı il*
***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





**MÜBARİZ QURBANLI,**
millət vəkili,
YAP İcra katibinin müavini

# Dağlıq Qarabağ münaqişəsi: Prezident İlham Əliyevin hücumçu diplomatik xətti

Hazırda dünyanın müxtəlif bölgələrində bir sıra münaqişə ocaqları vardır. Həmin münaqişələrin hər birinin özünəməxsus xüsusiyyətləri və yaranma səbəbləri mövcuddur. Münaqişələr yalnız ona cəlb olunmuş, ölkələr və xalqlar üçün deyil, ümumilikdə, dünyada sülh üçün böyük təhlükə törətməkdədir. Hər bir "dondurulmuş», "unudulmuş" münaqişə ocağının yenidən alovlanması və genişlənməsi istənilən zaman baş verə bilər. Son zamanlar Yaxın Şərqdə baş vermiş "İsrail-Hizbullah" müharibəsi və digər hadisələr deyilənləri bir daha təsdiq edir. Təcrübə göstərir ki, münaqişələrin həlli üçün onu yaradan səbəblər aradan qaldırılmalı, ədalət bərpa edilməli, beynəlxalq təşkilatlar çərçivəsində təcavüzkara qarşı sərt tədbirlər görülməlidir. Təəssüf ki, müasir beynəlxalq münasibətlərdə tez-tez üzləşdiyimiz "ikili standart" deyilən yanaşma təcavüzkar tərəfin vaxtında cəzalandırılmasına mane olur. Hərbi-iqtisadi nöqteyi-nəzərdən güclü ölkələrin bu və ya digər bölgələrdə toqquşan maraqları münaqişələrin

həllinin uzanmasına təsir edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin 2006-cı ilin payız sessiyasının açılışında söylədiyi nitqində demişdir: "Ölkəmiz qarşısında duran yeganə problem var ki, onun həlli təkcə bizdən asılı deyil, o da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu, yeganə məsələdir ki, təkcə bizdən asılı deyildir. Halbuki, biz əlimizdən gələni edirik və Azərbaycanın diplomatik səyləri də buna yönəlibdir ki, bu məsələnin həllinə nail olaq".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə qısa nəzər yetirdikdə burada müxtəlif maraqların üz-üzə dayandığını görmək olar. Hazırda bu münaqişə faktiki olaraq beynəlxalq səviyyədə həll edilən münaqişələr sırasındadır. Aydındır ki, bu tipli münaqişənin həlli iştirakçı tərəflərlə yanaşı həmin bölgədə marağı olan xarici qüvvələrdən də asılıdır. Məsələyə bu baxımdan yanaşdıqda Dağlıq Qarabağ münaqişəsinin həllinin yalnız Azərbaycandan asılı olmadığını görürük. Bu münaqişənin başlanmasının əsas səbəblərindən biri erməni-daşnak millətçilərinin özgə torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasıdır. Bu mənhus planlarını həyata keçirmək üçün ermənilərin Türkiyə, İran və Gürcüstana qarşı da ərazi iddiaları ilə çıxış etdikləri bəlli bir məsələdir.

Məlumdur ki, ötən əsrin əvvəllərində Qərbi Azərbaycan torpaqlarında, Cənubi Qafqazda ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin güzəşti nəticəsində Ermənistan dövləti yaradıldı. Bu qondarma dövlətin tarixi Azərbaycan torpaqlarında yaradılması faktını heç kim inkar edə bilməz. Sonrakı illərdə ermənilərin məkrli siyasəti ilə bu ərazilərdən azərbaycanlıların zorla deportasiya edilməst prosesi getmiş və hazırda Ermənistan monoetnik dövlətə çevrilmişdir. Sovet İttifaqının dağılması ərəfəsində (1988-1991) ermənilər yeni bir fitnəkar planı – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək və yaxud bu ərazidə ikinci bir erməni dövlətini yaratmağa cəhd etdilər. Azərbaycan xalqının kəskin müqaviməti və ümummilli lider Heydər Əliyevin müdrik siyasəti sayəsində ermənilərin bu planı baş tutmadı. Ermənistan tərəfindən Dağlıq Qarabağ və ona bitişik ərazilərin, yəni Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsinə baxmayaraq, ermənilərin həmin ərazidə ikinci erməni dövlətini yaradaraq onu beynəlxalq miqyasda tanıtmaq planı baş tutmayıb. Ermənistanda güman edirdilər ki, hərb cəbhəsində əldə edilən müvəqqəti üstünlükdən istifadə edərək Azərbaycanı güzəştli sülh müqaviləsinə məcbur edə biləcəklər. Lakin müharibə Azərbaycana nə qədər ağır itkilər versə də, Ermənistan istədiyinə nail ola bilməyib.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, işğal olunmuş ərazilərin qaytarılması, real vəziyyətin dünya ictimai rəyinə çatdırılması istiqamətində ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində çox mühüm addımlar atılmış və bu siyasət Prezident İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün 1992-ci ilin mart ayından ATƏM-in (indiki ATƏT-in) Minsk qrupu çərçivəsində danışıqlar gedir. Həmin prosesin istənilən nəticə verməməsinin əsas səbəbi danışıqlarda Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutmasıdır.

Lakin bütün maneələrə baxmayaraq, Azərbaycanın konfliktin həllinə yönəlmiş müəyyən diplomatik uğurları vardır. Hələ 1996-cı ilin dekabrında keçirilən ATƏT-in Lissabon sammitində ümummilli lider Heydər Əliyevin gərgin diplomatik səyləri nəticəsində Azərbaycanın ədalətli mövqeyi dünyanın 53 dövləti tərəfindən tanınmış və dəstəklənmişdir. Sammitdən sonra

ATƏT-in Minsk qrupu yeni formatda yaradılmış, bu da onun fəaliyyətinə müəyyən canlanma gətirmişdir.

Minsk qrupunun fəallığı özünü Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təkliflər irəli sürülməsində göstərmişdir. Münaqişənin paket həllini nəzərdə tutan birinci sənəd 1997-ci ilin iyun ayının 11-də tərəflərə təqdim olunmuşdur. Həmin sənəddəki birinci anlaşma əvvəlcə silahlı münaqişənin dayandırılmasını, ikinci anlaşma isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini nəzərdə tuturdu. Ermənistan tərəfi bu sənədə kəskin etiraz etdiyindən, həmin ilin sentyabrın 19-da tərəflərə münaqişənin mərhələli həllini nəzərdə tutan ikinci bir sənəd təklif olunmuşdur. Ermənistanın növbəti etirazından sonra Minsk qrupu həmsədrləri mərhələli həll planında dəyişiklik edərək Dağlıq Qarabağı münaqişə tərəfi kimi tanıtmağa cəhd göstərdilər. Bu isə Azərbaycan tərəfinin haqlı etirazına səbəb oldu və rədd edildi.

Təəssüf ki, təcavüzkar Ermənistana təzyiq göstərmək yerinə, Minsk qrupu daha çox onların mənafeyini güdən və "ümumi dövlət" adı ilə tanınan növbəti təkliflər paketini 1998-ci ilin noyabrında tərəflərə təqdim etdi. Azərbaycanın mənafeyinə tamamilə zidd olan və Dağlıq Qarabağı müstəqil dövlətə çevirmək məqsədi güdən bu təkliflər təbii ki, növbəti dəfə Azərbaycan tərəfindən qəbul edilmədi. Bu tarixdən etibarən heç bir təkliflə çıxış etməyən ATƏT-in Minsk qrupu həmsədrləri danışıqlar prosesini hər iki ölkə prezidentlərinin birbaşa dialoqlar müstəvisinə keçirdilər.

Ki-Uest və Rambuye danışıqları Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından heç bir səmərəli nəticə vermədikdən sonra tərəflər Praqada bir araya gəldilər və bu gün "Praqa prosesi" adlanan növbəti dialoq müstəvisinin əsası qoyuldu.





Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ardıcıl və məqsədyönlü səyləri nəticəsində artıq bölgədə və münaqişə zonasında yeni situasiya yaranmışdır. Belə ki, cənab İlham Əliyevin praqmatik, qətiyyətli və hücumçu diplomatik strategiyası təcavüzkar Ermənistanın beynəlxalq arenada getdikcə daha artıq təcrid olunmasına gətirib çıxarmaqdadır. Bu strategiya geosiyasi, iqtisadi və informasiya müharibəsində təşəbbüsü ələ almaq kimi bir sıra vacib sahələrdə özünü aydın şəkildə büruzə verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "İlk növbədə, Azərbaycan güclənməlidir. Azərbaycan bütün iqtisadi, diplomatik, siyasi imkanlardan istifadə edib öz mövqelərini möhkəmləndirməlidir və Ermənistana qarşı siyasətimiz bundan sonra da çox fəal olmalıdır. Biz artıq informasiya hücumuna keçmişik. Biz iqtisadi hücuma keçməliyik və bütün beynəlxalq təşkilatlarda, bütün forumlarda, ikitərəfli formatda bu məsələ daim gündəlikdə olmalıdır. Ermənistanın işğalçı siyasətini ifşa etməliyik və bunu etməyə kifayət qədər dəlillər də, əsaslar da var".

Hal-hazırda Avropa Şurasının qəbul etdiyi bir sıra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğu açıq-aşkar vurğulanmaqdadır. Həmçinin İslam Konfransı Təşkilatının 2006-cı ildə Bakıda keçirilən zirvə görüşündə qəbul edilən yekun sənədində də təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması bir tələb kimi öz əksini tapmışdır. 2006-cı ilin sentyabr ayında Türkiyə Cümhuriyyətinin Antalya şəhərində keçirilən Türkdilli dövlət başçılarının toplantısında qəbul edilən yekun bəyannaməsində də eyni fikirlər yer almışdır.

Həmçinin Azərbaycan diasporunun təşkilatlanması, onlara dövlət səviyyəsində göstərilən diqqət, artıq xaricdə erməni təbliğatının qarşısını almaq istiqamətində müəyyən uğurların əldə olunması ilə nəticələnmişdir. Bu sahədə Azərbaycan və

Türk diasporunun qarşılıqlı əməkdaşlıq zəmnində birgə fəaliyyəti artıq müsbət səmərə verməkdədir.

Ermənistan üçün digər təhlükə Azərbaycanın münaqişəni BMT Təhlükəsizlik Şurasında müzakirələr müstəvisinə keçirmək cəhdi ilə yaranmışdır. Həm də Azərbaycan bu istiqamətdə artıq yalnız deyil, GUAM ölkələri ilə birgə və koordinasiyalı fəaliyyət göstərməkdədir ki, bu da Ermənistanı regionda artıq tamamilə təklənmə təhlükəsi ilə üzbəüz qoymuşdur. Həmçinin Ermənistanın müvəqqəti hərbi uğurlarını diplomatik cəbhədə möhkəmləndirə bilməməsi, münaqişənin uzanması və Dağlıq Qarabağın beynəlxalq birlik tərəfindən tanınması ölkə daxilində siyasi gərginliyi daim artırmaqdadır.

İqtisadi cəhətdən Azərbaycan dövləti qüdrətləndikcə Ermənistanın iqtisadi cəhətdən "taqətdən salınması" taktikası getdikcə daha artıq dərəcədə özünü doğrultmaqdadır. Bu gün iqtisadi durğunluq və tənəzzül dövrünü yaşayan Ermənistandan fərqli olaraq Azərbaycan öz iqtisadi potensialını durmadan artırmaqdadır. Belə ki, artıq Azərbaycanın dövlət büdcəsində nəzərdə tutulan hərbi xərclər az qala Ermənistanın dövlət büdcəsi həcmindədir. Bu barədə Prezident İlham Əliyev deyir: "Biz daim hücum etməliyik. İstəyimizə nail olmaq üçün hamımız bütün sahələrdə, bütün təşkilatlarda fəal olmalıyıq. İqtisadi amillərdən istifadə etməliyik və bu imkanlar getdikcə daha da artacaqdır. Bu məsələ ilə əlaqədar hökumətə tapşırıqlar verilibdir. Yəni Azərbaycan Ermənistandan yüz dəfə zəngin ölkə olandan sonra, bəlkə də, müharibə variantına heç ehtiyac qalmayacaqdır. Yəni biz bütün imkanlardan istifadə etməliyik ki, öz hüququmuzu bərpa edək. Bu, bizim hüququmuzdur. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik".





Azərbaycan artıq Ermənistanı bir sıra regional layihələrdən kənarda qoya bilmişdir. Xüsusilə əsrin ən böyük enerji layihələrindən olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Ermənistandan yan keçməsi bu ölkənin geosiyasi əhəmiyyətini xeyli dərəcədə azaltmış, iqtisadi reytinqinə ağır zərbə vurmuşdur. Həmçinin qarşıdakı dövrdə istifadəyə verilməsi nəzərdə tutulan Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Axalkalaki-Qars dəmir yol xətlərinin də Ermənistan ərazisindən keçməməsi bu ölkənin iqtisadi baxımdan tamamilə təcrid olunmasına gətirib çıxaracaq və yaşadığı hərtərəfli böhranı daha da dərinləşdirəcəkdir.

Əminliklə söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xeyrinə işləyir. Ölkəmiz ildən-ilə iqtisadi və hərbi cəhətdən güclənir, beynəlxalq arenada mövqeləri möhkəmlənir və bütün bunlar Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, ədalətli şəkildə həll olunacağına olan ümidləri artırır. Bu barədə ölkə başçısı, cənab İlham Əliyev deyir: "Bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət tərəfindən qınaq obyektinə çevrilmir. Bunun müxtəlif səbəbləri var. Amma bu, reallıqdır. Biz gərək bu reallığı bilək və bunun qarşısında öz reallığımızı, Azərbaycan reallıqlarını qoymalıyıq. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır".

Təhlillər göstərir ki, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında müvafiq qətnamələrin (822, 853, 874, 884 saylı) mövcudluğu, Avropa Şurası və ATƏT-in qəbul etdiyi bir sı-

ra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğunun təsbit edilməsi, Prezident İlham Əliyevin hücumçu diplomatiyasının uğurlu nəticələri, informasiya müharibəsində münaqişə barədə erməni tərəfin dünyada yaydığı dezinformasiyanın getdikcə ifşa olunması, Azərbaycanın iqtisadi-hərbi baxımdan ildən-ilə güclənməsi və nəhayət, konfliktin digər vasitələrlə həlli hüququnun ölkəmizdə qalması Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə həll olunacağına ciddi əsaslar verir.



# VII
# REGİONAL İQTİSADİ SİYASƏT – DAVAMLI İNKİŞAF

“İndi Azərbaycan sosial və iqtisadi inkişaf proqramını həyata keçirməyə başlayır. Regionların inkişaf etdirilməsi proqramı hazırlanır və tezliklə həyata keçiriləcəkdir.

Bu gün regional layihələri həyata keçirdiyimiz bir vaxtda Azərbaycanın inkişafı regionları da əhatə edəcəkdir ki, bu da ölkəmizin ümumilikdə dinamik və tarazlı inkişafını təmin edəcəkdir”.

*26 yanvar 2004-cü il*
***Fransanın nüfuzlu işgüzar dairələrinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

“Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etməlidir. Düzdür, neft amili uzun illər ərzində hələ həlledici rola malik olacaqdır. Bu da təbiidir. Çünki qoyulan sərmayələr çox böyükdür və gələcəkdə gözlənilən mənfəətlər də çox böyükdür. Amma, eyni zamanda əgər biz bu gün iqtisadiyyatımızın hərtərəfli inkişafına nail olmasaq, bu, ölkəmizi gələcəkdə çətin problemlərlə üz-üzə qoya bilər. Ona görə məqsədimiz budur ki, Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etsin, təkcə Bakıda yox, bütün regionlarda bu inkişaf müşahidə olunsun. Mən əminəm ki, bu, belə də olacaqdır.

Regional layihələr həyata keçirilməlidir. Bu istiqamətdə proqram qəbul olunacaqdır. Bilirsiniz ki, mənim seçkiqabağı çıxışlarımda da bu məsələyə böyük diqqət yetirilmişdir. Hesab edirəm ki, Azərbaycanın uğurlu gələcəyi regionların inkişafı ilə bağlıdır. Bu sahəyə böyük diqqət göstərilməlidir. Yeni iş yerlərinin açılması regionlar üçün çox vacib məsələdir".

*2 fevral 2004-cü il*
***Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Yol iqtisadiyyatın, iqtisadi inkişafın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz. Xüsusilə, regional iqtisadiyyat çox böyük çətinliklərlə üzləşə bilər. Bizim məqsədimiz isə ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi, hər bir regionu sürətlə və hərtərəfli inkişaf etsin".

*28 fevral 2004-cü il*
***Ələt-Qazıməmməd avtomobil yollarının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Regionlara xüsusi diqqət yetiririk ki, yalnız paytaxt yox, əsas şəhərlər yox, bütün ölkə, Azərbaycanın bütün bölgələri hərtərəfli, dinamik inkişaf etsin. Ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzlərində hiss etməlidir. Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur, bizim məqsədimiz - vətəndaşlara eyni şərait yaratmaq".

*30 aprel 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-nın yaz sessiyasındakı iclasında çıxışından***





"Azərbaycanın sosial-iqtisadi inkişaf proqramı, regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramlar Azərbaycanın hər bir bölgəsinin, rayonunun, kəndinin inkişaf etdirilməsinə imkan verəcəkdir. Bu, Heydər Əliyevin siyasətidir".

*7 may 2004-cü il*
***Milli Məclisdə ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Biz istəyirik ki, Naxçıvanda və Azərbaycanın digər bölgələrində insanlar daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, əməkhaqları onları təmin etsin, onlar sosial cəhətdən daha güclü müdafiə olunsunlar. Bütün bu amillər bizim proqramlarımızın tərkib hissəsidir. Mən ümid edirəm ki, biz buna nail olacağıq".

*12 may 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan beynəlxalq hava limanının açılış mərasimində nitqindən***

"Seçkilərdən sonra müəyyən addımlar atılmış, regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqram çərçivəsində bütün bölgələrdə böyük işlər görülür. Ölkəmiz çox uğurla inkişaf edir, iqtisadi potensialımız durmadan yüksəlir. Əlbəttə, yaxın gələcəkdə iqtisadiyyatımız daha da güclənəcək və ölkəmiz daha zəngin olacaqdır".

*9 iyun 2004-cü il*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Mingəçevir Şəhər İcra Hakimiyyətində müşavirədə çıxışından***

"Mənim siyasətimin əsas istiqamətlərindən biri də odur ki, bütün rayonlarda yeni iş yerləri açılsın, yeni istehsal sahələri yaransın, camaat, insanlarımız daha da yaxşı yaşasınlar".

*17 iyun 2004-cü il*
***Qazax şəhərindəki Heydər parkında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli sakinlərlə görüşündə nitqindən***

"Ölkədə aparılan islahatlar, sosial-iqtisadi proqramların həyata keçirilməsi, regional proqramların yerinə yetirilməsi bizə imkan verdi ki, ölkə iqtisadiyyatı müxtəlif istiqamətlərdə sürətlə inkişaf etsin".

*9 noyabr 2004-cü il*
***Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan hərtərəfli inkişaf edir. Azərbaycanın hər bir regionu, bölgəsi inkişaf edir. Bizim bir müddət bundan əvvəl qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramının məqsədi də məhz budur ki, təkcə paytaxt Bakı deyil, Azərbaycanın hər bir şəhəri, rayonu, kəndi inkişaf etsin".

*9 noyabr 2004-cü il*
***Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın hər bir bölgəsində indi böyük canlanma var, işlər görülür. Sahibkarlar daha da qətiyyətlə, cəsarətlə işləyirlər".

*18 noyabr 2004-cü il*
***Azərbaycan-Türkiyə Biznes Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Bu gün Azərbaycanın valyuta ehtiyatları 2 milyard dollara bərabərdir. Bu, böyük sərvətdir və biz də ondan Azərbaycan xalqının milli maraqlarının qorunması üçün, dövlətimizin möhkəmlənməsi üçün istifadə edirik".

*26 mart 2005-ci il*
***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Regionlarda gedən quruculuq və abadlıq işləri, yeni müəssisələrin, fabriklərin yaranması, fərdi tikintinin geniş vüsət alması və əlbəttə, 200 mindən artıq yeni iş yerinin açılması bir daha onu göstərir ki, regionların inkişaf proqramı öz funksiyasını yerinə yetirir".

*4 may 2005-ci il*
***Ölkədə sosial-iqtisadi inkişaf məsələsinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"İstəyirik ki, ölkəmiz dinamik və hərtərəfli inkişaf etsin, o cümlədən də Azərbaycan regionları müsbət dəyişiklikləri hiss etsin".

*14 iyun 2005-ci il*
***IX Peterburq Beynəlxalq İqtisadi Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanın gələcəyini bölgələr müəyyən edəcəkdir. Bölgələrdə güclü insan potensialı var. Biz gərək burada güclü iqtisadi potensial da yaradaq və əminəm ki, buna nail olacağıq".

*7 iyul 2005-ci il*
***Ağdaş şəhər stadionunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Göyçay çox sürətlə inkişaf edir. Bu gün burada tanış olduğum müəssisələrin fəaliyyəti mənə çox gözəl təsir bağışladı. Yeni iş yerlərinin açılması, yeni, müasir müəssisələrin istismara verilməsi bizim əsas prioritet məsələlərimizdir. Göyçayda geniş quruculuq, abadlıq işləri gedir, yeni iş yerləri açılır, yeni müəssisələr istismara verilir".

*8 iyul 2005-ci il*
***Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Yol həyat deməkdir, yol inkişaf deməkdir. Bu, həm bölgənin inkişafı üçün çox mühüm bir amildir, eyni zamanda, insanlarımızın rahatlığı üçün də çox vacib bir vasitədir.

Azərbaycanın hər bir bölgəsi mənim üçün doğmadır, əzizdir, mənim Vətənimdir. Azərbaycanın ən ucqar rayonlarından biri olan Lerikin inkişafına da çox böyük diqqət göstərilir".

*9 sentyabr 2005-ci il*
***Lerik rayonunun ictimaiyyəti ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan sürətlə inkişaf etməlidir. Azərbaycanın hər bir rayonu, hər bir bölgəsi, hər bir kəndi bu inkişaf yolunu keçməli, hiss etməli və bəhrəsini görməlidir".

*6 oktyabr 2005-ci il*
***Heydər Əliyev parkında Kürdəmir rayonunun sakinləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycanın müxtəlif bölgələrində ən müasir tibb mərkəzləri yaranmalıdır, insanlar ən müasir müalicə almalıdır, onlara yüksək səviyyədə tibbi xidmət göstərilməlidir".

*11 oktyabr 2005-ci il*
***Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bölgələrdə iş yerlərinin açılması, infrastrukturun yaranması, elektrik stansiyalarının tikilməsi, yolların salınması, qaz xətlərinin, su kəmərlərinin çəkilməsi, artezian quyularının qazılması – bütün bunlar bölgələrdə yeni şərait yaradır".

*14 oktyabr 2005-ci il*
***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll edilərsə, deməli, ölkədə bütün problemlər həll olunar. İki il bundan əvvəl qəbul edilmiş proqramda əsas istiqamətlər müəyyən edilibdir, bununla yanaşı, orada konkret tədbirlər planı da var. Yenə deyirəm, eyni zamanda hər bir rayonun, hər bir kəndin öz proqramı, öz tədbirlər planı olmalıdır".

*17 fevral 2006-cı il*
***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Bakıətrafı qəsəbələrin problemləri tezliklə həll olunmalıdır. Burada 47 qəsəbə var və onlarda 700 min insan yaşayır.

Bu, həm əhali baxımından, həm də ərazi baxımından çox böyük bir sahədir və əlbəttə ki, diqqətdən kənarda qalmamalıdır".

*27 fevral 2006-cı il*
***Bakının və şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"2 il ərzində qəsəbələrdə 66 yardımçı stansiyanın, 2500 kilometr ötürücü xətlərin tikintisi nəzərdə tutulur. 53 ATS tikilməli, 26 poçt müəssisəsi, 320 kilometr qaz xətləri təmir olunmalı və yenidən çəkilməlidir. 4 idman kompleksi tikilməlidir, 8 idman salonu və stadionların bərpası nəzərdə tutulur. 14 kitabxana təmir olunacaq, 5 musiqi məktəbi yenidən qurulacaq, 57 ümumtəhsil məktəb bərpa ediləcək və yenidən tikiləcək, 26 uşaq bağçası, 10 xəstəxana təmir olunacaq, 10 xəstəxana yenidən tikiləcək, 8 poliklinika yenidən tikiləcəkdir. 160 kilometr su və kanalizasiya xətlərinin, 750 kilometr qəsəbədaxili və magistral yolların təmiri və tikintisi nəzərdə tutulubdur. Yəni bunlar proqramın əsas göstəriciləridir".

*27 fevral 2006-cı il*
***Bakının və şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Biz istəyirik ki, Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılsın, elektrik xətləri, qaz kəmərləri, su kəmərləri çəkilsin, yollar salınsın, müasir nəqliyyat infrastrukturu möhkəmlənsin".

*13 aprel 2006-cı il*
***Qax rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Bütövlükdə, regionların hamısında inkişaf, demək olar ki, çox geniş vüsət alıbdır. Son iki il yarım ərzində 380 min yeni iş yerinin açılması özlüyündə böyük göstəricidir. Yəqin ki, gələn ilin büdcəsində rayonların sosial-iqtisadi inkişafına daha da böyük dəstək verilməlidir, daha da böyük həcmdə vəsaitlər ayrılmalıdır ki, rayonlarda insanları narahat edən bütün məsələlər tezliklə öz həllini tapsın".

*8 may 2006-cı il*
***Nazirlər Kabinetinin 2006-cı ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"2006-cı il Azərbaycan üçün ən uğurlu il olacaqdır. Bu ildə həm Bakı-Tbilisi-Ceyhan, həm də Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri işə düşəcəkdir. Əminəm ki, biz bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlaya bilərik. İƏT-in zirvə görüşündə iştirak etmiş Türkiyənin Baş naziri ilə də bu barədə çox ətraflı söhbət aparılmışdır. Azərbaycan tərəfi bir daha bildirmişdir ki, günü bu gün Azərbaycan öz tərəfindən maliyyə öhdəliyi götürməyə hazırdır və artıq gələcək konsorsiumun konturları görünməkdədir. Bu yol bizə çox lazımdır. Bu yol Asiyanı Avropa ilə birləşdirir və yolun tikintisi hər cəhətdən Azərbaycanın milli maraqlarının daha da dolğun şəkildə təmin olunmasına xidmət göstərəcəkdir".

*8 may 2006-cı il*
***Nazirlər Kabinetinin 2006-cı ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Siz bölgələrdə tez-tez olursunuz, yəqin özünüz də görürsünüz ki, bizim rayonlarımızın siması dəyişir. Yeni binalar, məktəblər, xəstəxanalar, idman qurğuları, sənaye müəssisələri tikilir, sahibkarlıq inkişaf edir. Miqrasiya, yəni rayonlardan şəhərə miqrasiya meyilləri azalır".

*2 oktyabr 2006-cı il*
***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***





**ZİYAD SƏMƏDZADƏ,**
Milli Məclisin iqtisadi siyasət daimi
komissiyasının sədri, akademik

# Regionların davamlı inkişafı: uğurlar və perspektivlər

Vaxtilə vətənsevər şair Məhəmməd Hadi ürək ağrısı ilə: "Yox millətimin xətti bu imzalar içində" - deməklə, ən ülvi arzusunu bildirmişdi. Bu təkcə bir şairin yox, bütün millətin arzusu idi. Bu gün azad və müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı dünyanın ən nüfuzlu qurumlarında, Birləşmiş Millətlər Təşkilatında və Avropa Şurasında qürurla dalğalanır. Azərbaycan xalqı müstəqil dövlətini təmsil etməkdən, öz xəttini dünya imzaları içində görməkdən fəxarət hissi keçirir.

Adı Azərbaycan tarixinə əbədi həkk olunmuş Heydər Əliyevin 1993-cü ildə respublika rəhbərliyinə qayıdışı Azərbaycan dövlətinin müstəqilliyinin əbədi olmasının, siyasi-iqtisadi əsaslarının sarsılmazlığını təmin etdi. Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi, makroiqtisadi sabitlik təmin olundu. Azərbaycan qəddi-qamətini düzəltdi, ildən-ilə inkişaf etməyə başladı, beynəlxalq aləmdə sivil, demokratik cəmiyyət quran bir dövlət kimi etimad qazandı.

2003-cü il oktyabrın 15-də respublikamızda prezident seçkiləri keçirildi. Azərbaycan demokratik quruculuq yolunda daha bir ciddi sınaqdan çıxdı. Xalq taleyini Heydər Əliyevin layiqli davamçısı, görkəmli siyasi xadim, yüksək mədəniyyətli alim, təvazökar ziyalı, Azərbaycanın neft strategiyasının hazırlanması və reallaşmasında böyük xidmətləri olan İlham Əliyevə etibar etdi.

Dünyanın aparıcı dövlətlərinin rəhbərləri, təcrübəli siyasətçilər İlham Əliyevin qələbəsini Azərbaycan dövləti tərəfindən sabitlik, iqtisadi inkişaf, sülh və əmin-amanlıq siyasətini bundan sonra da davam etdirmək işinə etibarlı qarant kimi qiymətləndirirlər.

Prezident seçkilərindən 3 il keçir. Bu dövrdə Azərbaycan dövləti daha da möhkəmlənmiş, ölkə iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi istifadəyə verilmiş, Azərbaycan nefti böyük miqdarda dünya bazarına çıxarılmış, ölkəmizin qlobal və regional layihələrdə iştirakı daha da genişlənmiş, respublikanın dinamik inkişafı təmin edilmişdir. Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi hərəkatında baş verən bu böyük, keyfiyyətli dəyişikliklər bir daha təsdiqləyir ki, Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın inkişaf strategiyası uğurla həyata keçirilir. Çünki bu inkişaf modeli Azərbaycanın milli maraqlarına, dinamik və keyfiyyətli inkişafına, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət edir.

Hazırda, iqtisadi artım sürətinə görə Azərbaycan nəinki MDB iştirakçısı olan ölkələr arasında, həmçinin dünyada lider ölkə kimi tanınır. 2000-2006-cı illərdə ümumi daxili məhsulun həcmi 3,8 dəfə artmışdır. Proqnoz hesablamalarına görə 2007-ci ildə ÜDM-in həcmi 22,2 milyard manat təşkil edəcəkdir ki, bu da 2002-2004-cü illərdə istehsal olunmuş ümumi daxili məhsulun həcmindən çoxdur.





**Azərbaycan Respublikasının ümumi daxili məhsulu, dövlət büdcəsi gəlirləri və xərclərinin DİNAMİKASI (mln. manat)**



Bu gün müstəqil Azərbaycan dövləti dinamik inkişaf edir, milli mənafelərə cavab verən inkişaf strategiyası həyata keçirir, respublikanın dünya iqtisadiyyatına inteqrasiya edilməsi istiqamətində müvəffəqiyyətli addımlar atır. Respublikamızın artıq uğurla reallaşan inkişaf strategiyası sosial-iqtisadi problemlərin həlli imkanlarını qat-qat genişləndirmiş, dövlətimizin beynəlxalq aləmdə imicinin artmasını təmin etmişdir.

Cəmiyyətimizdə respublikamızın ümumi inkişaf istiqamətləri barədə konsensus əldə edilmişdir. Azərbaycanın inkişaf *strategiyası geosiyasi şəraiti, dünya iqtisadiyyatının* inkişaf *meyillərini və milli* mənafeləri, respublikamızın potensial im*kanlarını nəzərə alaraq müəyyənləşdirilmişdir* və bu strategiya neçə-neçə onilliklər Azərbaycanın tərəqqisinə xidmət edəcəkdir.

Hazırda Azərbaycan Dövlət Neft Fondunda böyük miqdarda vəsait var. Dövlət başçısı bu vəsaitlərdən səmərəli istifadə olunması, onun şəffaflığının təmin edilməsi ilə bağlı Azərbaycan dövlətinin strategiyasını müəyyən etmişdir. Bu gün ən nüfuzlu ekspertlər və beynəlxalq təşkilatlar, aparıcı dövlətlərin liderləri bu fundamental məsələnin həlli istiqamətində görülmüş işləri yüksək qiymətləndirirlər. Çünki Azərbaycanda Dövlət Neft Fondunun beynəlxalq standartlara uyğun olaraq idarə olunması sistemi formalaşmışdır. Azərbaycan neftçıxarma sənayesindən əldə edilən gəlirlərin şəffaflığı barədə Britaniyanın irəli sürdüyü təşəbbüsün iştirakçısıdır. Neft Fondunun hesabında olan vəsaitlərin həcmi və həmin vəsaitlərin hərəkəti barədə ictimaiyyətə müntəzəm surətdə məlumat verilir. Çox az vaxt keçməsinə baxmayaraq, Azərbaycanın Dövlət Neft Fondunun fəaliyyəti digər neft ölkələri üçün də böyük maraq doğurur. Bir sözlə, Neft Fondunun açıq və şəffaf idarə edilməsi cəmiyyət tərəfindən müsbət qəbul edilir.





Dövlət başçısı haqlı olaraq belə hesab edir ki, Neft Fondunun gəlirlərinin bölünməsinin tarazlaşdırılmış olması, o cümlədən bu vəsaitlərin bir qismindən ən aktual iqtisadi, sosial məsələlərin həlli üçün istifadə edilməsi, həmin vəsaitin xeyli hissəsinin isə gələcək nəsillər üçün strateji ehtiyat kimi qorunub saxlanması Azərbaycanın dinamik keyfiyyətli inkişafının çox mühüm qarantıdır.

Dövlət başçısının prinsipial mövqeyi ondan ibarətdir ki, neft məqsəd deyil, vasitədir. Azərbaycan iqtisadiyyatının gələcəyini təkcə neftlə bağlamaq olmaz. Bunun üçün qeyri-neft sektoru daha sürətlə inkişaf etməlidir. Yaxın illərdə bu rəqəm xeyli yüksələcəkdir. 2005-ci ildə büdcədə vergi daxilolmalarının 61%-i qeyri-neft sektorunun payına düşürdü. Halbuki bu rəqəm 2001-ci ildə 53% təşkil edirdi.

Bununla belə yaxın illərdə Azərbaycan neftinin daha böyük həcmdə dünya bazarına çıxarılması nəticəsində ölkəyə böyük həcmdə valyuta daxil olacaqdır. Ona görə də, dövlət başçısı *makroiqtisadi sabitliyin qorunmasını, bütün səviyyələrdə maliyyə* vəsaitlərindən səmərəli istifadə olunması, şəffaflığın təmin edilməsini vacib bir vəzifə kimi qiymətləndirir.

Müstəqil Azərbaycanın inkişaf strategiyasında regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi problemi mühüm yer tutur.

Qeyd etmək lazımdır ki, regionların inkişafındakı tarazlığın pozulması, istərsə də işsizlik problemləri bizə sovet dövründən "miras" qalmışdır. XX əsrin əvvəllərində Bakı dünyanın əsas neft sənayesi mərkəzlərindən biri kimi tanınsa da, Azərbaycanın digər rayonlarının payına ümumi məhsulun cəmi 9%-i düşürdü. Sovet dövründə bu rəqəm nisbətən artsa da, iqtisadi potensialın əsas hissəsi yenə də Bakı və Sumqayıt şəhərlərində cəmləşmişdi.

Bu cür qeyri-bərabər inkişaf respublikanın sosial-iqtisadi tərəqqisini ləngitmiş, məşğulluq problemlərinin həllində çox

ciddi çətinliklər yaratmış, səmərəsiz miqrasiya axınını gücləndirmişdi. XX əsrin 70-ci illərində Heydər Əliyev bu problemin kəskinliyini, onun ağır sosial-iqtisadi nəticələrə gətirib çıxara biləcəyini nəzərə alaraq İttifaq hökuməti qarşısında respublika iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, rayonlarda sənaye, tikinti, nəqliyyat müəssisələrinin yaradılması, əmək tutumlu, yüksək gəlir verən üzümçülüyün və çayçılığın, meyvəçiliyin inkişafı ilə bağlı məsələlər qaldırdı və onların həllinə nail oldu. Respublikanın şəhər və rayonlarında çoxsaylı yeni sənaye, tikinti müəssisələri işə salındı. Kənddə böyük irəliləyişlər, canlanma baş verdi, yüzlərlə sosial-mədəni obyektlər istifadəyə verildi. Nəticədə, respublikanın ümumdaxili məhsulunda, iqtisadiyyatın sahə, ərazi strukturunda regionların xüsusi çəkisi xeyli artdı. Lakin sonrakı dövrdə, xüsusən dövlət müstəqilliyimizin ilk illərində istehsalın həcminin kəskin şəkildə azalması ilə əlaqədar nəinki Bakıda, eləcə də regionlarda yüz minlərlə insan işsiz qaldı. Ölkənin idarə edilməsində buraxılmış kobud səhvlər regionların sosial-iqtisadi inkişafına ciddi zərbələr vurdu ki, onların acı nəticələri bu gün də hiss olunur.

1994-cü ildən sonra ölkədə makrosabitliyin təmin olunması, neft strategiyasının reallaşması ilə bağlı görülən tədbirlər nəticəsində vəziyyət nisbətən yumşaldı. İlham Əliyev ölkədə, onun bölgələrində yaranmış sosial-iqtisadi, demoqrafik şəraiti dərindən təhlil edərək bu qənaətə gəldi ki, regionların tarazlı inkişafı dövlət siyasətinin prioritet istiqaməti olmalıdır.

İlham Əliyev hələ baş nazir vəzifəsində çalışarkən seçkiqabağı görüşlərində regional siyasətin konseptual əsasları, məqsəd və vəzifələri barədə baxışlarını açıqladı, Azərbaycanın tarazlı inkişafını ölkənin iqtisadi qüdrətinin artmasının strateji faktoru kimi qiymətləndirdi. 24 noyabr 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti kimi respublikanın sosial-iqtisadi inkişafını sürətləndirməklə bağlı tarixi bir sənəd imzaladı. Regional inkişaf siyasətinin uğurla həyata keçirilməsi məqsədilə dövlət-özəl sektor münasibətlərinin təkmilləşməsi üçün daha işlək mexanizmlərdən istifadə olunmasının, o cümlədən bank-maliyyə, vergi sisteminin təkmilləşdirilməsinin zəruriliyini əsaslandırdı. Azərbaycan hökumətinə regionlarda investisiya mühitinin yaxşılaşması, risklərinin azaldılması, ümumiyyətlə, bölgələrdə mövcud olan problemlərin həlli barədə konkret tapşırıqlar verdi, yerli iqtisadiyyatın inkişafına kömək edən qanun, fərman və sərəncamlar imzaladı.





11 fevral 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında imzaladığı fərman bu cəhətdən fundamental əhəmiyyət kəsb edir. Azərbaycan üçün ən taleyüklü problemlərdən sayılan regionların sürətli inkişafını nəzərdə tutan Proqram xalq tərəfindən böyük sevinclə qarşılandı. Çünki Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi dövlətimiz, xalqımız üçün böyük əhəmiyyət kəsb edəcək, bir neçə taleyüklü məsələnin həllinə öz layiqli töhfəsini verəcəkdir. Onlar əsasən aşağıdakılardan ibarətdir:

- ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması;

- regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması;

- regionların malik olduğu resurslardan səmərəli istifadə olunması;

- regionlarda sahibkarlığın inkişafı, yerli mövcud istehsal müəssisələrinin fəaliyyətinin bərpası və inkişafı, yeni iş yerlərinin yaradılması;

- regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulması.

"Regionların sosial-iqtisadi inkişafı dövlət Proqramı"nda müxtəlif məqsədləri əhatə edən 714 tədbir nəzərdə tutulmuşdur ki, bunun da 46-sı makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi, 668-i isə 9 iqtisadi rayonu, eləcə də hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilmiş tədbirlərdir.

Prezident İlham Əliyev Dövlət Proqramının yerinə yetirilməsində vasitə kimi nəzarət sistemini daima öz diqqətində saxlayır. Onun rayonlara və şəhərlərə müntəzəm səfərləri, yerlərdə sosial-iqtisadi vəziyyətlə hərtərəfli tanış olması, əhali ilə görüşləri, regionların inkişafı, yoxsulluğun azaldılması ilə bağlı müəyyən edilmiş strateji proqramlar üzrə tapşırıqların yerinə yetirilməsi barədə məlumatları dinləməsi və dərhal sonra konkret qərarlar verməsi artıq ənənəyə çevrilmişdir. Prezidentin icra strukturlarının rəhbərlərinə ünvanladığı "Sizə xəbərdarlıq etmək istəyirəm, sizlərdən hər birinizin gələcək fəaliyyəti sizin işinizin nəticələrindən asılı olacaqdır. Bütün sahələrdə nəticə əldə edilməlidir" tələbi bütün səviyyələrdə icra orqanlarının rəhbərləri üçün dəqiq orientirdir. Bütün bu tədbirlərin hamısı bir ümumi məntiqə bağlıdır: keyfiyyətli və səmərəli idarəetmə keyfiyyətli və dinamik inkişaf üçün çox mühüm vasitədir ki, ondan da dövlət başçısı çox uğurla istifadə edir.

Əhəmiyyətli cəhət bir də ondadır ki, Prezident İlham Əliyevin regionlara hər bir səfərindən sonra regionun inkişafı ilə bağlı yeni imkanlar müəyyənləşdirilir, müvafiq nazirlik, komitə və digər qurumların vəzifələri konkretləşdirilir.

Dövlət başçısının regionlara hər bir səfərindən dərhal sonra müvafiq sərancamları ilə Quba-Xaçmaz, Qusar, Siyəzən, Dəvəçi, Qəbələ, İsmayıllı, Oğuz, Lənkəran, Astara, Lerik, Masallı,





Yardımlı, Əli-Bayramlı, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir, Tovuz, Ağdam, Bərdə, Tərtər, Şəki, Balakən, Qax, Zaqatala, Daşkəsən və digər şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilmişdir.

Prezident İlham Əliyevin digər bir sərəncamı əsasında Bakı ətrafında yerləşən qəsəbələrin kompleks inkişafının təmin edilməsi və problemlərinin aradan qaldırılması (kommunal xidmətlər, məktəblərin və səhiyyə ocaqlarının tikintisi, qəsəbəətrafı və qəsəbədaxili yolların salınması, iş yerlərinin açılması və s.) ilə bağlı böyük işlər görülür.

2004-2006-cı illərdə respublikanın regionlarında yaradılmış yeni iş yerlərinin xüsusi çəkisi




2004-2006-cı illərdə yaradılmış yeni iş yerlərində qeyri-neft sektorunun xüsusi çəkisi




Azərbaycan regionlarının iqtisadi inkişafını artırmağa əlverişli şərait yaradan daha bir mühüm amil var. Söhbət möhtəşəm Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyətində respublikamızın iştirakının ildən-ilə genişlənməsindən gedir. Bu nəqliyyat dəhlizinin işə düşməsi Şərq ölkələri və Avropa Birliyi ilə əməkdaşlığın daha da dərinləşməsi, inteqrasiya proseslərinin güclənməsi üçün təsirli amil olmaqla bərabər, eyni zamanda ölkəmizin iqtisadi təhlükəsizliyinin etibarlı qarantı, regionlarda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, müasir avtomobil yolları və digər zəruri obyektlərin tikintisi üçün möhkəm baza yaradır.

Göründüyü kimi, dövlət başçısının regionların Azərbaycan iqtisadiyyatının davamlı, keyfiyyətli inkişafında rolunun artırılması kimi strateji taleyüklü problemin həlli barədə elmi cəhətdən dərin əsaslandırılmış baxışları, konkret fəaliyyət proqramı vardır.

Ölkə başçısı regionlarda özəl sektorun inkişafına dövlət qayğısının artırılmasını, biznes mühitinin formalaşmasına mane olan bütün əngəllərin bölgələrdə aradan qaldırılmasını, sahibkarların daxili iş fəaliyyətinə qarışmamağı, qanunsuz yoxlamaların aparılmamasını icra strukturlarının vacib vəzifələrindən biri kimi qiymətləndirir.

Öz fəaliyyətində realizmə, praqmatizmə əsaslanan dövlət başçısı Proqramda nəzərdə tutulmuş tədbirlərin tam miqyasda həyata keçirilməsini, quruculuq, abadlıq işlərinin genişləndirilməsini, milli iqtisadiyyatı sürətlə inkişaf etdirmək məqsədilə yerlərdə olan mövcud imkanlardan daha səmərəli istifadə olunmasını təmin etmək üçün hökumətin, yerli icra strukturlarının fəaliyyətinin daha da canlandırılmasını vacib sayır.

Məhz bunun nəticəsidir ki, regionlarda istehsal və sosial infrastrukturun yenidən qurulması istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. 2006-cı ildə 2003-cü ilə nisbətən respublikanın regionlarında adambaşına umumi məhsul 1,4-2,0 dəfə artmışdır. Naxçıvan MR, Quba-Xaçmaz, Gəncə-Qazax iqtisadi rayonlarında artım daha yüksək olmuşdur.

Bakı ilə yanaşı Naxçıvan, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba, Xaçmaz, Abşeron, Dağlıq Şirvan, Aran iqtisadi rayonlarında dünya standartlarına cavab verən ofislər, binalar, istehsal sahələri istifadəyə verilir. Rabitə, informasiya texnologiyaları, nəqliyyat, energetika, qaz təchizatı sistemində müsbət dəyişikliklər edilmiş, beynəlxalq tələblərə cavab verən rabitə stansiyaları, qovşaqları açılır, o cümlədən ucqar kəndlərdə əhaliyə





xidmətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir. Respublikamızın bölgələrində beynəlxalq standartlara cavab verən yollar salınır, körpülər, aeroportlar tikilir, müasir diaqnostika mərkəzləri, istirahət ocaqları istifadəyə verilir.

Özəl sektorun strukturu da təkmilləşir, ənənəvi istehsal və xidmət sahələri ilə yanaşı intellektual mülkiyyət tələb edən sahələrə sərmayə qoymaq marağı artır.

2005-ci ildə respublikada sənaye məhsulu istehsalı 33,5% artmışdır. 24 rayonda isə artım respublika üzrə müvafiq göstəricidən xeyli yüksək olmuşdur. Sənayenin inkişafı üzrə Dövlət Proqramının hazırlanması regionlarda sahənin, onun strukturunun yerli xammal və resurslar hesabına təkmilləşməsi imkanlarını daha da genişləndirəcəkdir.

70-cı illərdə respublikamız xaricə xeyli miqdarda xalça məhsulları ixrac edirdi. İndi də bu işi davam etdirmək üçün əlverişli imkan var. Bunu son illərin nəticələri də sübut edir. 2003-cü ildə respublikada cəmi 268,6 min kv metr xalça və xalça məmulatı istehsal olunmuşdusa, 2005-ci ildə bu rəqəm 630,3 min kv metr təşkil etmişdir ki, onun da demək olar ki, hamısı regionların payına düşür.

Azərbaycan elə bir unikal dövlətdir ki, onun regional inkişaf siyasətində milli, əhalinin təkrar istehsal xüsusiyyətləri nəzərə alınmalıdır. Əhalisi sürətlə artan Asiya, Afrika ölkələri üçün Beynəlxalq təşkilatların hazırladıqları proqram və tövsiyələr burada əsas kimi götürülə bilməz. SSRİ-nin dağılması ərəfəsində bilavasitə xalqımıza qarşı edilən müxtəlif formalı təcavüz respublikanın demoqrafik inkişafına çox güclü zərbə vurdu. 20 Yanvar faciəsi, Qarabağ müharibəsi respublikada əhalinin təkrar istehsalında böyük uyğunsuzluqlar yaradıb. Əhalinin təbii artım sürəti aşağı düşmüş, kənddən miqrasiya axını güclənmişdir. Respublikanın regional,

demoqrafik inkişaf məsələləri problemi çoxşaxəli, fovqəladə əhəmiyyət kəsb edən bir problemə çevrilmişdir ki, onu da, dövlət başçısının qeyd etdiyi kimi, yalnız qlobal düşünülmüş və konkret tədbirlərlə əhatə olunmuş konsepsiya əsasında, dövlətin bilavasitə iştirakı və qayğısı nəticəsində həll etmək olar. Ona görə də, Prezident İlham Əliyevin bəyan etdiyi regional inkişaf siyasətində, yoxsulluğun azaldılmasına yönəldilmiş tədbirlər sistemində yeni iş yerlərinin yaradılması həlledici amillərdən biri kimi qeyd edilir.

Son illərdə regionların inkişafı, yoxsulluğun azaldılması, işsizliyin ləğvini nəzərdə tutan strateji proqramların reallaşması nəticəsində ölkənin iqtisadi həyatı daha da canlanmış, real sektora, xidmət sahəsinə aid yüzlərlə yeni müəssisə, bir neçə yüz min yeni iş yerləri yaradılmışdır.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) çərçivəsində həyata keçirilən tədbirlər əticəsində yeni iş yerlərinin 85%-i regionların, 94%-i qeyri-neft düşür.

**1 OKTYABR 2003-CÜ İLDƏN 1 İYUL 2006-CI İLƏDƏK YENİ AÇILMIŞ İŞ YERLƏRİNİN İQTİSADİ RAYONLAR ÜZRƏ SAYI VƏ STRUKTURU**

| | Cəmi | O cümlədən daimi iş yerləri %-lə | Cəmi iş yerlərinin ərazi strukturu %-lə |
|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə – cəmi | 435837 | 50,9 | 100% |
| O cümlədən: | | | |
| Bakı şəhəri üzrə | 73956 | 98,3 | 17,0 |
| Abşeron iqtisadi rayonu | 26121 | 52,3 | 6,0 |
| Gəncə-Qazax iqtisadi rayonu | 46541 | 50,0 | 10,7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 22638 | 54,9 | 5,2 |
| Lənkəran iqtisadi rayonu | 44045 | 28,0 | 10,1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 25914 | 37,5 | 5,9 |
| Aran iqtisadi rayonu | 125462 | 30,8 | 28,8 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 10446 | 31,4 | 2,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 13883 | 44,4 | 3,2 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2376 | 74,1 | 0,5 |
| Naxçıvan iqtisadi rayonu | 20577 | 60,1 | 4,7 |
| Digər mərkəzi təşkilatlar | 23878 | 64,7 | 5,5 |





Qısa zaman kəsiyində belə bir yüksək nəticələrin əldə olunması, sözün əsl mənasında, böyük bir nailiyyətdir. Axı, yeni iş yerlərinin yaradılması, işsizliyin, yoxsulluğun sürətlə azalması millətin genefondunun qorunması, ailələrin, uşaqların xoşbəxtliyi, ölkənin iqtisadi qüdrətinin artması deməkdir. İlham Əliyev 2006-cı il 2 oktyabrda Milli Məclisdəki çıxışında demişdir:

"Azərbaycanı narahat edən bütün problemlər diqqət mərkəzindədir. Regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Siz bölgələrdə tez-tez olursunuz, yaqin özünüz də görürsünüz ki, bizim rayonlarımızın siması dəyişir. Yeni binalar, məktəblər, xəstəxanalar, idman qurğuları, sənaye müəssisələri tikilir, sahibkarlıq inkişaf edir. Miqrasiya, yəni rayonlardan şəhərə miqrasiya meyilləri azalır və ümid edirəm, vaxt gələcək ki, bu, tam dayanacaqdır və bəlkə də, şəhərdən rayonlara miqrasiya başlana bilər".

Dövlət başçısının dərin, sözün əsl mənasında, ölkənin iqtisadi təhlükəsizliyi, tarazlı inkişafı baxımından fundamental əhəmiyyət kəsb edən bu fikirləri yaxın və uzaq gələcək üçün öz aktuallığını saxlayacaq, urbanizasiya, şəhərsalma məsələlərinin həllində əhalinin az sıxlığı ilə fərqlənən dağ rayonlarının, ucqar kəndlərin inkişafı ilə bağlı hazırlanacaq proqramlarda əsas götürülməlidir.

İlham Əliyevin Azərbaycan iqtisadiyyatının gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf konsepsiyasında yerli istehsalın inkişaf imkanlarından səmərəli istifadə olunması, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələləri xüsusi yer tutur.

Azərbaycan ta qədimdən kənd təsərrüfatı istehsalının inkişafı üçün əlverişli şəraitə və unikal imkanlara malik ölkə hesab edilir. Aqrar sektor onilliklər boyu ölkəmizin iqtisadiyyatında mühüm yer tutmuşdur, bu meyil indi də davam edir. Müasir dövrün fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, kənd təsər-

rüfatında əsaslı dəyişikliklər edilmiş, kəndlilər əsrlər boyu arzuladığı torpağa sahib olmuşlar – torpaq onların xüsusi mülkiyyətinə verilmişdir. Aparılan müqayisəli təhlillərdən görünür ki, aqrar islahatların birinci mərhələsinin nəticələri ümidvericidir: istehsalın həcmi xeyli artır, yerli mənbələr hesabına əhalinin ərzaqla təchizat səviyyəsi yaxşılaşır, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün real şərait yaranır.

Bu gün respublika əhalisinin yarısının yaşadığı kənddə aqrar islahatların yeni mərhələsi başlanmışdır. Ona görə də, dövlət başçısı kəndin sosial-iqtisadi strukturunun yaxşılaşdırılması, burada müasir tələblərə cavab verən istehsal, sosial infrastrukturun yaradılması, fermer təsərrüfatlarına aqroservis, onlara qayğının artırılması, marketinq xidmətinin yaxşılaşması istiqamətində görülən işlərin miqyasının genişləndirilməsini prioritet vəzifə kimi qiymətləndirir. Aqrar sektorun inkişafında müşahidə olunan müsbət meyillərin daha da güclənməsi, regionlarda istehsal edilən məhsulların səmərəliliyinin və keyfiyyətinin yüksəlməsi, onların maneələrsiz daxili və xarici bazarlara çıxarılması məsələlərini daima diqqət mərkəzində saxlamağı icra strukturlarından tələb edir.

İlham Əliyev iş adamlarına tövsiyə edir ki, rayonlarda yerli xammala əsaslanan emal müəssisələrinin, istehsal sahələrinin yaradılması üçün daha miqyaslı iş aparsınlar. Bunun üçün iqtisadi qurumlar, xüsusilə də İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Bank, Kənd Təsərrüfat Nazirliyi, Sahibkarlığa kömək Milli Fondu fəallıq göstərməli, aqrar sektora kömək sahəsində dünya təcrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə etməlidirlər. Eyni zamanda, ölkənin ixrac potensialını artırmaq, məşğulluğu yaxşılaşdırmaq baxımından üzümçülük, pambıqçılıq, meyvəçilik, çayçılıq kimi əmək tutumlu, yüksək gəlirli sahələrin inkişaf imkanlarının ətraflı araşdırılması məsələləri də diqqət mərkəzində olmalıdır. Müstəqilliyin ilk illərində respubli-





kanın maliyyə imkanları yox dərəcəsində idi. Beynəlxalq maliyyə qurumlarından kredit almaq istəyəndə çox çətinliklər, ağır şərtlərlə üzləşirdik. İndi isə vəziyyət xeyli dəyişib, respublikamızın maliyyə imkanları qat-qat yaxşılaşıb.

Onu göstərmək kifayətdir ki, 2007-ci ildə ölkənin dövlət büdcəsinin gəlirləri 6 milyard ABŞ dollarını ötəcək. Müqayisə üçün onu göstərmək kifayətdir ki, 1998-ci ildə ölkə büdcəsinin gəlirləri cəmi 602 milyon dollar təşkil edirdi. Son 3 ildə Bakı və Sumqayıt şəhərləri istisna olmaqla, Naxçıvan Muxtar Respublikası, digər şəhər və rayonlara ayrılan büdcə xərcləri 1,353 milyard manat təşkil etmişdir ki, bu da 2001-2003-cü illərə nisbətən 2,2 dəfə çoxdur.

**Bakı və Sumqayıt istisna olmaqla Naxçıvan MR, digər şəhər və rayonlara ayrılan dövlət büdcəsi xərclərinin dinamikası**




Regionların sosial-iqtisadi inkişafına maliyyə təminatının artırılmasında beynəlxalq maliyyə qurumları da fəal iştirak edir. İndi xaricdən borc alanda, hökumətin daha dərindən fikirləşmək, araşdırmalar, təhlillər aparmaq imkanları vardır. Hazırda beynəlxalq maliyyə institutları ilə birlikdə regionlarda ümumi dəyəri

450 milyon ABŞ dolları olan mühüm layihələr həyata keçirilir. Dünya Bankının kreditləri hesabına suvarma drenaj infrastrukturunun bərpası, elektrik ötürücü sistemləri qurulur. Asiya İnkişaf Bankı Ağdaş, Göyçay və Naxçıvan şəhərlərində ümumi dəyəri 30 milyon ABŞ dolları olan su və kanalizasiya sistemlərinin yaxşılaşdırılması, Almaniyanın KFW Bankının krediti və İsveçrə Hökumətinin qrantı hesabına ümumi dəyəri 54 milyon avro olan Gəncə və Şəki şəhərlərinin su təchizatının yaxşılaşdırılması, İslam İnkişaf Bankının və Ərəb Fondlarının kreditləri hesabına dəyəri 22,5 milyon ABŞ dolları olan Xanarx və dəyəri 42,5 milyon ABŞ dolları olan Vəlvələçay-Taxtakörpü kanallarının inşası və digər layihələr həyata keçiriləcəkdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti tərəfindən regionlarda su təchizatı və kanalizasiya sistemlərinin inkişafı, yol-nəqliyyat servis xidmətlərinin inkişafı, enerji təchizatı, sosial rifahın artırılması ilə əlaqədar bir sıra mühüm sərəncamlar imzalanmışdır. Cari ilin 6 ayı ərzində İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 1000-dən çox sahibkara, sahibkarlıq subyektinə 50 milyon manatdan çox güzəştli kreditlər verilmişdir. Vacib cəhətlərdən biri də odur ki, maliyyələşdirilmiş layihələrin 80 faizindən çoxu ölkənin regionlarının payına düşür və bu layihələrin 90 faizi istehsal və emal yönümlüdür.

Sözsüz ki, hər hansı islahat prosesində olduğu kimi, səhvlər və nöqsanlardan da yan keçmək mümkün deyildir. Bu barədə dövlət başçısı açıq danışır, problemlərin həllinə mane olan səbəblərin dərindən təhlil edilməsini vacib vəzifə kimi qarşıya qoyur. Hesablamalar göstərir ki, bəzi rayonlarda adambaşına məhsul buraxılışı hələ də aşağı səviyyədədir. Ayrı-ayrı rayonların qaz-enerji təchizatında problemlər vardır.

Dünya təcrübəsi göstərir ki, hər bir inkişaf etmiş dövlət özünün iqtisadi-siyasətində regionların sosial-iqtisadi inkişafında





olan köklü fərqləri azaltmaq üçün güzəştli mexanizmlərdən məharətlə istifadə etmiş və indi də edir. Keçid dövrünü spesifik şəraitdə yaşayan dövlətimiz üçün bu cəhət xüsusilə əhəmiyyətlidir. Məsələn, Bakıda, Sumqayıtda biznes təşkil etmək, sahibkarlığı inkişaf etdirmək üçün mövcud olan şərait mərkəzdən uzaq olan kənd rayonlarının şəraitindən təbii ki, çox fərqlidir. Kənd rayonlarında bu işləri qurmaq üçün maliyyə vəsaitləri ilə yanaşı, idarəetmə təcrübəsi, müvafiq istehsal və sosial infrastruktur və daha səmərəli iqtisadi mexanizmlər tələb olunur.

İlham Əliyev regionlara səfəri zamanı hökumət strukturlarına bu reallıqları nəzərə almağı tövsiyə edir və bildirir ki, regionların inkişafındakı pozitiv meyillər daha da möhkəmlənməli və bunun üçün ölkədə yaranmış əlverişli şəraitdən maksimum istifadə olunmalıdır.

XXI əsr təhsil, elm və biliklərin sosial-iqtisadi tərəqqidə rolu əhəmiyyətli dərəcədə artacaqdır. Dövlət başçısı Azərbaycan xalqının gələcəyi, onun dünya xalqları arasında layiqli yer tutması naminə təhsilə, elmə diqqətin artırılacağını bəyan etmişdir. Çünki qloballaşan dünyada o ölkə özünün suverenliyi, milli-mənəvi dəyərlərini daha layiqincə qoruya biləcəkdir ki, yüksək təhsil-elm sisteminə, güclü iqtisadiyyata malik olsun.

Respublikamızın bu bəşəri meyildən geri qalmaması üçün ölkədə böyük işlər həyata keçirilir. Son 3 ildə ölkənin bütün regionlarında təhsilin maddi-texniki bazasının möhkəmlənməsi, məktəblərin müasir avadanlıqlarla təmin edilməsi istiqamətində həm dövlət, həm də Heydər Əliyev Fondu tərəfindən ürəkaçan işlər görülür.

Azərbaycan iqtisadiyyatı güclənd ikcə, ölkənin maliyyə imkanları artdıqca rayon və şəhərlərin inkişaf məsələləri daha sürətlə həll ediləcək, bu problemə dövlətin qayğısı artırılacaq, regionların ölkə iqtisadiyyatında rolu əhəmiyyətli dərəcədə yüksələcəkdir.

Həyatın özü regional iqtisadi siyasətə düzəlişlər, yeni yanaşmalar tələb edir. Artıq maddi-texniki resursların mərkəzləşdirilmiş bölüşdürmə mənbələri, yuxarıdan müəyyən edilən planlaşdırma yoxdur. Yerli hakimiyyət orqanlarının büdcə vəsaitlərindən istifadə hüquqları genişlənir, özəl, sahibkarlıq fəaliyyəti ilə bərabər bələdiyyə mülkiyyəti də formalaşır. Sivil bazarın bu və ya digər element və atributları iqtisadi həyata daha fəal daxil olur ki, bu da regionlarm strateji inkişaf proqramının elmi təminatının yaxşılaşdırılmasına, rayonlaşdırma məsələlərinin təkmilləşdirilməsinə ehtiyacı artırır.

Sevindirici haldır ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» üzrə informasiya təminatının yaxşılaşdırılması, mərkəzi və yerli icra strukturlarının bu işə daha fəal cəlb edilməsi, ümumiyyətlə, regionları idarəetmə mexanizminin təkmilləşməsi istiqamətində dəyərli işlər görülür, idarəetmə mədəniyyəti yüksəlir.

Xalqımız əmindir ki, erməni təcavüzü nəticəsində ələ keçirilmiş torpaqlar azad olunacaq, taleyinə bu qədər ağır sınaqlar düşmüş Azərbaycan xalqı vətəninin ərazi bütövlüyünü bərpa edəcəkdir. Bu taleyüklü məsələnin həlli Azərbaycanın inkişaf sürəti və digər parametrlərinə ciddi təsir, ümumən iqtisadi siyasətə, o cümlədən regional siyasətə də mahiyyətli düzəlişlər edəcəkdir.

Bu gün Azərbaycan cəmiyyətində belə bir qəti inam yaranmışdır ki, İlham Əliyev tərəfindən respublikanın strateji inkişafının fundamental əhəmiyyət kəsb edən istiqamətləri üzrə müəyyən edilmiş bütün vəzifələr müvəffəqiyyətlə yerinə yetiriləcək.

Regionları sürətlə inkişaf etdirmək strategiyası yaxın və uzaq gələcəkdə də müstəqil Azərbaycanın keyfiyyətli və davamlı inkişafının güclü amili olacaqdır.



# VIII
# ÜNVANLI SOSİAL SİYASƏT – TARAZLI İNKİŞAF

"Bilirsiniz ki, Neft Fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin Fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin Sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əməkhaqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır".

*31 oktyabr 2003-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqindən***

"Gələcək üçün çoxlu planlarımız var, çoxlu layihələr nəzərdə tutulur. Hökumətin əsas məqsədi insanların həyatında yaxşılığa doğru dəyişikliklər etməkdir. Bu, bəlkə də, kənardan çox sadə görünür, amma qəti məqsədimiz bundan ibarətdir".

*26 yanvar 2004-cü il*
***Fransanın nüfuzlu işgüzar dairələrinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...mən sahibkarları dəstəkləyirəm, onlara öz siyasi dəstəyimi verirəm və bu məsələyə gələcəkdə çox böyük diqqət göstərəcəyəm. Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz".

*2 fevral 2004-cü il*
***Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılmış Dövlət Neft Fondunun fəaliyyəti çox səmərəlidir. Bu Fondda yığılan vəsaitlər şəffaf şəkildə saxlanılır və Azərbaycanın ən ağır problemi olan qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına sərf edilir. Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli istiqamətində bu vəsaitlər ölkəmizə kömək edəcəkdir".

*3 fevral 2004-cü il*
***Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Bütün nailiyyətlərimiz, planlarımız ancaq bir şeyə - Azərbaycan vətəndaşlarına daha layiqli həyat yaratmağa, sosial problemləri, qaçqınların və məcburi köçkünlərin məsələlərini həll etməyə yönəldilmişdir. Bununla da ölkə möhkəmlənmiş olar".

*7 fevral 2004-cü il*
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Əgər biz büdcəmizə nəzər salsaq görərik ki, onun tam əksəriyyəti sosial məsələlərin həllinə yönəlibdir. Bu tarazlıq bizə imkan verir ki, ölkə həm iqtisadi cəhətdən güclənsin, eyni zamanda, vətəndaşlar da iqtisadi islahatların bəhrəsini görsünlər. Bu siyasət bundan sonra da davam edəcəkdir".

*17 fevral 2004-cü il*
***"Azərbaycanda 10 illik Humanitar Fəaliyyət: təsir, qazanılmış təcrübə, gələcək istiqamətlər" mövzusunda Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...hesab edirəm ki, humanitar təşkilatların fəaliyyətinin öncül istiqaməti qaçqınlara və köçkünlərə göstərilən yardım olmalıdır. Bu, keçmişdə də belə olubdur, bu gün də belədir. Azərbaycan dövlətinin də mövqeyi məhz belədir".

*17 fevral 2004-cü il*
***"Azərbaycanda 10 illik Humanitar Fəaliyyət: təsir, qazanılmış təcrübə, gələcək istiqamətlər" mövzusunda Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz əlimizdən gələni edəcəyik ki, həyata keçirdiyimiz layihələrdən Azərbaycanın hər bir vətəndaşı bəhrələnsin. Azərbaycandakı layihələr uğurla həyata keçiriləcək və ölkə sosial-iqtisadi, siyasi inkişaf yolunu davam etdirəcəkdir".

*28 aprel 2004-cü il*

***Varşavada Avropa İqtisadi Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Amma büdcəmizin strukturuna nəzər salsanız, görərsiniz ki, büdcənin çox böyük hissəsi sosial məsələlərə yönəldilmişdir. Məncə, bazar iqtisadiyyatı ilə sosial müdafiənin bu cür kombinasiyası da uğurun əsaslarını təşkil edən amillərdəndir".

*30 aprel 2004-cü il*

***AŞPA-nın yaz sessiyasındakı iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"...qəbul etdiyimiz proqramların əsas məqamlarından biri də məhz sosial məsələlərin həllidir. Ümid edirəm ki, Azərbaycan öz iqtisadi potensialını gücləndirdikcə bu məsələlər də öz həllini tapacaq, insanlarımız ildən-ilə daha yaxşı və firavan yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız - siyasi iradə, gözəl şərait, insanlarımızın peşəkarlığı və ən önəmlisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasəti vardır. Bu siyasət bu gün də yaşayır, sabah da yaşayacaq və Azərbaycanın uğurlu, hərtərəfli inkişafı üçün bütün dövrlərdə həyata keçirilməlidir".

*5 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Heydər Əliyev adına Bakı neft emalı zavodunda ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində çıxışından***





"...keçmişdə neft sənayesində çalışmış insanlara Prezident Heydər Əliyev tərəfindən göstərilmiş qayğı və hörmət mənim tərəfimdən də davam etdiriləcəkdir. Təbii ki, buna heç bir şübhə yoxdur. Mən neft sənayesində çalışan insanlara böyük hörmətlə yanaşıram. Bu, cəsarətli və çox məsuliyyətli bir peşədir".

*5 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Heydər Əliyev adına Bakı neft emalı zavodunda ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində çıxışından***

"Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaq, çoxlu sosial problemlərin həllində iştirak etməkdir".

*7 may 2004-cü il*

***Milli Məclisdə ümummilli liderimiz Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə veriləndən sonra Azərbaycan öz iqtisadi potensialını çox sürətlə gücləndirəcəkdir. Bu da öz növbəsində, imkan verəcəkdir ki, sosial məsələlərə daha da böyük diqqət göstərilsin, əməkhaqları qaldırılsın, pensiyalar, digər müavinətlər artırılsın. Bizim məqsədimiz budur. Heydər Əliyevin siyasəti budur. Xalqa, millətə xidmət etmək, ölkəmizi gücləndirmək, Azərbaycanın müstəqilliyini gücləndirmək Heydər Əliyev siyasətinin əsas istiqamətləridir. Biz bu siyasətə sadiqik".

*12 may 2004-cü il*

***Naxçıvan beynəlxalq hava limanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Sadə vətəndaşlar neftdən gələn gəlirləri hiss etməlidirlər. Yaşından, mənşəyindən asılı olmayaraq, ölkənin hər bir vətəndaşı gündəlik həyatında hiss etməlidir ki, neft gəlirlərində onun da payı var".

*18 may 2004-cü il*

***Avropa Komissiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Sosial məsələlərin həllində mühüm addımlar atılır, böyük proqramlar həyata keçirilir. Ən çətin vəziyyətdə yaşayan, sosial cəhətdən ən az müdafiə olunan qaçqınlar, köçkünlər üçün nəzərdə tutulmuş yeni layihələr həyata keçirilir. Bu proqram davam etdiriləcək və mən dediyim kimi, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır".

*27 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***

"...biz sosial məsələlərə biganə qala bilmərik. Ən çətin vəziyyətdə yaşayanlar, təqaüdçülər, büdcədən maliyyələşən təşkilatlar haqqında fikirləşirik və imkan daxilində onların həyat səviyyəsi ildən-ilə yaxşılaşacaqdır. Mən bunu bəyan etmişəm, bu, mənim proqramımdır və mən bunu icra edəcəyəm".

*27 iyul 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***





"Azərbaycan idmanı dünyada layiqli yerini tuta bilibdir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti çıxışlarının birində Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini digər olimpiya komitələri üçün nümunə adlandırmışdır. Biz, idmana rəhbərlik edən şəxslər gərək idmançıların bütün məsələləri ilə məşğul olaq, onlara idmanla məşğul olmaq, beynəlxalq yarışlarda iştirak etmək üçün şərait yaradaq. İdmançılar isə, öz növbələrində, nəticələri ilə gərək xalqımızı, vətənimizi sevindirsinlər".

*4 avqust 2004-cü il*

***XXVIII Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bir il bundan əvvəl burada olarkən söz vermişdim ki, bundan sonra da mənim fəaliyyətimin əsas istiqaməti qaçqınların, məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı olacaqdır. O günə qədər ki, torpaqlarımız azad olacaq, gərək biz qaçqınların şəraitini yaxşılaşdıraq".

*11 sentyabr 2004-cü il*

***Bərdədəki Türkiş "Qızıl Ay"çadır şəhərciyində müvəqqəti məskunlaşmış Ağdam, Laçın və Kəlbəcər rayonlarından olan məcburi köçkünlərlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...sosial məsələlərə daim diqqət göstərilməlidir, bu məsələlər həmişə ön planda olmalıdır. Əgər indi müzakirəyə çıxarılmış dövlət büdcəmizə nəzər salsaq görərik ki, büdcəmiz də sosialyönümlüdür. Yəni insanların gündəlik həyatı, güzəranı hökumət üçün, Prezident kimi mənim üçün ən ümdə məsələdir".

*3 noyabr 2004-cü il*

***Prezident Heydər Əliyev tankerinin istismara verilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...iqtisadi potensialı gücləndirməklə yanaşı, sosial məsələlərin həllinə də böyük diqqət göstərilir. Bizim büdcəmiz həmişə olduğu kimi, gələn il də sosialyönümlü büdcə olacaqdır.

Biz çalışacağıq ki, yoxsulluğun səviyyəsini ildən-ilə aşağı salaq. Bu istiqamətdə də müsbət tərəfə irəliləyiş var, müsbət meyillər var. Ən başlıcası odur ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir, hərtərəfli inkişaf edir".

*9 noyabr 2004-cü il*

***Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Gələn il minimum əməkhaqqı, pensiyalar, əhaliyə çatan digər ödəmələr yenidən qaldırılacaqdır. Bu siyasət ildən-ilə daha da güclü aparılacaqdır. Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı daha da yaxşı yaşamalıdır və yaşayacaqdır.

Buna Azərbaycan xalqının, Azərbaycan vətəndaşının haqqı var və biz də bunu təmin edəcəyik".

*9 noyabr 2004-cü il*

***Cəlilabad rayonunda kənd orta məktəb binasının və ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Sosial məsələlərə də böyük diqqət göstərilibdir. Maaşlar, pensiyalar, digər sosial ödəmələr həm vaxtlı-vaxtında ödənilir, eyni zamanda burada böyük artım müşahidə olunubdur".

*7 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***





"...biz əhalinin gündəlik həyatının yaxşılaşdırılmasına da böyük diqqət yetiririk. Çünki insanlar ümumi daxili məhsul üzrə göstəriciləri öz gündəlik həyatlarında hiss etməlidirlər. Biz çalışırıq ki, insanlarımıza daha yaxşı həyat bəxş edək, onların gündəlik problemlərini həll edək, qayğılarını azaldaq".

*14 dekabr 2004-cü il*

***Londonda "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan xalqı, Azərbaycan vətəndaşları yaşadıqları yerdən asılı olmayaraq, bütün sahələrdə, xüsusilə səhiyyə sahəsində ən yüksək xidmətlə təmin olunmalıdırlar".

*24 dekabr 2004-cü il*

***Siyəzən rayon Mərkəzi Klinik Xəstəxanasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda idmana qayğı xalqımızın gələcəyinə qayğı deməkdir və bu siyasət öz uğurlu nəticələrini verir. İdmançılar yaxşı bilir ki, idman ömrü çox qısa olur və təkcə Azərbaycanda deyil, bütün başqa ölkələrdə də idmançı idmandan gedəndən sonra bəzi çətinliklərlə üzləşir, elə bil ki, yeni həyata başlayır.

Ümumiyyətlə, idmançılara, idman mütəxəssislərinə qayğı daim bizim diqqət mərkəzimizdədir".

*28 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin Baş Məclisdə giriş nitqindən***

"Gənclərlə bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur, mən özüm şəxsən daim gənclərlə ünsiyyətdə olmuşam, indi də əlaqə saxlayıram. Azərbaycan gəncləri ölkəmizdə gedən prosesləri çox gözəl bilirlər və ümumiyyətlə, dünyada gedən prosesləri çox gözəl bilirlər.

Sosial müdafiə imkanları yüksələcəkdir. Ən çətin vəziyyətdə yaşayan qaçqınlarımız, köçkünlərimizdir, onların da həyat səviyyəsi yaxşılaşdırılacaqdır. Bilirsiniz ki, onlar üçün yeni infrastruktur yaradılır, yeni şəhərciklər salınır, məktəblər, xəstəxanalar tikilir".

*26 mart 2005-ci il*

***Yeni Azərbaycan Partiyasının III Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda gözəl yeni nəsil – bizim gələcəyimiz gənclər yetişir. Mən çox şadam ki, onlar vətənpərvərlik ruhunda tərbiyə alırlar. İdman vətənpərvərlik ruhunun daha da yüksəlməsində çox mühüm rol oynayır".

*26 aprel 2005-ci il*

***Şamaxı Olimpiya Kompleksinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...iki il ərzində yoxsulluğun azaldılması istiqamətində, həqiqətən, böyük işlər görülübdür. Azərbaycanda bu ciddi məsələ ilə məşğul olan qurumlar çox fəal işləyirlər. Həm hökumət, həm sahibkarlar, həm qeyri-hökumət təşkilatları, həm də beynəlxalq təşkilatlar, həm dünyanın maliyyə təsisatları - biz hamımız birlikdə işləyirik. Çünki bu bizim ümummilli məsələmizdir, Azərbaycanın ən böyük problemlərindən biridir. Azərbaycanda son illər ərzində qəbul edilmiş müxtəlif proqramlar, sosial-iqtisadi, regional inkişaf proqramları məhz bu məqsədi





güdür. Bu proqramların əsas məqsədi Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, Azərbaycanda güclü iqtisadiyyatın yaranmasına nail olmaqdır".

*12 may 2005-ci il*

***Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının icrasına dair illik konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Kənd təsərrüfatında böyük potensial var. Həm iqtisadi potensial var, həm də təbiidir ki, bunun sosial mənası var. Çünki görülən işlərin son məqsədi Azərbaycan xalqının, Azərbaycan insanlarının daha da yaxşı yaşamasıdır, həyat səviyyəsinin qaldırılmasıdır.

Sahibkarlar artıq Azərbaycanda bir sinif kimi formalaşır, bir amil kimi Azərbaycanın həyatında mövcuddurlar. Arzu edirəm ki, onların cəmiyyətdə olan təsiri və çəkisi bundan sonra da artsın".

*12 may 2005-ci il*

***Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının icrasına dair illik konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Qaçqınlar və məcburi köçkünlər Azərbaycanda ən ağır vəziyyətdə yaşayan insanlardır. Bizim hamımızın vəzifəsi ondan ibarətdir ki, həm dövlət tərəfindən, eyni zamanda qeyri-hökumət təşkilatları tərəfindən, özəl sektor tərəfindən onlara öz köməyimizi göstərək".

*21 iyun 2005-ci il*

***Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli ilə bağlı müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Gənclər bizim gələcəyimizdir. Bilirsiniz ki, mən gənclərə həmişə böyük diqqətlə yanaşmışam. Biz gənclərin qayğıları ilə yaşayırıq. İndi məktəblərin tikintisi sürətlə gedir, geniş vüsət alıbdır. Bütün məktəblərdə kompüter sinifləri yaradılacaqdır ki, gənclərimiz, şagirdlərimiz dünyada gedən bütün proseslərdən xəbər tuta bilsinlər. Onlar gərək elə təhsil alsınlar, elə tərbiyə alsınlar, elə olsunlar ki, Azərbaycanı ləyaqətlə idarə eləsinlər, Azərbaycanın qarşısında duran bütün məsələləri həll etsinlər".

*7 iyul 2005-ci il*

***Ağdaş şəhər stadionunun açılışında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan inkişaf edir, ölkəmizdə böyük işlər görülür və hər bir vətəndaş, xüsusilə hərbi xidmətdə olan hər bir insan yaxşı yaşamalıdır. Onun məişət problemləri olmamalıdır, yaxşı maaş almalıdır və ləyaqətlə xidmət etməlidir".

*5 oktyabr 2005-ci il*

***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Sosial sahə bizim üçün prioritet sahədir. Bizim bütün iqtisadi layihələrimiz, regionların sosial-iqtisadi inkişaf proqramı, digər iqtisadi təşəbbüslərimiz məhz bu məqsədə xidmət edir ki, sosial sahədə gözəl irəliləyiş olsun. Məktəblər tikilsin, xəstəxanalar tikilsin, digər sosial infrastruktur yaransın və insanlarımıza xidmət etsin".

*11 oktyabr 2005-ci il*

***Qazax rayonunun sakinləri ilə görüşdə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***





"Azərbaycan gəncləri çox fəaldırlar. Azərbaycanın hərtərəfli inkişafında çox böyük işlər görürlər, öz töhfələrini verirlər. Azərbaycanın hərtərəfli inkişafında Azərbaycanda demokratik proseslərin gücləndirilməsində cəmiyyətimizin bütün təbəqələri fəal iştirak etməlidir. Gənclər cəmiyyətimizin ən fəal hissəsidir".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"...gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, gözəl təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyət üçün hazır olsunlar".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan elminin gələcək inkişafı da daim diqqət mərkəzindədir. Artıq burada səsləndi ki, müəyyən konkret addımlar atılmışdır. Bu, bir daha onu göstərir ki, bizim siyasətimiz, proqramlarımız reallığı əks etdirir, reallığa əsaslanır və bunun praktiki nəticələri də var".

*14 dekabr 2005-ci il*

***Milli Elmlər Akademiyasının 60 illiyinə***
***həsr olunmuş təntənəli yığıncaqda***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycanda məktəb, xəstəxana tikintisi geniş vüsət alıbdır. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ən başlıca vəzifədir. Yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırıl-

ması – bütün bunlar bizim əsas məsələlərimizdir və gündəlik həyatda bu məsələlərlə məşğul oluruq".

*2 yanvar 2006-cı il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının İclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı kifayət qədər çoxdur. 2004-cü ildə yoxsulların sayı 49 faiz, 2005-ci ilin əvvəlində 40 faiz idi. 2006-cı ilin əvvəlində isə 29 faizdir. 29 faiz də çoxdur. 2006-cı ilin sonuna qədər Azərbaycanda yoxsulların sayı daha da azalacaqdır".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Minimum əməkhaqqı bir neçə dəfə qalxıbdır. Çünki indiki səviyyə bizi qane etmir, minimum əməkhaqqı gərək insanın minimum tələbatını ödəsin. Bu il də nəzərdə tutulub, gələn il də nəzərdə tutulacaq və Azərbaycanda minimum əməkhaqqı ildənilə qalxacaqdır".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"...hər bir ölkənin uğurlu, uzunmüddətli inkişafını ancaq bazar iqtisadiyyatı prinsipləri təmin edə bilər. Ancaq əgər biz öz fəaliyyətimizi yalnız bu sahə ilə məhdudlaşdırsaq, onda





Azərbaycanda ədalətli inkişaf gedə bilməz. Biz sosial sektora, sosial sahəyə daim çox böyük diqqət göstərməliyik. Çünki biz insanlar üçün yaşayırıq. Bizim məqsədimiz insanlara xidmət etməkdir".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Ekoloji proqram qəbul edilibdir. Biz çox zəngin ölkəyə çevriləcəyik. Amma əgər ekoloji vəziyyət yaxşı olmasa, bizim insanlarımız böyük çətinliklərlə üzləşə bilərlər və onların sağlamlığına çox böyük zərər dəyə bilər. Yəni bütün bu sahələrdə 2008-ci ilə qədər əsas problemlər, məsələlər öz həllini tapmalıdır".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

**FİZULİ ƏLƏKBƏROV,**
əmək və əhalinin sosial müdafiəsi naziri

## Güclü dövlətin yeni sosial siyasəti

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın əldə etdiyi ən böyük nailiyyətdir. Uzun əsrlər boyu milli təfəkkürümüzdə əsas aparıcı məramа çevrilən azadlıq idealları ötən əsrin 90-cı illərinin əvvəllərində Sovet İttifaqının dağılması nəticəsində gerçəkləşmək imkanı qazandı. Lakin 1991-1993-cü illərdə o vaxtkı iqtidarlar tərəfindən aparılan səhv siyasət bu müstəqillikdən xalqın düzgün bəhrələnməsinə maneə yaradır, Azərbaycanı daha böyük problemlərin, faciələrin məngənəsinə aparırdı. Həmin dövrdə ölkədə müstəqil dövlət quruculuğu prosesi yalnız kağız üzərində gedir, siyasi qarşıdurma, vətəndaş müharibəsinə yönəlmiş cəhdlər, sosial böhran, iqtisadi tənəzzül, etnik separatizm və ən nəhayət, Dağlıq Qarabağ münaqişəsi geniş miqyas alırdı. Müstəqilliyin ilk iki ili ərzində Azərbaycan müstəqil dövlət kimi süqut ərəfəsində idi.

Lakin Azərbaycan xalqı bu dəfə də öz müdrik seçiminə güvəndi və 1969-1982-ci illərdə ölkəmizə əsl milli intibah bəxş etmiş, özünü qətiyyətli rəhbər, bacarıqlı təşkilatçı kimi göstərmiş ümummilli liderimiz Heydər Əliyevi dövlət idarəçiliyinə dəvət etdi. Ulu öndərimizin Azərbaycana rəhbərliyinin 10 ili xaosdan qurtuluşa, böhrandan rifaha keçidin ən parlaq mərhələsi olmuşdur. Məhz bu illərdə respublikamız müstəqillyini möhkəmləndirmiş, sosial rifaha qovuşmuş, iqtisadi inkişaf yoluna qədəm qoymuş, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda inamlı nailiyyətlər əldə etmiş, beynəlxalq nüfuzunu artırmışdır. Heydər Əliyevin yaradıcısı, cənab İlham Əliyevin isə fəal icraçısı olduğu yeni neft strategiyasının uğurları ölkəmizin perspektiv inkişafının təməlini təşkil etmişdir.





Möhkəm ictimai-siyasi sabitlik zəminində siyasi, iqtisadi, hüquqi, mədəniyyət və başqa sahələrdə cəsarətli islahatlar həyata keçirilmiş və bu istiqamətdə atılan addımlar dərhal öz bəhrəsini vermişdi. Eyni zamanda cəmiyyət onun da fərqində idi ki, ölkədəki islahatların davamlılığı, ardıcıllığı, uğurla başa çatdırılması zərurəti Heydər Əliyev siyasi kursunun davam etdirilməsini, hakimiyyət estafetinin bu xətti dəstəkləyən və uğurla başa çatdırmağa qadir liderə – cənab İlham Əliyevə ötürülməsini diqtə edirdi. Digər tərəfdən siyasi varisliyin təmin edilməsinin vacibliyi qənaəti inkişaf etmiş bir sıra dövlətlərin təcrübəsinə nəzərən öz gerçək təsdiqini tapmışdır. Məhz bu baxımdan 2003-cü ilin 15 oktyabrında cənab İlham Əliyevin ölkə seçicilərinin 77 faizinin səsini qazanaraq, Azərbaycan Prezidenti seçilməsi məntiqi qanunauyğunluq və tarixi reallığa əsaslanan düzgün seçim idi.

Azərbaycan xalqının cənab İlham Əliyevə belə möhtəşəm etimad göstərməsinin səbəbi şübhəsiz ki, bu şəxsiyyətin ictimaiyyətdə peşəkar diplomat, idarəçilikdə qabiliyyətli təşkilatçı, görkəmli siyasi xadim, bacarıqlı iqtisadçı kimi qazandığı misilsiz nüfuz olmuşdur. 2003-cü ilədək İlham Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi neft strategiyasının uğurla icrasında, Milli Məclisin deputatı olaraq vətəndaşların inamının doğrulmasında, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini statusunda ölkədə siyasi proseslərin daha sivil

məcraya düşməsində, AŞPA sədrinin müavini və qurumun büro üzvü kimi ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsində, Milli Olimpiya Komitəsinin Prezidenti tək idmanın inkişafında böyük nailiyyətlər qazanmış, həmçinin baş nazir vəzifəsində özünü yüksək idarəçilik ənənələrini şəxsində birləşdirmiş qətiyyətli rəhbər kimi təsdiq etmişdir. Bu sahələrdə əldə edilən müvəffəqiyyətlər, eyni zamanda cənab İlham Əliyevin xarici dövlət rəhbərləri və beynəlxalq təşkilatların rəsmiləri tərəfindən yeni dövrün yeni lideri kimi qəbul edilməsi xalqda bu insana inam formalaşdırır, onun uğurlu fəaliyyətinə əminlik yaradırdı. Ulu öndərimiz Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - sözləri də İlham Əliyevin inamlı qələbəsini təmin edən əsas faktorlardan idi.

Artıq cənab İlham Əliyevin Prezident kimi fəaliyyətindən üç il keçir. Mən hər bir azərbaycanlının prezidenti olacağam» - bəyanatı ilə səlahiyyətlərinin icrasına başlayan ölkə rəhbəri ötən müddətdə bu vədini tam dəqiqliklə doğrultdu və sübut etdi ki, bu vədlər bəyanat xarakteri daşımayıb. Prezidentin məqsədyönlü fəaliyyəti nəticəsində, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan siyasi sabitlik qorunub saxlanılmış, vətəndaş həmrəyliyinə, iqtisadi inkişafın sürətləndirilməsinə, sosial tərəqqiyə xidmət edən mükəmməl konsepsiyaların həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. Eyni zamanda ümummilli liderimiz Heydər Əliyevin müəllifliyi ilə müəyyənləşdirilən balanslaşdırılmış xarici siyasət kursunun davamlılığının təmin olunması nəticəsində ölkəmizin sivil dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəviyə qədəm qoymuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yönümündə aparılan siyasət də ilkin uğurlu bəhrələrini vermiş, beynəlxalq birlik birmənalı şəkildə bəyan etmişdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi prinsipləri çərçivəsində nizamlanmalıdır.





Son üç il ərzində Prezident İlham Əliyev tərəfindən milli inkişaf strategiyasının iqtisadi-sosial akpektlərinin uğurlu icrası məqsədilə mühüm addımlar atılmış, cəmiyyətin demək olar ki, bütün sahələrini əhatə edən çoxsaylı dövlət proqramları qəbul olunmuşdur. Bu sənədlər arasında ən əhəmiyyətlisi, şübhəsiz ki, Prezidentin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında" fərmandır. Proqram regionların tarazlı və davamlı inkişafı ilə bağlı strateji vəzifələrin müəyyən edildiyi mükəmməl sənəd kimi son dərəcə böyük önəm daşıyır. Dövlət Proqramında qarşıdakı illər üçün regionlarda iqtisadi inkişafı sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Proqramın əsas məqsədi ölkə regionlarının iqtisadi potensialından səmərəli istifadə, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və ölkə iqtisadiyyatının dinamik, tarazlı inkişafının təmin edilməsinə nail olmaqdan ibarətdir. Ötən müddət ərzində nəzərdə tutulan müddəalar əsasən həllini tapmış, bu sahədəki problemlər aradan qaldırılmışdır.

Eyni zamanda məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsini təşkil edir. Əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təmin edilməsi Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın əsas məqsədidir.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı" məşğulluq sahəsində beynəlxalq hüquqi normalara, o cümlədən Azərbaycan Hökuməti tərəfindən ratifikasiya edilmiş müvafiq konvensiyalara uyğun olaraq milli qanunvericilik bazasının təkmilləşdirilməsinə, məşğulluq siyasətinin həyata keçirilməsi üzrə iqtisadi mühitin inkişafına, regional əmək bazarlarının və sosial tərəfdaşlığın inkişafına, yeni iş yerlərinin açılmasına, əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə, əmək bazarında işçi qüvvəsinin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş tədbirləri müəyyən edir.

Azərbaycan Respublikasında miqrasiya proseslərinin Azərbaycan Respublikasının milli maraqlarına və beynəlxalq təcrübə əsasında tənzimlənməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 1575 saylı sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" da xüsusi əhəmiyyət kəsb edir.

Bir məqamı da qeyd edək ki, indiyədək böyük uğurla aparılan torpaq islahatları sayəsində 840 mindən çox ailə, ümumilikdə 3,5 milyona qədər Azərbaycan vətəndaşı torpaq mülkiyyətçisinə çevrilmiş, aqrar sektorda bir sıra yeni, çoxnövlü özəl mülkiyyət formaları meydana çıxmışdır. Bu sahədə özəl sektorun inkişafına əlverişli zəmin yaradılmış, milli iqtisadiyyatımızın digər sahələrində olduğu kimi, kənd təsərrüfatı sektorunda da sahibkarlıq subyektlərinin təşkilinin əsası qoyulmuşdur. Aqrar sektorun inkişafı hesabına regionlarda yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, vətəndaşların mərkəzə doğru axınının səngiməsi, kəndlinin torpağa bağlanması təmin olunmuşdur. Aqrar-sənaye kompleksində həyata





keçirilən iqtisadi islahatlar artıq kənd təsərrüfatı sistemində də bazar iqtisadiyyatının ciddi əsaslarını formalaşdırmaqdadır.

Üç il müddətində əhalinin sosial problemlərinin aradan qaldırılması da Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. Dövlət başçısının müvafiq fərman və sərəncamları ilə minimum əməkhaqqı üç dəfədən çox artırılmış, işsizlik müavinətinin və peşə hazırlığı müddətində işaxtaran və işsiz vətəndaşlara ödənilən təqaüdün minimum məbləği, pensiyaçılara ödənilən pensiya və müavinətlərin məbləğləri daha böyük maliyyə vahidləri üzrə müəyyənləşdirilmişdir. Neft gəlirləri hesabına qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, onların həyat şəraitinin yaxşılaşdırılması da dövlət başçısının diqqət mərkəzindədir. "Azərbaycanda bir dənə də olsun, çadır şəhərciyi qalmayacaq" - deyən Prezident İlham Əliyev bu vədini əməli işilə tam doğruldur.

Ölkədə aparılan quruculuq, inkişaf prosesinin bir hissəsinin fəal icraçısına çevrilən Heydər Əliyev Fondu da öz fəaliyyətində mühüm nailiyyətlərə imza atmışdır. Milli Məclisin deputatı, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond tərəfindən son iki il ərzində "Yeniləşən Azərbay-cana yeni məktəb" layihəsi çərçivəsində tikilən 140-a yaxın məktəb də daxil olmaqla, ümumilikdə 330-dan artıq məktəb inşa edilmiş və yaxud əsaslı təmir olunmuşdur. Müasir dünya standartlarına uyğun şəhər xəstəxanaları, regional diaqnostika mərkəzləri, sağlamlıq ocaqları inşa edilərək əhalinin istifadəsinə verilmişdir.

Dövlət başçısı əhalinin həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutan bütün məsələləri daim diqqət mərkəzində saxlamaqla yanaşı, bir vacib məqamı da nəzərdən qaçırmır: vətəndaşları narahat edən problemlərin həlli yönümündə ən uğurlu addım onlarla canlı ünsiyyət yaratmaq, daim xalq arasına çıxmaqdır. Prezidentin vətəndaşlarla birbaşa təmaslara üstünlük verməs-

si, onlarla səmimi ünsiyyətdə olması, narahatlıq doğuran problemlərin yerindəcə həlli üçün operativ göstərişlər verməsi ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Bu, bir tərəfdən ölkə başçısına mövcud vəziyyətlə bağlı ən obyektiv məlumatları əldə etmək imkanı verir, digər tərəfdən dövlət məmurlarını əhalinin problemlərinə daha ciddi yanaşmağa sövq edir.

Müstəqil Azərbaycanın nail olduğu böyük inkişaf göstəriciləri ilə yanaşı, obyektiv səbəblərlə bağlı bir sıra problemlərin mövcudluğu da etiraf olunmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev bu problemlərə obyektiv və real yanaşmaqla, onların təkzib olunması və ya ört-basdır edilməsinə yox, əməli fəaliyyətlə aradan qaldırılmasına çalışır. Dövlət başçısı qazanılmış nailiyyətlərlə yanaşı, bir sıra problemlərin mövcudluğunu da etiraf edir və hökuməti problemləri gizlətməməyə, əksinə onları hər cəhətdən öyrənməyə, təhlil etməyə, aradan qaldırmağa, *şəffaf fəaliyyətə çağırır: "Biz problemləri gizlətməməliyik.* Necə deyərlər, elə bir təsəvvür yaratmamalıyıq ki, hər şey yaxşıdır. Hər şey yaxşı istiqamətdə, çox sürətlə inkişaf edir. Bəlkə gözlədiyimizdən də sürətlə inkişaf edir. Ancaq problemlər də həll olunmalıdır. Bizim vəzifəmiz bundan ibarətdir. Xalq bizdən bunu istəyir. Biz də bunu təmin etməliyik və edirik".

Ümumiyyətlə isə, Azərbaycan Prezidentinin özünəməxsus dinamizmlə reallaşdırdığı siyasət hesabına ölkə həyatında müşahidə olunan davamlı yüksəliş respublikanın pozitiv inkişafını müəyyənləşdirən fakt və statistik göstəricilərdə qabarıq təsdiqini tapır. Bu gün ümumi daxili məhsulun 34,4 faizlik artım tempinə nail olaraq belə bir rekord göstərici ilə dünyanın lider ölkəsinə çevrilən Azərbaycanda sənaye potensialının 40 faiz, xarici ticarət dövriyyəsinin 41 faiz, dövlət büdcəsi gəlirlərinin 88,5 faiz, əhalinin gəlirlərinin 20,6 faiz, adambaşına gəlirlərin 19,2 faiz artması, inflyasiyanın aşağı olması görülən işlərin uğurlu nəticəsidir. Ölkənin valyuta ehtiyatları hazırda 2,5 mlrd. ABŞ dollarından çoxdur. Regionların inkişafına, ölkədə işsizliyin, yoxsulluğun azaldılmasına daim prioritet istiqamət kimi yanaşan hökumət bu sahələrdə də ciddi irəliləyişlərə nail olmuşdur. Üç il ərzində ölkəmizdə artıq 500 minə yaxın iş yerinin açılması, yoxsulluq həddinin 49 faizdən 29 faizə düşməsi, qeyri-neft sektorunun inkişafı bu məqsədlərə hesablanmış dövlət proqramlarının bəhrələri sayıla bilər. Bir əlamətdar faktı da vurğulayım ki, 2007-ci ilin dövlət büdcəsinin 6 milyard yeni manatdan artıq olacağı proqnozlaşdırılır.

Azərbaycanın ötən müddətdə qazandığı böyük nailiyyətləri gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən iqtisadi-siyasi sabitlik, əmin-amanlıq və sülh şəraitində yaşayan orta statistik azərbaycanlının 15 oktyabr 2003-cü il seçiminin son dərəcə düzgün və dəyişməz olduğu təsdiqlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yorulmaz, əzmkar fəaliyyəti, tükənməz səyləri, prinsipiallığı ilə xalqın bu *siyasi kursa inamını və dəstəyini daha da artırmışdır.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də son dövrlər*də öz işində əsaslı islahatlar aparmış, fəaliyyətini daha da təkmilləşdirmiş, əhali ilə əməkdaşlığı müasir tələblər səviyyəsində qurmuş, sosial sahədə vətəndaş rifahının təminatı məsələsini gündəmdə saxlamış, beynəlxalq əlaqələrini genişləndirmişdir.

2003-2006-cı illərdə pensiya və sosial yardım sahəsində görülmüş işlər əhali tərəfindən xüsusi razılıqla qarşılanmışdır. Məlumdur ki, Azərbaycan Respublikasında iqtisadi artımın və iqtisadi təhlükəsizliyin ən vacib amili məhz sosial islahatların effektli təşkilidir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 17 iyul 2001-ci ildə təsdiq olunmuş Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasına əsasən, ölkəmizdə sosial sahələrin təkmilləşdirilməsi ilə bağlı xeyli tədbirlər həyata

keçirilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi pensiya təminatı sahəsində dövlət siyasətini müəyyənləşdirməklə yanaşı, yeni sosial müdafiə tədbirləri sahəsində ardıcıl olaraq araşdırmalar aparmaq istiqamətində fəaliyyət göstərir.

"Sosial müavinətlər haqqında" Qanun qüvvəyə mindikdən sonra ölkəmizdə sosial sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin dövlət büdcəsindən maliyyələşən sosial yardım sistemindən ayrılması sahəsində yeni bir mərhələ başlamış, beləliklə sosial müdafiə sistemində maliyyə axınının idarə edilməsi təkmilləşdirilmiş, öz əhəmiyyətini itirmiş bəzi müavinətlər isə ləğv edilmişdir. Yeni qəbul olunmuş "Əmək pensiyaları haqqında" Qanun da sığorta pensiya sisteminin qurulması üçün irəliyə doğru atılmış bir addımdır.

Qətiyyətlə deyə bilərik ki, dövlətimizin apardığı siyasətin ana xəttini əhalinin sosial müdafiəsinin yüksəldilməsi təşkil edir. Ümumiyyətlə, son üç ili sosial inkişafla bağlı, xüsusən uğurlu illər hesab etmək olar. Bu mənada dövlət başçımızın 2005-ci ildə imzaladığı fərman və sərəncamlar yüksək məna daşıyır. 2005-ci ildə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində Prezident 10-dan çox fərman və sərəncam imzalamışdır. Qeyd olunan fərman və sərəncamlar əhali arasında böyük razılıqla qarşılanmışdır. Prezidentimizin bu fərman və sərəncamları dövlətimizin sosial siyasətinin düzgün aparılmasından xəbər verir. Cari ilin ortalarından tətbiq edilən və sosial siyasətin həyata keçirilməsində yeni mərhələ açan Ünvanlı sosial yardım mexanizmi böyük əhəmiyyət kəsb edir.

Sosial islahatların əsas istiqamətləri əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması və paralel olaraq əhalinin sosial müdafiəsi məsələlərində ünvanlılıq prinsipinə üstünlük verilməsi, aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin və bu qəbildən olan digər şəxslərin





pensiya və müavinət təminatının yaxşılaşdırılması, onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılmasından ibarətdir. Sosial islahatların uğurla aparılması bu sahədə yeni, əhalinin sosial müdafiəsinə mahiyyətcə fərqli yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi baxımından müvafiq qanunvericilik aktlarının və dövlət proqramlarının qəbul olunmasını zəruri etmişdir.

Ünvanlı sosial yardım sisteminin tətbiqi üçün ilkin tədbir kimi qanunvericilik bazasının yaradılması məqsədilə "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Yardımların verilməsi ilə əlaqədar bütün təşkilatı və texniki məsələlər qısa vaxt ərzində uğurla həyata keçirilmişdir. Ünvanlı sosial yardımın effektivliyini əks etdirən bir faktı xüsusi vurğulamaq lazımdır. Qeyd etmək lazımdır ki, Ünvanlı sosial yardım alan ailələrin 61.4 faizi bugünədək dövlətdən heç bir yardım almamışlar. Bu gün Ünvanlı sosial yardım təyin olunması üçün rayon (şəhər) Əhalinin Sosial Müdafiə Mərkəzlərində qeydiyyatda olan ailələrin tədricən yoxsulluq həddindən çıxarılması üçün "Aztəminatlı ailələrin sosial reabilitasiyası proqramı" hazırlanır. Çünki məqsəd insanları ələbaxımlığa öyrətmək yox, əksinə işlə təmin etmək, digər tərəfdən isə bəzi səbəblərdən minimum tələbatını ödəmək iqtidarında olmayan əhalinin yoxsulluqdan müdafiəsini gücləndirməkdir.

Son üç il ərzində dövlət tərəfindən əlil, tənha və ahıllara da sosial xidmətin təşkili sahəsində qənaətbəxş fəaliyyət yürüdülmüşdür. Əlil tənha və ahıllara sosial xidmətin təşkili ilə bağlı nazirlik internat evlərinin, pansionatların, rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzlərinin sosial məişət xidməti sektorlarının fəaliyyətini tənzimləyir, müharibə əlillərinin dövlət vəsaiti hesabına nəqliyyat vasitələri ilə təmin olunması, əlillərin, eləcə də şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması,

əhalinin bəzi kateqoriyalarına qanunvericiliklə müəyyənləşdirilmiş güzəşt və imtiyazların izahı sahəsində iş aparır, onların bu hüquqlardan istifadə etmələri məqsədilə aidiyyəti orqanlarla birgə tədbirlər görür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə bu müddətdə əlil və şəhid ailələri üçün 27 yaşayış binası və 194 fərdi yaşayış evləri inşa olunaraq 1082 nəfərdən artıq bu kateqoriyadan olan şəxslərə paylanmışdır. Son üç il ərzində Naxçıvan, Şəki, Lənkəran, Sumqayıt, Əli Bayramlı şəhərlərində əlillər üçün reabilitasiya mərkəzləri istifadəyə verilmişdir. Hazırda Naftalan şəhərində yeni reabilitasiya mərkəzi inşa etdirilir. Növbəti ildə isə Yevlax və Xaçmaz şəhərlərində reabilitasiya mərkəzlərinin tikintisi planlaşdırılır.

Qeyd edilən dövrdə əmək qanunvericiliyinin təkmilləşdirilməsi, əmək münasibətlərinin demokratikləşdirilməsi, normativ-hüquqi bazanın yeniləşdirilməsi, əməyin mühafizəsi istiqamətində də mühüm nailiyyətlər əldə edilmişdir. 2003 -2005-ci illər ərzində respublikada minimum əməkhaqqının məbləği 5,4 dəfə artırılmışdır. Respublikanın səhiyyə, sosial müdafiə, təhsil, elm, mədəniyyət, incəsənət və büdcədən maliyyələşdirilən digər sahələrində çalışan 540 minə yaxın işçinin Vahid Tarif Cədvəli əsasında müəyyən edilmiş tarif maaşlarının məbləğləri minimum əməkhaqqına uyğunlaşdırılaraq yüksəlmişdir. Həyata keçirilən əməkhaqqı islahatları nəticəsində son illərdə respublika üzrə orta aylıq əməkhaqqı hər il orta hesabla 20 faiz artım tempi ilə yüksəlir. Cari ilin avqust ayı üzrə respublikada orta aylıq əməkhaqqı 146,5 min manata çatmışdır. Bu artım davam etdirilir və 2006-cı ilin oktyabr ayının 1-dən təhsil işçilərinin əməkhaqları orta hesabla 25 faiz artırılmışdır.

Bu gün sosial siyasətimizin təkmilləşməsi baxımından Avropa Şurası, Avropa İttifaqının Europe Aid Proqramı, Ərzaq Təhlükəsizliyi Proqramı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı, BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarlığı, Dünya Bankı, Beynəlxalq Qırmızı Xaç Komitəsi, ABŞ-ın (USAİD), Türkiyənin (TİKA), Yaponiyanın (JİCA) və digər ölkələrin İnkişaf Agentlikləri ilə sıx əməkdaşlıq xüsusi önəm daşıyır. Azərbaycan Respublikası ilə Beynəlxalq Əmək Təşkilatı arasında nazirlik üçün əhəmiyyət kəsb edən sahələr üzrə, o cümlədən əmək münasibətləri, məşğulluq, əməyin mühafizəsi, təhlükəsizliyi və digər məsələlər üzrə ikitərəfli əməkdaşlıq inkişaf etdirilir. Avropa İttifaqı TASİS "Azərbaycanda Sosial Müdafiə Sisteminin İslahatı", Dünya bankının "Pensiya və sosial təminat" layihələri həyata keçirilir.

Ümumiyyətlə, son üç il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələr üzrə əldə edilən nailiyyətlər sosial siyasətdə də öz əksini tapmışdır. Əminik ki, ölkəmizin qazanacağı uğurlar qarşıdakı illərdə daha genişmiqyaslı olacaq və nazirliyimiz də, əməkdaşlarımız da öz fəaliyyətlərini məhz Prezidentin tələbləri səviyyəsində yüksək məsuliyyət və işgüzarlıqla quracaqlar. Prezident İlham Əliyevin uğurlu fəaliyyəti isə Azərbaycan xalqının üç il öncəki seçiminin müdrikliyini və uzaqgörənliyini təsdiq edir.

# IX
# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

"Xalqımızın öz ənənələri var, Vətəndən nə qədər uzaqlarda olsalar da, Vətəndə uzun müddət olmasalar da onların öz evinə, doğma torpağına, doğma şəhərinə, rayonuna məhəbbəti qəlblərində həmişə yaşayır".

*8 fevral 2004-cü il*

***Rusiyadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Dahi Nizaminin əsərləri ölməzdir, dəyərlidir və bütün nəsillər üçün əhəmiyyətlidir. Bu əsərlər bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır".

*23 mart 2004-cü il*

***Dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda təhsilin rus dilində aparıldığı bir dənə də olsun məktəbin bağlanmadığını deməyə, yəqin ki, ehtiyac yoxdur. Bu gün təhsilin rus dilində aparıldığı 400-dən çox məktəb var. Azərbaycanın, demək olar ki, bütün ali məktəblərində dərs-

lər rus dilində də keçilir. Qəzetlər nəşr olunur, indi onların sayı Sovet İttifaqı dövründəkindən daha çoxdur".

*6 aprel 2004-cü il*

***Birinci Azərbaycan-Rusiya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...ensiklopediya Azərbaycan tarixini, Azərbaycanın bu gününü və ümumiyyətlə, Azərbaycanda bütün əsrlər boyu baş vermiş hadisələri oxuculara açıq-aydın, qərəzsiz, təhrifsiz çatdırmalıdır. Bu, özümüz üçün də, Azərbaycan xalqı üçün də lazımdır, eyni zamanda dünya üçün də lazımdır".

*8 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin ilk iclası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Cəmiyyətimiz çox dözümlüdür. Etnik və dini tolerantlıq ölkəmizin əldə etdiyi ən yüksək nailiyyətlərdəndir. Bu, uğurlu inkişafın çox vacib amilidir. Milli azlıqları olmayan ölkələrdə, qonşuluğumuzda olan monoetnik ölkədə isə, əksinə, bununla bağlı problemlərlə üzləşirlər. Biz qloballaşma, inteqrasiya dövründə yaşayırıq və əlbəttə ki, Azərbaycanda yaşayan bütün milli azlıqlar bərabərhüquqlu vətəndaşlardır".

*30 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞPA-da mətbuat konfransında çıxışından***

"Ölkəmizin daha bir nailiyyəti də Azərbaycanda olduqca güclü etnik və dini dözümlülüyün mövcudluğudur. Bu mənada bizdə keçmişdə heç vaxt heç bir problem olmamışdır. Azərbaycan çoxmillətli ölkədir və burada yaşayan bütün xalqlar, millətlər və etnik qruplar eyni məsuliyyət daşıyır və eyni hüquqlardan istifadə edirlər. Azərbaycandakı dini dözümlülük də yaxşı məlumdur və təqdirəlayiqdir. Bunlar da bizim gələcək inkişafımıza müsbət təsir edə biləcək amillərdir".

*18 may 2004-cü il*

***Avropa Komissiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var".

*20 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Dədə Qorqud abidəsinin açılış mərasimində çıxışından***

"...kitabların latın əlifbası ilə nəşri üçün tədbirlər görülür. Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşri haqqında qərarlar verilibdir. Bu, bizim tariximiz üçün, gələcək üçün çox mühüm, önəmli addımlardır".

*27 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***

"Siz Gürcüstanın vətəndaşlarısınız. Amma, eyni zamanda, azərbaycanlısınız. Ona görə siz iki ölkə arasında çox önəmli rol oynayırsınız. Mən istəyirəm ki, istər təhsil sahəsində, istər iqtisadiyyat sahəsində, istərsə də digər sahələrdə sizi maraqlandıran, sizi narahat edən bütün məsələlər öz həllini birgə tapsın".

*14 iyun 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Marneuli rayonunda yaşayan azərbaycanlılarla görüşündə nitqindən***

"Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır.

*27 iyul 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xarici İşlər Nazirliyində respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin başçıları ilə görüşündə nitqindən***

"Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çox istəyirik ki, Fransa tamaşaçıları bu mədəniyyətlə tanış olsunlar, gələcəkdə belə sərgilərin sayı daha da artsın, insanlarımız bir-birinə daha da yaxın olsunlar".

*8 sentyabr 2004-cü il*

***Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının sərgisinin rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Vətənpərvərlik ruhu çox yüksək səviyyədədir. Mən çox istəyirəm ki, bizim gənc nəslimiz məhz vətənpərvərlik ruhunda tərbiyə edilsin".

*11 sentyabr 2004-cü il*

***Bərdədəki Türkiş "Qızıl Ay"çadır şəhərciyində müvəqqəti məskunlaşmış Ağdam, Laçın və Kəlbəcər rayonlarından olan məcburi köçkünlərlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Azərbaycan cəmiyyəti tarixən və indi də etnik və dini tolerantlığı ilə səciyyələnibdir. Dini və etnik dözümlülük müasir Azərbaycanın ən böyük nailiyyətlərindən biridir".

*25 sentyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkun Kolumbiya Universitetində görüşü zamanı çıxışından***

"Azərbaycanda ruslara münasibət həmişə son dərəcə xeyirxah olmuşdur. Bu gün də belədir. Azərbaycanda heç bir rus məktəbi bağlanmayıbdır. Azərbaycanda yaşayan hər hansı xalqlar barəsində heç vaxt ayrı-seçkilik siyasəti aparılmayıbdır".

*19 oktyabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayında nitqindən***

"Digər millətlərin, digər dini icmaların nümayəndələrinə bizim ölkədə böyük dözümlülük göstərilir. Bu nöqteyi-nəzərdən düşünürəm ki, Azərbaycan aparıcı mövqedədir. Bəlkə də bu, iqtisadi inkişafdan da vacib bir elementdir".

*14 dekabr 2004-cü il*

***Londonda "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz istəyirik ki, yetişən gənc nəsil həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsun. Əlbəttə, bunu etmək üçün şərait lazımdır, şərait olmalıdır. Təkcə paytaxtda deyil, bölgələrdə də şərait olmalıdır".

*28 dekabr 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin Baş Məclisdə giriş nitqindən***

"Müsəlman xalqları uzun əsrlər boyu bu ilahi hikmətdən faydalanaraq yaşayıb yaratmış, bəşəriyyətin mənəvi dəyərlər xəzinəsinə öz layiqli töhfələrini vermişlər. Qurban bayramı həm də müsəlmanların bütün insanlara şəfqət və mərhəmət göstərmək, mürəkkəb məqamlarda düzgün mövqe seçmək, yüksək amallar naminə hər cür fədakarlığa hazır olmaq qabiliyyətini nümayiş etdirir. Öz milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə müqəddəs Qurban bayramını qardaşlıq, humanizm və bərabərlik rəmzi kimi hər il böyük sevinc və təntənə ilə qeyd edir".

*22 yanvar 2005-ci il*

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin Qurban Bayramı münasibətilə***
***Azərbaycan xalqına təbrikindən***

"Azərbaycanda ənənəvi olaraq, tarixən milli və dini dözümlülük həmişə mövcud olmuşdur. Bu, ölkəmizin başlıca, ən mühüm nailiyyətlərindən biridir. Ölkəmizin müstəqil dövlət kimi təşəkkül tapdığı dövrdə keçmişin bu ənənələri qorunub saxlanmış və artırılmışdır və bu, böyük uğurdur. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda hər bir adam öz ölkəsinin tamdəyərli və tamhüquqlu vətəndaşıdır. Ümumi evimizin daxilində belə bir əmin-amanlığın olması müvəffəqiyyətimizin rəhnidir".

*24 yanvar 2005-ci il*

***Azərbaycanda İTAR-TASS günləri iştirakçıları ilə görüşündə***
***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyevin nitqindən***

"Azərbaycan qadını ölkəmizdə sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əzmkarlıq göstərir, vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi, milli-mənəvi dəyərlərin daim yaşadılması və mədəniyyətimizin inkişaf etdirilməsi üçün var qüvvəsini səfərbər edir".





*8 mart 2005-ci il*

***8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə***
***Azərbaycan qadınlarına təbrikindən***

"Novruz bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Azərbaycan xalqı bu bayramı əsrlər boyu yaşatmışdır. Ancaq yalnız Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edəndən sonra bu bayram ölkəmizdə dövlət bayramı kimi qeyd olunmağa başladı".

*22 mart 2005-ci il*

***Novruz Bayramına həsr olunmuş Ümumxalq şənliyində***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Hər dəfə beynəlxalq yarışlarda Azərbaycanın milli bayrağı qaldırılanda, dövlət himni səslənəndə hər birimizin qəlbi qürur hissi ilə dolur. Bu vətənpərvərlik bizə lazımdır".

*26 aprel 2005-ci il*

***Şamaxı Olimpiya Kompleksinin açılışında***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur. Əgər bunlar olmasaydı, əgər Azərbaycan xalqı öz tarixi köklərinə bağlı olmasaydı, bizim bugünkü taleyimiz başqa cür ola bilərdi. Məhz Azərbaycanın zəngin tarixi, mədəniyyəti, Azərbaycan dili bizi - Azərbaycan xalqının nümayəndələrini bu gün də öz keçmişimizə hörmətlə yanaşmağımıza imkan verir".

*27 aprel 2005-ci il*

***Şamaxıda Nəsiminin heykəlinin açılış mərasimində***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda yeni gənc nəslin yetişdirilməsi və tərbiyə olunmasında təhsilin, məktəbin çox böyük əhəmiyyəti var".

*15 sentyabr 2005-ci il*

***H.Əliyev adına Liseydə "Bilik Günü"nə həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"İdmanla məşğul olan uşaqlar pis vərdişlərdən uzaq olurlar və çox gözəl vətəndaş kimi yetişirlər. Onlarda çox gözəl dünyagörüşü yaranır, vətənpərvərlik ruhu çox yüksək səviyyədə olur".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...biz beynəlxalq terrorizmi İslam dini ilə əlaqələndirənlərə qəti etirazımızı bildiririk. Belə bir tezis tamamilə səhvdir, əsassızdır və qəbuledilməzdir".

*7 dekabr 2005-ci il*

***İslam Konfransı Təşkilatının Məkkədə Keçirilmiş Üçüncü Fövqəladə zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan Tarix Muzeyi indi əsaslı təmirə saxlanılıb və bu, çox yüksək səviyyədə görüləcəkdir. Dünyanın, Avropanın bu sahədə olan ən qabaqcıl mütəxəssisləri dəvət edilib və hacı Zeynalabdin Tağıyevin evi onun tikdirdiyi kimi, bəlkə ondan da gözəl bərpa olunacaqdır.

Azərbaycanın bütün mədəniyyət ocaqları - muzeylər, teatrlar, digər infrastruktur bərpa olunmalıdır".

*14 dekabr 2005-ci il*

***Milli Elmlər Akademiyasinin 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"Üzərində Azərbaycanın mədəniyyətini, tarixini, keçmişini, bu gününü və gələcəyini əks etdirən təsvirlər mövcuddur. Ümid edirəm ki, uzun illər, onilliklər ərzində bu manat Azərbaycan xalqına, vətəndaşlarına xidmət edəcək, ölkəmiz daha da zənginləşəcək və Azərbaycan iqtisadiyyatı daha da inkişaf edəcəkdir".

*28 dekabr 2005-ci il*

***Azərbaycanın Yeni Manatının təqdimat mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Tarixi-mədəni irsimizin qorunması üçün lazımi tədbirlər görüləcəkdir. Mədəniyyət infrastrukturuna əlavə vəsait ayrılacaqdır. Bütün teatr və muzeylər yüksək səviyyədə təmir olunmalıdır".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Azərbaycanın önəmi məhz ona görə də artır ki, burada vətəndaş cəmiyyəti möhkəmlənir, burada bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar.

İndi dünyada gedən proseslər çox təhlükəlidir. Sivilizasiyalar arasında dialoqdan danışılır, amma, əslində, bu, dialoq deyil, bu, ziddiyyətdir. Bu, çox təhlükəli meyillərdir. Ölkəmiz bu baxımdan nadir əhəmiyyət kəsb edir və biz bu vəziyyəti burada qorumalıyıq. İmkan verə bilmərik ki, bu gözəl şərait pozulsun".

*17 fevral 2006-cı il*

***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Uşaqların xəstələnməməsi üçün, sağlam böyüməsi üçün, özlərini yaxşi hiss etməsi üçün, bizim gələcəyimiz olan yeni nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam olması üçün dünyada bundan da nəcib missiya ola bilməz".

*27 fevral 2006-cı il*

***Qızılca və məxmərəyə qarşı Milli İmmunlaşdırma kampaniyasına başlanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda müxtəlif dinlərin və etnik azlıqların nümayəndələri çox sülh şəraitində yaşayırlar. Ona görə də Azərbaycanda heç vaxt dini problemlər olmamışdır. İndi də Azərbaycanın siyasəti çox aydındır".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"...bizim təcrübəmiz öyrənilə bilər. Biz təcrübəmizi bölüşə bilərik ki, bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailədə necə yaşaya bilərlər. Biz ölkəmizdə heç vaxt heç kimi təqib etməmişik, heç vaxt öz iradəmizi məcburi qaydada digər etnik qruplara qəbul etdirməmişik".

*8 mart 2006-cı il*

***Tokio Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və





olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar".

*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqını qorudu, möhkəmləndirdi. Biz buna sadiqik. Eyni zamanda, biz dünyaya da açığıq. Çünki hər bir mütərəqqi təcrübə Azərbaycanda da tətbiq olunmalıdır. Əlbəttə ki, bizim şəraitimizi nəzərə almaq şərtilə".

*22 mart 2006-cı il*

***Bakıda Novruz Bayramı münasibətilə ümumxalq şənliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim zəngin tarixi-mədəni irsimiz qorunub saxlanılır. Biz bu məsələyə də çox böyük diqqət göstərməliyik. Mən çox şadam ki, Şəki xanlarının sarayı artıq bərpa olunubdur. Bu, böyük hadisədir. Bu bölgədə - Şəkidə və ətraf rayonlarda Azərbaycan mədəniyyətinin çox dəyərli abidələri vardır. Azərbaycanda bütün tarixi abidələr qorunub saxlanılır. Azərbaycanda dözümlülük var, tolerantlıq var. Bütün millətlərin nümayəndələri, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır.

Dünən mən Qax rayonunda gürcü kilsəsinə baş çəkdim. Bilirsiniz ki, Azərbaycanda rus kilsəsi fəaliyyət göstərir. Yəhudi sinaqoqu fəaliyyət göstərir. Bu yaxınlarda katolik kilsəsinin tikintisi başlanır. Azərbaycan bu baxımdan dünya üçün nümunə

ola bilər və olmalıdır. Çünki Azərbaycanda milli, dini dözümlülük, tolerantlıq çox yüksək səviyyədədir".

*13 aprel 2006-cı il*

***Şəki rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"İslam Konfransı Təşkilatı çərçivəsində çoxsaylı görüşlərdə həmişə bir məsələ də vurğulanıb ki, bəzi qüvvələr İslamı terrorla eyniləşdirmək istəyirlər. Buna qətiyyətlə yol vermək olmaz. İslamı terrorla eyniləşdirmək istəyən qüvvələr sadəcə olaraq, ya bilməyərəkdən, yaxud da ki, qəsdən bizim dinimizə təcavüz etmiş olurlar. İslam dözümlülük dinidir, sülh dinidir, tolerantlıq dinidir. Biz bütün başqa dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik və buna nail olacağıq".

*11 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Turizm Nazirlərinin V Konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz istəyirik ki, türk dünyası bir olsun. Birlik daha da möhkəm olsun. Bizi birləşdirən əlaqələr çoxşaxəli olsun və bütünlükdə türk dünyası dünya üçün çox önəmli amilə çevrilsin. Bunu etmək üçün bütün əsaslar var".

*18 sentyabr 2006-cı il*

***Antalyada Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





"...bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən islamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir".

*19 sentyabr 2006-cı il*

***Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz çox istəyirik ki, yetişən gənc nəsil bilikli olsun, savadlı olsun, dünyada olan ən qabaqcıl texnologiyaları mənimsəyə və Azərbaycanda tətbiq edə bilsin. Belə olan halda, Azərbaycan uzun illər ərzində uğurla inkişaf edən ölkə olacaqdır. Belə olan halda, Azərbaycan iqtisadiyyatı gələcəkdə - on il, iyirmi il, otuz il bundan sonra neft amilindən asılı olmayacaqdır. Bizim məqsədimiz bundan ibarətdir. Bu gözəl imkanlardan istifadə edib, neft-qaz amilindən istifadə edib güclü iqtisadiyyat, güclü sənaye potensialı yaratmaq və Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən etməkdir. Bunların necə olacağı bizdən asılıdır".

*3 oktyabr 2006-cı il*

***"Bakutel-2006" XII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi-konfransının açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu, bizim ölkəmizdir. Bu ölkəni qorumaq, risklərdən qorumaq, möhkəmləndirmək, təhlükəsizlik tədbirlərini gücləndirmək üçün biz hamımız, bütün Azərbaycan xalqı çalışmalı-

yıq. İndi Azərbaycanda hökm sürən bu gözəl ictimai mühit, gözəl ab-hava, vətənpərvərlik, həmrəylik hisslərinin güclənməsi hər bir Azərbaycan vətəndaşı üçün lazımdır. Adi vətəndaş üçün, din xadimi üçün, Prezident üçün - bütün Azərbaycan xalqı üçün lazımdır və bu gün bunlar var".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycan İslam dünyasında öz yerini möhkəmləndirir. İslam bizim dinimizdir. 15 il müstəqillik dövründə islam dini azərbaycanlılara qayıtdı. Düzdür, bütün dövrlərdə, ən çətin dövrlərdə insanların qəlbində islam dini yaşamışdır. Ancaq biz müstəqil ölkə olandan sonra bütün milli, dini bayramlarımızı dövlət bayramları kimi qeyd etməyə başladıq. O cümlədən müqəddəs Ramazan bayramı da dövlət bayramı kimi qeyd edilir və artıq iki gün qeyd olunacaqdır. İslam dünyasında Azərbaycanın çox böyük hörməti var. İslam Konfransı Təşkilatının xətti ilə Bakıda təkcə bu il iki mötəbər tədbir keçirilmişdir. Bizim fəaliyyətimiz çox uğurludur və islam həmrəyliyinin möhkəmlənməsinə Azərbaycan öz töhfəsini verir. Bizi islam ölkələri ilə çox güclü tellər bağlayır və son illər ərzində bu əlaqələr daha da möhkəmlənmişdir".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...indi dünyada çoxlu söhbətlər gedir ki, millətlərarası, dinlərarası, sivilizasiyalararası dialoq aparılmalı və güclənməlidir.





Əlbəttə, bu, lazımdır. Amma əfsuslar olsun ki, biz həyatda tam başqa mənzərəni görürük. Dialoq əvəzinə qarşıdurma, əməkdaşlıq əvəzinə ədavət, süni şəkildə şişirdilmiş təxribatlar - bütün bunlar nəyə xidmət edir?! Bütün bunlar çox böyük təhlükə mənbəyidir. Biz Azərbaycanda bu işlərə çox böyük nəzarət edirik. Bir daha demək istəyirəm ki, bu, bir tərəfdən xalqın tələbidir, Azərbaycanda yaşayan bütün xalqların ürəyindən gələn istəkdir, digər tərəfdən dövlət tərəfindən aparılan siyasətdir. Bax, bütün bu amillər bugünkü Azərbaycanın uğurlu inkişafını, uzunmüddətli inkişaf strategiyasını müəyyən edir və beləliklə, gələcəkdə ölkə qarşısında heç bir ciddi problemin yaradılması bizi narahat etmir. Çünki biz bilirik haraya gedirik. Bilirik bizi gələcəkdə nələr gözləyir və bütün görülən işlər ancaq və ancaq Azərbaycanın öz resurslarına əsaslanır".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Biz bütün işlərimizi ancaq və ancaq öz gücümüzlə etməliyik - ulu öndər bizə bu yolu göstəribdir. Bütün ölkələrlə, tərəfdaşlarla, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və bundan çox böyük fayda götürürük. Ancaq bütün işlərimizi özümüz görməliyik. Bu, bizim ölkəmizdir".

*20 oktyabr 2006-cı il*

***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında verdiyi iftar süfrəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

**RƏBİYYƏT ASLANOVA,**
Azərbaycan Respublikası Milli Məclisinin
İnsan hüquqları daimi komissiyasının sədri,
fəlsəfə elmləri doktoru, professor

## Milli varlığın əbədiliyi, mənəvi dəyərlərin varlığı, əbədiyaşarlığı qədərdir

*"Hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Azərbaycan mənim ürəyimdir".*

**Heydər Əliyev**

Hər bir insan dünyaya gələndə hansısa millətə, xalqa, etnosa mənsubluq hissini daşıyır. Bu, özünəməxsusluq hissi ilə səciyyələnən, milli kimliyi ifadə edən mənəvi dəyərlər hər bir xalqın müqəddəs sərvəti, eyni zamanda toxunulmaz xəzinəsidir. Həmin xəzinənin daim inkişafı milli varlığın, milli dövlətin əbədi mövcudluğu deməkdir. Milli ruhun, mənəvi dəyərlərin tam dolğunluğu ilə inkişaf etdiriləbildiyi *yeganə məkan* isə, *şübhəsiz ki*, müstəqil *dövlətdir*. Müstəqil milli dövlət olmayan yerdə mənəvi dəyərlərin mövcudluğu xalqın canı və qanı bahasına mümkün olur, onun məşəqqətli tarixi ilə müşayiət olunur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla müqəddəs bir missiyanı





gerçəkliyə çevirdi: milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi. Dünyadakı hər bir xalqın arzusunda olduğu bu əlçatmaz ideal Azərbaycan adlı məkanda da reallaşdı. Tarixdən məlumdur ki, belə müqəddəs missiyanı həyata keçirən dahi şəxsiyyətlər özləri də müqəddəsləşir, milli tarixin əvəzsiz, ülvi dəyər və sərvətinə çevrilirlər.

Müstəqil Azərbaycan dövlətinin yaradılması ilə böyük bir millətin özünütəsdiqi üçün zəruri milli-mədəni, mənəvi mühitdə yaşamaq imkanı əldə edildi. Milli yiyəlik hissinə sahib, dövlətin bu günü və sabahı üçün məsuliyyət hissi yaşayan, yüksək mənəvi dəyərləri həyat prinsipinə çevirmiş AZƏRBAYCANLI OBRAZININ formalaşması dövrü başlandı. Milli maraqlar üzərində həyata keçirilən siyasət və mənəvi mühitin təşəkkül tapması XX əsrdə Heydər Əliyevin xalqımıza bəxş etdiyi ən böyük sərvətlərdən biridir. Ulu öndərin nəzəri irsi milli dövlətçilik konsepsiyası, liderlik fəlsəfəsi ziyalılarımız, alimlərimiz tərəfindən təhlil edilir, bu böyük nəzəri və praktiki irsin mahiyyətinin dərk edilməsi sahəsində tədqiqatlar aparılır və gələcək inkişaf perspektivləri müəyyənləşdirilir. Onun ideya və siyasətinin praktiki müstəvisi isə 2003-cü ildən İlham Əliyevin ölkə prezidenti seçilməsindən üzü bəri hər an gerçəkləşməyə doğru gedir. Dövlətin və hər bir Azərbaycan vətəndaşının taleyində baş verən dəyişikliklər və tərəqqi Heydər Əliyev irsinin nəzəri və praktiki vəhdətdə gerçəkləşməsinin bariz nümunəsidir.

Müstəqillik tariximiz, Azərbaycan xalqının öz milli-mənəvi köklərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması "keçid dövrü" kimi adlandırılan mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi nə qədər çətin olsa da Ulu Öndərin fədakar qayğı və

himayəsi altında böyük uğurlar əldə olundu. Ümumbəşəri və milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Sovetlər dönəmində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaqlaşma siyasətinin, yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması üçün vəzifələr müəyyənləşdirildi.

Ən mühüm məsələ şübhəsiz ki, mövcud ideoloji vakuumu, mənəvi inkişaf konsepsiyası sahəsindəki boşluğu dəf etmək idi. Ulu Öndərin millilikla ümumbəşəriliyin vəhdətini nəzərə alaraq müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyası müstəqil dövləti yaratmaq və yaşatmağın bütün prinsiplərinin təcəssümünə çevrildi. Bu ideologiya milli ənənələrlə müasirliyi, dini dəyərlərə hörmətlə tolerantlığı, demokratik düşüncə ilə dövlətçilik şüurunu elə bir mükəmməl səviyyədə özündə birləşdirdi ki, onun söykəndiyi dəyərlər sistemi bütövlükdə Azərbaycan xalqının taleyini uzaq perspektivlər üçün müəyyənləşdirdi. Bu ideologiya yalnız sözdə, millilik şüarını əldə bəhanə tutanların deyil, müasir dövrün fövqəlmürəkkəb reallıqları fonunda öz xalqının suveren dövlətini yaratmış siyasət dahisinin irəli sürdüyü və gerçəkləşdirdiyi həyat hadisəsidir. Azərbaycançılıq ideologiyası, milli dövlətçilik düşüncəsi kimi XX əsrin sonlarından üzü bəri qlobal geosiyasi və iqtisadi reallıqlar fonunda xalqımızın özünütəsdiqini təmin etmişdir və bu gün də etməkdədir.

Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcəkdir.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi dövlətimizin siyasi məfkurəsində təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir.





Azərbaycanda başlanan yeni tarixi dövrün ümumi səciyyəsini vermək, mənəvi-mədəni inkişaf perspektivlərini müəyyənləşdirmək mənəviyyatın bütün sahələrini əhatə edən problem və perspektivləri ümumiləşdirərək mükəmməl konsepsiya səviyyəsinə qaldırmağa nail olan ümumilli lider bu sahədə strateji inkişafın təməlini qoymuşdur.

Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət mövcuddur. Milli identikliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur. Bunların üzvi bağlılığını fəhmlə sözə bildiyi, siyasilik və mənəviliyin ülvi təcəssümünü ifadə etdiyi üçün Heydər Əliyev şəxsiyyəti xalqımızın əbədi milli lideri zirvəsində qərar tutmuşdur.

2003-cü il 15 oktyabr seçkiləri Azərbaycan vətəndaşı üçün yenə də tarixi seçim məqamı, ədalət və məsuliyyət prinsipinə sadiqliyinin, xalqın müdrikliyinin sınağa çəkildiyi çox məsuliyyətli bir mərhələ idi. İlham Əliyevin prezident seçilməsi Azərbaycanın gələcək inkişafı və uğurlu perspektivinin təmin olunması üçün cəmiyyətdə bütün sosial təbəqələrin eyni dərəcədə inandığı bir qüvvə kimi və Heydər Əliyev kursunun fasiləsiz gerçəkləşməsini təmin edən başlıca faktor kimi, məhz birlik simvolu kimi tanınmasının nəticəsi idi. Dünyada mükəmməl siyasi məktəb kimi dəyərləndirilən Heydər Əliyev məktəbinin yetirməsi bu vaxta qədər öz fəaliyyətində qazandığı ümumxalq rəğbətini indi də Azərbaycan prezidenti kimi tarixi məsul

bir vəzifədə davam etdirməli oldu. 1990-cı illərin sonunadək ölkədə bərqərar edilən siyasi sabitdik dövlətçiliyn təməl əsaslarının yaradılması, baş verəcək neqativ proseslərin qarşısının alınması istiqamətində Ulu Öndərin həyata keçirdiyi möhtəşəm vəzifələr, növbəti mərhələdə – mənəvi-mədəni intibah və yüksəliş problemlərinə xüsusi diqqət ayrılması üçün tarixən zəruri olan imkan və şəraiti yaratdı. Mənəviyyat, dövlət dili, ədəbiyyat, mədəniyyət və digər sahələrlə bağlı ulu öndərin verdiyi sərəncamların, onun yaratdığı Azərbaycançılıq ideologiyasının fundamental prinsiplərinin konkret praktikada tətbiqi və nəticələrlə təsdiqlənməsi kimi yeni mərhələ başlanğıcını götürdü. Daha doğrusu, Azərbaycanda mənəviyyatın inkişafının qızıl dövrü, onun möhkəmlənməsi kimi tarixi vəzifənin icra edilməsi gerçəkləşməyə başladı. Xalqın 2003-cü il seçimi, onun böyük itkilər bahasına əldə etdiyi müstəqilliyi və milli dövlətçiliyin davamlı yüksəlişini təmin etmək baxımından əvəzsiz siyasi nailiyyət idi. Ötən üç ildə mənəvi sahənin inkişafında göz önündə olan mənzərə bunun bariz nümunəsidir.

Mənəvi dəyərlərin qorunması və gələcəyə transfyasiyası müasir dövrdə dövlət siyasətinin prioritet istiqamətidir.

Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin bərpası və mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin ilk üç ilində daim diqqət mərkəzində saxladığı məsələlərdir.

Dünya inkişafının aparıcı meyillərindən sayılan qloballaşma prosesi, dövlətlər və ölkələr arasındakı sərhədləri nisbi anlayışa çevirir, milli məkanı ən müxtəlif, yad təsirlərə məruz qoyur.





Ali mənəvi dəyərlərin saxta ideallarla əvəzlənməsi kimi arzuolunmaz meyillər ortaya çıxır. Qlobal ünsiyyət texnologiyaları həyatımızda demək olar ki, hər gün dəyişikliklər edilməsinə təkan verməklə bərabər yalnız mütərəqqi məzmunlu proses deyildir. Baş verən proseslər milli tarixi-mədəni irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Kütləvi mədəniyyət, qlobal informasiya şəbəkəsi obyektiv və subyektiv səbəblərdən formalaşan, yaxud düşünülmüş şəkildə formalaşdırılan stereotip və şablonları hakim dəbə çevirir. Belə şəraitdə insanların, xüsusilə də gənclərin öz mənəvi dünyasını, milli kimliyini qoruması çətinləşir.

Dünyanın inkişaf parametrləri baxımından obyektiv meyil kimi çıxış edən və "qloballaşma" adlanan proses bu vaxta qədər olmayan xüsusi məzmunlu proseslərin ortaya çıxmasını şərtləndirir. Milli, müstəqil dövləti əhatə edən reallıqda inkişafın hədsiz sürətlə getməsi, insanların mədəni-mənəvi dəyər oriyentasiyalarının köklü dəyişikliklərə uğraması, dünyada yaşayan xalqların öz mədəniyyətlərinin indisi və gələcək taleyindən narahat olmasına səbəb olmuşdur. Dünyadakı bütün xalqların maraq və mənafeyinə toxunan qloballaşmanın doğurduğu spesifik problemlər, inteqrasiya prosesləri milli dövlətçiliyin mənəvi dəyərlər sahəsində təxirəsalınmaz vəzifələri həll etməsini tələb edir. Qloballaşmanın iqtisadi, texnoloji, siyasi, informasiya və s. aspektləri sahəsində müşahidə olunan qarşılıqlı təsirlər, intensiv sıxlaşma və bəhrələnmə prosesləri, mənəviyyat və mədəniyyət sahəsində tamamilə fərqli təzahürlərə malikdir. Bu sahələrdə özünəməxsusluq və identikliyin, milli ruhun qorunması, inkişaf etdirilməsi (yəni müxtəliflik), iqtisadi, texnoloji və s. aspektlərdə zəruri olan proseslərin (yəni vəhdətin) birmənalı təminatçısı kimi çıxış edir. Ümumbəşəri dəyərlərin qlobal inkişaf modeli kimi mütərəqqi sayılan demokratik-siyasi meyillərin unifikasiyası, reqlamentasiyası ilə müqayi-

sədə, mədəni-mənəvi sferada standartlaşma kimi başa düşülən proseslərin də reallaşacağı nəinki qeyri-mümkündür, həm də buna edilən cəhdlər çox təhlükəlidir. Başqa sahələrdəki inteqrasiya, vahid standartların ümumi təsisat və fəaliyyətin təşəkkülü ilə müqayisədə mənəvi dəyərlərin və mədəniyyətlərin yalnız qarşılıqlı dialoqu, təsiri, ünsiyyəti və könüllü bəhrələnməsindən söhbət gedə bilər.

Azərbaycan geostrateji mövqeyinə görə iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin, çeşidli mədəni dəyərlərin qovuşduğu məkanda yerləşir. Belə bir məkanda yaşayan insanlar ünsiyyətin yalnız coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu gündəlik həyatımızda hiss etməkdədirlər. Maraqlı cəhət burasındadır ki, dünyanın ən müxtəlif qütblərində siyasi qarşıdurmalara çevrilən bu dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara səbəb olmamış, əksinə, bu məmləkətdə bənzərsiz bir mədəni mühit formalaşdırmışdır. Çünki əsrlərdən üzü bəri yol gələn, zaman-zaman saf çeşmə kimi daha da durulan, cilalanan zəngin Azərbaycan mədəniyyəti bütün kənar müdaxilələrə sinə gərmək gücündədir. Azərbaycan malik olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir.

Dövlətin mədəniyyət və mənəviyyat sahəsində siyasətinin müasir informasiya və qloballaşma dövrünün tələblərinə uyğun inkişaf etdirilməsi istiqamətində Prezident İlham Əliyevin çoxsaylı nitq və çıxışlarında öz konseptual əsasını tapmışdır.

Milli-mənəvi dəyərlərin təməl sayılan üzvi tərkib hissələrinə dil, elm və təhsil, mədəniyyət, din, adət və ənənələrimiz kimi fundamental determinantlar daxildir.

Müstəqil Azərbaycanın vətəndaşları üçün öz dilini, dinini, tarixini, mədəniyyətini, ədəbiyyatını öyrənmək, onlara dərindən





bələd olmaq üçün lazım olan bütün imkanlar yaradılmışdır. Təhsil və elmin inkişafı dövlət himayəsinə alınmışdır. "Dövlət, dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun, 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycanda Bilik gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, "Milli mənəvi dəyərlərimizin qorunması" ilə bağlı 13 avqust 2001-ci il tarixdə verdiyi bəyanat, Azərbaycan vətəndaşının, ziyalısının, gənclərinin qarşısında böyük imkanlar açmaqla bahəm, eyni zamanda məsuliyyətli vəzifələr qoydu. Avqust ayının 1-i isə ulu öndərin verdiyi fərmanla hər il "Ana dili" günü qeyd olunur və bu onun statusunun daim yüksəldilməsi və təbliğinə dövlət qayğısının bariz nümunəsidir. Bu rəsmi tarixi sənədlərdə mənəviyyatımızın keçdiyi inkişaf yolu, onun dünyanın ən zəngin və mükəmməl mədəni irsə nail olduğu haqda həqiqət öz əksini tapmışdır.

Dövlətçilik, vətənpərvərlik, milli özünəməxsusluq hisslərinin gənc nəsillərə aşılanmasında, müasir dövrün reallıqlarını da nəzərə alan fəaliyyət proqramının müəyyənləşdirilməsi prioriteti hədəflər sırasındadır.

Dövlət quruculuğunda, mənəvi dəyərlərin inkişaf etdirilməsində dil siyasəti ən önəmli əhəmiyyətə malikdir. Dəyərlərə qayıdış ilk növbədə ana dilinə qayıdışdan başlayır. Doğma dildə təhsil alanların, elmi və ədəbi nəşrlərin sayının artması milli-mənəvi dəyərlərin möhkəmləndirilməsində istinad nöqtəsini təşkil edir. "Millətin milliliyini qoruyub saxlayan onun dilidir" (Heydər Əliyev).

Azərbaycan dili həm milli dövlətçilik ideologiyanın ardıcıl reallaşması, həm də milli özünüdərk prosesində əvəzsiz yer tutmaqla müxtəlif tarixi mərhələlər və nəsillər arasında mənəvi körpü rolunu oynayır. Mənəviyyatımızın ən etibarlı daşıyıcı kimi doğma dilə göstərilən qayğı və diqqət prezidentin fəaliyyətində önəmli yer tutur.

Elm, təhsil, mədəniyyət mənəvi dəyərlərimizin uğur faktoru kimi dövlətimizin himayəsindədir.

Hər bir xalqın, xüsusilə də gənc nəslin, əsrlər boyu əldə edilmiş mənəvi dəyərlərə yiyələnməsi, onlara dərindən bələd olması yalnız təhsil vasitəsilə mümkün olur. Təhsil sisteminin milli zəmin üzərində ümumbəşəri dəyərlərə əsaslanaraq yenidən qurulmasına dair Heydər Əliyevin müəyyən etdiyi dövlət siyasətinin prezident tərəfindən ardıcıl həyata keçirilməsi insanlarımızın dövlət başçısına bəslədiyi böyük rəğbətin əsas səbəblərindəndir. Ölkəmizdə "Bilik Günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Prezidentin imzaladığı fərman yalnız təhsilimizin dünya standartlarına uyğunlaşdırılması baxımından deyil, bütün sahələrdə müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısının xüsusi tapşırığı ilə beş il ərzində ölkədə 149 yeni məktəb binasının *tikilməsi planlaşdırılıb. 2005-ci ildə dövlətin təhsil siyasətinə* uyğun olaraq Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın ən müxtəlif bölgələrində rekord sayda – 132 məktəbin tikilərək istifadəyə verilməsi sözün əsil mənasında ümumxalq *rəğbətinin, dövlət qayğısının nümayişinə çevrilmişdir.*

Təhsil müəssisələrinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsinə dair dövlət proqramı prezidentin sərəncamı ilə təsdiq edilmişdir. 2004-cü il 21 avqust tarixində verilmiş sərəncam 2005-2007-ci illəri əhatə edir və Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı adlanır. Burada əksini tapan əhəmiyyətli məsələlər sırasında, informasiya cəmiyyəti dövründə Azərbaycan dilinin tətbiqi, doğma dildə elektron texnologiyaların terminologiyasının hazırlanmasını nəzərdə tutan fəaliyyət, perspektivdə yenə də mənəvi dəyərlərimizin etibarlı qorunması və inkişafına hesablanmışdır.





Prezident İlham Əliyevin ölkə başçısı olduğu müddətdə zamanın bu magistral inkişaf meyilini fəhmlə sezərək elm, təhsil və mədəniyyətin Heydər Əliyev konsepsiyasını uğurla təkmilləşdirir və gerçəkləşdirir. Xüsusilə də gənc nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər dövlətimizin gələcəyi baxımından strateji məqsəd hesab olunur. Milli təhsil modelinin gerçəklənməsi, təhsil infrastrukturunun müasir tələblər baxımından modernləşdirilməsi, dünya ölkələrində mövcud olan mütərəqqi təhsil təcrübəsini nəzərə almaqla yanaşı milli köklərdən qaynaqlanan prinsiplər üzərində qurulması 2003-2006-cı illər ərzində görülən işlərin yalnız bir qismidir.

Prezident seçildikdən sonra İlham Əliyevin imzaladığı rəsmi dövlət sənədlərini sadəcə statistikasına nəzər salsaq burada milli mədəniyyətin və mənəvi dəyərlərin qorunmasına nə qədər diqqət ayrıldığının şahidi olarıq.

Dünyanın inkişaf tarixi göstərir ki, elmə, təhsilə diqqət və qayğı göstərən dövlət başçıları nəinki milli-iqtisadi, mədəni və s. yüksəlişi təmin edir, həm də ümumbəşəri mədəniyyət xəzinəsinə, dünya elminə öz töhfəsini vermiş olur. Ölkə Prezidentinin təhsilə strateji sahə kimi önəm verməsi buradakı bütün tədbirlərdə bilavasitə iştirak etməsi, proqram xarakterli çıxışları mənəvi dəyərlərin yaşadılmasında təhsil sisteminin potensialını səfərbər etmək məqsədinə xidmət edir.

Müasir dövrdə bütün dünyada təhsil sistemi islahatlar dövrünü yaşayır. Yalnız bilik və savada deyil, həm də dərin mənəviyyata malik bütöv şəxsiyyətin formalaşması qlobal humanitar islahatların ana xəttini təşkil edir. Dünyagörüşü məhdud, mənəviyyatı kasad olan insanlar cəmiyyətdə yaranan problemlərin başlıca səbəbinə çevrilir. Elmin və mənəvi dəyərlərin bir-birini tamamlaması, daxilən zəngin, bütöv şəxsiyyətin formalaşmasını mümkün edir. Müasirliklə tarixin varisliyi prin-

sipinə əməl olunması bu baxımdan mühüm əhəmiyyət daşıyır. Belə vəzifənin yerinə yetirilməsində isə "Milli Ensiklopediyanın" hazırlanması önəmli rol oynayır.

Prezidentliyinin ilk aylarında İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyası haqqında", "Azərbaycan dilində Latın qrafikalı kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" verdiyi sərəncamlar mənəvi həyatımızda əlamətdar bir hadisə oldu. Bu hər şeydən əvvəl xalqımızın milli ruhunun inkişafına, onun keçdiyi tarixi yola, Azərbaycan adının ucalığına, bu ucalığın təsdiqinə doğru atılan son dərəcə mühüm bir addım və ciddi dövlət iradəsinin ifadəsidir. Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin mənəvi xəzinəmizi təşkil edən əsərlərinin latın qrafikası ilə, dövlət hesabına nəşr edilməsinə başlanıldı. Bütün türk dünyasının, bəşər mədəniyyətinin abidələri sayılan incilər, fəlsəfi, ədəbi fikrin nümunələri, bəşəriyyətin klassik irsi, dünya ədəbiyyatı çox yüksək keyfiyyətli poliqrafik dizaynla, böyük tirajla mütəmadi çap olunaraq dövlət hesabına oxuculara çatdırıldı. Bu *möhtəşəm səy və zəhmət tələb edən iş nə qədər çə*tin olsa da Prezident İlham Əliyevin ölkənin ziyalılar, mədəniyyət xadimləri və elmi ictimaiyyətinin nümayndələri ilə görüşündə verdiyi vədin dəqiq, zamanında yerinə yetirilməsinə bariz nümunə oldu. Ulu öndərin milli ruh və mənəvi dəyərlər sahəsində müəyyən etdiyi xəttin çox böyük əzmlə, sədaqətlə davam etdiyini bir daha sübut etdi. Sirr deyil ki, müasir gənc nəsil, uşaqlar istər dünya klassikası, istər müasir dünya ədəbiyyatı, istərsə də folklorumuzu, klassik irsimizi kiril qrafikası ilə oxumaqda çətinlik çəkirdilər. Bəzən bu barədə məlumata da malik deyildilər. Prezidentin bu sərəncamından irəli gələn, onun diqqəti və himayəsi altında görülən işlərin gənc nəslə, onların hansı mənəviyyatın daşıyıcıları olduğunu dərk etmələri, dünyagörüşünün formalaşması baxımından qiyməti əvəzsizdir. Bu fəaliyyət 2005-2008-ci illərdə mədəniyyət dünyamızın digər nümayəndələrinin əsərlərinin latın qrafikasına keçidi ilə davam etdiriləcəkdir.





Milli Ensiklopediyanın nəşri ilə bağlı dövlət komissiyasının yaradılması, mədəniyyət və incəsənət işçilərinə, ziyalılara dövlət qayğısı, onların sosial vəziyyətinin yaxşılaşdırılması, onlara fəxri adların verilməsi, mədəni sferanın yüksələn xətlə inkişaf etdiyinə dəlalət edir. Mədəniyyət sahəsində idarəçiliyi, bu sahənin hüquqi təminatı və maliyyələşdirilməsi, informasiya texnologiyaları ilə təchizatı, beynəlxalq əməkdaşlıq, əhalinin mədəni həyatda fəal iştirakı və s. məsələləri əhatə edən "Mədəni Siyasətin Strateji İnkişaf Proqramı" adlı rəsmi sənədin hazırlanması ölkəmizdə onun dinamik inkişaf edəcəyini göstərir.

Ölkə prezidentinin 2003-cü ildə rəhbərliyə gəldiyi ilk vaxtdan bu günədək elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman, sərəncam və göstərişləri, onun böyüməkdə olan Azərbaycan nəslinin mənəvi bütövlüyü, əxlaqi saflığı və kamilliyi, qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində aparılan siyasətin qarantı kimi çıxış etməsinin bariz nümunəsidir. Bütün bunlar təhsildə ümumbəşəri aspektlərin ahəngdar inkişafını sürətləndirən, onlara əməli istiqamət verən amillərdir. Bu sahədə milliliyin vacib olduğu qədər, onun müasir informasiya və qloballaşma dövrünün tələblərinə, ehtiyaclara həssas olması, adekvat cavab verə bilməsi kimi bütün şərtləri vəhdətdə gerçəkləşdirməyi zəruri edir. Bu vəhdət xalqımızın mənəvi, iqtisadi, siyasi qüdrətinin rəhnidir.

Milli dəyərlər Azərbaycançılıq ideologiyasının təməli kimi dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mə-

dəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmuyudur. Dünyanın harasında yaşamalarından asılı olmayaraq azərbaycanlıları birləşdirən, həmrəy edən, milli köklərinə sadiq qalmağı təmin edən qüvvədir.

Ulu öndər bütün dünyada yaşayan azərbaycanlıların öz milli mənsubiyyətini, dini-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən bəhrələnməsi istiqamətində azərbaycançılığı milli həmrəylik və intibahın, diaspor siyasətinin mükəmməl konsepsiyası kimi irəli sürmüşdür. Milli həmrəyliyin əsas şərtlərindən birinin məhz mənəvi dəyərlər sisteminin olması, tarixi vətənə, zəngin mədəniyyətə bağlılığın dövlətçiliyi qüvvətləndirən birlik amili kimi çıxış etməsi Prezident İlham Əliyevin xarici səfərlərdə olarkən diaspora ilə olan görüşlərində daim vurğulanır.

Dünya azərbaycanlılarının təşkilatlanması milli-mənəvi dəyərlərə bağlılıqdan qaynaqlanır. 2006-cı il 16 mart tarixində prezidentin sərəncamına uyğun olaraq Bakıda dünya azərbaycanlılarının II tarixi qurultayı keçirildi. Azərbaycan diasporunun mütəşəkkilliyi və təşkilatlanması, onların daha sıx birləşməsi istiqamətində bu qurultayın müstəsna əhəmiyyəti vardır. Bu ali tədbirdə çıxış edən dövlət başçımız qarşıdakı vəzifələr, məqsədlər, diasporanın işinin səmərəli qurulması yönümündə ulu öndərin siyasətini xatırlatdı: "Xalqları milli-mənəvi ənənələr qədər, dil qədər, dəyərlər qədər birləşdirən başqa bir qüvvə yoxdur. Biz bu qüvvədən daim istifadə etməliyik. Azərbaycanlıları birləşdirən, milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz, adət-ənənələrimizdir".

Yalnız Azərbaycan torpağında yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhədlərin ayırdığı soydaşlarımızı bizimlə bir ideya-mənəvi məkanda bütövləşdirən qüvvə də məhz azərbaycan-





çılıq ideologiyasıdır. Mənəvi dəyərlərimizin əbədiyaşarlığında dini dəyərlərin səmərəli istifadə olunması hər bir ölkə və hər bir xalq üçün zəruri məsələlərdəndir. Belə ki, humanizm, xeyirxahlıq, ədalətlik və sülh amalları dünyanın bütün dinləri üçün xasdır.

İyirmi birinci əsrin və üçüncü minilliyin insanına mənəvi rəhbər olmaq missiyasını üzərinə götürmək istəyən dinlər və müxtəlif təlimlər mövcuddur.

Dini-mənəvi dəyərlər mədəniyyətin sakral fondunu təşkil edir. Tarix boyu keçid və böhran dövrlərində sabahın yolları qeyri-müəyyən olanda, ictimai şüurun ən dərin köklərində qərar tutan din və dini təsəvvürlər dəyişiklik və böhrana qarşı sosial-mənəvi müqavimət, "instinkt" rolunda çıxış edir.

İslam dininin, mədəniyyəti və mənəvi-əxlaqi dəyərlərinin humanist-dialoji potensialını, ümumbəşəri məzmununun dərk edilməsinə tarixin bütün dövrlərində olduğu kimi bu gün də böyük ehtiyac vardır.

Müasir dövrün ən mühüm xüsusiyyətlərdən biri mənəviyyat və mədəniyyət probleminə, insan fenomeninə marağın yüksələn xətlə artmasının müşahidə olunmasıdır. Yaşadığımız reallığın inkişaf ritminin hədsiz sürətlənməsi, qlobal inkişaf və inteqrasiya prosesi ilə əlaqədar olaraq insanların mənəvi-dəyər oriyentasiyalarının köklü dəyişikliklərə uğraması da taleyüklü məsələlərdəndir. Baş verən hadisələrin mahiyyəti və inkişaf meyillərinin müəyyənləşdirilməsi qlobal hüdudda gedən proseslər çərçivəsində olmaqla yanaşı, dünyada yaşayan hər bir xalqın öz "mədəni müqəddəratının" gələcəyindən narahatlıq duyması kimi təbii "reaksiyalar" doğurur.

Müstəqilliyimizə döndüyümüz andan tarixi-milli yaddaş və genimizdə əsrlər boyu qoruyub saxladığımız, mədəniyyət və

mənəviyyatımızın bütün qatlarını – İslam, türkçülük və müasirlik – vəhdətdə birləşdirən bariz simvol – dövlət bayrağımız dünya ölkələrində dalğalandı. "Dinimizin xalqımızın milli-mənəvi sərvəti olduğu" (H.Əliyev) bir daha, müstəqilliyimizin səlahiyyət verdiyi xüsusi qətiyyətlə vurğulandı.

Dini-mənəvi dəyərlər və mədəniyyətimizin bağlılığı, varisliyi prosesində, müxtəlif zamanda, müxtəlif səbəblərdən "nazilən", hətta "qırılan" bağları bərpa etmək, hansı mənəviyyat və mədəniyyətin sahibi olduğumuzu doğrudan-doğruya anlatmaq, İslam dininin mədəniyyət sistemində tutduğu müstəsna yerin obyektiv mənzərəsini canlandırmaq bu gün məsuliyyətli vəzifələr sırasına daxildir.

Dini intibahın tarixən şərtləndirilmiş səbəbləri mövcuddur. Hər hansı bir cəmiyyətin gələcəyi üçün təhlükə yarananda, onun bütövlüyünü və dayanıqlığını təmin edən mənəvi faktorlara diqqət artır.

Dini-mənəvi dəyərlər-mədəniyyətin *sakral fondunu* təşkil edir. Keçid və böhran dövrlərində ictimai şüurun ən dərin köklərində qərar tutan dəyərlərin dirçəlişi baş verir. Dini intibahın yalnız zahiri təzahürlərini qabartmaq və bunları İslamı dirçəliş və qayıdışın ana xətti hesab etmək düzgün sayıla bilməz.

Din və mədəniyyətin yarandığı ünvan Şərq olmuşdursa da, bəşər mədəniyyəti ortaq dəyərlərin sintezidir.

Azərbaycan xalqı bu gün dünyada aparılan sivilizasiyalararası dialoqun məkanı, tolerantlığın inkişafında sivilizasiyalar üçün örnək kimi çıxış edir. Malik olduğu zəngin mənəvi dəyərlərin dialoq prosesində dünya ölkələrinə daha yaxından tanıtdırılması imkanı ardıcıl reallaşdırılır.

Qloballaşan dünyada gündən-günə intensivləşən inteqrativ proseslər yalnız müsbət deyil, mənfi meyillər də doğurur. Total





qərbləşmə, yabançı "mədəni" ünsürlərin təsiri Azərbaycanın çoxəsrlik mədəni irsi üçün də təhlükə yaratmamış deyil. Məhz belə dövrdə milli-mənəvi dəyərlər "yenilik" adı ilə öz nüfuz dairəsini genişləndirməyə cəhd edən müxtəlif qüvvələrin bəd niyyətlərini saf-çürük ediləcəyi süzgəcə mənəvi siparə çevrilir.

Bu gün Azərbaycan xalqının etibarını qazanmış, onun zəngin irsinin və mənəvi dəyərlərinin himayədarı olan siyasi liderin dövlətə başçılıq etməsi Azərbaycan xalqının tarixində şanlı səhifələrin yazılacağına əminlik yaradır. Azərbaycanın tərəqqisinə bu vaxtadək görünməmiş təkan verilmiş, dünyanın heç bir ölkəsi ilə müqayisə olunmayan artım templəri gerçəkləşir. Bütün fəaliyyəti sadə insanlara, vətəndaşlara mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət və ehtiram üzərində qurulan Prezidentimizin şəxsi nümunəsi hər birimiz üçün örnəkdir.

# X

# YENİLƏŞƏN AZƏRBAYCAN

"Azərbaycanın digər yolları da, şəhərlərarası, rayonlararası yollar da təmir olunmalı və yüksək səviyyəyə çatdırılmalıdır. Ölkəmiz güclənir, yeniləşir, müasirləşir. Əlbəttə, biz istərdik ki, Azərbaycanda hər bir sahədə görülən və görüləcək işlər ən yüksək dünya standartları səviyyəsində olsun".

*28 fevral 2004-cü il*

***Ələt-Qazıməmməd avtomobil yollarının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir və güclənir. Təbii ki, müstəqil Azərbaycanın yeni milli ensiklopediyası olmalıdır və artıq bu barədə qərar qəbul edilmişdir".

*8 aprel 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"Bu gün onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilir. Bu ideya yeni deyildir. Bir neçə il bundan əvvəl belə bir fikir yaranmışdı ki, "Heydər Əliyev Fondu" yaradılsın. O da bu fikrə müsbət yanaşmışdı, amma nə isə bunu həyata keçirmək mümkün olmadı. Amma biz hesab etdik ki, bu gün belə bir Fond lazımdır. Bu Fond artıq yaradılıbdır. Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur".

*10 may 2004-cü il*

***Bakıda "Heydər Əliyev Fondu"nun təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...burada muxtar respublikanın həyatı, gələcəyi üçün əhəmiyyətli müəssisələr, infrastruktur obyektləri yaradılır, çox yüksək səviyyədə yollar salınır, hava limanı istifadəyə verilibdir. İdman kompleksləri, üzgüçülük hovuzu, mədəniyyət obyektləri tikilir. Deyə bilərəm ki, idman kompleksləri, universitet binası ən müasir avadanlıqla təchiz olunmuş, İnternetə qoşulmuş kitabxana, əlillərin bərpa mərkəzi, digər obyektlər bütün dünya standartlarına cavab verir. Bu, onu göstərir ki, sosial məsələlərin həllinə böyük önəm verilir, hər bir sahədə inkişaf var".

*14 may 2004-cü il*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirədə nitqindən***

"Azərbaycanın müxtəlif bölgələrində yeni idman qurğuları tikilməsi istiqamətində böyük işlər aparılacaqdır. Gördüyünüz kimi, biz bu sözə də əməl etdik. 2000-ci ildən 2004-cü ilədək Azərbaycanda 8 yeni olimpiya kompleksi ən yüksək səviyyədə tikilib istifadəyə verilmişdir".

*4 avqust 2004-cü il*

***XXVIII Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Energetika sektoru inkişaf etdirilməlidir. Bu istiqamətdə Azərbaycanda işlər görülür. Yeni elektrik stansiyaları istifadəyə verilir. Növbəti stansiyaların tikintisi üçün lazımi tədbirlər görülür. Bu yaxınlarda mən Almaniyada rəsmi səfərdə olarkən bu məsələ də müzakirə olundu. Azərbaycanda 500 meqavat gücündə yeni elektrik stansiyası tikiləcəkdir".

*3 sentyabr 2004-cü il*

***Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş sözündən***

"...son beş il ərzində 200 kilometrdən artıq dəmir yol xətti demək olar ki, yenidən qurulub, yeni sərnişin qatarları, dəmir, beton, şpal zavodu istismara verilibdir. Son illər ərzində Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanı, Zabratda yerləşən vertolyot aerovağzalı yenidən qurulmuşdur, Naxçıvanda beynəlxalq hava limanı tikilmişdir. Dünyanın ən aparıcı şirkəti olan "Airobus" şirkətindən 4 ədəd sərnişin təyyarəsinin alınması üçün lazımi müqavilələr bağlanıbdır".

*3 noyabr 2004-cü il*

***"Prezident Heydər Əliyev" tankerinin istismara verilməsinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Təhsil sahəsinə də çox böyük diqqət göstərilir. Azərbaycanda növbəti üç il ərzində hər bir məktəb kompüter sistemi ilə təchiz olunacaqdır. Hər bir məktəbdə kompüter sinfi yaradılacaqdır. Bu kompüterlər birbaşa İnternetə qoşulacaqdır və bizim şagirdlərimiz gənc yaşlarından İnternetə, dünya məlumat şəbəkəsinə çıxacaqlar".

*9 noyabr 2004-cü il*

***Cəlilabad rayonunda kənd orta məktəb binasının və ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Yolun çəkilməsi, məktəblərin tikintisi, abadlıq-quruculuq işlərinin aparılması, rayonun inkişafı – bütün bu işlər var və daha da sürətlə gedəcəkdir".

*9 sentyabr 2005-ci il*

***Lerik rayonunun ictimaiyyəti ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Azərbaycanda son illər ərzində məktəb tikintisi çox sürətlə gedir. Bu yaxınlarda 100-dən çox məktəbin tikintisinə başlanmışdır və artıq başa çatdırılır. Məktəblərin kompüterləşməsi proqramı da uğurla icra edilir. Qarşıya belə bir vəzifə qoyulubdur ki, bütün məktəblərdə kompüter sinifləri yaradılsın və uşaqlar bilavasitə internetə çıxış əldə etsinlər, dünyada gedən proseslərlə tanış olsunlar.

Biz xalq üçün işləyirik, xalq üçün yaşayırıq. Sosial məsələlərə diqqət və insanlara diqqət, qayğı mütləq olmalıdır. Bizim insanlarımız yaxşı şəraitdə yaşamalıdır, onların yaxşı iş şəraiti olmalıdır. Uşaqlar gözəl məktəblərdə oxumalıdırlar. Bir sözlə,





Azərbaycan yeniləşməlidir. Azərbaycanda infrastruktur yeniləşməlidir".

*15 sentyabr 2005-ci il*

***H.Əliyev adına Liseydə "Bilik Günü"nə həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Gəncədə yeni müasir müalicə-diaqnostika mərkəzi tikiləcəkdir. Bunlar çox əlamətdar hadisələrdir və onu göstərir ki, ölkəmiz, o cümlədən bizim qədim, doğma Gəncə şəhərimiz çox sürətlə inkişaf edir. Azərbaycanın hər yerində müasir infrastruktur yaranır. Hava limanları, xəstəxanalar, məktəblər, müasir mehmanxanalar tikilir".

*11 oktyabr 2005-ci il*

***Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bakını Qazaxla birləşdirən yeni, müasir avtomobil yolu salınır və ilyarım, iki ildən sonra tamamilə istismara veriləcəkdir. Yeni qaz xətləri, su kəmərləri çəkilir, elektrik stansiyaları tikilir".

*11 oktyabr 2005-ci il*

***Qazax rayonunun sakinləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Qısa müddət ərzində 150-dən çox məktəb tikilibdir. Hər bir məktəbdə kompüter sinfi yaradılır. Onun hər bir məktəbdə kompüter sinfi yaradılmalı və internetə qoşulmalıdır".

*14 oktyabr 2005-ci il*

***Azərbaycan Gənclərinin IV Forumunun yekun toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...yeni nəqliyyat infrastrukturunun yaradılması məsələsi öz həllini tapmalıdır. Yəni yeni yolların salınması, yolötürücülərinin tikilməsi, nəqliyyat qovşaqlarının tikilməsi, yolların genişləndirilməsi, körpülərin tikilməsi nəzərdə tutulur".

*27 yanvar 2006-cı il*

***Bakı şəhərində yol hərəkəti və nəqliyyat sisteminin vəziyyətinə, inkişaf perspektivlərinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən***

"2005-ci ildə 328 məktəb və əlavə korpus tikilibdir. Bu, görünməmiş bir nəticədir. 2006-cı ildə də biz bu işləri davam etdirəcəyik. Kompüterləşmə proqramı davam edəcəkdir. Məktəblərdə kompüterlər quraşdırılacaq və təhsilin keyfiyyəti də qalxmalıdır".

*31 yanvar 2006-cı il*

***2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqindən***

"Biz ölkəmizi müasirləşdirməliyik. Ölkəmizə yeni texnologiyaları gətirməliyik. Bunu edə bilsək, müxtəlif sahələri müasirləşdirə biləcəyik: infrastruktur, yolların çəkilməsi, kommunikasiyalar, sosial infrastruktur, məktəblərin tikilməsi, səhiyyə sahəsi, əlbəttə ki, nəqliyyat sahəsi".

*8 mart 2006-cı il*

***Azərbaycan -Yaponiya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...regionlarda inkişaf çox sürətlidir. Yeni elektrik stansiyaları, qaz xətləri, yollar, su kəmərləri tikilir, bütün təsərrüfat və sənaye infrastrukturu yeniləşir. Eyni zamanda humanitar sahədə də böyük işlər görülübdür. İndi bütün bölgələrdə ən müasir xəstəxanalar tikilir. Təkcə 2005-ci ildə Azərbaycanda 300-dən çox yeni məktəb tikilmişdir. Ən müasir, ən yüksək səviyyədə idman kompleksləri, üzgüçülük hovuzları, poliklinikalar inşa olunmuşdur. Bütün bunlar Azərbaycanın ümumi inkişafını müəyyən edir".





*16 mart 2006-cı il*

***Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Bizim gücümüz məhz bundadır ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu, kəndi inkişaf etsin, orada yaşayış səviyyəsi yüksək olsun, xidmət səviyyəsi yüksək olsun, ən qabaqcıl texnologiyalar tətbiq edilsin və insanlarımız daha yaxşı yaşasınlar. Bu məqsədlə indi geniş məktəb tikintisi proqramı həyata keçirilir və məktəblərin kompüterləşdirilməsi proqramı icra olunur. Bölgələrdə yeni tibb ocaqları, aeroportlar istifadəyə verilir".

*13 aprel 2006-cı il*

***Qax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"...qarşıdan gələn 20 il ərzində, neft qiymətləri normal götürüldükdə belə, Azərbaycan 140 milyard dollar vəsait qazanacaqdır. Bu vəsait bizə çox işləri görməyə kömək edəcəkdir. Lakin eyni zamanda, biz bu kapitalı insan kapitalına çevirməyi bacarmalıyıq. Biz təhsil sahəsinə sərmayələri artırmaq, yaxşı səhiyyə xidmətinə malik olmaq, başqa sözlə, Avropa ölkələrinin əldə etdikləri nailiyyətlərə çatmaq istəyirik".

*22 sentyabr 2006-cı il*

***Berlində Beynəlxalq Bertelsmann-2006 Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından***

"Azərbaycanda əsas infrastruktur layihələri 2007-2008-ci illərdə başa çatmalıdır. Elektrik stansiyalarının tikintisi, yolların, qaz xətlərinin, su kəmərlərinin, məktəb və xəstəxanaların tikintisi – bütün bunlar 2007-2008-ci illərdə başa çatmalıdır".

*2 oktyabr 2006-cı il*

***Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***

"Son iki il ərzində Azərbaycanda 600-dən çox yeni məktəb tikilibdir və bütün məktəblərdə kompüter sinifləri var. Azərbaycanda qəbul edilmiş proqrama əsasən, 2008-ci ilin sonuna qədər bütün ümumtəhsil məktəblərində kompüter sinifləri olmalıdır və onlar bilavasitə internetə qoşulmalıdır. Bizim gənc nəslimiz bilikli, dünyaya açıq olmalıdır, dünyada gedən proseslərə bələd olmalıdır, izləməlidir".

*3 oktyabr 2006-cı il*

***"Bakutel-2006" XII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi-konfransının açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən***





**SƏLAHƏDDİN XƏLİLOV,**
fəlsəfə elmləri doktoru, professor

# Peşəkar dövlət idarəçiliyi və yeniləşən Azərbaycan

Müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, öz dövlətçilik siması, öz inkişaf yolu vardır. Artıq on üç ildir ki, Azərbaycanda əsası Heydər Əliyev tərəfindən qoyulmuş vahid inkişaf strategiyası, siyasi-iqtisadi və mədəni-mənəvi təkamül konsepsiyası, vahid milli ideologiya formalaşmaqdadır. Dövlətimizin öz milli maraqlarına söykənən beynəlxalq siyasi kursu da, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də göz qabağındadır.

Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə milli mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxlaq hüquq normalarının və s. inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması, – bütün bunlar Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursunu sadəcə qoruyub-saxlamaqla ki-

fayətlənməyərək, onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirməkdədir. Belə ki, "kursun saxlanması" heç də hər hansı bir dəyişikliyin olmasını istisna etmir. Əksinə, başqa bir şərait, başqa bir zaman, başqa bir siyasi və iqtisadi situasiya üçün səmərəli olan idarəçilik üsulları vaxtaşırı olaraq yeni zamanın, yeni situasiyanın tələblərinə uyğun surətdə dəyişdirilməsə, inkişafa nail olmaq mümkün deyil.

Keçən üç il ərzində ölkəmizdə ictimai həyatın bütün sahələrində böyük uğurlar əldə edilmişdir. Bu uğurlar planlı və mütəşəkkil surətdə həyata keçirilir və uzun müddətə hesablanmış fəaliyyət proqramının tərkib hissələridir. Prezidentlik fəaliyyətinin elə ilk aylarında İlham Əliyev Azərbaycan ərazisində iqtisadiyyatın mütənasib inkişafını təmin etmək üçün bütün bölgələrin iqtisadi dirçəlişini diqqət mərkəzinə çəkmişdir: "Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətlərdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir". Az müddət sonra, 2004-cü ilin fevral ayında Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı qəbul edildi və indi uğurla həyata keçirilməkdədir. Bu müddət ərzində qeyri-neft sektorunun inkişafı üçün xüsusi tədbirlər görülmüş, sahibkarlığın inkişafında maneələrin aradan qaldırılması istiqamətində bir sıra ciddi addımlar atılmışdır.

Təsadüfi deyildir ki, son illərdə Azərbaycan iqtisadi inkişaf baxımından bütün dünyada öncül mövqe tutur. Ümumi daxili məhsul 2003-2005-ci illərdə 66%, sənaye məhsullarının istehsalı 78%, xarici ticarət dövriyyəsi 64%, investisiyalar 52% artmışdır. 2006-cı ilin I yarısında ümumi daxili məhsul daha 34% artmış və beləliklə qısa bir müddət ərzində iki dəfədən çox irəliləyiş olmuşdur. Bütün bu iqtisadi nailliyyətlər 2006-cı ildə dövlət büdcəsini 4,5 milyard dollara çatdırmağa imkan vermişdir. Bu isə keçən ildəkinə nisbətən 2 milyard çoxdur. Ötən üç il ərzində Heydər Əliyev tərəfindən təməli qoyulan bir sıra strateji layihələr uğurla başa çatdırılmış və yeni layihələr işlənib-hazırlanmışdır. Bu sırada, ilk növbədə, Bakı-Tbilisi-Ceyhan neft kəməri qeyd edilməlidir. Bu kəmərin istifadəyə verilməsi böyük iqtisadi əhəmiyyətə malik olmaqla bərabər, regionun coğrafi-siyasi mənzərəsinə də təsir göstərir və Azərbaycanın mövqeyini daha da möhkəmləndirir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi, habelə bu yaxınlarda icrası planlaşdırılan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi Prezident İlham Əliyevin qeyd etdiyi kimi ölkədə yeni bir vəziyyət yaradacaqdır. "Azərbaycan Avropa ilə Asiyanı dəmiryolu vasitəsilə birləşdirən ölkəyə çevrilir və əlbəttə ki, regional işlərdə bizim önəmimiz artır" (İlham Əliyev).

Bütün bu nailliyətlər dünya miqyasında ən yüksək inkişaf tempindən xəbər verir. Həm də bütün bu iqtisadi uğurların məhz xalqın maraqlarına, əhalinin güzəranının yaxşılaşmasına yönəldilməsi nəzərdə tutulmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinə həsr olunmuş konfransda İlham Əliyev demişdir: "Bütün bu planların təməlində bir məqsəd dayanır: ölkəmiz daha da möhkəmlənsin, daha da zənginləşsin, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, daha da yaxşı maaş alsın, pensiya alsın və Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirsin".

Əlamətdar haldır ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı heç də təkcə kənd təsərrüfatı məhsullarının istehsalı və

yüngül sənayenin hesabına deyil, xeyli dərəcədə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilir. Son illərdə elm, təhsil və təsərrüfat sahələrinin kompüterləşməsi, yeni kommunikasiya sistemlərinə keçid, rabitə və informasiya texnologiyalarının modernləşməsi sahəsində böyük uğurlar əldə edilmişdir. Bütün bunlar Azərbaycanın heç də yalnız öz təbii sərvətlərinə yönəldilmiş passiv iqtisadi siyasət aparmadığını və elm tutumlu sahələrin inkişafına üstünlük verdiyini göstərir.

Yeni mərhələdə Heydər Əliyev ideyalarının Azərbaycanda daha intensiv surətdə həyata keçirilməsi təkcə dövlət quruculuğunu, dövlətin sosial-iqtisadi siyasətini əhatə etməyərək, həm də bütün ictimai resursların vahid mərama xidmət etməsi sayəsində mümkün olmuşdur. Bu sahədə ən mütəşəkkil və ardıcıl fəaliyyəti Heydər Əliyev Fondu göstərir. Məlum olduğu kimi, Heydər Əliyevin son sərəncamlarından biri yeni orta məktəb binaları tikilməsi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında olmuşdur. Bu sərəncam indi müvafiq dövlət orqanları ilə yanaşı, Heydər Əliyev Fondu tərəfindən icraata götürülmüşdür. Qısa bir müddət ərzində yüzlərlə ən müasir standartlara uyğun məktəb binalarının inşası, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının həyata keçirilməsi Azərbaycan təhsilinə ən böyük hədiyyədir. Fondun prezidenti, YUNESKO-nun Xoşməramlı Səfiri, millət vəkili Mehriban Əliyevanın təhsil və mədəniyyətimizin inkişafı naminə göstərdiyi hərtərəfli fəaliyyət də Azərbaycanın yeniləşməsinə və qabaqcıl dövlətlər sırasına çıxmasına xidmət edir.

Əlbəttə, İlham Əliyevin dövlət başçısı olaraq uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş bir zəmin üzərində qurması ilə məhdudlaşmır. Burada ikinci mühüm amil də özünü göstərir ki, bu





da İlham Əliyevin bir siyasi lider kimi yeni iqtisadi münasibətlər şəraitində yetişməsi ilə əlaqədardır.

İndi təkcə Azərbaycanda deyil, bütün MDB məkanında yeni ictimai inkişaf fazasına keçid başlanır. Əgər keçidin birinci fazası kommunist ideologiyasından imtina edilməsini və sosialist iqtisadi münasibətlərindən qarışıq bazar iqtisadiyyatına keçilməsini nəzərdə tuturdusa, ikinci faza həmin bu sinkretik ictimai-iqtisadi sistemin bazasında Qərb standartlarına uyğun islahatların davam etdirilməsini və vətəndaş cəmiyyətinə keçilməsini nəzərdə tutur. Yəni birinci keçid dövründə sosializm cəmiyyətinin, dövlət iqtisadiyyatının, kommunist ideologiyasının xüsusiyyətlərini yaxşı bilmək və yeni iqtisadi münasibətlərə sosializm dönəmində əldə olunmuş nailiyyətlərin dağıdılmasına yol vermədən keçmək tələb olunurdusa, indi bazar iqtisadiyyatının özünü yaxşı mənimsəmək, sahibkarlığın xüsusi çəkisini artırmaq, orta təbəqəni möhkəmləndirmək və vətəndaş cəmiyyətinə keçidi təmin etmək üçün sosial-iqtisadi baza yaratmaq və bütün bu irəliləyişi siyasi və hüquqi müstəvidə təsbit etmək, açılan yeni imkanlardan maksimum səmərəli istifadə etmək tələb olunur. Prezident İlham Əliyev məhz belə bir missiyanı öz üzərinə götürmüşdür.

Heydər Əliyev dühasının fövqəladəliyi onda idi ki, o təkcə öz dövrünün nəbzini tutmaq və ölkəni ictimai-siyasi və sosial-iqtisadi keçid prosesinin birinci fazasından uğurla çıxarmaq missiyası ilə kifayətlənməyərək, vaxtında ikinci keçid fazasının da təməl daşlarını qoya bildi və ikinci fazada ölkəyə rəhbərlik edə biləcək yeni siyasi güc mərkəzini də özü yaratdı. Bəzi qonşu ölkələrdən fərqli olaraq Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin üstqurumu kimi ortaya çıxan siyasi dünyagörüşü və yeni tipli siyasi lider müxalifətdə deyil, iqtidar partiyasının öz daxilində yetişdi.

İlham Əliyevin siyasi platformasını, seçki kampaniyasında çıxışlarını və üçillik prezidentlik fəaliyyətini təhlil edərkən onun qələbəsini və uğurlarını təmin edən bəzi amillər xüsusi qeyd edilməlidir.

İlham Əliyev hələ prezident seçilməmişdən əvvəl də ölkədə gedən ictimai-siyasi proseslərin içərisində idi və öz siyasi liderlik keyfiyyətlərini və idarəçilik qabiliyyətini bir neçə istiqamətdə əməli işlə göstərmişdi. O, həm iqtisadiyyatımızın ən mühüm sahələrindən birinə rəhbərlik etmiş, həm siyasi mövqelərin aşkar mübarizə səhnəsi olan AŞPA-da Azərbaycanı yüksək səviyyədə təmsil etmiş, həm də bir deputat kimi öz seçicilərinin rəğbətini qazanmış, xalqla bağlılığını və xalqa arxalandığını işdə-əməldə sübut etmişdi. Rəhbərlik etdiyi istənilən sahədə, hətta əvvəllər siyasi və iqtisadi amil kimi heç kimin diqqətini cəlb etməyən idman sahəsində də dönüş yaradaraq, onu dövlətçilik və beynəlxalq nüfuz amilinə çevirməsi İlham Əliyevin qeyri-adi istedadından xəbər verirdi. Bir sözlə, İlham Əliyev prezident olmazdan xeyli əvvəl real siyasi qüvvə idi. Prezidentlik dövründə isə bu böyük potensialın realizasiyası üçün daha geniş meydan açıldı.

İlham Əliyevin mövqeyi sadəcə vədlər vermək deyil, real iş görmək mövqeyidir. O, ancaq doğrudan da həyata keçirilməsini planlaşdırdığı, elmi və praktik cəhətdən real olan fəaliyyət proqramı ortaya qoydu ki, bu da əhalidə ona olan inamı daha da gücləndirdi. İctimai şüur səviyyəsinin 90-cı illərin əvvəllərinə nisbətən xeyli yüksəlməsi daha vədlərlə spekulyasiyanın baş tutmasına imkan vermədi. Azərbaycan xalqının milli mentaliteti elədir ki, onu halal zəhməti ilə pul qazanmaq imkanı daha çox cəlb edir. Bu baxımdan İlham Əliyevin yeni müəssisələr tikilməsi, xarici investisiyanın daha geniş miqyasda cəlb olunması və 600 min iş yeri açılması haqqında dedikləri əhalidə böyük razılıq hissi ilə qarşılandı. Ötən müddət bu deyilənlərin sadəcə vəd deyil, real fəaliyyət proqramı olmasını təsdiq etdi. Qısa bir vaxtda 100 minlərlə iş yerinin açılması yeni rəhbərliyin ən böyük uğurlarından biridir və həm də uğurlar təkcə vədlərin icrasından ibarət deyil. Sosial-iqtisadi inkişaf strategiyası, sahibkarlığın inkişafı, regionlarda yeni infrastruktur layihələrinin həyata keçirilməsi, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərin kompüterləşdirilməsi ilə bağlı addımlar bu sırada xüsusi qeyd edilməlidir.





İlham Əliyevin məhz yeni dövrün yetirməsi olması, ruhən yeni münasibətlərə bağlılığı keçid dövründən sonrakı mərhələdə ona böyük uğurlar qazanmaq şansı verdi.

Heydər Əliyev ona məxsus olan qeyri-adi istedad, yeniliyi duymaq, dövrün nəbzini tutmaq kimi keyfiyyətlərə malik olsa da, hər halda əvvəlki dövrdə, əvvəlki idarəetmə sistemində, əvvəlki iqtisadi münasibətlər şəraitində yetişib formalaşmışdı. Yeni dövrün tələblərinə uyğunlaşmaq və dövləti, cəmiyyəti bu istiqamətdə yönəltmək üçün Heydər Əliyev keçmiş idarəçilik vərdişləri üzərində qələbə çalmaq, iş təcrübəsini daim yeniləşdirmək sahəsində böyük əzm göstərirdi və zahirən hiss olunmasa da bu yol böyük daxili dramatizmi olan bir yol idi. Bu qeyri-adi şəxsiyyət həm zaman üzərində, həm uzun müddət sədaqətlə xidmət etdiyi bir ideologiya üzərində qələbə çalmaq üçün böyük intellektual və iradi enerji sərf edirdi. İlham Əliyevin isə belə bir daxili mübarizəyə, öz üzərində qələbə üçün enerji məsrəfinə ehtiyacı yoxdur. Çünki o, artıq yeni zamanın, yeni ictimai-siyasi şəraitin yetirməsidir. Onun siyasi fəaliyyət təcrübəsi artıq yeni beynəlxalq münasibətlər və yeni iqtisadi sistem dövrünə təsadüf edir və İlham Əliyev bu yeni mühiti daxilən, içəridən mənimsəmək imkanına malikdir. Digər tərəfdən, İlham Əliyevlə bərabər bu yeni dövrün məhsulu olan bü-

töv bir komanda da yetişir ki, onlara bütün fəaliyyət məqamlarını diktə etməyə, hər böyük və kiçik məsələdə bələdçi olmağa, yuxarıdan tapşırıq verməyə xüsusi ehtiyac olmaya bilər. Yəni hər kəs öz sahəsində daha çox müstəqillik və yaradıcılıq göstərə bilər ki, bu da yeni idarəçilik sisteminə keçid üçün mühüm şərtdir.

Burada belə bir amil də nəzərə alınmalıdır ki, yeni dəyərlər sisteminə keçidi təmin etməli olan adamlar arasında son illərdə Avropa ölkələrində, ABŞ-da təhsil almış və Qərb dəyərlərini bilavasitə mənimsəmiş gənclərin olması keçid dövrünün ikinci fazasını daha tez həyata keçirmək şansı verir.

Müasirlik dedikdə, Avropa dəyərləri dedikdə demokratikləşmə, *plüralizm və s. ilə yanaşı*, həm də peşəkarlığın ön plana çəkilməsi, işçilərin siyasi fəallıq görüntüsünə görə yox, məhz peşəkarlıq xüsusiyyətlərinə görə seçilməsi nəzərdə tutulur. Bu baxımdan, Dövlət qulluğu haqqında qəbul edilmiş qanunun səmərəli surətdə həyata keçirilməsinə, işçilərin vahid test sistemi ilə seçilməsinə, kadr siyasətində əldə olunmuş böyük uğurlar kimi dəyərləndirməlidir.

Milli həmrəylik, milli birlik üçün yaranmış ictimai-siyasi şəraitin, imkanların reallaşdırılması üçün də məhz İlham Əliyevin siyasi mövqeyi böyük imkan açır. Əlbəttə, öz siyasi platforması bilavasitə vətəndaş həmrəyliyi üzərində quran partiyalar və namizədlər də var. Lakin təkcə bu ideya dövlət idarəçiliyi üçün kifayət olmadığından, bu məqamı öz platformasına onlarca mühüm komponentdən biri kimi daxil edən İlham Əliyevin mövqeyi məhz bu məsələdə də daha inandırıcı idi və xalq İlham Əliyevə səs verərkən həm də birliyə, həmrəyliyə səs verdi. Təbii ki, həmrəyliyə nail olmaq üçün qarşı tərəfdən də adekvat addımlar atmalı, radikal mövqelərdən geri çəkilərək konstruktiv tənqid mövqeyinə keçilməlidir.





Demokratik cəmiyyətdə müxalifətin olması dövlət quruculuğunun, iqtisadi quruculuğun, xarici və daxili siyasətin alternativ variantlarını işləyib hazırlamaqla həqiqi siyasi plüralizm atmosferinin formalaşmasına, insanlar üçün seçim imkanının yaranmasına şərait yaradır. Yəni hakimiyyətə gəlmək istəyən siyasi qüvvə öz mövqeyini ancaq qarşı tərəfin tənqidi (hətta təhqiri) üzərində deyil, özünün pozitiv fəaliyyət proqramı əsasında qurmalıdır.

Bu gün ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması üçün destruktiv yox, konstruktiv, total yox, lokal *müxalifətə* ehtiyac vardır. Yəni bütövlükdə hakimiyyətə, prezidentə və onun kursuna qarşı yox, ayrı-ayrı sahələr üzrə həyata keçirilən proqramlara alternativlərin hazırlanması, yeni ideyaların, yeni quruculuq modellərinin üzə çıxması çox vacibdir. Lakin təəssüf ki, müxalifətin çox vaxt qeyri-konstruktiv mövqe tutması nəticəsində quruculuq işlərinin və ideoloji fəaliyyətin bütün ağırlığı hakimiyyətin üzərinə düşür. Hakimiyyət isə bu ağırlığı təkbaşına qaldırmaq əzmində olduğunu sübut edir.

Prezident İlham Əliyevin dövlət başçısı kimi qətiyyətli mövqeyi və işə peşəkar münasibəti xarici siyasət sahəsində də özünü göstərir. Bir tərəfdən ABŞ və Avropa ölkələri ilə, digər tərəfdən də İslam ölkələri ilə sıx əməkdaşlıq və dostluq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycanın Şərq ilə Qərb arasında körpü rolunu oynamasını, mərkəzçi mövqeyini daha da möhkəmləndirir, əlaqələndiricilik missiyasını qaçılmaz edir. Azərbaycan, eyni zamanda Şimalla Cənub arasında münasibətlərin mərkəzində dayanır. Həm Rusiya ilə, həm də Türkiyə və İranla iqtisadi əlaqələr getdikcə genişlənir. İndi regionu nəinki Azərbaycansız təsəvvür etmək mümkün deyil, hətta ölkəmiz bölgənin, bütün Avrasiya məkanının aparıcı dövlətlərindən birinə çevrilmişdir.

Azərbaycanın beynəlxalq nüfuzunun və iqtisadi qüdrətinin artması Dağlıq Qarabağ probleminin müzakirələrində də sözümüzün daha kəsərli olmasına imkan yaradır. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini qətiyyətlə müdafiə edir və ölkəmizin hərbi büdcəsini və ordunun maddi-texniki bazasını ildən-ilə daha da möhkəmləndirməklə bu məsələdə güzəştə getmək niyyətimizin olmadığını nümayiş etdirir. Azərbaycan hökumətinin strukturundakı dəyişikliklər, xüsusən Hərbi Sənaye Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin yaradılması da bu sahədə uzunmüddətli planlardan xəbər verir. Prezident İlham Əliyev Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı nitqində bu kursun növbəti illərdə də davam etdiriləcəyini vurğulamışdır: "Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və gələn il biz buna nail olacağıq. Biz bu təzyiqləri davam etdirməliyik. Əgər Ermənistan tərəfi bu təzyiqləri görməsə və bu təzyiqlərdən ehtiyatlanmasa, Azərbaycanın artan imkanlarından narahat olmasa, onlar işğal olunmuş torpaqlardan çətin ki, öz xoşları ilə çıxsınlar... Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib istədiyinə nail olacaqdır". Son illərdə Azərbaycanda aparılan genişmiqyaslı islahatlar və həm siyasi, həm də sosial-iqtisadi sahələrdə qazanılan böyük uğurlar prezidentin bu sahədə dediklərinin reallığını əyani surətdə sübut edir.